İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə




www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir


İLAHİ
ƏDALƏT
USTAD ŞƏHİD
MÜRTƏZA MÜTƏHHƏRİ

بسم الله الرحمن الرحیم

# İLAHİ ƏDALƏT

:Müəllif

Şəhid Mürtəza Mütəhhəri

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ۵
İLAHİ ƏDALƏT ۱۱
KİTAB HAQQINDA ۱۱
İşarə ۱۱
İLAHİ ƏDALƏT ۱۳
MÜQƏDDİMƏ ۱۳
CƏBR VƏ İXTİYAR ۲۱
ƏDALƏT MƏSƏLƏSİ ۲۳
İŞLƏRİN YAXŞI VƏ PİSLİYİNİN ZATİ OLMASI ۲۵
ƏQLİN SƏRBƏSTLİYİ ۲۵
İLAHİ İŞLƏRİN HƏDƏF VƏ MƏQSƏDİ ۲۹
İXTİLAFLARIN BAŞLANĞICI ۳۳
ƏDALƏT, YAXUD TÖVHİD ۳۳
İSLAM KƏLAM ELMİNİN İSLAM FƏLSƏFƏSİNƏ TƏ’SİRİ ۴۱
ƏQLİ ŞİƏ MƏKTƏBİ ۴۱
FİQH ELMİ SAHƏSİNDƏ ƏDALƏT ۴۵
HƏDİS ƏHLİ İLƏ QİYAS ƏHLİNİN MÜBAHİSƏSİ ۴۷
ŞİƏLİKDƏ FİQH ÜSLUBU ۴۹
İCTİMAİ-SİYASİ DAİRƏLƏRDƏ ƏDALƏT ۵۱
ƏSAS QAYNAQ ۵۳
BİRİNCİ FƏSİL: İNSANİ VƏ İLAHİ ƏDALƏT ۶۴
İŞARƏ ۶۴
YOL VƏ ÜSLUBLAR ۷۲
?ƏDALƏT NƏDİR ۸۰

İRADLAR ٩٢
ÜSULİDİNDƏ ƏDALƏT ٩۶
ƏDALƏT VƏ HİKMƏT ٩٨
DUALİZM ١٠٠
ŞEYTAN ١١٠
FƏLSƏFİ BƏDBİNLİK ١١٨
?NAZ YA E’TİRAZ ١٢٩
İKİNCİ FƏSİL: MƏSƏLƏNİN HƏLLİ ١٣۶
İŞARƏ ١٣۶
İSLAM FƏLSƏFƏSİ ١٣٧
YOL VƏ MƏSLƏKLƏR ١٣٩
AYRI-SEÇKİLİKLƏR ١۴٢
?DÜNYANIN QURULUŞU ONUN ZATIDIRMI ١۴٨
XOŞ VƏ ƏBƏDİ XATİRƏ ١۵۴
!BURADA AYRI-SEÇKİLİKDƏN YOX, FƏRQLİLİKDƏN DANIŞMAQ LAZIMDIR ١۵٨
FƏRQLƏRİN SİRRİ ١۶٠
ŞAQULİ SİSTEM ١۶٢
EN DAİRƏSİ VƏ YA ÜFÜQİ SİSTEM ١۶٨
İLAHİ QANUN ١٧۴
?QANUN NƏDİR ١٧٨
İSTİSNALAR ١٨٠
QƏZA-QƏDƏR VƏ CƏBR MƏSƏLƏSİ ١٨٣
XÜLASƏ ١٨٧
ÜÇÜNCÜ FƏSİL: ŞƏRLƏR ١٨٨
İŞARƏ ١٨٨
ÜÇ İSTİQAMƏTLİ BƏHS ١٨٩

BİZİM ÜSLUBUMUZ ١٨٩
DUALİZM MƏSƏLƏSİ ١٩١
!ŞƏR YOXLUQDUR ١٩٣
ŞƏR NİSBİDİR ١٩٩
ŞƏRLƏR – ƏDALƏT PRİNSİPİ BAXIMINDAN ٢٠٨
DÖRDÜNCÜ FƏSİL: ŞƏRLƏRİN FAYDASI ٢١٢
İŞARƏ ٢١٢
FƏRQLƏNDİRMƏ PRİNSİPİ ٢١٥
ÜMUMİ QURULUŞ ٢١٩
ÇİRKİNLİK GÖZƏLLİYİN AYNASIDIR ٢٢١
?CƏMİYYƏT, YOXSA FƏRD ٢٢٥
TUTUMLARIN FƏRQİ ٢٢٧
BƏDBƏXTLİKLƏR XOŞBƏXTLİKLƏRİN ANASIDIR ٢٣٣
ÖVLİYALAR ÜÇÜN BƏLA ٢٤١
BƏLALARIN TƏRBİYƏVİ TƏ’SİRİ ٢٤٣
ALLAHIN TƏQDİRİNƏ RAZILIQ ٢٤٧
BƏLA VƏ NE’MƏT NİSBİDİR ٢٤٩
ZİDDİYYƏTLƏR TOPLUMU ٢٥٧
ZİDDİYYƏTİN FƏLSƏFİ ƏSASI ٢۶٣
ÜMUMİ NƏTİCƏ ٢۶٣
BEŞİNCİ FƏSİL: ÖLÜM-İTİMLƏR ٢٧١
İŞARƏ ٢٧١
ÖLÜM ANLAYIŞI ٢٧٢
ÖLÜM QORXUSU ٢٧٢
ÖLÜM NİSBİDİR ٢٧۵
DÜNYA RUH ÜÇÜN ANA BƏTNİ KİMİDİR ٢٧۵

!DÜNYA İNSANLIQ MƏKTƏBİDİR ۲۷۷
E’TİRAZIN KÖKÜ ۲۸۱
ÖLÜM HƏYATIN GENİŞLƏNMƏSİDİR ۲۸۵
ALTINCI FƏSİL: AXİRƏT CƏZALARI ۲۹۱
İŞARƏ ۲۹۱
ƏMƏLİN CƏZASI ۲۹۴
İKİ DÜNYA ARASINDAKI FƏRQLƏR ۲۹۶
İKİ DÜNYA ARASINDAKI ƏLAQƏ ۳۰۶
ÜÇ NÖV CƏZA ۳۱۰
TƏNBİH VƏ İBRƏT ۳۱۰
DÜNYA CƏZALARI ۳۱۴
AXİRƏT ƏZABI ۳۱۸
USTADIN XATİRƏSİ ۳۲۷
NƏTİCƏ ۳۳۰
YEDDİNCİ FƏSİL: ŞƏFAƏT ۳۳۴
İŞARƏ ۳۳۴
İRAD ۳۳۶
QANUNUN ZƏİFLİYİ ۳۳۸
ŞƏFAƏTİN NÖVLƏRİ ۳۴۲
QANUN POZUNTUSU ۳۴۴
QANUNUN QORUNMASI ۳۴۷
RƏHBƏRLİK ŞƏFAƏTİ ۳۴۸
BAĞIŞLANMA ŞƏFAƏTİ ۳۵۴
RƏHMƏTİN CAZİBƏSİ ۳۵۴
PAKLIQ PRİNSİPİ ۳۵۴
SAĞLAMLIQ PRİNSİPİ ۳۵۶

ÜMUMİ RƏHMƏT ---------- ۳۵۶
BAĞIŞLANMA İLƏ ŞƏFAƏTİN ƏLAQƏSİ ---------- ۳۵۸
ŞƏFAƏTİN ŞƏRTLƏRİ ---------- ۳۶۰
ŞƏFAƏT ALLAHA MƏXSUSDUR ---------- ۳۶۳
TÖVHİD VƏ TƏVƏSSÜLLƏR ---------- ۳۶۵
İRADLARA CAVAB ---------- ۳۶۷
SƏKKİZİNCİ FƏSİL ---------- ۳۷۰
İŞARƏ ---------- ۳۷۰
GİRİŞ ---------- ۳۷۲
۱. MÖVZUNUN ÜMUMİ CƏHƏTİ ---------- ۳۷۶
۲. İSLAMDAN BAŞQA HEÇ BİR DİN QƏBUL DEYİL ---------- ۳۸۰
İMANSIZ SALEH ƏMƏL ---------- ۳۸۶
İKİ TƏFƏKKÜR TƏRZİ ---------- ۳۸۸
ÜÇÜNCÜ MƏNTİQ ---------- ۳۹۰
DIRNAQARASI ZİYALILAR ---------- ۳۹۰
İFRATÇILIQ ---------- ۴۰۰
İMANIN DƏYƏRİ ---------- ۴۰۶
KÜFRÜN CƏZASI ---------- ۴۰۶
TƏSLİMİN DƏRƏCƏLƏRİ ---------- ۴۰۶
HƏQİQİ REGİONAL İSLAM ---------- ۴۱۲
SAF NİYYƏT ƏMƏLİN QƏBUL OLMA ŞƏRTİDİR ---------- ۴۱۶
KEYFİYYƏT, YOXSA KƏMİYYƏT? ---------- ۴۲۶
BƏHLULUN MƏSCİDİ ---------- ۴۲۹
ALLAH VƏ AXİRƏTƏ İMAN ---------- ۴۲۹
NÜBUVVƏT VƏ İMAMƏTƏ İMAN ---------- ۴۴۱
ZƏRƏR-ZİYANA UĞRAMA ---------- ۴۴۷

SIFIRDAN AŞAĞI ---------- ۴۵۷
ACİZ VƏ MÜSTƏZƏFLƏR ---------- ۴۵۷
İSLAM FİLOSOFLARI BAXIMINDAN ---------- ۴۶۹
MÜSƏLMANLARIN GÜNAHLARI ---------- ۴۷۱
TƏKVİNİ VƏ ŞƏRTİ ŞƏRTLƏR ---------- ۴۸۰
XÜLASƏ VƏ NƏTİCƏ ---------- ۴۸۸
Mündəricat ---------- ۴۹۲
Haqqında mərkəzi ---------- ۵۰۲

# İLAHİ ƏDALƏT

## KİTAB HAQQINDA

Kitabın adı:İlahi ədalət

Müəllif:Ustad Mürtəza Mütəhhəri

Tərcümə edən: Ağabala Mehdiyev

Naşir:Şəhriyar

Çap tarixi:۲۰۰۵

Səhifələrin sayı:۲۵۶

Çap növbəsi:Birinci

Tirajı:۳۰۰۰

səh:۱

## İşarə

## İLAHİ ƏDALƏT

Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də» haqqa-ədalətə boyun qoyaraq (Haqqa tapınaraq) O qüvvət və hikmət sahibindən (başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər».(١

(Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!»(٢»

Biz göyləri, yeri və onların arasında olan hər şeyi yalnız haqq-ədalətlə (hər şeyi yerli-» (yerində bir-birinə uyğun şəkildə) yaratdıq».(٣

Allahın izni olmadan (qiyamətdə) onun yanında (hüzurunda) kim şəfaət (bu və ya ...» (digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər?...»(٤

Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu...» (görəcəklər...»(٥

İman gətirib yaxşı əməllər edənlərə gəldikdə isə, Biz (o cür) yaxşı işlər görənlərin» (mükafatını zay etmərik!»(۶

## MÜQƏDDİMƏ

Yaşadığımız dövr, dini və e’tiqadi baxımdan hamı üçün, xüsusilə gənc nəsil üçün iztirab, böhran və çaşqınlıq əsridir. Dövrü şərait bir sıra problemlər yaratmış, .unudulmuş köhnə sualları bir daha ortaya atmışdır

Görəsən biz bu şəkk və tərəddüdlər burulğanından, şübhə və suallar hücumundan ?narahat olaraq təəssüflənməliyikmi

Mənim fikrimcə bu barədə nigaran olmağa heç bir əsas yoxdur. Şəkk yəqinin, sual vüsalın, iztirab isə rahatlıq və asayişin müqəddiməsidir. Şəkk-şübhə sabitlik üçün münasib mənzil və dayanacaq olmamasına baxmayaraq, həqiqətə çatmaq üçün yaxşı və lazımı keçiddir. İnsanları bu qədər təfəkkür və yəqinliyə də’vət etmiş islam dini dolayı yolla bəşəriyyətin ilkin vəziyyətinin nadanlıq və şəkk olmasını, onun düzgün .təfəkkür və düşüncə ilə yəqinliyə çatmalı olduğunu bildirir

---

۱- [۱] Ali-İmran-۱۸.

۲- [۲] Ər-Rəhman-۷.

۳- [۳] Hicr-۸۵.

۴- [۴] Bəqərə-۲۵۵.

۵- [۵] Kəhf-۴۹.

۶- [۶] Kəhf-۳۰.

Filosoflardan biri belə deyib: Bizim sözlərimizin yeganə faydası səni şəkk və tərəddüdə .salaraq yəqinlik dalınca göndərmək də olsa, kifayətdir

Şəkk-şübhə iztirab və narahatçılıqdır, amma bütün rahatlıqlar da bu narahatçılıqlardan üstün deyildir. Heyvanlar şəkk etmir, amma sizcə onun bu şəkk etməməsi heyvanın yəqinliyə çatması deməkdirmi?! Mə'lum məsələdir ki, bu qisim rahatlıq şəkk-şübhədən də aşağı dərəcəli rahatlıqdır. Amma yəqin əhlinin rahatlığı .bunun əksinə olaraq, şəkkdən üstün olan rahatlıqdır

Biz hələ Allahdan ilahi feyz və ilham alan bə'zi insanlardan danışmırıq. Yəqin əhli şəkk və tərəddüd mərhələsini arxada qoyaraq iman və yəqin dərəcəsinə çatmışdır. Buna görə də əsrimizin şəkk-şübhə əsri olması zəmanənin elmi-ictimai süqutuna dəlalət etmir. Əslində bu qisim şəkk cəmiyyətdə daha çox müşahidə edilən sadəlövhlük .rahatlığından üstün olmasa da, aşağı deyildir

Bu barədə təəssüf doğuran məsələ şəkkin insanı araşdırma və tədqiqat aparmağa sövq etməməsi və ya ictimai şəkk-şübhələrin bə'zi insanları cavab axtarıb tapmaq .məqamına vadar edə bilməməsidir

* * *

Əlimə qələm alaraq kitab və ya məqalə yazmağa başladığım son iyirmi ildə, bütün yazılarımda düşündüyüm yeganə şey yaşadığımız əsrdə islami məsələlər barəsində .yaranmış sual və şübhələri həll etmək olub

Yazılarımın bə'zisi fəlsəfi, bə'zisi ictimai, bə'zisi əxlaqi, bə'zisi isə fiqhi və ya tarixidir. Həmin yazıların mövzuları bir-birindən tamamilə fərqli olsalar da, onların hamısının .ümumi hədəfi yalnız və yalnız bir şey olub

Zühurundan on dörd əsrdən artıq vaxt keçməsinə baxmayaraq, müqəddəs islam dini hələ də tanınmaz qalmış bir dindir. Bu dinin həqiqətləri uzun müddət xalq arasında təhrif olunmuş formalarda əks olunub. Bə'zi şəxslərin dindən qaçmasının əsas səbəbi də bu ad altında aparılmış səhv tə'limlərdir. Bu müqəddəs dinə hal-hazırda da ən çox zərbə vuranlar zahirdə onu himayə etmək istəyən iddiaçılardır. Bir tərəfdən qərb

imperializminin gizli və aşkar ünsürlərlə hücumu, digər tərəfdən də əsrin islam hamiləri iddiaçılarının məs’uliyyətsizlikləri bu dinin müxtəlif sahələrdə ideoloji hücumlara mə’ruz qalmasına səbəb olub. Buna görə də mən öz bacarığım .çərçivəsində bu sahədə əlimdən gələni etmək fikrindəyəm

Başqa yazılarımda qeyd etdiyim kimi, bir daha təkrar edirəm ki, bizim dini nəşriyyatlarımız nəzm baxımından xoşagəlməz vəziyyətdədir. Hələ bu barədə üzdəniraq və rüsvayçı yazılardan danışmıram. Bizim faydalı və xeyirli yazılarımız da nəşriyyatlarımız kimidir, yə’ni onlar da ehtiyacların

mülahizə olunması və tələbatın qruplaşdırılması əsasında hazırlanmayıb. Hamı öz ağlı ilə faydalı hesab etdiyi mövzuları yazaraq çap etdirir, halbuki elə lazımı və zəruri .məsələlər də vardır ki, onların barəsində heç bir şey yazılmır

Bu məsələni iqtisadiyyatı ictimai tələbata əsaslanmayan, əhalisi istədiyi şeyi istehsal, idxal və ixrac edən ölkəyə bənzətmək olar. Başqa sözlə desək, burada hər şey təsadüfün ixtiyarına buraxılıb. Mə'lumdur ki, belə bir vəziyyətdə bə'zi mallar tələbatdan çox istehsal və idxal edilərək istifadəsiz qalacaq və bə'zi mallar isə .tapılmayacaq

Məsələnin həlli nədədir? — Əlbəttə sualın cavabı çox sadədir. Bu işin çarəsi .tədqiqatçılar, müəlliflər və oxucuların birgə əməkdaşlıq və həmkarlığındadır

Amma təəssüflər olsun ki, biz öz düşüncə və davranışımıza o qədər vurğun oluruq ki, hər birimiz ancaq öz getdiyimiz yolu düzgün sayırıq. Mən bu təklifi qələm əhlindən bə'zilərinə demişəm, amma onlar bu məsələyə müsbət yanaşmaq əvəzinə, inciyərək .bu fikri öz yaradıcılıqlarına qarşı bir növ maneə kimi qiymətləndiriblər

Mən heç vaxt öz seçdiyim və barəsində yazılar yazdığım mövzuların ən lazımı və aktual mövzu olmasını iddia etməmişəm. Yeganə iddiam budur ki, öz iste'dad və qabiliyyətim çərçivəsində islami məsələlər barəsindəki problemləri həll etməyə, həqiqətləri olduğu kimi açıqlamağa və əgər əməli azğınlıqların qarşısını ala bilmirəmsə də, heç olmasa fikri və ideoloji azğınlıqlarla mübarizə aparmağa, xüsusilə islam düşmənlərinin əllərində bəhanə olan məsələlərin aydınlaşdırılmasına çalışmışam. Bu işdə heç olmasa «daha əhəmiyyətli və daha zəruri» mövzuların araşdırılması .məsələsinə üstünlük vermişəm

Son üç-dörd ildə vaxtımın çox hissəsini islamda qadın məsələləri və onların hüquqları ilə bağlı mövzulara sərf etmişəm. Onların çoxu bə'zi qəzet və jurnallarda məqalə .şəklində və ya bə'zi nəşriyyatlarda kitab formasında çap edilmişdir

Vaxtımı bu işə sərf etməyimin əsas səbəbi bu sahədəki problemlərin təkcə əməli azğınlıqlara deyil, ideoloji və elmi sahələrə də nüfuz etməsi ilə bağlıdır. Bir qrup şəxs öz çıxışlarında, təhsil mərkəzlərində, kitab və məqalələrdə islamda qadının hüquq və

vəzifələri barəsindəki nəzərlərini səhv şəkildə irəli sürərək onlardan islama qarşı təbliğ vasitəsi kimi istifadə edirdi. Necə deyərlər «özləri öldürüb, özləri də yas tuturdular». Təəssüflər olsun ki, müsəlman xalqımız bir çox mövzular kimi, bu barədə də islamın məntiqi ilə qətiyyən tanış deyillər. Məhz buna görə də belə üzdəniraq

müəlliflər kişi və qadınlığından asılı olmayaraq, bir çoxlarını islama qarşı bədbin edə bilmişlər. Onların islam məntiqinə irad tutmasının qeyri-mümkünlüyünü və bu dinin qadın və onun hüquqları barəsindəki sarsılmaz məntiqinin, onun ilahi və qeyri-bəşəriliyinin dəlili olmasını başa düşmələri üçün həmin məsələni açıqlamaq qərarına .gəldim

* * *

Qeyd etməliyik ki, bu kitabın mətləbləri «İrşad» islam mədəniyyət mərkəzindəki bir neçə çıxışımın kağız üzərinə köçürülərək bir qədər genişləndirilmiş formasıdır. Mə’lum məsələdir ki, şifahi çıxış formasında söylənən nitqin kitab halına salınması olduqca çətin məsələdir, xüsusilə mənim çıxışlarım üzərində yenidən düzəlişlər aparılmasa, onlar heç cür çapa yararlı olmayacaq. Bundan əlavə, çap edilməsi planlaşdırılan çıxışların mətləblərinin olduğu kimi saxlanılması ilə kifayətlənmək də olmaz. Buna görə çapdan əvvəl, mətni bir daha oxuyaraq ona bir çox mətləbləri artırdım, ədəbi, bədii və .tərtibi baxımından da bə’zi düzəlişlər etdim

Kitabdakı mətləblər barədə onu deyə bilərəm ki, mövzuların hamısı diqqətlə seçilib və onlardan heç biri təsadüfi olaraq qələmə alınmayıb. Barəsində söhbət edilmiş bütün məsələlər müxtəlif qruplar tərəfindən, xüsusilə gənclərlə söhbət etdiyim zaman irəli sürülmüş məsələlərdir. Əslində kitabdakı mətləblər bu vaxta qədər məndən bu mövzular barəsində dəfələrlə soruşulan məsələlərin cavabıdır. Bu barədə olan suallar .o qədər çox idi ki, məni onların hamısına ümumi bir cavab hazırlamaq fikrinə saldı

Bu kitabda gətirilən mövzular həm əqli, həm də nəqli cəhətlərdən araşdırılıb. Təbii ki, nəqli cəhətlərdə Qur’ani-kərimin ayələrinə, Peyğəmbər (s) və İmamlardan (ə) nəql edilmiş hədislərə istinad edilib. Amma əqli cəhətdən araşdırmalar apararkən iki yoldan birini — fəlsəfi və ya kəlami sahələrədən birini seçməkdən başqa çarə yox idi. Mən bu barədə kəlam alimlərinin dəlil mənbələrini düzgün hesab etmədiyim və islam filosoflarının üslubunu daha tutarlı saydığım üçün birincidən tamamilə çəkinərək ikincidən istifadə etdim. Əlbəttə, yeri gələndə kəlam alimlərinin və hətta bə’zən hədis əhli və təcrübi qaydaların mənbələrinə də toxunmuşam. Məsələ ilə yaxından tanış olanlar bilirlər ki, islam filosofları kəlam alimlərinin əksinə olaraq, «İlahiyyat»

məsələlərində «ədalət» adlı xüsusi bölmə və fəsil açmayıblar. Filosofların bu barədəki fikirlərini onların digər mövzulardakı bəhslərindən çıxarmaq lazımdır. Buna görə də bu .mövzuda bəhs etmək mənim üçün elə də asan olmadı

İndiyə kimi filosofların əsərlərində «İlahi ədalət» məsələsini birbaşa irəli sürərək bu barədə fəlsəfi üsulla araşdırma aparmış müstəqil fəsil və ya bölməyə rast gəlməmişəm. İbni Nədim «Əl-fehrest» kitabında belə yazır: Yəqub ibni İshaq Kəndi İlahi ədalət barəsində kitab yazıb. Həmin kitabın hal-hazırda mövcud olub-olmaması barəsində mə'lumatım yoxdur. Həmçinin, o kitabın fəlsəfi, yaxud kəlami üslubda olmasından da xəbərsizəm. Xacə Nəsirəddin Tusi kimi bə'zi filosoflar öz yazılarında bu məsələ barəsində kəlam alimlərinin üslubu ilə bəhs ediblər. Amma onların fəlsəfi fikirlərini nəzərə alsaq, deməliyik ki, həmin açıqlamalar isbati deyil, bir növ müraciət və .qane etmək xarakterli olub

Kitabda adı çəkilən Yəqub ibni İshaq Kəndi çox qədim islam filosoflarındandır və o, ərəb soylu olduğu üçün ərəb filosofu ləqəbi ilə məşhurlaşmışdır. O, adətən öz əsərlərində fəlsəfi üsullarla bəhs etmişdir və buna görə də onun kəlami üslubda nə isə .bir fikir söyləməsini məqbul saymırlar

Son vaxtlar alimlərdən biri İbni Sinanın bu barədə kitab yazdığını söyləyirdi. Amma .təəssüflər olsun ki, mən hələ də həmin kitabı əldə edə bilməmişəm

Kəlam alimləri isə filosofların əksinə olaraq, bir sıra dini və tarixi səbəblərdən «ilahi ədalət» məsələsini öz bəhslərinin sərlövhəsində yerləşdiriblər. Ədalət məsələsi kəlam .elmində elə əsasa çevrilib ki, hətta bə'zi qruplar tarixdə bu adla məşhur olublar

## CƏBR VƏ İXTİYAR

Tarixdən mə'lum olduğu kimi, kəlam bəhsləri hicri tarixi ilə birinci əsrin ortalarından başlanıb. Özü də, deyəsən kəlam bəhslərinin ən qədimi «cəbr və ixtiyar» məsələsidir. Cəbr və ixtiyar məsələsi ilk növbədə insani, sonra isə ilahi və təbii məsələdir. Mövzu insan, yə'ni insanın azad və ya məcbur olmasından bəhs etdiyi üçün insani bir məsələ hesab olunur. Amma digər tərəfdən, məsələnin əks nöqtəsi Allah və ya təbiət olduğu üçün, yə'ni ilahi iradə, qəza-qədər (təqdir) və ya təbiətin icbari amilləri, səbəb-nəticə qanununun insanı azad buraxması və ya məcbur etməsi olduğu üçün ilahi, yaxud təbii məsələdir. Hər halda bu mövzu ümumi olaraq insan müqəddəratı ilə bağlı bir məsələdir. Təfəkkür mərhələlərindən birinə daxil olan, amma bu məsələni irəli sürməyən cəmiyyət tapmaq mümkün olmadığı kimi, az da olsa elmi və fəlsəfi

düşüncəyə malik olan, lakin bu məsələ barədə düşünməyən bir insan da tapmaq olmaz.

səh:٧

Bir sıra səbəblər nəticəsində, elmi təfəkkür mərhələsinə daxil olmuş islam cəmiyyətinin istər-istəməz irəli sürdüyü ilk məsələ cəbr və ixtiyar məsələsi olub. Bu məsələnin, hicrətin birinci əsrində belə tez irəli sürülməsinin səbəbini başqa şeylərdə axtarmağımıza heç bir zərurət yoxdur. Bu məsələnin islam dünyasında qarşıya çıxması çox təbii bir iş idi və əks təqdirdə belə bir sual yaranardı: «Necə olub ki, həmin cəmiyyətdə bu məsələyə diqqət yetirilməyib.»

İslam ümməti özünəməxsus ideoloji əsaslara malik olan bir cəmiyyətdir, müsəlmanların dini kitabı olan Qur'anda cəbr-ixtiyar, ilahi qəza-qədər və əməllərin cəzası ilə bağlı məsələlər gətirilmişdir. Və təbiidir ki, müsəlmanların Qur'an ayələrində dərindən düşünmələri və onun mə'nalarına diqqət yetirmələri, istər-istəməz cəbr-ixtiyar məsələsinin ortaya çıxması ilə nəticələnməli idi.

## ƏDALƏT MƏSƏLƏSİ

Cəbr-ixtiyar məsələsinin araşdırılması «ədalət» məsələsinin də qarşıya çıxmasına səbəb oldu.

Çünki, bir tərəfdən ixtiyar və ədalət, digər tərəfdən isə cəbr və ədalətsizlik arasında birbaşa əlaqə vardır, yə'ni dini vəzifə, cəza və mükafat yalnız ixtiyar olan yerdə mə'na kəsb edir. İnsan iradə azadlığı və ixtiyara malik olmayıb, ilahi iradə və ya təbii amillərin tə'siri altında məcburiyyətdə olsa artıq, şər'i vəzifə, mükafat və cəza heç bir mə'na daşımayacaq.

İslam kəlam alimləri iki dəstəyə bölünüblər. Elə ilk əvvəllərdən Mö'təzilə adlandırılan qrup ədalət və ixtiyar tərəfdarı, sonralar Əş'ərilər adlandırılan «hədis əhli» isə cəbr və icbar tərəfdarı olublar. Əlbəttə müxalif qruplar ilahi ədaləti açıq-aşkar inkar etməyiblər, çünki hər iki dəstənin e'tiqad bəslədiyi Qur'ani-kərim, zülmü Allahdan qətiyyətlə rədd edərək Onun ədalətli olmasını sübuta yetirib. Onlar ilahi ədalət məsələsini xüsusi tərzdə təfsir edərək deyirlər ki, ədalət əvvəlcədən vəsf edilərək Allahın işləri üçün me'yar kimi müəyyənləşdirilməsi mümkün olan bir həqiqət deyil; ümumiyyətlə Allahın işləri üçün me'yar tə'yin etmək Onun üçün vəzifə müəyyənləşdirmək və Haqqın iradəsini məhdudlaşdırmaq deməkdir; məgər Haqqın işləri üçün qanun fərz edərək həmin qanunu Ona və Onun işlərinə hakim etmək

olarmı? Bütün qanunlar onun məxluqudur və O, mütləq hakimdir, hər bir tabeçilik və hakimlik müqəddəs zatın mütləqliyinə ziddir. İlahi zatın ədalətli olmasının mə’nası, Onun əvvəlcədən müəyyənləşdirilmiş «ədalət qanunlarına» tabe olması demək deyil; əksinə Onun ədalətli olması Onun ədalət mənbəyi olması deməkdir; «O, ədalətli iş görər» deyil, «ədalət

Onun etdikləridir» demək lazımdır. Ədalət və zülm onun işlərindən sonrakı və onların əsasında müəyyənləşdirilən bir şeydir. Ədalət, Allahın işlərinin me'yarı deyil, Allahın «.işləri ədalətin meyarıdır. Necə deyərlər: «Xosrov nə etsə şirindir

Ədalət tərəfdarı olan Mö'təzilə isə belə deyir: «Ədalət, özü bir həqiqətdir və Allah həkim və adil olduğu üçün Öz işlərini ədalət me'yarları əsasında həyata keçirir. Biz işlərin zatına nəzər saldıqda, həmin işin ilahi zatın təkvini və təşri'i iradəsinə bağlılığı nəzərə alınmadan görürük ki, onların bə'ziləri zati baxımdan digərlərindən fərqlənir. Məsələn, bə'zi işlər, o cümlədən xeyirxah adamın mükafatlandırılması öz-özlüyündə ədalətli, cəzalandırılması isə zülmdür. Deməli, işlər öz zatlarında bir-birlərindən fərqli olduqları və Allah-taalanın müqəddəs zatı mütləq xeyir, kamal, hikmət və ədalət olduğu üçün O, .öz işlərini ədalət me'yarları ilə müəyyənləşdirir

## İŞLƏRİN YAXŞI VƏ PİSLİYİNİN ZATİ OLMASI

Burda təbii olaraq, qarşıya digər bir məsələ çıxır. Daha doğrusu ədalət məsələsini bir qədər də genişləndirərək «gözəllik və qəbahət»in zati olub-olmamasını aydınlaşdırmaq lazım gəlir. Görəsən işlər zati gözəllik və ya zati qəbahətliyə malikdirlərmi? Məsələn düzlük, əmanətdarlıq, yaxşılıq və bu kimi işlər öz zatlarında gözəl və zəruri olan işlər sayılırlarmı? Yaxud yalan, xəyanət, xəsislik və buna bənzər sifətlər çirkin və qəbahətdirmi? Görəsən yaxşılıq və bu kimi bəyənilən sifətlər gerçək və zati sifətlərdir və ümumiyyətlə hər bir iş onu görənin kimliyindən və xarici şəraitindən asılı olmayaraq, bu sifətlərdən hansı birinəsə mənsub olaraq onun ziddindən uzaqdır, .yoxsa bunların hamısı şərtidir

## ƏQLİN SƏRBƏSTLİYİ

İşlərin zati sifətlərindən söz getdiyi üçün, istər-istəməz ağıl və onun bu sifətlərin kəşf edilməsindəki sərbəstliyi məsələsi də ortaya çıxır. Görəsən insan ağlı şeylərin gözəllik və qəbahətliyini müstəqil şəkildə dərk edərək həmin sifətləri bir-birindən ayırd edə bilir, yoxsa həmin işdə şəriətin köməyinə möhtacdır? Bu səbəbdən də gözəllik və qəbahətin zatiliyi məsələsi islam terminalogiyasında «gözəllik və qəbahətin əqliliyi» kimi .ifadə olunmuşdur

Mö’təzilə firqəsi tam qətiyyətlə bu məsələnin əqli olmasının tərəfdarıdır. Onlar insan ağlının müstəqil və sərbəst olması məsələsini irəli sürərək deyirlər ki, biz işlərin zati baxımdan bir-birlərindən fərqlənməsini aşkar

şəkildə dərk edirik; həmçinin ağlımız şəriətin köməyi olmadan bu aşkar həqiqətləri bir-birindən ayırd edə bilir.

Əş’ərilər isə ədalətin zati sifət olmasını inkar etdikləri kimi, gözəllik və qəbahətin zati və əqli olmasını da inkar edirlər. Onlar əvvəla, gözəllik və qəbahəti nisbi, mühit və zəmanənin xüsusi şəraitinə tabe və bir sıra təqlid və təlqinlərin tə’siri altında olan şey hesab edirlər. İkinci, əqlin gözəllik və qəbahəti tanımaq üçün şəriətin yol göstərməsinə möhtac olduğunu bildirirlər.

Əş’ərilər müstəqil əqli, başqa sözlə desək, əqlin müstəqilliyini qəbul etmədikləri və Mö’təzilə firqəsinin insan əqlinin şəriətin köməyi olmadan gözəllik və qəbahətin dərk edə bilməsi nəzəriyyəsini səhv hesab etdikləri üçün, bu iddia ilə çıxış edirdilər ki, biz «ədalət», «zülm», «yaxşı», «pis» və bu kimi şeylərin nə olmalarını şəriətdən götürməli və həmin məsələlərdə yalnız islam sünnəsinə tabe olmalıyıq. Onlar özlərini də «sünnə əhli» və ya «hədis əhli» adlandırırdılar. Əş’ərilər bu addan istifadə edərək xalq arasında özlərinə güclü bir ictimai dayaq da yarada bildilər. Belə ki, onlarla Mö’təzilə arasında əqli müstəqilliyin qəbul edilib-edilməməsi üstündə olan ziddiyyət, xalq tərəfindən sünnə və hədislə əql arasındakı ziddiyyət kimi qiymətləndirilirdi. Məsələnin xalq tərəfindən belə qiymətləndirilməsi Əş’ərilərin ictimai bazalarının güclənməsinə, Mö’təzilə firqəsinin isə zəifləməsinə səbəb oldu.

Əslində Mö’təzilə firqəsi sünnəyə heç vaxt e’tinasız yanaşmamışdı, amma Əş’ərilərin özlərinə belə bir ad seçməsi və Mö’təzilə ardıcıllarını öz tərəf müqabilləri kimi tanıtdırmaları onların nüfuzdan düşməsinə səbəb oldu. Mö’təzilə firqəsinin üçüncü əsrin əvvəllərində xalq kütləsi arasında məğlubiyyətə uğramasında bu amilin rolu inkaredilməzdir. Bu sü’ni anlaşılmamazlıq elə bir həddə çatıb ki, hətta şərqşünas və islamşünasların bə’ziləri bilərəkdən və ya bilmədən Mö’təzilə firqəsini «sünnə əleyhidarı olan ziyalılar» kimi tanıtdırırlar. Amma məsələdən xəbərdar olanlar bilirlər ki, Mö’təzilə və Əş’ərilər arasında olan ziddiyyətlərin, onların islam dininə bağlılıqları ilə heç bir əlaqəsi yoxdur. Əslində Mö’təzilə ardıcılları islama Əş’ərilərdən daha çox bağlı və ürəkyandıran olublar.

Adətən ziyalı hərəkatları tamamilə saf niyyətli olsa da belə, ibadət və itaət iddiaçıları

.müqabilində avam kütlələrin ittihamları ilə qarşılaşmalı olurlar

Mö’təzilə ilə Əş’ərilər arasındakı ziddiyyətlər, əqlin haqqı və onun ədalətlə bağlı məsələləri barədə başlanmasına baxmayaraq, həmin bəhs sonralar «tövhid» məsələlərinə də sirayət etdi. Mö’təzilə həmin məsələdə də əqlə

müdaxilə etmək haqqı verir, Əş'ərilər isə bu mövzuda da hədislərin zahirinə tabe .olmağı zəruri sayırdılar. Bu barədə gələcək bəhslərdə geniş söhbət açacağıq

## İLAHİ İŞLƏRİN HƏDƏF VƏ MƏQSƏDİ

İndi növbə kəlam elminin mühüm bəhslərindən olan digər bir məsələyə çatır. Əvvəlki bəhslərdən yaranan həmin məsələ də Allah-taalanın işlərinin hansı hədəf və məqsəd .daşımasından söhbət açır

Bildiyimiz kimi, insanlar gördükləri işlərdə müəyyən hədəf və məqsədlər nəzərdə tuturlar. İnsanın hər bir işində bir «üçün və görə» yatıb. Nə üçün dərs oxuyursan? Bilikli və bacarıqlı olmaq üçün. Nə üçün işləyirsən? Gəlir əldə edərək məişətimi tə'min etmək üçün. Beləliklə, hər bir «niyə, nə üçün?»ün qarşısında bir «üçün və görə» durur. İnsanın işlərini mə'nalı edən də məhz həmin «üçün»lərdir. Ağıla batan, hədəfə malik olan, yə'ni xeyir və mənfəət üçün yerinə yetirilən hər bir iş mə'nalı hesab edilir. Hədəfsiz iş mə'nasız söz və içi boş qabıq kimidir. Əlbəttə hər bir «üçün» və «mə'na» da, öz növbəsində digər bir «üçün» və «mə'na»ya malik ola bilər. Amma bunlar sonda zati olan .şeydə, filosofların dili ilə desək, «mütləq xeyir»də qutararaq sona çatmalıdır

Hər halda insan öz əqli işlərində müəyyən hədəf və məqsədə malik olur və onun hər «nə üçün?»ünün qarşısında bir «görə» dayanır. Əgər insanın gördüyü işin «niyə və nə üçün»ünün qarşısında «görə»si olmasa, həmin iş bihudə, boş, puç və əbəs bir şey kimi .qiymətləndirilir

Filosoflar sübuta yetiriblər ki, insanın tam bihudə və boş iş görməsi, yə'ni onun işinin heç bir hədəf və məqsədə malik olmaması mümkün deyil. Bütün boş və bihudə işlər nisbidirlər. Məsələn, biz xəyali şövq və idrakdan yaranan və həmin şövq və idraka münasib hədəf və məqsədə malik olan işi, əqli hədəfə malik olmadığı üçün «bihudə» adlandırırıq; yə'ni o, yarandığı başlanğıcla müqayisədə bihudə deyil, amma yaranmalı .olduğu, lakin yaranmadığı mənbəyə nisbətdə boş və bihudədir

Əbəs və bihudənin müqabil nöqtəsi hikmətdir. Həkimanə iş o işdir ki, hətta nisbi baxıldıqda da hədəf və məqsədsiz görünməsin, başqa sözlə desək, əqli hədəfə malik .olsun və bundan əlavə, ən düzgün və layiqli seçim olsun

Deməli, insan işinin həkimanə olması onun hədəf və məqsəd daşımasından, özü də əqlin bəyəndiyi ən düzgün və layiqli seçimlə birgə olan hədəfə malik olmasından asılıdır. Buna görə də, o insan həkimdir ki, birincisi, öz işində hədəf və məqsədə malik olsun, ikincisi, hədəflərin ən

üstün və ən layiqlisini seçsin və üçüncüsü isə ən üstün və ən layiqli hədəfə çatmaq üçün ən yaxşı və ən yaxın yolu seçsin. Başqa sözlə desək, hikmət və ya insanın həkim olması onun tam agahlıqla ən yaxşı hədəflər üçün ən yaxşı şəraiti seçməsidir. Başqa bir ifadə ilə desək, hikmət və ya insanın həkim olması onun hər bir «nə üçün» və «niyə» müqabilində bir «üçün» və «görə»yə malik olmasını tələb edir. Burada həmin «nə üçün və .niyə?»nin hədəf və ya ona çatmaq vasitəsinin seçilməsinə aid olması da fərq etmir

?Nə üçün bu işi gördün

.Filan hədəf üçün

?Nə üçün həmin hədəfə üstünlük verdin

.Onun filan üstünlüyünə görə

.Nə üçün filan vasitədən istifadə etdin? Filan üstünlüyünə görə

İnsan həyatında «nə üçün»lərə əqli cavab verə bilməyən hər bir iş bu cəhətdəki .naqisliyi qədər, insanın həkimliyi və ağıllılığındakı naqisliji kimi qiymətləndirilir

Allah-taala necə, O da belədirmi? Görəsən Allah-taalanın işləri də, insanlar kimi hədəf və məqsəddən yaranırmı? Allahın işləri də insanların işləri kimi «nə üçün», «görə» və ən yaxşı və ən layiqlinin seçilməsinə əsaslanırmı? Yoxsa, bunların hamısı insana aiddir və Allah barəsində də belə mühakimə yürütmək bir növ bənzətmə, yə'ni xaliqi məxluqa ?oxşatmaq və onları bir-biri ilə müqayisə etmək deməkdir

Mö'təzilə məktəbi təbii ki, Allah işlərinin də hədəf və məqsədə malik olmasının tərəfdarıdır. Onlar Qur'anın, Allahın həkim olmasını dəfələrlə vurğulayan ayələrini də bu cür təfsir edərək deyirlər ki, O, Öz işlərində hədəf və məqsədə malikdir və işlərini tam agahlıqla müəyyən hədəf və məqsədlərlə ən yaxşı və layiqlini seçərək həyata .keçirir

Amma Əş'ərilər Allahın öz işlərində hədəf və məqsədə malik olmasını inkar edirlər və Qur'anda dəfələrlə təkrarlanmış hikmət məfhumunu ədaləti yozduqları kimi yozurlar, yə'ni deyirlər ki, Allah hikmətə əsasən iş görmür, əksinə, hikmət elə Onun gördüyü

.işlərdən ibarətdir

Mö’təzilənin fikrincə, Allah-taalanın işləri bir sıra məsləhətlərə əsaslanır. Amma Əş’ərilər deyirlər ki, ilahi işlərin bir sıra məsləhətlərə əsaslanmasını demək də səhvdir. Allah-taala məxluqatın xaliqi olduğu kimi, xeyir və mənfəət adlandırılan şeylərin də yaradanıdır. O, heç bir məxluqu hansısa xeyirə görə yaratmayıb, şeylər və onlar üçün .fərz edilən mənfəətlər arasında heç bir zəruri, zati və səbəb-nəticə əlaqəsi yoxdur

## İXTİLAFLARIN BAŞLANĞICI

Ədalət və cəbr-ixtiyar məsələlərinin kənarında, işlərin yaxşı və pisliyinin əqli olması, Allah-taalanın işlərinin müəyyən hədəf və məqsəd daşıması məsələsinin irəli sürülməsi kəlam məktəblərini bir-birindən təmamilə ayırdı. Mö'təzilə qətiyyətlə ədalət, əql, ixtiyar və hikmət (Allahın işlərinin hədəf və məqsəd daşıması) tərəfdarı oldu. Amma həmin vaxtlara kimi «sünnə əhli» və ya «hədis əhli» adlanan Əş'ərilər isə .qətiyyətlə onların və həmin təfəkkürün müqabilində dajandılar

Mötəzilə məktəbi tərəfdarları «Ədliyyə» adlandırıldı. Bu ad təkcə ədalət məfhumunu çatdırmırdı. Ondan, Mötəzilə tərzli ədalətdən əlavə ixtiyar, işlərin yaxşı və pisliyinin əqli .olması və Allah işlərinin hədəf və məqsədə malik olması mənası da başa düşülürdü

## ƏDALƏT, YAXUD TÖVHİD

Hədis əhlinin Mö'təziləyə qarşı irəli sürdüyü və onların düzgün cavab verə bilmədikləri irad budur ki, «ədalət» prinsipi (ixtiyar, gözəllik və qəbahətin əqli olması, Allah işlərinin hədəf və məqsədə malik olmasına şamil olan ədalət) əməli və hətta zati tövhidlə uyğun gəlmir, çünki Mö'təzilənin ixtiyarı bir növ «təfviz», yə'ni həvalədir. Belə ki, Mö'təzilənin qail olduğu ixtiyar bir növ həvalə və haqdan ixtiyarın alınmasıdır. Bu isə həm dəlillə isbat edilmiş və həm də Qur'anın hər yerində gözə çarpan əməli tövhidin ziddinədir. Fikrimizdə, çirkin olan işlərdən uzaq hesab etmək bəhanəsi ilə fail olmaqda Allahın zatına şərik qoşmaq rəvadırmı? Biz onsuz da müstəqil, özbaşına və fail olmasında Haqqın zatına ehtiyacı olmayan faillərə qail olmaqla Allaha şərik qoşmuşuq. Qur'anın aşkar ayəsi isə belə buyurur: «Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, zəif, aciz olmadığı üçün heç bir dosta, hamiyə ehtiyacı olmayan «.Allaha həmd olsun

Mö'təzilə məktəbinin Allah işində fərz etdiyi hikmət və məsləhət Haqqın zati tövhidi, Onun mütləqiyyət, misilsizlik və hansısa səbəbin nəticəsi olması ilə ziddir, çünki insanın öz işlərini hədəf və məqsədlərə görə görməsi əslində onun həmin hədəf və məqsədlərin tə'siri altına düşməsi deməkdir. Məgər son hədəfin faili illətin faili deyilmi? Yə'ni failin failliyinə səbəb, son hədəfdir və o olmasa həmin fail də olmaz. İnsanın öz işlərində hədəf və məqsədə malik olmasının səbəbi, əslində hədəf və məqsəd

tərəfindən ona müəyyən bir cəbrin hökmranlıq etməsidir. Allah-taala isə hər bir .cəbrdən, hətta hədəf və məqsəd cəbrindən də azaddır

Əş’ərilər iddia edirlər ki, işlərin yaxşı və pisliyinin zati olması və Allah-taalanın işlərinin həmin me’yar əsasında olmasına hökm etmək, bir növ Onun üçün vəzifə tə’yin etmək deməkdir, yə’ni bu, o deməkdir ki, Allah öz işlərini insan ağlının müəyyənləşdirdiyi .çərçivədə yerinə yetirməlidir. Allahın mütləq iradəsi bu məhdudiyyətlərdən uzaqdır

Xülasə, Əş’ərilər iddia edirlər ki, Mö’təzilə məktəbinin ədalət, əql, ixtiyar və ya hikmət adı ilə irəli sürdüyü şeylər, birincisi xaliqi məxluq ilə müqayisə etmək deməkdir, ikincisi .isə bu iş zati və əməli tövhidlə ziddir

Mö’təzilə ardıclları da qarşılıqlı olaraq, onların əqidələrini Qur’ani-kərimdə dəfələrlə tənzih (paklaşdırma) adı ilə təkrarlanmış əsasla zidd əqidə hesab edir. Mö’təzilə məktəbinin ardıcılları deyirlər ki, Əş’ərilərin əqidəsi, bizdən, Qur’anın, haqqın zatının ondan uzaq və pak olmasını vurğuladığı zülm, bihudəlik və pozğunçuluq kimi şeyləri Ona nisbət verməyimizi tələb edir. Onlar deyirlər ki, ədalət və ixtiyarın olmaması bizdən, Allahı ixtiyarsız bəndələr yaradaraq onların öhdəsinə vəzifə qoyduğu və həmin ixtiyarsız bəndələrə günah etdikləri üçün əzab verdiyi üçün zalım hesab etməyimizi tələb edir. Çünki həmin əqidəyə əsasən, əslində, görülən hər bir işin faili bəndə deyil, Allahdır. Belə olan surətdə günah edən də bəndə deyil, Allah olur. Əş’ərilərin əqidəsinə görə, Allah işlərinin heç bir hədəf və məqsədi olmadığı üçün O, bihudə və boş iş görmüş olur. Deməli, Əş’ərilərin əqidələri bizdən dəlil və Qur’anın birlikdə Allahdan uzaqlaşdırdıqları şeyi, yə’ni zülm, bihudəçilik və fəsadın Ona nisbət verilməsini tələb .edir

Bu iki məktəbin hər birinin həm zəif, həm də güclü bir nöqtəsi var. Onların güclü nöqtələri, müxalif məktəbə tutduqları iradları, zəif nöqtələri isə onların hər birinin öz .məktəblərini hərtərəfli və kamil məktəb kimi müdafiə etmək istəmələridir

Hər iki məktəbin tərəfdarları, məktəblərini yaxşı müdafiə edə bilməmələri və onlara tutulan iradlara cavab verə bilməmələrinə baxmayaraq, öz məktəblərinin düzgünlüyünü müxalif məktəbin e’tibarsızlığını sübut etməklə isbat etmək istəyirlər. Onların hər biri müxalif məktəbin zəif nöqtələrini çox yaxşı bilir və bir-birlərinə kəskin .hücumlar edirlər

Belə bir məşhur hadisə nəql ediblər: Bir gün ixtiyar əqidəsi tərəfdarlarından olmuş

Qilan Dəməşqi həmin əqidəni inkar edən Rəbiə Ər-rəylə rastlaşır və gəlib onun başı üstündə dayanaraq belə deyir: «Sən Allahın günah edilməsini istədiyini güman edən şəxssən.» Yə'ni sən Allahın, insanların günah etmələrini sevməsini deyirsən. Onun məqsədi budur ki, sənin cəbr əqidənin inkaredilməz nətitəcəsi, bəndələrin günah

etmələrinin Allahın iradə və istəyi ilə olmasıdır. Sənin əqidənə görə, Allah-taalanın özü .insanların günah etmələrini istəyir və sevir

Rəbiə Ər-rəy öz əqidəsini müdafiə etmək əvəzinə, Qilan Dəməşqinin əqidəsindəki zəif nöqtəni nəzərdə tutaraq belə deyir: «Sən də Allaha qarşı zorla günah edilməsini güman edən şəxssən». Yə'ni, sən elə güman edirsən ki, Allah bir şeyi, bəndələr isə başqa bir .şeyi istəyirlər və Allah məcburi şəkildə bəndələrin istəklərinə tabe olur

Qazi Əbdulcabbar Mö'təzili bir gün Sahib ibni İbadın yanında oturubmuş. Bu zaman əş'əri və cəbri məslək, olan Əbu İshaq İsfəraini onlar oturan yerə daxil olur. Qazinin gözü Əbu İshaqa sataşan kimi uca səslə belə deyir: «Haqqın zatı Ona pis işlərin nisbət verilməsindən pakdır.» O, kinayə ilə demək istəyirdi ki, sən Allahı bütün pis və çirkin .işlərin faili hesab edirsən

Əbu İshaq da öz əqidəsini müdafiə etmək əvəzinə tez belə deyir: «Öz hökmranlığında Onun iradəsindən başqa heç kimsənin hakim olmadığı Allah pakdır.» Əbu İshaq da qarşılıqlı olaraq kinayə ilə bunu demək istəyir ki, sən özünün «təfviz» əqidənlə Allaha, hökmranlığında şərik qail olub insanları öz işlərində tam müstəqil və öz ixtiyarlarına .buraxılmış hesab edirsən

Mö'təzilə məktəbinin ardıcılları özlərini «ədalət və tövhid əhli» adlandırırlar. Onlar burada Allahın sifətlərindəki tövhidi nəzərə alırlar. Əş'ərilər isə Allahın zatından kənar və onunla zidd olan sifətlərin Ondan uzaq olmasının tərəfdarıdırlar. Məsələn onlar, Allahın elm, qüdrət və ya həyatını Onun zatına zidd həqiqət hesab edir və onları da Allahın zatı kimi «qədim» bilirlər. Amma Mö'təzilə tərəfdarları zata zidd olan sifətə qail .deyillər

Mö'təzilə məktəbinin ardıcılları Əş'ərilərin Allah-taalanın sifətləri barəsindəki əqidələrini bir növ şirk adlandırırlar. Onlar deyirlər ki, Əş'ərilərin sözlərinin mə'nası budur ki, biz Allahın zatının kənarında bir sıra başqa qədimlərə də qail olmalıyıq. Qədim olmaq isə məxluq və nəyinsə nəticəsi olmağı rədd etmək deməkdir. Qədim olmaq zatı ehtiyacsızlıqla birgə olduğu üçün, Əş'ərilərin əqidələrinə görə Allah-taalanın sifətlərinin sayı qədər qədim və zati ehtiyacsızlıq da vardır. Amma Mö'təzilə məktəbinin ardıcılları zata zidd olan sifətlərə qail olmadıqları üçün özlərini «ədalət və

tövhid əhli» adlandırır və bununla da, Allahın sifətlərindəki tövhidi nəzərdə tutmaq .istəyirlər

Amma Mö’təzilə məktəbinin ardıcılları əməli tövhiddə bir çox cavabsız suallarla .üzləşməli olur, Əş’ərilər isə əməli tövhiddə özlərini «tövhid əhli» adlandırırdılar

Həqiqət budur ki, Mö’təzilə məktəbi tövhidi-sifatidə Əş’ərilərə haqlı iradlar tutmasına baxmayaraq, özləri də həmin məsələni tam həll edə bilməmişdilər. Çünki onlar zata zidd olan sifətlərə qail olmamalarına baxmayaraq, sifətlərin zatla eyniliyinin öhdəsindən də gələ bilməmişdilər. Onlar zatın sifətlərə «canişinliyi» məsələsini irəli .sürüblər ki, bu da o məktəbin ən zəif nöqtələrindən biridir

Əş’ərilərin başqa zəif nöqtələri də var idi. O məktəb ədalət, əql, ixtiyar və hikmət məsələlərini lazımınca izah edə bilməməklə yanaşı, həddindən artıq maraq göstərdiyi tövhid məsələsində də aciz qalmışdı. Əş’ərilər əməli tövhid bəhanəsi ilə zati olan səbəb-nəticə qanununu inkar etmək və bütün şeyləri bilavasitə Allahın iradəsindən yaranmasını qəbul etmək məcburiyyətində qaldılar. Bu mövzu ilə tanış olanlar bilirlər .ki, bu əqidə müqəddəs ilahi zatın bəsitliyi, ucalıq və ulululuğuna ziddir

Hər iki məktəb özünü ədalət və əməli-tövhid məqamında tərəddüddə görürdü. Mö’təzilə məktəbi öz xəyalı ilə əməli-tövhidi ədalətə, Əş’ərilər isə ədaləti əməli-tövhidə qurban verirdilər. Amma əslində nə Mö’təzilə tərəfdarları ədaləti düzgün izah .edə bildi və nə də Əş’ərilər əməli tövhidin dərinliklərinə yiyələndi

Əş’ərilərlə Mö’təzilə tərəfdarları arasındakı ixtilaflı məsələlər çoxdur, amma onların ən mühümü iki məsələ, yə’ni ədalət və tövhid məsələləridir. Əvvəldə gördüyünüz kimi, kəlam bəhsləri ədalətlə bağlı məsələlərdən başladı və daha sonra isə tövhidlə əlaqədar məsələlərə də cirayət etdi. Tövhidin zat, sifət, əməl və ibadətdə tövhid kimi dərəcələri vardır. Zatda tövhidin mə’nası budur ki, müqəddəs zat öz məqamında yeganədir, onun bənzəri və misli yoxdur. «Ona bənzər heç bir şey yoxdur.» Heç bir şey Onun zatının məqamında deyil; hər şey Onun məxluqudur və Ona möhtacdır; O, hər şeyin yaradanıdır və zati baxımdan ehtiyacsızdır. Bu məsələdə müsəlmanlar arasında heç bir ixtilaf və fikir ayrılığı yoxdur. Amma sifətlərlə bağlı tövhiddə fikir ayrılığı yarandı. Belə ki, Əş’ərilər tövhidi inkar edərək çoxluq tərəfdarı oldular. Əməli tövhiddə isə məsələ əksinə oldu, yə’ni Əş’ərilər tövhidə, Mö’təzilə tərəfdarları isə çoxluğa meyl göstərdi. İbadətdə tövhid məsələsində də müsəlmanlar arasında heç bir ixtilaf yaranmadı, Hənbəli təriqətindən olan İbni Teymiyyə başda olmaqla, bə’zi islam alimləri, belə bir əqidədə olublar ki, müsəlmanların şəfaətə inamı və Allah övliyalarından hacət istəyərək onlara sığınması ibadətdə tövhid prinsipinə ziddir. Bu

.fikir sonralar «Vəhhabi» təriqətinin yaranmasına səbəb oldu

səh:۱۶

## İSLAM KƏLAM ELMİNİN İSLAM FƏLSƏFƏSİNƏ TƏ’SİRİ

İslam kəlam elmində aparılan gərgin mübahisələr sonda heç bir nəticə vermədi, lakin həmin bəhslər islam filosoflarına «İlahiyyat» məsələlərində çox kömək etdi. İslam fəlsəfəsinin «xüsusi ilahiyyat» (ilahiyyat bil-mə’nəl-əxəss) məsələlərində yeni sahələr fəth etməsi və onun yunan fəlsəfəsindən ayrılaraq müstəqilləşməsi, onun islam kəlam elmindən ilham alması sayəsində mümkün olmuşdur. Mütəkəllimlərin, hətta özləri öhdəsindən gəlməmələrinə baxmayaraq, yeni üfüqlər açdıqları və xüsusi məsələlər .irəli sürdükləri üçün filosofların boyunlarında haqları var

Onlar bir sıra məsələlər irəli sürərək filosoflara yol açmaqdan əlavə, başqa yolla da layiqli xidmətlər ediblər. Belə ki, onlar yunan təfəkkür-tərzi müqabilində təslim olmadıqları üçün mübarizəyə əl ataraq fəlsəfə və filosoflara qarşı çıxır, onları rədd etmək üçün kitablar yazır və onların nəzərlərini rədd edirdilər. Fəlsəfi fikirlərdə şəkk və tərəddüd hücumlarını da ilk dəfə onlar başlayıblar. Mütəkəllimlərin rə’y və əqidələrinin filosofların nəzərləri ilə toqquşma və çarpışması və filosofların həmin çətin vəziyyətlərdən çıxmaq sə’yləri islam fəlsəfəsinin «ilahiyyat» bölümündə xüsusi oyanış yaratdı. Bu cür çətin təlaş və sə’ylər qığılcımlar yaradaraq yeni üfüqlərin açılmasına .səbəb oldu

## ƏQLİ ŞİƏ MƏKTƏBİ

Bu arada şiənin kəlam və fəlsəfə məktəbi diqqəti cəlb edir. Barəsində danışdığımız Mö’təzilə və Əş’əri məktəbləri sünni təriqətlərinə mənsub idilər. Şiələr füruidin məsələlərində müstəqil olduqları kimi, üsulidin, kəlam, fəlsəfə və bir sözlə, islam maarifinin digər sahələrində də tamamilə müstəqil idilər. Ədalət və tövhid məsələləri şiə kəlam və fəlsəfəsində də araşdırılıb və bu barədə çox dərin nəzəriyyələr irəli sürülüb. Bu məktəb dörd məşhur məsələdə, yə’ni ədalət, əql, ixtiyar və hikmətdə Mö’təzilənin nəzərini himayə etdiyinə görə «Ədliyyə»dən hesab edilip. Amma qeyd etmək lazımdır ki, şiə məktəbində bu dörd məsələnin hər birinin məfhumu Mö’təzilənin əqidəsi ilə fərqlidip. Məsələn, «ixtiyar» məsələsi şiə məktəbində Allahdan ixtiyarın alınması, insanın öz fəaliyyətində tam müstəqilliyi və bir növ allahvariliyi mə’nasını verən və təbii ki, şirk olan «təfviz» (həvalə və öhdəyə buraxma) kimi təfsir edilməjib.

Burada, məktəbin müəllim və ideoloqları olan pak imamlar (ə) ilk dəfə olaraq «orta yol» prinsipini irəli sürdülər və «Nə cəbrdir və nə də təfviz, bəlkə iş, bunların ikisinin arasında olan kimidir» cümləsi məşhurlaşdı.

Bu məktəbdə ədalət məsələsi, əməli və ya zati tövhidə heç bir xələl gətirmədən öz geniş mə'nasında təsdiqlənərək tövhidin kənarında yerləşdi. Doğrudan da düz deyiblər: «Ələvilər ədalət və tövhid, əməvilər isə cəbr və təşbih tərəfdarıdırlar.» Bu məktəbdə zati və ya əməli tövhidə heç bir xələl gətirilmədən ədalətin əsaləti, əqlin möhtərəmliyi, insanın azad və muxtar şəxsiyyəti və dünyanın həkimanə quruluşu sübuta yetirildi. İnsanın ixtiyar sahibi olması təsdiqləndi, amma bu onun ilahi hökmranlıqda şərik kimi görünməsi və Allahın iradəsinin insanın iradəsinə tabe olması nəticəsinə gətirib çıxarmadı. Başdan-başa bütün varlıqlarda qəza-qədər (ilahi təqdir) məsələsinin hakim olması isbat edildi, amma bu da, insanın ilahi təqdir müqabilində .məcbur olması mə'nasını vermədi

Şiə kəlam məktəbində tövhidin bütün cəhətlərinə meyl göstərilirdi. Belə ki, bu məktəb, sifətlərin tövhid və çoxluğu məsələsində onlarla həmfikir oldu və Əş'ərilərin əqidəsini rədd edərək Mö'təzilənin nəzərləri ilə razılaşdı. Şiə məktəbinin Mö'təzilə ilə fərqi bu oldu ki, onlar sifətləri inkar edərək zatın sifətlərə canişinliyinə e'tiqad bəslədilər, şiələr isə sifətlərin zatla birliyi və zatın sifətlərlə eyniliyi əqidəsinə qail oldular ki, bu da, çox dərin ilahi maarif məsələlərindəndir. Əməli-tövhiddə isə şiələr Əş'ərilərin əqidəsini təsdiq etdi və lakin onlardan fərqli olaraq, bu məktəb Əş'ərilər kimi səbəb – nəticə qanununu rədd etmədi. Şiə kəlam məktəbində zati, sifati və əməli tövhid məsələləri .dünyada misli görünməmiş yüksək tərzdə bəyan edildi

Mən «Fəlsəfənin əsasları və realizm üsulu» kitabının beşinci cildinin müqəddiməsində, islam filosoflarının Qur'an maarifi və hədis, xütbə və bu kimi digər islami mətnlərdən .ilham almalarını izah etmişəm və burada artıq izaha ehtiyac duymuram

İslam filosofları bir tərəfdən düzgün deduksiya yolları ilə tanış olmaları, digər tərəfdən isə islam maarifindən ilham almaları ilə min illik səylər nəticəsində xüsusi ilahiyyat .elmini (ilahiyyat bil-mənəl-əxəss) çox möhkəm təməl üzərində qurmağa nail oldular

Ədalət məfhumu islam filosofları tərəfindən gerçək həqiqət kimi təfsir edilir. Amma bu, müqəddəs ilahi zatın cəbr və qanuna məhkum edilməsi və Allah-taalanın mütləq hökmranlığına xələl gəlməsini tələb etmir. İşlərin yaxşı və pis olmalarının əqliliyi məsələsi də başqa cür təfsir edildi və həqiqəti kəşf edərək təqdim etmək dəyərinə

malik nəzəri düşüncələr dairəsindən çıxarılaraq şərti-əməli və zəruri düşüncələr sıralarında yerləşdirildi. Buna görə də Allah-taalanın işləri üçün heç cür me’yar və miqyas kimi qəbul edilmədi. Filosoflar mütəkəllimlərin əksinə olaraq, bu .məfhumlardan heç vaxt ilahi maarif səviyyəsində istifadə etməyiblər

Hədəf və məqsəd məsələsi də hədəf, işin və onu görənin hədəfləri qismlərinə bölündükdən və hikmətin Allah barəsindəki mə’nasının inayət, lütf və şeyləri öz hədəflərinə çatdırmaqla bərabər olması bildirildikdən sonra tam aydınlaşdı. Filosofların fikrincə hər bir işin hədəfi var və müqəddəs ilahi zat, son hədəf, yə’ni «!hədəflər hədəfidir. «Həqiqətən, axır dönüş sənin Rəbbinədir

Əlbəttə, bu bəhslərin hər biri çox geniş mövzuları əhatə edir, amma bu müqəddimədə .onlar barəsində bundan artıq danışmaq olmaz

## FİQH ELMİ SAHƏSİNDƏ ƏDALƏT

İslam dünyasında «ədalət» məsələsinin irəli sürülməsinin kökünü, yalnız kəlam elmi və mütəkəllimlər arasında axtarmaq lazım deyil. Bu məsələnin başqa yerdə, yə’ni islam .fiqhində də dərin kökləri vardır

İslam dünyası ilk vaxtdan kitab və sünnə əsasında formalaşmış və özünün ibadi, ticari, mədəni, hüquqi, siyasi və bu kimi bütün qanunlarını vəhy mənbəyindən almışdır. Hər hansı bir məsələnin hökmü, Qur’anda və ya düzgünlüyü qəti olan sünnədə aşkar şəkildə bəyan edilibsə, yaxud Peyğəmbər (s) və ya (şiə baxımından) məsum İmamlara (ə) əl çatırsa, heç bir şeyə ehtiyac yoxdur. Amma aşkar ayə və ya qəti sünnə .olmayanda, yaxud mə’suma əl çatmayanda ictihad və istinbat məsələsi ortaya çıxır

İctihadın nə vaxtdan ortaya çıxması, sünnülərdə hansı dəyişikliklərin, şiələrdə hansı irəliləyişlərin baş verməsi məsələsi çox geniş bir bəhsdir və burada onun barəsində danışmaq münasib deyildir. Bu işin Peyğəmbərin (s) zamanından və ya ən azı o həzrətin vəfatına yaxın vaxtlardan başlamasında heç bir şəkk-şübhə yoxdur. Amma həmin işin əvvəldən düzgün və ya səhv yerinə yetirilməsi də digər bir məsələdir ki, bu .barədə başqa bir yerdə söhbət etmişəm

İslam fiqhi də digər elmlər kimi çox sür’ətlə inkişaf edərək irəlilədi və təbii olaraq, onda müxtəlif üslublar yarandı. Sünni təriqətində iki fiqh üslubu yarandı. Onlardan biri hədis əhlinə mənsub idi ki, daha çox Mədinənin fiqh alimləri arasında yayılmışdı. Digər üslub .isə İraqdakı fiqh alimləri arasında yayılmış «rə’y və qiyas» üslubu idi

Hədis əhlinin iş üsulu belə idi ki, onlar hər hansı bir məsələ ilə qarşılaşanda, ilk növbədə

Qur'ana müraciət edir və orada həmin məsələnin hökmünü tapmayanda Peyğəmbərin (c) hədisinə müraciət edirdilər. Əgər həmin məsələ barəsində müxtəlif hədislər olsaydı, onlar hədisləri həmin sənədi nəql etmiş ravilər baxımından və onları müqayisə edərək hansına üstünlük verməklə seçirdilər. Amma həmin məsələ barəsində hədis

tapmayanda və ya hədislərin birini digərindən üstün edən nişanə əldə bilməyəndə isə, səhabələrin söz və fətvalarına üz tuturdular. Bu yolla da bir şey edə bilməyəndə dini mətnlərdə olan nişanələrdən bir şey çıxarmağa çalışırdılar. Onların öz rə’ylərinə və .qiyasa üz tutmaları çox nadir hallarda baş verərdi

Qiyas əhlinin yolu isə bundan fərqli idi. Onlar Qur’anda və ya qəti sünnədə bir hökm tapmayanda, nəql edilmiş hədislərə çox da əhəmiyyət vermirdilər. Çünki onlar hədislərin çoxunu uydurma və ya təhrif edilərək dəyişdirilmiş hesab edirdilər. Bu yolla gedənlər deyirdilər ki, bir fiqh alimi islamın qəti qanunlarında çoxlu işləməklə həmin qanunların ruhu ilə tanış olur və o, bənzətmə ilə lazım olan məsələnin hökmünü kəşf .edə bilər

Rə’y və qiyas əhli belə fikirləşirdi ki, «ədalət» və «ümumi mənfəət» fiqh alimi üçün yaxşı bələdçi ola bilər. Fiqh alimi, burada özünün ədalət və ümumi mənfəətin tələb etdiyi şeylər barəsində fikirləşmək məsuliyyəti daşıdığını hiss edirdi. «İstihsan» və «istislah» .kimi terminlər də oradan yaranıb

## HƏDİS ƏHLİ İLƏ QİYAS ƏHLİNİN MÜBAHİSƏSİ

Hədis əhli qiyas əhlinin üslubunu əqlə istinad etməkdə ifratçılıqda və hədisə müraciətdə isə səhlənkarlıqda ittiham edir, başqa sözlə desək, onların bu əməlini gerçəkliklərin kəşf edilməsinə ötəri yanaşmaq kimi qiymətləndirirdi. Onlar deyirdilər ki, şəriət işləri pərakəndəliklərin toplanması və cəm şeylərin pərakəndə edilməsinə əsaslanır və bu adi əql səviyyəsindən xaricdir; əqlin sadəlövlük edərək şəriət hökmlərinin kök və ruhuna çata bilmək imkanına malik olmasını güman etməsi düzgün deyil. Qiyas əhli isə, bunun müqabilində hədis əhlini kütbeyinlik və qanmazlıqda .günahlandırırdı

Üsuli-fiqh»də ayrılmazlıq adlı bir qanun var. Bundan məqsəd əqli hökmün şəriət» :hökmündən ayrılmamazlığıdır. Həmin qanun bu tə’birlə bəyan edilir

Kullu ma həkəmə bihil əqlu həkəmə bihiş-şər’u və kullu ma həkəmə bihiş-şər’u» .«həkəmə bihil əqlu

(.Yə’ni: Şəriət əqlin, əql də şəriətin hökmlərini təsdiq edir)

Məqsəd budur ki, əql harada bir qəti xeyir və ya ziyan kəşf etsə, biz dəlil və səbəbdən nəticəyə çatmaq adlı məntiqi üslubla orada islam şəriətinin həmin xeyirin ələ gətirilməsi və ya zərərin uzaqlaşdrılması barəsində hökm

verdiyini deyirik . Bu uslubla əldə olunan nəticə, hətta o barədə bizə nəql yolu ilə bir şey gəlib çatmamış olsa belə, məqbul sayılır. Həmçinin harada vacib, müstəhəb, haram və məkruh hökm varsa, dəlil və nəticədən səbəbə çatmaq adlı məntiqi üslubla həmin işdə xeyir və ya ziyanın olmasını kəşf edirik, hərçənd ki, bizim əqlimiz hal-hazırda həmin xeyir və ziyanı dərk etmir.

İslam fiqh alimlərinin, xüsusilə rə’y və qiyasa çox meylli olanların fikrincə, əql ilə şəriət arasında tam uyğunluq vardır; islam hökmləri bir növ ehkamçılıq kimi başa düşülən sirli, məchul və anlaşılmaz hökmlər deyildir və həmin hökmlərin dərk edilməsində və kəşfində əql və düşüncənin də rolu vardır.

Bu alimlər, əvvəllər kəlam elminin bəhslərindən olan «işlərin yaxşı və pis olmasının əqliliyi» məsələsini «üsuli fiqh» elminə daxil ediblər. Onlar qeyd olunan məsələləri şəriət hökmlərinin «me’yar» və «ölçüləri» kimi qəbul edərək deyirlər ki, həmin me’yar və ölçülər içərisində əqlin hər şeydən aşkar və aydın dərk etdiyi şey ədalət və yaxşılığın yaxşılığı, zülm və haqsızlığın isə qəbahət və pisliyidir. Beləliklə ədalət və zülm islam fiqhində me’yara çevrildi.

Hədis əhli islamda fiqhi mənbəyin üç şey - kitab (Qur’an), sünnə və icma olmasını hesab edir. Amma rə’y və qiyas əhli fiqh mənbəyinin dörd şeydən, yə’ni dediyimiz üç mənbə və bir də rə’y və qiyasdan ibarət olmasını bildirir.

Hədis əhli, rə’y və qiyas əhlini bir neçə şeydə tənqid edirdi. Onlar misal çəkərək deyirdilər ki, rə’y və qiyasa e’timad etmək, insanı şəriət hökmlərinin kəşf edilməsində səhvə düçar edir. Rə’y və qiyas əhli də bunun müqabilində onları mö’təbərlik və düzlüyü mə’lum olmayan bir sıra hədislərə e’timad etməkdə günahlandırırdılar.

## ŞİƏLİKDƏ FİQH ÜSLUBU

Şiəliyin fiqh və ictihadı da onun kəlam və fəlsəfəsi kimi müstəqil şəkildə irəliləyib. Şiə fiqhində şəriət hökmlərinin zati xeyir və ziyanlara tabeliyi prinsipi və əql ilə şəriətin uyğunluğu qaydası təsdiq edildi və əqlin ictihaddakı haqqı qorundu. Amma rə’y və qiyas, hədis əhli və sünnilər arasındakından da çox məzəmmət edildi.

Hədis əhli və sünnilər qiyası, əqlin şəriət hökmlərinin əldə edilməsində dəlil kimi

istifadəsində yararsızlığına görə səhv sayırdılar. Amma şiələrin onu səhv hesab etməsinin səbəbi bu deyildi və onlar həmin məsələyə iki cəhətdən irad tuturdular. Həmin səbəblərdən biri rə’y və qiyasın elmə deyil, gümana əməl etməsi və eləcə də əqlə deyil, xəyala tabe olması, ikinci səbəb

isə rə'y və qiyasa müraciət edilməsinin zəruriliyi fikrinin, islamın ümumi əsas və me'yarlarının yetərli olmaması mə'nasını verməsidir. Bu isə islama qarşı zülm və ya nadanlıqdır. İslamda bütün hökmlər barədə ümumi və külli şəkildə danışılıb və fərdlər sonsuz olduqları üçün onların haqqında ayrı-ayrı danışmaq mümkün də deyil. İslamın ümumi me'yarları elə tənzimlənib ki, onları sonsuz sayda olan fərdlərə müxtəlif zaman, məkan və dəyişkən şəraitlərdə tətbiq etmək mümkündür. Buna görə də fiqh aliminin vəzifəsi hər bir cüzi məsələnin hökmünü Qur'an və ya sünnədən çıxarmaq deyildir. Həmçinin o, hər hansı bir məsələnin hökmünün olmaması bəhanəsi ilə təxəyyül və qiyasçılıqla məşğul olmaq vəzifəsi daşımır. Fiqh aliminin vəzifəsi «təfri'» yə'ni cüz'i məsələləri əsas kökə uyğunlaşdırmaqdır . İslamın əsas və ümumi qanunları kitab və sünnədə mövcuddur. Onların digər məsələlərə tətbiqi üçün yalnız xüsusi elmi hazırlıq lazımdır və o da ictihad, yə'ni islamın ümumi qanunlarının dəyişən və ötəri cüz'i .məsələlərə düşünülmüş tətbiqidir

Üsuli-kafi» kitabında «Kitab və sünnədə ümumi qanunu olmayan məsələ yoxdur» adlı» .bir fəsil vardır

Deməli, ədalət və şəriət hökmlərinin zati xeyir və ziyanlara malikliyi prinsipi və təbii olaraq, işlərin yaxşı və pisliyinin əqliliyi və əqlin qənaətbəxş dəlil olması məsələləri şiə islam fiqhinin təməli kimi mö'təbər tanınıb. Beləliklə «ədalət» məsələsi islam fiqhində də .öz yerini tapdı

Şiə fiqhində əql və xəyal, başqa sözlə desək, əqli dəlil ilə məntiqi təmsil olan zənni qiyas arasında fərq qoyuldu. Onlar fiqhi mənbəyin dörd şey, yə'ni kitab, sünnə, icma və əql olmasını bildirdilər. Bu fiqh məktəbində rə'y və qiyasın rədd edilməsinə .baxmayaraq, əql və dəlil mö'təbər sayıldı

## İCTİMAİ-SİYASİ DAİRƏLƏRDƏ ƏDALƏT

Bura qədər söylədiklərimiz, ədalət məsələsinin islam dünyasının elmi və fikri dairələrində elmi şəkildə irəli sürülməsinə aid idi. Söhbətimizin hamısı yaradılış və şəriət qanunlarında ilahi ədalət məsələsinin, islamın ilk əsrlərindən islam elmlərinə daxil olmasının necəliyi və bə'zi firqələrin özlərini «ədliyyə» adlandırmaları, öz e'tiqadlarının əsaslarından birini «ədalət» etmələri və bunu özlərinə digərlərindən

üstünlük saymaları həddinə kimi irəliləməsi barəsində idi. Məsələn biz şiələr, öz e’tiqadlarımızın əsaslarını sayanda onlardan birinin «ədl» (Allahın ədalətliliyi) olmasını .qeyd edirik

Ədalət məsələsi islamın ilkin çağlarında elmi cəhətdən əlavə, icra mərhələsi .baxımından da ümumi kütlə arasında səslənir və bir növ diqqət mərkəzinə çıxarılırdı

Həmin dövrdə hər bir müsəlmanın islama xarakterik olan ictimai düşüncələrinin ən sadə formalarından biri başçı, rəhbər, qazi, məhkəmə və boşanma mərasimində şahidlik edən şəxsin adil olması və bu kimi digər şeylər idi. Şiələrin fikrincə cümə və camaat namazı qılan pişnamaz da ədalətli olmalıdır. Hər bir müsəlman, həmişə ədalətli şəxsin tutmalı olduğu vəzifə müqabilində məs’uliyyət hissi keçirirdi. Həzrət Peyğəmbərin (s) bu cümləsi hamının dilində əzbər idi: «Ən fəzilətli cihad, zalım başçı qarşısında ədalətli söz danışmaqdır». Bu qısa cümlə tarixdə necə də böyük şücaət və !qəhrəmanlıqlar yaradıb

Ədalət məsələcinin elmi və əməli surətdə irəli sürülməsi tarixin çox geniş və əhatəli .mövzularındandır və bəhsimizin mövzusundan xaric olduğu üçün ona girişmirik

**ƏSAS QAYNAQ**

Elmi və əməli cərəyanlarla tanış olduqdan sonra oxucularda belə bir sual yarana bilər: Nə üçün islamın kəlam elmi hər şeydən çox ədalət barəsində danışıb? Nə üçün islam fiqhi üçün hər şeydən qabaq ədalət məsələsi qarşıya çıxdı? Nə üçün islamın siyasət aləmində hər şeydən qabaq ədalət kəlməsi eşidildi? Təbiidir ki, bütün sahələrdə .ədalətdən bu səviyyədə söz getməsinin xüsusi səbəbləri vardır

Mənim fikrimcə islam cəmiyyətində ədalət məsələsinin irəli sürülməsinin əsas səbəbini və ya elmi və əməli bəhslərin kökünü ilk növbədə Qur’anın özündə axtarmaq lazımdır. Qəlblərdə ədalət toxumu səpərək onları sulayan və ruhlarda əqli, fəlsəfi, əməli və ictimai cəhətlərdən bu barədə düşüncələr yaradan Qur’ani-kərimin özüdür. Bəli, ilk dəfə yaradılış, şəriət, əxlaq və cəmiyyət haqqında ədalət və zülm məfhumunu irəli .sürən Qur’an özü olub

Qur’ani-kərim varlıq aləmi və yaradılışın ədalət və bərabərlik, ləyaqət və tutumlar əsasında olmasına tə’kid edir. Bu ilahi kitab özünün bir çox ayələrində zülmü tam aydınlıq və qətiyyətlə Allah-taalanın müqəddəs vücudundan rədd edir, ilahi hökm və höccətin çatdırılmasını bir növ ədalət, onlara xəbərdarlıq etməməyi və bəşəriyyəti

məhv etməyi isə bir növ zülm sayır, Onun şəninə layiq olan işləri və yaradılışın ədalətlə birgə olmasını haqq kimi təqdim edərək, Allahın faillik və tədbir məqamını ədalətin bərpası məqamı adlandırır.

səh:٢٣

«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq (haqqa tapınaraq) O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər.»(١)

Yaxud ədaləti Allahın yaradılışdakı tərəzisi adlandırır.

«Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!»(٢)

Həzrət Peyğəmbər (s) həmin ayə barəsində belə buyurub: «Yer və göy ədalətlə qərar tapıb».

Qur'an, şəriətdə ədalət, yə'ni qanunların müəyyənləşdirilməsində ədalət prinsipinə riayət edilməsinə tam diqqət göstərib. Qur'ani-kərimdə bildirilir ki, peyğəmbər göndərilməcinin fəlsəfəsi, bəşəriyyətin ədalət və bərabərliyə ehtiyaclı olmasıdır.

«And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (mö'cüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər...»(٣)

Mə'lumdur ki, ictimai quruluşlarda ədalət prinsipinin həyata keçirilməsi, ilk növbədə həmin qanun sisteminin ədalətliliyi, ikincisi isə onların əməli şəkildə icrasından asılıdır.

Qur'an, bütün peyğəmbərlər barəsində bəyan etdiyi bu ümumi prinsipdən əlavə, islamın şər'i və qanuni quruluşu barəsində belə buyurur: «De ki: «Allah ədaləti əmr etdi...»(٤) Yaxud, bə'zi göstərişlər barəsində buyurur: «...Sizin bu işiniz Allah yanında daha ədalətlidir...»(٥)

Qur'ani-kərim imamət və dini rəhbərliyi «ilahi peyman», «ədalətlə birgə olan» və «zülmə zidd» məqam hesab edir. Bu ilahi kitab həzrət İbrahim (ə)-ın imamlıq və rəhbərliyə ləyaqəti barəsində danışarkən belə bir nəticəyə gəlir: «...Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bə'zi əmrləri ilə) imtahana çəkdiyi zaman o, Allahın əmrlərini tamamilə yerinə yetirdi. Belə olduqda Allah ona: «Səni insanlara imam (dini rəhbər, başçı) tə'yin edəcəyəm» -dedi. İbrahim isə: «Nəslimdən necə?»–deyə

۱- [۷] Ali-İmran-۱۸.

۲- [۸] ər-Rəhman-۷.

۳- [۹] əl-Hədid-۲۵.

۴- [۱۰] əl-Ə’raf-۲۹.

۵- [۱۱] əl-Bəqərə-۲۸۲.

soruşdu. Allah (onun cavabında):» «(Sənin nəslindən olan) zalimlər mənim imamlığıma (nail olmazlar», – buyurdu.»(1)

Qur'an, həmçinin əxlaqlı insanı «ədalət sahibi» adlandırır. O, tərbiyə, əxlaq və ruhi cəhətdən e'timad edilməli olan insanların hakimlik və şahidlikləri barəsində danışdığı müxtəlif ayələrdə həmin şəxsləri dediyimiz kimi adlandırıb. Məsələn buyurur: «...İçərinizdən olan iki ədalətli şəxsin hökmü ilə...»(2) Yaxud belə buyurur: «...İçərinizdən (iki ədalətli şahid tutun...»(3)

İslam dünyasında yunan əsərləri tərcümə edildikdən sonra, Əflatunun «Ədalət, bütün əxlaqi fəzilətlərin anasıdır» cümləsi məşhurlaşdı. Halbuki müsəlmanlar təqribən iki əsr .qabaq, həmin sözü Qur'anın dilindən eşitmişdilər

Qur'anda, ədalət haqqındakı ayələrin çoxu ailə, siyasət, ictimaiyyət, hüquq və bu kimi digər ümumi ədalət məfhumları barəsindədir. Mən bu barədə təqribən on altı ayə əldə .etmişəm

Qur'anda, tövhiddən məada, nübüvvətdən imamət və rəhbərliyə, şəxsi ideyalardan ictimai hədəflərə kimi hər şey ədalətə əsaslanır. Qur'anın buyurduğu ədalət tövhidin silahdaşı, məadın sütunu, peyğəmbərliyin hədəfi, imamət və rəhbərliyin fəlsəfəsi, .insanın kamillik me'yarı və cəmiyyətin sağlamlıq miqyasıdır

Qur'anın təqdim etdiyi ədalət, bir növ dünya görüşü olduğu üçün tövhid və ya məadla əlaqədar olduqda, insanın varlıq və yaranışa baxışını xüsusi şəklə salır. Bu məfhum nübüvvət və şəriətə aid olanda qanunu tanımaq üçün miqyas və me'yar sayılır, başqa ifadə ilə söyləsək, əqlin, kitab və sünnə ilə bir sırada durması və fiqh və şər'i deduksiyanın mənbələrindən biri sayılması üçün mötəbər zəminə hesab olunur. İmamət və rəhbərliklə əlaqədar olanda ləyaqət, əxlaqla bağlı olanda insani ideya, .ictimai məsələlərdə isə məs'uliyyət sayılır

Müsəlmanlar, Qur'anda həm dünya görüşü, həm qanunun tanınma meyarı, həm imamət və rəhbərliyin ləyaqətlilik ölçüsü, həm insani ideya və həm də ictimai məs'uliyyət kimi əhəmiyyət verilmiş bu məsələyə, bu ilahi kitaba göstərdikləri hədsiz ?diqqətlə yanaşı laqeyid qala bilərdilərmi

---

۱- [۱۲] əl-Bəqərə-۱۲۴.

۲- [۱۳] əl-Maidə-۹۵.

۳- [۱۴] ət-Təlaq-۲.

Buna görə də, bizim fikrimizcə «Nə üçün müsəlmanların əqli və əməli hərəkatlarının hamısının əvvəlində ədalət məsələsi gözə çarpır?» deyə soruşulduqda, Qur'ana e'tinasız yanaşaraq başqa səbəblərin dalınca gedib özümüzü yormağa dəyməz.

Şübhə yoxdur ki, müsəlmanların bu məsələyə həssaslıq göstərmələri, onun kəlam və fiqh elmləri və islamın digər ictimai sahələrinə daxil olmasının əsas səbəbi Qur'andır. Amma bu məsələ barəsində müxtəlif mövqelərin yaranması və bə'zilərinin onu qeydsiz-şərtsiz qəbul etmələri, digərlərinin isə onu bə'zi yozmalarla qüvvədən salmaları bir sıra psixoloji, ictimai və siyasi səbəblərlə bağlıdır. Bizim fikrimizcə bu məsələnin islam cəmiyyətində yaranmasının əsas mənşə və qaynağı budur.

Başqaları da, bu məsələyə digər cəhətdən baxaraq, onu başqa cür təhlil və izah edə bilərlər.

Bildiyimiz kimi, bə'zi məktəblərin davamçıları bütün ictimai cərəyanları tam başqa cür təhlil və izah edirlər. Onlar əvvəlcədən düşünülüb-hazırlanmış metodlar əsasında hansı yolla olursa-olsun, bütün hadisələri istədikləri çərçivədə dərk etmək istəyirlər.

Belə məktəblərdə, bəhrələnmə və məhrumiyyətlər əsasında olan sinfi ziddiyyətlər və ictimai qruplaşmalar məsələsi bütün hərəkat və oyanışlarda mühüm rol oynayır. Həmin məktəblərin davamçılarının fikrincə, bəşəriyyətin ruhi, fikri, insani və qayğıkeşlik hislərinin bütün cilvələri, onun maddi ehtiyacları və iqtisadi əlaqələrinin təzahürüdür. Onların fikrincə hər şey ikinci dərəcəlidir, əsas təməl və özəl isə iqtisadiyyat və iqtisadi məsələlərdir; hər bir şəxsin əqli, insani və ruhi xüsusiyyətlərini onun ictimai sinfi qruplaşmasında axtarmaq lazımdır. Əgər Sə'di «İnsanın həyat amili, onun qarnıdır» deyibsə, bu qrupun fikrincə nəinki həyat amili, bəlkə fikir, duyğu, zövq bir sözlə, müqəddəs adlandırılan hər bir şey qarındır və bütün yollar qarında bitir.

Bu məktəblərin davamçılarının fikrincə, əgər biz cəmiyyətdə hər şeydən çox ədalətdən danışıldığını görürüksə, onun kökünü başqa yerdə deyil, iqtisadi və ictimai bərabərsizliklərdə axtarmalıyıq. Əgər fiqh və ya kəlam libasında iki qrupun bir-birinin qarşısında dayanmasını və onlardan birinin ədalətin əsasını dünya görüşü və ya qanun kimi müdafiə etməsini, digərinin isə bunun tam əksinə olaraq bütün əsalətləri inkar etməsini görürüksə, bilməliyik ki, bu əqli, fiqhi, və kəlami qruplaşmalar pərdəaltı digər

bir qruplaşmanın, yə’ni məhkum və məhrum təbəqə və sinfə məxsus qrupun rifahda olan imkanlı təbəqə müqabilində qruplaşmasının nişanəsidir. Düşüncə qarına tabedir, əziyyət çəkən məhrum şəxsin ədalət prinsipini

inkar etməsi qeyri-mümkün olduğu kimi, imkanlı və rifahda olanın da ədalət prinsipini .müdafiə etməsi qeyri-mümkündür

Bizim fikrimizcə bu, tarixi birmə'nalı yozmaq və ona birtərəfli yanaşmaq tərzidir. İnsani meyllərdə maddi ehtiyacın çox mühüm və əsaslı amil olmasında heç bir şübhə yoxdur və islamdakı əqli, ictimai və siyasi qruplaşmalarda bə'zən bir sıra iqtisadi amillərin .nişanələri ilə də rastlaşmaq mümkündür

Amma insanı əhatə edərək onu tə'sir altına alan bütün cazibələri və bəşəriyyət tarixinin formalaşmasında tə'sirli olmuş əsas və mühüm amilləri iqtisadi ehtiyaclarda xülasə etmək olmaz. Bəlkə də insanın fərdi və ictimai həyatında hakim olan bütün əsas amillər barəsində danışmaq hələ ki, tezdir. Qəti olaraq isə bunu demək olar ki, maddi !ehtiyacları insanın yeganə ehtiyacı kimi qəbul etmək olmaz

Mən bu me'yarlarla Mə'mun, Mö'təsim və Vasiqin kəskinliklə Mö'təzilə məktəbi tərəfdarı olaraq ədalət prinsipini qə'bul etmələrinin və bunun müqabilində, həmin təbəqə, qrup və qana mənsub olmuş Mütəvəkkilin isə müxalif cəhətə meyl göstərməsi və ədalət tərəfdarlarına qarşı əcdadının ədalət düşmənlərinə etdiyini necə izah .edilməsini bilmirəm

Yaxud, dünyanın ən imkanlı və varlı şəxslərindən olmuş Sahib ibni İmadın, zəmanəsinin məhrum və imkansız alimlərinin əksəriyyətinin ədaləti inkar edərək Əş'əri əqidəsi daşımalarına baxmayaraq, ədaləti kəskin müdafiə etməsinin də necə .izah edilməsini bilmirəm

Sahib ibni İmad imkanlı vəzir olub və o, bu baxımdan misilsiz şəxsiyyətlərdən biridir. O, əvvəla, yüksək vəzifə sahiblərinin qəzəbinə gələn saray xadimlərinin əksinə olaraq, ömrünün axırına kimi vəzir işləyib və onun üçün həm kəmiyyət və həm də keyfiyyət .baxımından misilsiz dəfn mərasimi keçirilib

İbni Xəlkan deyir: «Heç kəs Sahib ibni İmad kimi, həyat və ölümdən sonrakı xoşbəxtlik «.və bəxtiyarlığı bir yerdə toplaya bilməyib

Həm vəzir və həm də alim olmuş Sahib ibni İmad da, yaşayışını vəzir həmkarları kimi

tam rifah və rahatlıqla keçirib. Amma o, dünyadan mənfur gedən və adları da özləri kimi torpağa gömülən digər vəzirlərin əksinə olaraq, qəlblərdə yaxşı ad və məhəbbətlə qaldı. Onun ölümü digər həmkarları, yə’ni adətən tanınmaz və məhrum həyat keçirən və şöhrət, ehtiram və sevimliliyi öləndən sonra başlayan alimlər kimi .olub

Sahib ibni İmad ömrünün axırına kimi vəzir işləməsindən və özünə gözəl alim adı qazanmasından əlavə, digər bir fövqəladə üstünlüyə də malik olub və o, budur ki, Sahib tarixin, atası və babası da vəzir olmuş yeganə

səh:۲۷

vəziridir. Onlar vəzirliyi üç nəsl ardıcıl olaraq irs kimi qazanıblar. Onun öz adı İsmayıl, atasının adı İmad, babasının adı isə Abbas olub. Şairlər də onun barəsində şe’rlər deyiblər. Sahib ibni İmad bütün bu imkan və rifaha baxmayaraq, ciddi şəkildə ədalət .tərəfdarı olub və o, özünün bu işi ilə fəxr edərək belə deyərmiş

Əgər mənim qəlbim parçalansa, onun içində heç kəs tərəfindən yazılmamış iki sətr .yazı görərsiniz; bir tərəfdə ədalət və tövhid, digər tərəfdə isə Əhli-beyt məhəbbəti

Biz fiqhi ədalətdə də eyni ilə buna bənzər şeylər görürük. Məsələn, Harunun baş qazisi olmuş Əbu Yusif də ədalətin ciddi tərəfdarı olub. Zindana salınaraq dəfələrlə şallaqlanmış Əhməd ibni Hənbəl isə, ədalət üslubunu kəskin şəkildə məhkum edərək .pisləyib

Bizim fikrimizcə, bəşəriyyətin əqli və fikri qruplaşmalarını bu me’yar və miqyasları .yeganə üslub hesab edərək ölçmək və yozmaq sadəlövhlükdür

Bu bəhsi kitabın müqəddiməsində gətirməkdən əsas məqsəd, Qur’anın fikir və düşüncələrin oyadılmasındakı rolunu göstərmək və məsələnin bu ilahi kitab .baxımından əhəmiyyət və əsaləti aydınlaşdırmaq idi

Əlbəttə bu kitab ədalət məsələsini hərtərəfli və Qur’ana layiq şəkildə açıqladığını iddia etmir. İddiamız yalnız bu ola bilər ki, burada, Qur’anın ədalət barəsində irəli sürülmüş məsələləri yaradılış və ilahi ədalət baxımından bir qədər yeni üslub və nəzərlə irəli .sürülüb

(.Cəmadiul-əvvəl, ۱۳۹۳-cü hicri- qəməri ili. (۱۹۷۲-ci il-۱۷

.Mürtəza Mütəhhəri

## BİRİNCİ FƏSİL: İNSANİ VƏ İLAHİ ƏDALƏT

### İŞARƏ

Biz insanlar başqasına qarşı pis niyyətdə olmayan, onların hüquqlarını pozmayan, insanlar arasında heç bir ayrı-seçkilik salmayan, idarəçiliyi çərçivəsində tam bitərəfliklə davranaraq hamıya bir gözlə baxan, başqalarının münaqişə və ixtilaflarında məzlumun tərəfində olaraq zalımla düşmən olan şəxsi, bir növ kamal sahibi hesab edib ədalətli sayırıq.

Bunun müqabilində başqalarının hüquqlarını pozan, bacardığı qədər insanlar arasında ayrı-seçkilik salan, zalımların tərəfini saxlayaraq zəif və acizlərlə düşmən olan və ya zalımlarla məzlumların münaqişəsinə e'tinasız yanaşan şəxsi isə zalım adlandırır və onun tutduğu yolu pisləyirik.

Bu məsələ Allah-taala barəsində necədir? Əvvəla, sual budur ki, insanlar barəsində ədalət kamal, zülm isə naqislik sayıldığı kimi, Allahın zatı barəsində də ədalət kamal, zülm isə naqislik sayılırmı? Yoxsa, ədalət və zülm yalnız əxlaqi məfhumlar olub insanlara aiddir, necə deyərlər, onlar şərti məfhumlardır, «nəzəri hikmət» deyil, əməli hikmət»ə aid olan işlərdən sayılır və buna görə də bəşər həyatı çərçivəsindən kənara çıxmır və onun ixtiyari əməlləri dairəsindədir?

İkincisi, əgər ədalət və zülmün Allah-taala barəsində də həmin insani və əxlaqi mə'nada işlədilməsini fərz etsək, yə'ni əxlaqi ədalət Allah barəsində də kamal, zülm isə naqislik sayılsa, bu sual meydana çıxır ki, zülm Allah-taala barəsində əməli olaraq gerçəkliyə çevrilə bilərmi? Əlbəttə bu, Allah-taalanın zülm etməsinin qeyri-mümkünlüyü və Əş'ərilərin dedikləri cəhətlər, yə'ni «işlərin yaxşı və pisliyi, ədalət və zülmün əqli deyil, şər'i olması» baxımından nəzərdə tutulmur. Bu iki cəhət, digər bir mətləbdir ki, biz sonralar onların barəsində söhbət edəcəyik. Bəli, sual Allah-taalanın zülm edib-etməməsinin mümkün olub-olmamasını nəzərə almadan və işlərin yaxşı və pisliklərinin zati olmasını, ədalət və zülmün həqiqi və gerçək məfhumlar olmalarını qəbul etmək fərzi ilə, ədalətin başqalarının hüququna riayət etmək, zülmün isə kiminsə haqqını tapdamaq olması, yə'ni

arada hansısa haqq məsələsi olanda və kimsə ona nisbətdə sahiblik hüququna malik olanda, başqası tərəfindən həmin haqqa olan təcavüzün, haqq sahibinə nisbətdə bir .növ zülm olması baxımından irəli sürülür

Aydındır ki, məxluqlar arasındakı əlaqələrdə onların bə’zi şeylərdə bir-birlərindən üstün olmaları və ya nəyəsə sahib olub-olmamaları müəyyən bir mə’na verir. Məsələn Əli, öz həyat və azadlığı, həmçinin qazandığı sərvətə sahiblik və onlardan istifadə baxımından digərlərindən üstündür. Vəli də öz həyat, azadlıq və qazancı baxımından belədir. Buna görə də onlardan hər hansı birinin digərinin sahibkarlıq və azadlıq .dairəsinə təcavüz etməsi zülmdür

İndi sual budur ki, bu məsələ Xaliqlə məxluq arasında necədir? Məxluqun hər bir şeyi Xaliqdəndir və onun bir şeydən istifadə və ona sahib olmaq haqqı Xaliqin sahibkarlıq və istifadə üstünlüyünün şaquli və yüksələn xətt boyunca, yə’ni Xaliqin sahibkarlıq haqqının sahibkarlıq olması, istifadədə üstünlük haqqının üfüqi xətt boyunda isə heç bir üstünlük haqqının olmamasıdır. Məsələnin aydınlaşması üçün Allahla insanın sahibliyini ata ilə oğulun mülkiyyətinə bənzətmək lazımdır. Ata oğullarının hər biri üçün ayrı-ayrı oyuncaqlar alır. Uşaqlar atalarının onlara aldığı oyuncağa nisbətdə özlərinə sahiblik və istifadə haqqı qail olurlar. Onların hər biri digərinin onun oyuncaqlarına əl vurmasını öz hüquqlarına təcavüz hesab edir. Amma görəsən uşağın həmin sahiblik və istifadə haqqı, atanın sahiblik və istifadə haqqına mane ola bilərmi? Yoxsa, həmin sahiblik elə bu sahibliyin yüksələn xətt boyunca yerləşir, onlar arasında heç bir ziddiyyət yoxdur və atanın onlardan istifadə etməsi onun öz malından istifadəsi ?deməkdir

Allah-taala mütləq sahib və malikdir və Onun öz mülkündə heç bir şəriki yoxdur. Doğrudan da heç bir şəkk-şübhəyə yol vermədən Onun barəsində belə demək lazımdır: «Göylərin və yerin hökmü Onun əlindədir. Bütün işlər axırda ancaq Allaha qayıdacaqdır.» Buna görə də Allah-taalanın dünyada etdiyi hər bir şey Onun öz malında olan istifadəsidir. Heç kəs onun müqabilində heç bir haqq, sahiblik və üstünlüyə malik deyil. Deməli, Allah-taala barəsində zülm məsələsi aradan qalxır. Amma bunun səbəbi Allahın, onu qəbih və pis olduğu üçün etməməsi və ya «işlərin yaxşılıq və pisliyi»nin Allah barəsində mə’nasız olması deyildir. Əsas səbəb budur ki, biz zülmün qəbahət və

pisliyinin zati olmasını, işlərin yaxşılıq və pisliyinin zati olmasının, insanların işlərinə hakim olduğu kimi Allahın işlərinə də hakim olmasını fərz etsək də belə, bu məsələ əməldə Allah-taala barəsində gerçəkləşmir. Çünki heç kəs Allah müqabilində heç bir şeyə sahib olmadığı üçün burada zülm baş vermir. Deyirlər ədəbiyyatdan başı çıxan və həmişə

ədəbiyyatşünasları ətrafına toplayan Seyfud-dövlə Həmədani bir gün böyük söz ustadı və Əhli-beyt şairi Əbu Fərrasın da iştirak etdiyi ədəbi məclisdə deyir: Bir beyt şe'r söyləmişəm, mənə elə gəlir ki, onun ikinci beytini Əbu Fərrasdan başqa bir kimsə :deyə bilməz. O şe'rin məzmunu belədir

.Cism sənindir və sən, dayanmadan onu incidirsən, amma qanımı birdəfəlik tökmürsən

:Əbu Fərras fikirləşmədən belə deyir

Məhbub və sevgili dedi ki, əgər mən sənin sahibinəmsə, bütün ixtiyarlar mənə aiddir .və mütləq malik müqabilində «niyə-nə üçün?» etmək mə'nasızdır

Şübhə yoxdur ki, biz ədalət və zülmü, işlərin yaxşılıq və pisliyinin əqli və əxlaqi olmasına əsaslanan geniş mə'nada nəzərdə tutsaq və Allah-taalanın işlərini də həmin yaxşı-pis çərçivəsində yozsaq və eləcə də Haqqın işlərini «başqalarının hüqüqlarına riayət etmək» baxımından ölçmək istəsək, deməliyik ki, Allah-taala bu mə'nada nə adil və nə də zalımdır. Çünki hər hansı bir şeydən istifadədə, ondan üstün və haqlı bir şey .yoxdur ki, onun hüquqlarının riayət edilməsi ədalət, pozulması isə zülm sayılsın

Üçüncüsü, əgər biz ədalət və zülmün bu məşhur mə'nalarından daşınaraq onları şərti və ictimai əməliyyatlar dairəsinə məxsus etsək, onda görəsən geniş yayılmış həmin mə'nadan üstün bir mə'na varmı ki, ədalət və zülmü nəzəri hikmət məfhumları sırasında yerləşdirərək şərti məfhumlar dairəsi olan əməli hikmət sıralarından çıxarsın və nəticədə ədalət elm və qüdrət, yaxud heç olmasa yaradıcılıq və ruzi vermək kimi sabit və kamillik sifətlərindən, zülm isə mürəkkəblik, cismiyyət, məhdudluq və bu kimi ?digər mənfi sifətlərdən sayılsın

Daha sonra bu məsələ qarşıya çıxır ki, görəsən dünyadakı hadisələr ədalət və zülm baxımından yozulması mümkün olan məfhumlardır, yoxsa biz onları itaətkarcasına ?qəbul etməliyik

Dördüncüsü, bunların hamısından əlavə, Qur'ani-kərim ədalət və zülm məfhumları ?üzərində çox təkid edib. Görəsən Qur'anın bu iki məfhumdan məqsədi nədir

.Bunlar özünün dəqiq və düzgün cavablarını tapmalı olan bir sıra suallardır

Qəti və şübhə edilməyən məsələ budur ki, Allahın «ədalətə əmr edən» və «ədaləti həyata keçirən» kimi tanınması, səmavi dinlərdə bəşəriyyətin Allah ilə əlaqəsinin əsaslandığı ən mühüm agahlıqdır. Məsələn, filosofların təsəvvür etdikləri Allah, o cümlədən Ərəstunun insanların yalnız ağıl və düşüncələrinə aid olub, qəlb və duyğuları ilə heç bir işi olmayan «ilk

təkanvericisi» ədalət və zülm baxımından söhbətimizin mövzusu deyil. Peyğəmbərlərin vəsf etdiyi kimi, məntiqi və əqli cəhətlərə malik olmaqla yanaşı qəlb, batin və duyğularla sıx əlaqədə olan, insanın eşq və məhəbbət mübadiləsində olduğu və möhtacla ehtiyacsız əlaqəsində duyulan alim, qadir, mehriban və qayğıkeş Allahın qəti sifətlərindən biri də ədalətdir. Burada həmin ədaləti necə mə’nalandırmağın .zərurətinə baxmalıyıq

Ədalət, ictimai mə’nada nübüvvətin hədəfi, fəlsəfi mə’nada isə məadın əsasıdır. Qur’ani-kərim peyğəmbərlərin nübüvvət və ilahi vəzifələrinin hədəfini bəyan edərkən :belə buyurub

And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (mö’cüzələrlə) göndərdik. Biz» onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil (etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər.»(۱

Məad mövzusu qiyamət gününün hesabı və əməllərə münasib cəza verilməsi :barəsində isə belə buyurur

Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir» xardal dənəsi ağırlığında olsa belə, hər hansı bir əməli nəzərə alarıq. Haqq-hesab (çəkməyə Biz kifayətik.»(۲

Qur’anın bir çox ayələrində Allah-taalanın zülm və sitəmdən uzaq olması vurğulanıb. :Məsələn bir yerdə deyilir

(Allah onlara zülm edən deyildi, lakin onlar özləri özlərinə zülm etdilər.»(۳...»

Bə’zi ayələrdə adillik və ədalətin bərpası Allah üçün sabit bir sifət kimi zikr edilib. Yə’ni, Qur’an təkcə Onun zülmdən uzaq olmasını bildirməklə kifayətlənməyib, ədaləti də :Onun üçün birbaşa isbat edib. Məsələn bu ayədə buyurur

Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də» haqqa-ədalətə boyun qoyaraq (Haqqa tapınaraq) O qüvvət və hikmət sahibindən (başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər.»(۴

---

۱- [۱۵] əl-Hədid-۲۵.

۲- [۱۶] əl-Ənbiya-۴۷.

۳- [۱۷] ət-Tövbə-۷۰.

۴- [۱۸] Ali- İmran-۱۸.

Buna görə də islam baxımından ilahi ədalətin gerçək bir həqiqət olmasında və Allahı .onunla vəsf etməyimizin zərurətində heç bir şübhə yoxdur

## YOL Və ÜSLUBLAR

Ümumiyyətlə yaradılışın başlanğıc və sonu barəsində olan üslublar bir-birindən fərqlidir. Hədis əhli, mütəkəllimlər, filosoflar, ariflər, təcrübi və təbii elmlər tərəfdarlarının hər biri özünəməxsus yol və üsluba malikdirlər. Hədis əhli üsulidinə aid məsələlərdə də füruidin məslələri kimi təslim və tabeçilik tərəfdarı olub hər bir təfəkkür, deduksiya və məntiqlə müxalifdirlər. Onların fikrincə, din sahəsində olan məsələlərin heç birində — istər üsulidinlə bağlı məsələ olsun, istərsə də füruidinlə — bəhs edərək dəlil gətirmək olmaz. Həmin sahədə mütləq şəkildə sükut etmək lazımdır. Kitab və sünnədə Allah-taalanın diri, alim, qadir, iradə sahibi və ədalətli olması bildirilib. Biz peyğəmbərlərin sözlərinə e’tiqad bəslədiyimiz üçün onların hamısını qeydsiz-şərtsiz qəbul etməliyik. Məsələn, ədalət və adilin nə olması və Allah-taalanın hansı məntiqi dəlilə əsasən ədalətli olması barəsində düşünməyimizin heç bir lüzumu .yoxdur. Bu məsələlər barəsində düşünmək bid’ət və haramdır

Təbii ki, bu qrup üçün ədalət adlı məsələ yoxdur, yə’ni onlar heç vaxt özlərini ilahi .ədalət barəsində qarşıya çıxan suallara cavab vermək zərurətində görmürlər

Bu nəzərin əsassız olması aydın məsələdir. Biz «Fəlsəfənin əsasları və realizm üsulu» kitabının beşinci cildinin müqəddiməsində bu fikrin əsassızlığı barəsində söhbət etmişik .və burada bir daha həmin məsələyə qayıtmağı lazım bilmirik

Digər qruplar isə təfəkkür və düşüncəni mümkün sayıb müxtəlif yollarla bəhs və .araşdırmalar aparıblar

Mütəkəllimlər ədalət məsələsində iki dəstəyə bölünüblər. Onların bir qrupu, yə’ni Əş’ərilər öz təfəkkürlərində bu nəticəyə gəliblər ki, ədalət sifəti, Allahın işlərindən başa düşülən və ondan ayrılan bir sifətdir. Onların fikrincə, heç bir iş öz zatında ədalət və ya zülm deyildir. Hər hansı bir iş, Allahın işi olduğu üçün ədalətdir. Bundan da əlavə, Allahdan başqa - istər müstəqil nəzərə alınsın, istərsə də qeyri-müstəqil, heç bir fail yoxdur. Buna görə də zülm heç bir mə’na daşımır. Onlar ədalət məfhumuna «O, Allahın

işidir və ədalət olduğu üçün Allahın işi deyil, Allahın işi olduğu üçün ədalətdir»
.ifadəsindən başqa bir tə’rif tapmayıblar

səh:۳۳

Təbii ki, bu qrupun fikrincə heç bir qayda-qanun da mövcud deyildir. Məsələn, ədalət prinsipinə əsaslanaraq tam qətiyyətlə Allahın xeyirxah şəxsə mükafat verərək günahkarı cəzalandıracağını deyə bilmərik və həmçinin qəti şəkildə Allahın Qur'anda verdiyi və'dələrə əməl edəcəyini də iddia edə bilmərik. Bəlkə məsələ belədir ki, Allah-taalanın xeyirxahları mükafatlandırması və günahkarları cəzalandırması ədalətdir. Amma birdən bunun əksini etsə, onun işi yenə də ədalət olacaq. Allahın verdiyi və'dəyə əməl etməsi də ədalətdir, etməməsi də! Həmçinin Allahın vücuda gəlmək imkanı olan .şeyi vücuda gətirməsi də ədalətdir, gətirməməsi də. Çünki ədalət Onun etdikləridir

Onlar ədaləti inkar etməmələrini iddia etmələrinə baxmayaraq, ədalət barəsindəki açıqlamaları əməldə onların ədaləti inkar etmələrini göstərir. Buna görə də Əş'ərilərin müxalifləri, yə'ni şiələr və Mö'təzilə ardıcılları «Ədliyyə» adı ilə məşhurlaşıblar və bu, o .deməkdir ki, Əş'ərilərin dedikləri ədalətin izahı deyil, inkarıdır

Bu qrup baxımından da təbii ki, ilahi ədalət barəsində heç bir məsələ irəli sürülə bilməz. Bunlar ədalət barəsində yaranan suallara cavab verməkdə, hətta birinci qrupdan da .azaddırlar

Onlar öz fikirlərində «tənzih» (Allahı nalayiq sifətlərdən pak bilmə) yolunu tutmaq və Allahı yaradılışda şirk və zülmdən uzaqlaşdırmaq istəyiblər. Buna görə də, bir tərəfdən Allahdan başqa hər bir şeyin işlərdə təsir qüvvəsinə malik olmasını rədd ediblər və digər tərəfdən də ədalət sifətini Allahın işlərindən sonrakı məqamda yerləşdiriblər. Belə ki, işlərin pislik və yaxşılığının əqli olmasını kökündən inkar edərək deyiblər ki, hər hansı bir işin ədalətli olmasının yeganə mənası, onun Allaha nisbət verilməsidir. Onlar dedikləri bu müqəddimədən belə bir nəticəyə gəliblər ki, Allah-taalanın fail olmaqda .şəriki yoxdur və O, heç vaxt zülm etməz

Amma onlar əslində Allahın yerinə, bəşəriyyətə olmazın zülmlərini rəva görən zalımları münəzzəh edərək onlara bəraət qazandırıblar. Çünki bu növ təfəkkür tərzindən alınan ən sadə və aydın nəticə budur ki, filan zalım heç nə etmir, bəlkə bütün şeyləri Allah edir. Bəs Allah etdiyi üçün də həmin iş zülm deyil, tam ədalətdir. Çünki bu məktəbin fikirlərinə əsasən ədalət, işin yalnız Allahın işi olmasından başqa mə'naya malik deyil. Digər tərəfdən də Allahdan başqa heç bir iş görən və tə'sir qüvvəsi olmadığı üçün

varlıq aləmində heç cür «zülm» yoxdur. Bəlkə də Abbasi xəlifələrindən olmuş Mütəvəkkil kimi zalımların Əş’əriləri himayə etmələrinin səbəbi onların sözlərinin zalımların istədikləri mə’nanı verməsidir.

Sizcə bu məntiq və nəticə ilə sizcə məzlum və zülmə düçar olmuş şəxs, dini baxımdan .hansı vəzifəni daşıyır və o, nə etməlidir? Sualın cavabı çox aydındır

Amma, «Bu mütəkəllimlər Qur’anın bəşəriyyətin zalımlarına nisbət verdiyi çoxlu zülmlər və bu ilahi kitabın, zülm və zalımlarla mübarizə sahəsində insanların öhdələrinə qoyduğu vəzifələr barəsində nə deyirlər?» sualını Əş’ərilərin özlərindən .soruşmaq lazımdır

Digər mütəkəllimlər, daha doğrusu tanınmış kəlam alimləri Əş’ərilərin bu məntiqini kəskin şəkildə tənqid və rədd ediblər. Onlar nə Allahdan başqasının tə’sir qüvvəsinə malik olmasını, nə də əməli tövhid bəhanəsi ilə bəşəri zülmü rədd ediblər. Əş’əri olmayan mütəkəllimlər, yə’ni Şiə və Mö’təzilənin kəlam alimləri işlərin gedişinin Allaha nisbət verilib-verilməməsini nəzərə almadan, ədaləti dünyanın işlərində gerçək həqiqət kimi qəbul edərək işlərin yaxşı və pis olmasının əqli və zati olmasına qail .olublar

Bu mütəkəllimlərin fikrincə, işlərin yaxşı və pisliyi prinsipi bəşəri işlərin me’yarı olduğu kimi, ilahi işlərin də me’yarı ola bilər. Buna görə də həmin dəstə ilahiyyat məsələlərində həmişə həmin əslə istinad edir. Onlar bu əsası və ədalətin yaxşı, zülmün isə pis olmasının tam aydın olmasını nəzərə alaraq, həmin məsələni əxlaqi əsas kimi :«rübubi» (Pərvərdigara aid məsələlər) səviyyədə irəli sürərək belə deyirlər

Zati baxımdan ədalət yaxşı, zülm isə pisdir; sonsuz əql olan və hətta bütün ağılları ilhamlandıran Allah, ağılın yaxşı və gözəl hesab etdiyi işi tərk etməz və həmçinin ağılın .pis və qəbih saydığı işi görməz

Amma sonra işarə edəcəyimiz başqa yolla getmiş ilahi filosoflar əməli tövhid baxımından Allahın xaliq və yaradan olmasında şirk məsələsini rədd etməklə yanaşı, failliyi yalnız Haqqın zatına məxsus bilmirlər. Həmçinin işlərin yaxşı və pis olmasını Haqqın işlərindən sonrakı məqam və varlığın quruluşundan ayrılma hesab etməklə yanaşı, Allahın zülmdən pak və uzaq olmasını bildirirlər. İlahi filosoflar işlərin yaxşı və pisliyini inkar etmirlər və Əş’ərilərin nəzərini rədd edirlər. Amma onlar həmin məfhumların əhatə dairəsini yalnız insan həyatı çərçivəsi hesab edirlər. İlahi filosoflar baxımından yaxşı və pis məfhumları Allah barəsində meyar və miqyas rolunu oynamır

və Allah-taalanın işlərini tamamilə bəşəri olan bu me`yar və ölçülərlə təfsir etmək .olmaz

Filosofların fikrincə, Allah-taala ədalətlidir, amma bu, ədalət yaxşı olduğu və Allahın iradəsi həmişə pis deyil, yaxşı işlər görmək istiqamətində olduğu üçün deyil. Allah-taala zülm etmir və O, zalım deyil.

səh:۳۵

Amma bu, zülm pis və çirkin olduğu və Allah pis işlər görmək istəmədiyi üçün də deyil. İlahi ədalətin me’yarı, daha doğrusu ilahi ədalətin mə’nası tam başqa şeydir və bu .barədə sonra danışılacaq

Filosofların fikrincə, insanda bəşəriyyətin vicdani əxlaqını təşkil edən işlərin yaxşı və pisliyi fikri həqiqi deyil, şərti bir düşüncədir. Şərti düşüncənin dəyəri elmi və kəşf edilmə deyil, əməli dəyərdir. Onun yeganə dəyəri budur ki, o, vasitə və alət rolunu oynayır. Faili bil-qüvvə özünün iradi əməllərində kamillik hədəfinə çatmaq üçün «iş vasitəsi» kimi bu cür düşüncələr quraraq onlardan istifadə etmək məcburiyyətindədir. Allahın sırf vücud, tam kamal və xalis fe’liyyət olan müqəddəs zatı, bu qism faillik, düşüncələr və .vasitələrdən istifadənin bütün formalarından uzaqdır

Həqiqi və şərti düşüncələr arasındakı fərqin nə olması və zehnin yaxşı və pis qism düşüncələri necə düzəltməsi məsələsi isə çox ali və lətif bir bəhsdir ki, onların barəsində islam fəlsəfəsində geniş şəkildə danışılmışdır və biz burada həmin bəhslərə .daxil ola bilmərik

Filosoflar Allahdan başqasının failliyini Əş’ərilərin vəsf etdiyi formada rədd etmirlər və təbii ki, bəşəriyyətin zülm törətməsi və insanların zülmün cəmiyyətdən kəsilməsi istiqamətindəki mübarizədəki vəzifə və məs’uliyyət daşımalarını qəbul edirlər. Digər tərəfdən işlərin yaxşılıq və pisliyi məsələsinin Allahın işləri üçün meyar və miqyas edilməsini düzgün saymırlar. İslam fəlsəfəsinin heç bir yerində, əslində Allah üçün .vəzifə müəyyənləşdirmək olan bu əslə istinad edilməyib

Filosofların və Əş’əri olmayan mütəkəllimlərin fikrincə, ilahi ədalətə tutulan iradlar, həll .yolu göstərilməli olan bir sıra məsələlər kimi ortaya çıxıb

Bu arada digər bir dəstə də var və onlar iddia edirlər ki, kəlam və fəlsəfi yolların hamısı əqli və zehnidirlər və həmin yollar heç bir təcrübi və aşkar müşahidəyə əsaslanmırlar və buna görə də onlar e’tibarsızdır. Üsulidin, yə’ni yaradılışın başlanğıc və sonu ilə bağlı məsələlərdə, təbii elm alimlərinin getdikləri yollarla getmək lazımdır. İlahi ədalət məsələsi və onunla bağlı iradlara cavabları da yaradılış ünsürləri, cari quruluşlar və .onlarda olan gizli hikmətləri araşdırmaqla həll etmək lazımdır

Biz, bu nəzəriyyənin də düz və ya səhv olması barəsində «Fəlsəfənin əsasları və realizm üsulu» kitabının beşinci cildinin müqəddiməsində söhbət etmişik və burada həmin söhbətlərin bir daha təkrar edilməsini lazım bilmirik. Maraqlananlar həmin .kitaba müraciət edə bilərlər

İlahi ədalətin sonra deyəcəyimiz iradları, bu dəstə üçün də həll yolları axtararaq cavab verilməli olan məsələlərdəndir. Həmin məsələ bunlar üçün

hətta daha ciddidir. Çünki filosof və mütəkəllimlərin Allahın varlığı və Onun sifətlərinin bə’zisini isbat etmək üçün istifadə etdikləri yolların yalnız biri dünyanın möhkəm və həkimanə quruluşa malik olmasıdır və onların yolları bu bir yolla məhdudlaşmır. Buna görə də onlar ədalət və zülm məsələsinin iradlarını məntiqi yolla həll edə bilməsələr, onların Allah barəsindəki e’tiqad və imanlarına heç bir xələl gəlmir. Çünki Allahın varlığı yaradılış quruluşları yollarından başqa digər yollarla onlar üçün qətidir. Allahın varlığı və ədalətli olması onlar üçün başqa yollarla tam aydın olduğu üçün, onlar məsələlərin müfəssəl izahının öhdəsindən gələ bilməmələrinə baxmayaraq, yaradılışda ilahi ədalət məsələsinə ümumi iman gətirirlər. Amma bu yol bu dəstə üçün yeganə yoldur. Buna görə də onlar yaradılışda ədalət və zülm və ən yaxşı yaradılış baxımından izah və yozumu çətin olan məsələlərlə qarşılaşsalar, onların Allah barəsindəki iman və düşüncələrinin əsası titrəyir. Mə’lumdur ki, bu güzgü, ilahi ədalətin əks etdirilməsində .azacıq çirkli olsa və ya onun əksini göstərsə, iş kökündən dəyişəcək

Bu qrupun fikrincə, ədalət və zülm müəmması həll edilməyincə, Allahın varlığı barəsində qəti nəzər vermək olmaz, çünki ilahi ədalətlə bağlı iradlar Onun vücudu, .yə’ni yaradılışın kamillik və tamlığına xələl gətirir

Əllamə Hilli «Təcrid» kitabının şərhində Allahın elmi barəsindəki bəhsində deyir ki, yaradılışdakı şər və nöqsanlar barəsindəki iradların həll edilməməsi, Haqq-taalanın .elm və hikmətində naqislik kimi qiymətləndirilir

## ?ƏDALƏT NƏDİR

Aydınlaşması zəruri olan ilk məsələ ədalətin nə olmasıdır. Ədalət nədir? Zülm nədir? Ədalətin düzgün və dəqiq məfhumu aydınlaşmayınca, hər bir sə`y puça çıxacaq və səhvlərə yol veriləcəkdir. Ümumiyyətlə bu kəlmənin dörd mə’nası və ya dörd işlənmə .yeri vardır

Mütənasiblik; Müxtəlif hissələrdən təşkil edilmiş və müəyyən hədəf daşıyan bir .١ toplumu nəzərə alsaq görərik ki, həmin şeyin müxtəlif hissələrinin sayı, keyfiyyəti və onların bir-biri ilə əlaqə və bağlılığı xüsusi şəraitə məxsusdur. Həmin toplum yalnız deyilən şəraitdə qalaraq istənilən tə’sirini göstərib lazımı rolunu oynaya bilər. Məsələn, yaşamaq və qalmaq istəyən cəmiyyət mütənasib olmalıdır, yə’ni onda hər bir şey

,bərabər şəkildə deyil, mütənasib şəkildə olmalıdır. Mütənasib cəmiyyət iqtisadi, siyasi

mədəni, hüquqi və tərbiyəvi işlərə möhtacdır və həmin işlər şəxslər arasında bölüşdürülməlidir. İşlərin hər birinə lazım və zəruri olan qədər adam tə’yin edilməlidir. İctimai tənasüblük baxımından zəruri olan məsələ budur ki, ehtiyacların qədəri nəzərdə tutulmalı və ona uyğun və mütənasib şəkildə büdcə və güc sərf edilməlidir. Burada ortaya məsləhət, yə’ni ümumi kütlənin mənafe məsələsi qarşıya çıxır. Burada, kütlənin qalması və həmin ümumi kütlədən nəzərdə tutulan hədəflər nəzərə alınır. Bu .baxımdan «fərd» (və ya azlıq) yalnız vasitədir və o, özü üçün xüsusi hesaba malik deyil

Fiziki tənasüblük də bu cürdür. Belə ki, məsələn müəyyən hədəflər üçün düzəldilən və tam düzəldilməsi üçün müxtəlif şeylərə ehtiyacı olan maşının mütənasib olması üçün, onun düzəldilməsində hər bir maddədən lazım və zəruri olan və ehtiyac duyulan qədər .istifadə edilməlidir

Kimyəvi tarazlıq da belədir. Hər bir kimyəvi tərkib müəyyən formula malikdir və onu təşkil edən ünsürlər arasında xüsusi nisbət və uyğunluq vardır. Yalnız həmin formul və həmin müxtəlif uyğunluqların riayət edilməsi ilə tənasüb yaranır və həmin formul .düzəlir

Dünya da mütənasibdir. Əgər belə olmasaydı yerində qalmaz və müəyyən və :müntəzəm cərəyan və axıma malik olmazdı. Qur’ani-kərimdə deyilir

(Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!»(١)»

Təfsirçilərin dedikləri kimi, bu ayədən məqsəd budur ki, dünyanın quruluşunda tənasüb riayət edilib; hər bir şeydə hər bir maddədən lazım olan qədər istifadə edilib, fasilələr ölçülüb və sair. Peyğəmbərdən (s) nəql edilmiş hədisdə deyilir: «Göylər və yer «.ədalət vasitəsi ilə dayanıb

Ədalətin bu mə’nasının müqabil nöqtəsi zülm deyil, qeyri-mütənasiblikdir. Buna görə .də ədalətin bu mə’nası bizim söhbətimizin mövzusundan xaricdir

İlahi ədalətə ayrı-seçkiliklər, fərqlər və pisliklər baxımından tutulan iradlara cavab vermək istəyənlərin çoxu, məsələni ədalət və zülm baxımından irəli sürmək əvəzinə, onu tənasüb və qeyri-mütənasiblik baxımından araşdırıblar. Buna görə də bütün ayrı-

seçkiliklər, fərqlər və pislikləri dünyanın ümumi quruluşu baxımından lazımı və zəruri .bilməklə kifayətləniblər



---

.ər-Rəhman-۷ [۱۹] -۱

Dünyanın ümumi quruluşu baxımından və onda olan zəruri tənasüb nöqteyi-nəzərindən, mövcud şeylərin olmasının labüdliyində heç bir şübhə yoxdur. Amma bu .mətləb zülm barəsində olan iradlara cavab vermir

Tənasüb mə'nalı ədalət, dünyanın ümumi quruluşunda və ümumi baxışda tənasübsizliyin müqabilində durur. Amma zülm müqabilində olan ədalət bəhsi, hər bir şəxs və dünyanın tək-tək hər bir hissəsi barəsindədir. Birinci mə'nalı ədalətdə ümumi mənfəət, ikinci mə'nada isə fərd və şəxslərin haqq məsələləri irəli sürülür. Buna görə də irad tutan şəxs deyir ki, mən dünyada tənasübün olmasını inkar etmirəm, sadəcə olaraq deyirəm ki, bu tənasüblərin riayət edilməsi istər-istəməz bə'zi ayrı-seçkiliklərin olmasını tələb edir; həmin ayrı-seçkiliklər, ümumi mənfəəti nəzərə alanda rəva, cüz'i .və fərdi cəhətləri nəzərə alanda isə xoşagəlməzdir

Tənasüb mə'nalı ədalət, Allahın həkim və alim olmasının şə'nindəndir. Həkim və alim olan Allah hərtərəfli elmi və ümumi hikməti nəticəsində hər bir şeyin quruluşu üçün nədən nə qədər lazım və zəruri olmasını bilir və onda, həmin şeydən lazım olan qədər .də qoyur

Ədalətin ikinci mə'nası bərabərlik və hər bir ayrı-seçkiliyin rədd edilməsidir. Bə'zən .٢ filankəs ədalətlidir deyəndə, onun insanlar arasında heç bir ayrı-seçkilik qoymaması .nəzərdə tutulur. Buna görə də burada ədalətdən məqsəd bərabərlikdir

Bu tə'rifin izaha ehtiyacı var. Belə ki, əgər məqsəd ədalətin heç bir ləyaqəti nəzərə almamağı tələb etməsi və hər bir şey və hər bir şəxsə bir gözlə baxılmasını zəruri sayması nəzərdə tutulursa, məhz bunun özü zülmdür. Əgər bərabər bölüşdürmək ədalətdirsə, bərabər bölüşdürməmək də ədalət olacaqdır. Avamcasına deyilən .«Bərabər zülm də ədalətdir» cümləsi də bu nəzərdən yaranıb

Amma, əgər məqsəd bərabər layiqlilik və haqlarda bərabərliyin riayət edilməsidirsə bu, düzgün mə'na daşıyır. Ədalət bu cür bərabərliklərin riayət edilməsini tələb edir və həmin bərabərliklər ədalətin tələblərindəndir. Amma belə olan surətdə bu mə'na izah .edəcəyimiz üçüncü bir mə'naya qayıdır

Ədalətin üçüncü mə'nası şəxslərin haqlarının riayət edilməsi və hər bir haqq .٣

sahibinə öz haqqını verməkdir. Zülm isə başqalarının hüquqlarını pozmaq və onların haqlarını zəbt etməkdir. İctimai ədalətin həqiqi mə’nası, yə’ni insani qanunlarda riayət edilməsi zəruri olan və bəşəriyyətin hörmətlə yanaşmalı olduğu ədalət bu mə’nadadır. .Bu ədalət iki şeyə əsaslanır

Onlardan biri hüquq və üstünlüklərdir. Belə ki, insanlar bir-birlərinə nisbətdə və bir-birləri ilə müqayisədə bir növ hüquq və üstünlüklər

qazanırlar. Məsələn, öz zəhməti ilə məhsul yetişdirən və ya istehsal edən şəxs təbii olaraq həmin məhsuldan istifadədə başqalarına nisbətdə üstünlüyə malik olur. Bu üstünlüyün mənşəyi onun zəhmət və fəaliyyətidir. Həmçinin anadan doğulmuş uşaq ana südünə qarşı haqq və üstünlüyə malik olur və uşağın bu üstünlüyü əldə etməsinin .səbəbi həmin südü bu uşaq üçün yaratmış hədəfli yaradılış qanunudur

Digəri isə insanın zati xüsusiyyətidir. İnsan elə yaradılıb ki, o, çarəsiz olaraq öz işlərində şərti düşüncələr adlandırdığımız xüsusi düşüncələrdən istifadə edir. O, həmin şərti düşüncələrdən «iş aləti» kimi istifadə edərək öz təbii məqsədlərinə çatır. Həmin düşüncələr bir sıra «inşai» düşüncələrdir ki, bir sıra «gərək»lərlə müəyyənləşdirilir. Bunlara misal olaraq demək olar ki, hər hansı bir cəmiyyətin üzvləri, öz səadət və xoşbəxtliklərinə daha yaxşı çatmaları üçün hüquq və üstünlüklərə riayət etməlidirlər, yə'ni onlar «gərək» hüquq və üstünlüklərə riayət etsinlər. Hər bir şəxsin vicdanının təsdiqlədiyi və bunun müqabil nöqtəsi olan zülmü məhkum edərək pislədiyi insani .ədalətin mə'nası budur

:Mövləvi məşhur şe'rlərinin birində belə deyir

Ədl çe bud? Vəz'əndər mozeəş

Zolm çe bud? Vəz'dər namozeəş

Ədl çe bud? Ab de əşcarra

Zolm çe bud? Ab dadən xarra

Moze'e rox, şəh nəhi viranist

Moze'e şəh? Pil həm nadanist

Mə'nası: Ədalət nədir? Hər şeyi öz yerinə qoymaq. Zülm nədir? Şeyi öz yerinə qoymamaq. Ədalət nə oldu? Ağaclara su vermək. Zülm nə oldu? Tikanı sulamaq. (Şahmatda) topun yerinə şah qoymaq viranılıqdır. Şahın yerinə fil qoymaq da .nadanlıqdır

Ədalət və zülmün bu mə'nası, bir tərəfdən üstünlüklər prinsipi əsasında olması, digər

tərəfdən isə insanın naçar olaraq bir sıra şərti düşüncələrdən istifadə etməsi və «gərək»lər və «olmamalı»lar düzəldərək «yaxşı və pislər» formalaşdırması olan zati xüsusiyyətindən yarandığı üçün, bəşəriyyətə məxsusdur və Allahdan uzaqdır. Çünki əvvəllər dediyimiz kimi O, mütləq malikdir və heç bir varlıq onunla müqayisədə heç bir şeyə sahib olmaqda üstünlüyə malik deyil. O, mütləq malik olduğu kimi həm də mütləq «üstün»dür. Onun, hər bir şeydən istənilən formalı istifadəsi, öz mülkindən istifadə etməsidir. Buna görə də bu mə'nalı zülm, yə'ni

başqasının haqq və üstünlüyünə təcavüz və başqasının haqqından istifadə və başqasının mülkiyyətinə qədəm qoymaq Onun barəsində qeyri-mümkündür. Bu, ona .görə qeyri-mümkündür ki, həmin iş zahirdə gerçəkləşə bilmir

Ədalətin digər mə’nası isə vücud verilməsində haqqın riayət edilməsi və vücuda .۴ gəlmək və ya kamala çatmaq imkanı olan yerdə feyz və rəhmət verilməsindən imtina etməməkdir. Biz sonrakı söhbətlərimizdə varlıqların, varlıq aləmində ləyaqət və tutumları və varlığın başlanğıcından feyzi qəbul etmək baxımından bir-birləri ilə fərqli olmaları barəsində danışacağıq. Hər bir varlıq tutduğu dərəcədən asılı olmayaraq, feyzi qəbul etmə baxımından özünəməxsus ləyaqət və tutuma malikdir. Mütləq kamal, xeyir və feyz verən olan Haqqın müqəddəs zatı, hər bir varlığa vücud və kamaldan onun imkanı olan qədər əta edir və heç nəyi əsirgəmir. Bu nəzəriyyəyə əsasən, ilahi ədalət yaradılışda, tutduğu dərəcədən asılı olmayaraq hər bir varlığa layiq olduğu və qəbul etmək imkanı olan qədər əta etmək mə’nasınadır. Zülm isə varlığın layiq olduğu .feyz və bərəkəti ondan əsirgəmək deməkdir

İslam filosoflarının fikrincə, Allahın zatına layiq olan və Onun zatı üçün kamillik sifəti kimi isbat edilən ədalət sifəti və həmçinin, naqislik sifəti olan və Ondan uzaqlaşdırılan .zülm də həmin mə’nadadır

Filosoflar deyirlər ki, heç bir varlığın, Allahın boynunda, verilməsi vacib olan və borcun qaytarılması sayılan haqqı yoxdur və Allah-taalanın ədalətli hesab edilməsinin səbəbi Onun başqaları müqabilində olan həmin vəzifəsini diqqətlə yerinə yetirməsi deyil. Allah-taalanın ədaləti eyni ilə Onun fəzl və bəxşişidir, yə’ni Allahın ədaləti budur ki, O, heç bir varlıqdan onun imkanı olan qədər fəzl göstərməsini əsirgəmir. Həzrət Əli (ə)-ın Nəhcül-bəlağənin ۲۱۴-cü xütbəsindəki sözünün mə’nası da budur. O həzrət buyurur: «Haqq birtərəfli deyil. Əgər birinin digərinin boynunda haqqı olursa, digərinin də onun boynunda haqqı olur. Yalnız Allah-taaladır ki, varlıqların boynuna haqq qoyur və varlıqlar Onun müqabilində bir sıra vəzifələr yerinə yetirməli olurlar. Amma heç bir «.varlığın onun boynunda haqqı olmur

Əgər biz yeganə və düzgün miqyas olan bu me’yarla araşdırma aparsaq «şər», «ayrı-seçkilik», «zülm» və bu kimi digər şeylərin arasında, hansısa varlığın doğrudan da

vücuda gəlmək imkanına malik ola-ola vücuda gətirilməməsinin olub-olmamasına və ya ümumi varlıqda hansısa kamillik mərtəbəsinə çatmaq imkanına malik olmasına baxmayaraq, ondan əsirgənilməsinə baxmalıyıq. Görəsən hansısa bir varlığa verilməməli olan bir şey verilibmi? Yə'ni Haqqın zatı tərəfindən xeyir və bərəkət verilməsi

əvəzinə, şər və bədbəxtlik, kamillik yerinə isə, əksinə tam naqislik olan bir şey ?verilibmi

Sədrul-Mütəəllihin «Əsfar» kitabının ikinci cildinin «növün formaları» bəhsində «kainatın (zaman hadisliyi ilə hadis olan varlıqlar) vücuda gəlmə tərzi necə vücuda gəlməlidir?» adlı bir fəsil var. O, həmin fəsildə filosof baxışları ilə ilahi ədalətin mə'na və :məfhumuna işarə edərək belə deyir

Bundan əvvəl bildiniz ki, maddə və forma təbii işlərin iki yaxın səbəbidir və onların bir-» birlərindən ayrılmazlıqları bəhsində belə nəticəyə gəlindi ki, maddiyyatdan üstün bir amil də vardır. Gələcəkdə — ümumi hərəkətlər bəhsində hərəkətlərin maddiyyatdan da üstün, son hədəflərinin olmasını isbat edəcəyik; maddiyyatdan üstün olan amil və hədəf, maddi varlıqlardan uzaq olan iki səbəbdir. Əgər həmin iki uzaq səbəb, maddi varlıqların yaranmasında kifayət etsəydi, maddi varlıqlar həmişəlik olaraq qalar, fanilik və yoxluq onlara yol tapmazdı və onlar elə əvvəldən özlərinin bütün layiqli kamilliklərinə sahib olar və onların əvvəlləri eyni ilə axırları kimi olardı. Amma həmin iki uzaq səbəb kifayət deyil və iki yaxın səbəb (maddə və forma) də tə'sirlidirlər. Başqa bir tərəfdən formalar arasında ziddiyyət bərqərardır və ilkin keyfiyyətlər fəsada uğrayır və hər bir maddə ziddiyyətdə olduğu surətlərin imkanlarına malikdir. Buna görə də hər bir varlıq iki ziddiyyətli imkan və ləyaqət əldə edir və onda iki növ ziddiyyətli tələbat yaranır. Həmin ziddiyyətlərdən biri forma, digəri isə maddə tərəfindəndir. Forma qalmaq və mövcud vəziyyəti qorumağı, maddə isə vəziyyəti dəyişərək əvvəlki formada zidd hala düşməyi tələb edir. Bu iki zidd ləyaqət tələbatın bir anda yerinə yetməsi mümkün deyil, çünki maddə eyni anda bir-birinə zidd formalara malik ola bilməz. İlahi bəxşiş aləmlərin ən aşağı səviyyəlisi olan bu aləmin maddəsinin formalar vasitəsi ilə təkmilləşdirilməsini tələb edir. Buna görə də ilahi hikmət, formaların daimən zaman boyu dəyişərək yerini əvəz etməsi və hər bir hal və formanın zəruri olaraq müəyyən zamana aid olması və varlıqlardan bəhrələnə bilməsi üçün dövrü hərəkət, fasiləsiz zaman və dəyişkən maddəni yaradıb. Həmçinin maddə müştərək olduğu üçün, hər bir forma digər formanın yanında sahibinə verilmək haqqına malikdir; «ədalət» bu formanın maddəsinin digərinə, digərinin isə buna verilməsini və beləliklə maddənin formalar arasında dövr etməsini tələb edir. Həmin ədalət və haqların riayət

edilməsi xatirinə görədir ki, aləmin quruluşu fərdlərin deyil, növlərin qalmasına əsaslanır».

Söz bura çatanda qarşıya digər bir sual çıxır: Bütün əşyalar Allah müqabilində bərabər nisbətlə dayandıqları üçün, ortada haqq məsələsi yoxdur ki, ədalət haqların riayət edilməsi mə’nasında gerçəkləşsin? Əgər Allah barəsində hər hansı ədalət gerçəkləşirsə o, bərabərliklərin riayət edilməsi mə’nasında olan ədalətdir. Çünki deyildiyi kimi, haqların riayət edilməsi baxımından ortada heç bir fərq məsələsi yoxdur. Deməli, haqların riayət edilməsi və bərabərliklərin nəzərə alınması mə’nasında olan ədalət, Allah barəsində olduqca müəyyən bir nəticə verir. Buna görə də ilahi ədalət məxluq və yaradılmışlar arasında heç bir ayrı-seçkilik və fərqin olmamasını tələb edir, halbuki onlar arasında müxtəlif fərqlər var. Ümumiyyətlə mövcud olan şey fərq, .çeşidlilik, səviyyə və dərəcə ayrılıqlarıdır

Bu sualın cavabı budur ki, əşya barəsində Allaha nisbətdə işlədilən haqq və ləyaqətlərin mə’nası, yaranma ehtiyacı və imkanı və ya varlığın kamalıdır. Yə’ni Allah-taala mütləq amil və feyz verməsi vacib olan vücud olduğu üçün, vücuda gəlmək və ya bir növ kamal əldə etmək imkanı olan hər hansı bir varlığa vücuda gəlmə imkanı və ya kamal əta edir. Sədrul-Mütəəllihindən nəql etdiyimiz kimi, Allah ədalətinin mə’nası Onun, heç bir əsirgəmə olmadan varlıq imkanı olan və varlıqda kamal imkanına malik .bütün varlıqlara qarşı ümumi feyz və bəxşişindən ibarətdir

Bəs imkan və haqqa malik olmalardakı fərqlərin kökü hardadır? İlahi feyzin ümumi və sonsuz olmasına baxmayaraq, əşyaların zatında imkan, tutum və ləyaqətlər baxımından fərqlənmələri məsələsi xüsusi bir bəhsdir ki, inşallah iradlara cavab .verərkən onları da izah edəcəyik

## İRADLAR

.İndi isə bu barədə tutulan iradların nədən ibarət olmalarını araşdıraq

Bu barədə tutulan ilk irad budur ki, nə üçün dünyada ayrı-seçkilik və fərqlər mövcuddur? Nə üçün biri ağ, digəri isə qaradır? Nə üçün biri gözəl, digəri isə çirkindir? Biri sağlam, digəri isə şikəstdir? Hətta, nə üçün biri insan, digəri isə qoyun və ya soxulcandır? Nə üçün biri bitki, digəri isə qeyri-üzvi maddədir? Nə üçün biri şeytan, o biri isə mələkdir? Nə üçün hamı bir deyil? Nə üçün hamı ağ və ya qara deyil? Nə üçün hamı gözəl və ya çirkin deyil? Əgər fərq olmalıdırsa, onda nə üçün ağ olan qara və

?qara olan ağ olmayıb? Nə üçün çirkin olan gözəl, gözəl olan isə çirkin olmayıb

Digər bir sual isə fanilik və yoxluqlar barəsindədir. Nə üçün əşya vücuda gəlir, sonra isə yox olur? Nə üçün ölüm var? Nə üçün insan dünyaya gələrək həyatın ləzzətini daddıqdan sonra və onda əbədilik arzusu yarandıqdan sonra yoxluq diyarına ?göndərilir

Bu sualın ədalət və zülmlə bağlılığı «sırf yoxluq naqis varlıqdan yaxşıdır» cümləsi baxımındandır. Hər bir şey və şəxs nə qədər ki, vücuda gəlməyib, heç bir haqqa malik deyil, amma vücuda gələn kimi qalmaq haqqı qazanır. Əgər əşya heç yaradılmasaydı, .yaradılıb nakam aparılmasından daha yaxşı olardı. Deməli bu cür yaradılış zülmdür

Digər bir sual isə budur ki, varlıqların məhdudiyyət, fanilik və yoxluğa düçar ?olmalarından əlavə nadanlıq, acizlik, zəiflik və yoxsulluq kimi naqisliklər nə üçündür

Bu məsələnin də ədalət və zülm məsələsi ilə bağlılığı var, yə’ni belə təsəvvür yaranır ki, elm, qüdrət, qüvvə və sərvətə ehtiyacı olan hər bir varlığa, həmin şeylərin verilməməsi zülmdür. Bu iradda belə təsəvvür edilir ki, vücuda gəlməyənin haqqı yoxdur, amma o, yaradılan kimi yaşayış və həyata lazım olan şeylər baxımından bir sıra haqlar əldə edir. Deməli nadanlıq, acizlik, zəiflik, yoxsulluq, aclıq və bu kimi şeylər haqqın düzgün .verilməməsidir

Digər sual isə budur ki, ayrı-seçkilik və fərqlər, hər bir şeyin icbari olaraq fani olmağa məhkumluğu, dünyaya gəlmiş bə’zi varlıqların həyat ləvazımatının əsirgənilməsindən əlavə, yarı yolda varlığı yoxluq diyarına atan və ya var ola-ola onun həyatını əziyyət və məşəqqətlərə düçar edən bəla və müsibətlər nə üçündür? Mikroblar, xəstəliklər, zülm və boğanaqlar, oğurluqlar, sellər, tufanlar, zəlzələlər, ayrılıqlar, müsibətlər, müharibələr, ziddiyyətlər, şeytan, pis işlərə əmr edən nəfs və bu kimi şeylər nə ?üçündür

.Bunlar ədalət və zülm barəsində irəli sürülən bir sıra suallardır

Əlbəttə həmin sualları bir az dəyişdirərək ədalət və zülm kimi ilahiyyat məsələlərindən olan səbəb və nəticədə hədəf məsələsi, vacib sifətlərdə ilahi lütf və yaxşılıq kimi başqa adlar altında da irəli sürmək olar. Deyilir ki, əgər yaradılışda hansısa hədəf və məqsəd varsa və o, tam hikmətə əsaslanırsa, hər bir şeyin bir faydası olmalıdır . Buna görə də nə faydasız və nə də ziyanlı bir şey yaradılmamalıdır. Həmçinin faydası olan heç bir şey tərk edilməməli və yox olmamalıdır. Ayrı-seçkilik, fərq, yoxluq, nadanlıq və acizliklər bərabərlik, əbədilik, elm, qüdrət və bu kimi yaradılması zəruri olan digər şeylərin yaradılmamaları və başqa bir tərəfdən faydası olmayan və ya xəstəliklər, zəlzələ və sairə ziyanlı şeylərin yaradılmalarının nişanəsidir. Bu məsələ ali ilahi hikmət və tənasüb

.mənasında olan ədalətlə bir araya sığmır

Həmçinin həmin məsələ bir az fərqlə tövhid məsələsində xeyir və şər adı ilə irəli sürülə bilər. Məsələ belə irəli sürülür ki, varlıq aləminə dualizm hakimdirsə, onların iki kökü olmalıdır! Filosoflar xeyir və şər məsələsini

bə’zən «dualizm» nəzəriyyəsini rədd etmək üçün tövhid bəhsində, bə’zən isə ali hikmətlə bağlı ilahi lütf məsələsində irəli sürürlər. Burada deyilir ki, ilahi lütf varlıq donu geyə biləcək hər bir şeyin xeyir və kamil olmasını və mövcud quruluşun ən gözəl formada olmasını tələb edir, bəs onda bu gözəl quruluşa zərbə vuran şər və nöqsanlar ?mövcud olmamadığı halda, necə var olub

Biz bu məsələni yalnız ədalət və zülm baxımından irəli sürürük. Amma söhbət əsnasında, istər-istəməz məsələnin digər cəhətləri də irəli sürülərək həll ediləcək. Dediyimiz kimi, ədalət zülm kəlməsinin müqabilində dayananda bərabərlik və tənasüb deyil, haqq və ləyaqətlərin riayət edilməsi mə’nasındadır. Əlbəttə işarə etdiyimiz kimi, Allahın zatı barəsində haqq və ləyaqətlərin riayət edilməsi başqalarının güman .etdikləri kimi deyil, filosofların dərk edərək çatdıqları kimidir

## ÜSULİDİNDƏ ƏDALƏT

Əgər ilahiyyatın digər məsələlərində şübhə və iradlar varsa, onlar mütəkəllim, filosof və elm əhli üçün qarşıya çıxır. Həmin mətləblər çətin olmalarına baxmayaraq, ümumi kütlənin fikir dairəsindən xaric olduğu üçün, onlara tutulan iradlar və onların cavabları ümumi kütlənin dərkindən yuxarı səviyyədə irəli sürülür. Amma ilahi ədalət barəsindəki iradlar aşağı və ümumi kütlə səviyyəsindədir. Bu barədə həm savadsız .təbəqə, həm də mütəfəkkir filosoflar fikirləşirlər

Buna görə də, ədalət məsələsi xüsusi əhəmiyyət və mövqeyə malikdir. Elə bu cəhəti (Əş’ərilər deyil, Şiə və Mö’təzilə kimi) islam alimlərinin, ədaləti «üsulidin» (dinin kökləri) məsələləri sıralarında yerləşdirmələri və onu ikinci əsas hesab etmələrinin səbəbi hesab etmək olar. Çünki belə olmayan surətdə, ədalət də Allahın sifətlərindən biridir və əgər ilahi sifətləri dinin əsaslarından sayırıqsa, onda gərək elm, qüdrət, iradə və bu kimi digər sifətləri də dinin köklərindən sayaq. Şiələrin, ədaləti üsulidinin əsaslarından biri saymasının əsas səbəbi başqa bir şeydir. Həmin səbəb budur ki, şiələrlə sünnilərin Allahın digər sifətlərində heç bir ziddiyyəti yox idi və əgər hansısa ziddiyyət var idisə də, o, qabarıq şəkildə irəli sürülmürdü. Amma onların arasında ədalət məsələsində kəskin ziddiyyət var idi və bu məsələ çox güclü şəkildə işıqlandırılırdı. Belə ki, ədalətə inam bəsləmək və ya inanmamaq təriqət və məzhəblərin nişanəsi sayılırdı. Məsələn,

birinin şiə və ya sünni və əgər sünnidirsə Mö’təzilə və ya Əş’əri olması həmin inamla müəyyənləşdirilirdi. Təkcə ədalət Əş’ərilik, ədalətlə imamət birlikdə isə şiəlik əlaməti sayılırdı. Buna görə də deyilirdi ki,

islamda üsulidin üç əsasdan ibarətdir, şiə məzhəbində isə həmin üç əsasdan əlavə, .ədalət və imamət də vardır

## ƏDALƏT VƏ HİKMƏT

Bundan əvvəl qeyd etdik ki, Allah sifətləri içərisində, tutulan iradlar baxımından bir-.birinə yaxın olan iki sifət ədalət və hikmətdir

Allahın ədalətli olmasından məqsəd budur ki O, heç bir varlığın layiq olduğu haqqı ondan əsirgəmir və hamıya layiq olduğunu verir. Həkim olmasından məqsəd isə, :məxluqatın ən gözəl və yaxşı şəkildə xəlq edilməsidir. Xacə Nəsrəddin Tusi deyir

Coz'hokm həqqi ke hokmra şayəd nist

Hokme ki ze hokme həqq fuzun ayəd nist

Hər çize ke həst, an çenan mibayəd

An çize ke an çenan nə mibayəd nist

Mə'nası: Haqqın hökmündən başqa heç bir hökm, hökm olmağa layiq deyil; Haqqın hökmündən üstün hökm yoxdur; hər nə varsa, elə həmin cür olmalıdır; elə olmamalı .bir şey yoxdur

Allah-taalanın hikmət və lütfünün lazımı nəticəsi dünya və varlığın hədəf və mə'naya malik olmasıdır. Yaranan hər bir şey öz-özlüyündə xeyirdir və ya xeyirə çatmaq üçün .vasitədir

Hikmət» alimlik və iradəliyin xüsusiyyətlərindən və dünya üçün son illətin olmasının» nişanələrindəndir. Amma «ədalət»in elm və iradə sifətləri ilə heç bir əlaqəsi yoxdur. Ədalət, dediyimiz mə'nada Allahın failliyinin xüsusiyyətlərindən, yə'ni Onun zati deyil, .əməli sifətlərindəndir

Allahın ədalət və hikmətinin müştərək iradı bədbəxtliklər, başqa ibarətlə desək, dünyada şərlərin olmasıdır. «Şərlər» məsələsini «zülm» adı altında ilahi ədalətə irad saymaq və Həmçinin «hədəfsiz işlər» adı ilə Allah-taalanın ali hikmətinə nöqsan kimi

qiymətləndirmək mümkündür. Buna görə də o, materializmə yönəlmənin səbəblərindən biri sayılır. Məsələn, biz canlı varlıqların təhlükələr qarşısında özünü qorumaq xüsusiyyətinə malik olmalarını ilahi hikmətin dəlili kimi qiymətləndirəndə, dərhal ortaya belə bir sual çıxır: Ümumiyyətlə nə üçün təhlükə var ki, bizim də müdafiə və qoruyucu xarakterli sistemlərə ehtiyacımız olsun? Nə üçün ziyanverici virus və mikroblar var ki, onlarla mübarizə aparmaq da lazım gəlsin? Nə üçün yırtıcı heyvan var ki, qaçan ayaq, buynuz və ya digər vasitələrə ehtiyac olsun? Heyvanlar aləmində bir tərəfdən zəif və ovlanan

heyvanlarda qorxu hissi var, digər tərəfdən isə güclü və ov edən heyvanlarda yırtıcılıq xüsusiyyəti mövcuddur. İnsan üçün belə bir sual yaranır ki, nə üçün hücum və təcavüz amili var ki, şüur və hesabla qoruyuculuq sisteminin yaranmasına ehtiyac da olmuş ?olsun

Həllinin dəqiq araşdırmalara ehtiyacı olan bu iradlar qorxulu burulğan kimi özündə bir :çox qrupları boğaraq məhv edib. Burada belə demək lazımdır

Dər in vərte kəşti füru şod hezar

.Ke naməd əz u təxteyi dər kənar

Mə’nası: Bu burulğanda minlərlə gəmilər batıb ki, sahilə onların bir taxtaları belə gəlib .çıxmayıb

Materialist dualizmi və bədbinlik fəlsəfələri adətən bu qorxunc şübhələr burulğanında .yaranıb

### DUALİZM

Bəşəriyyət, xüsusilə ariya soylu xalqlar lap qədimlərdən dünyanın işlərini iki qrupa – yaxşı və pisə bölürmüş. Nur, yağış, günəş, yer və bir çox şeyləri xeyir və yaxşılar qütbündə, qaranlıq, quraqlıq, sel, zəlzələ, xəstəlik, yırtıcılıq və quduzluğu isə pis və şərlər sırasında yerləşdirirmişlər. Əlbəttə, bu qruplaşdırmada insan özünü həmin şeylərin yerini müəyyənləşdirmək me’yarı və miqyası edirmiş, yə’ni o, özü üçün xeyirli olduğunu gördüyü hər bir şeyi yaxşı, zərərli gördüyü şeyi isə pis adlandırırmış. Qədim insanlar üçün belə bir sual yaranıbmış ki, görəsən pis və şər işləri də yaxşı və xeyirli işləri yaradan kimsə yaradır, yoxsa yaxşılar bir mənşə, şərlər isə başqa bir mənşədən vücuda gəlirlər? Görəsən yaxşı və pisin yaradıcısı birdir, yoxsa dünyanın iki başlanğıc ?və yaradıcısı vardır

Onların bir qrupu belə qənaətə gəlib ki, dünyanı yaradanın özü ya yaxşı və xeyirxahdır, ya da pis və bədxah. Əgər yaxşıdırsa pisləri və əgər pisdirsə yaxşı və xeyirliləri yaratmaz. Onlar bu düşüncə ilə belə bir nəticəyə gəliblər ki, dünyanın iki başlanğıc və .qaynağı (dualizm) vardır

Qədim iranlıların yaxşı və pisin (xeyir və şərin) hər birinə bir qaynaq və mənbə təsəvvür etmələri və sonralar «Əhrimən» və «Yəzdan» ifadəsi ilə bəyan edilən şeylərə e’tiqad bəsləmələri həmin mənşədən yaranıb.

Tarixi nişanələrə əsasən, ariya kökünə mənsub olan insanlar İran torpaqlarında yerləşdikdən sonra təbiətin od, günəş, yağış, torpaq və külək kimi cilvələrinin pərəstişinə başlayıblar. Tarixçilərin nəzərlərinə əsasən,

səh:۴۷

iranlılar pis və şər şeylərə pərəstiş etməyiblər. Amma ariya soyuna mənsub olmayan digər xalqlar da olub ki, onlar xəbis ruhları razı salmaq bəhanəsi ilə pis və şər şeylərə pərəstiş ediblər. Qədim İranda iki şeyə pərəstiş deyil, iki mənşə və iki yaradanın olması .əqidəsinə inananlar olub, yə'ni iranlılar ibadətdə deyil, yaradılışda şirkə qail olublar

Sonralar Zərdüşt zühur edib. Tarixi baxımdan, Zərdüştliyin əslində tövhid və ya «ikitirəli» din olması tam şəkildə mə'lum deyil. Mövcud Avesta da həmin qaranlıq nöqtəni aydınlaşdırmır. Çünki bu kitabın müxtəlif hissələri bir-birindən çox fərqlənir. Avestanın «vendidad» adlı bölməsi aşkarcasına ikitirəliyə tə'kid edir. Amma onun «qat»lar bölməsindən elə də ikilik əqidəsi başa düşülmür. Hətta bə'zi tədqiqatçıların iddialarına görə, həmin fəsildən tövhid nəticəsinə gəlinir. Elə həmin böyük fərq və ziddiyyətlərə görə tədqiqatçılar mövcud Avestanın bir nəfərin əsəri olmamasını .bildirirlər. Onlar deyirlər ki, bu Avesta ayrı-ayrı şəxslər tərəfindən yazılıb

Bu barədə olan tarixi araşdırmalar yetərli deyildir. Amma biz «məcus» barəsində olan islami əqidəmizə görə, zərdüştliyi əsası tövhid dini olmuş bir din hesab edə bilərik. Çünki, islam alimlərinin əksəriyyətinin fikrinə əsasən, zərdüştlər kitab əhli sayılırlar. Tədqiqatçı tarixçilər də həmin əqidəni təsdiqləyərək deyirlər ki, dualizm əqidəsinin zərdüşt dininə nüfuzu, bu dinin zühurundan qabaq ariya soyunda ikiallahlıq əqidəsinin .olması ilə bağlıdır

Əlbəttə, biz yalnız sırf tabeçilik, yə'ni islami əsərlər yolu ilə zərdüştliyi tövhid şəriəti hesab edə bilərik. Amma zərdüştliyə mənsub olan tarixi əsərlər baxımından onu tövhid dini adlandıra bilmərik. Çünki tədqiqatçıların «qatlara» əsaslanaraq dedikləri ən tutarlı şey budur ki, zərdüşt zati tövhid tərəfdarı olub, yə'ni o, yalnız bir varlığı öz zatına əsaslanan və yaradılmamış varlıq hesab edirmiş və o, Ahuramazda imiş. O, Ahuramazdanı bütün varlıqların, hətta Əhrimənin də yaradanı hesab edirmiş. Başqa sözlə desək, zərdüşt varlıq aləminin yalnız bir kökünün olmasına inanırmış. Həmçinin, bə'zi tədqiqatçıların sözlərinə əsaslanaraq zərdüştü ibadi tövhidin tərəfdarı, yə'ni bir varlığa pərəstiş edən hesab edə bilərik. Amma hər hansı bir dinin tövhid dini olması üçün zati və ibadi tövhiddən əlavə, yaradılışda tövhid də lazımdır. Zərdüşt dini isə tarixi sənədlərə əsasən, yaradılış baxımından tamamilə ikitirəli olub. Çünki həmin tə'limlərdən belə mə'lum olur ki, «ənqromenu»nun (xəbis əql) müqabil nöqtəsi

«sepentmenu» (müqəddəs əql)-dir. «Sepentmenu» yaxşı, yə’ni yaxşı olan və yaradılmalı olan şeylərin mənşəyidir. Amma ənqromenu və ya Əhrimən pis şeylərin, yə’ni yaradılmamalı və Ahuramazda və ya

sepentmenunun, onları yaratmaq məs’uliyyəti daşımadığı və yaradılışları anqrumanyunun öhdəsinə olan şeylərin mənşəyidir. Bu fikrə əsasən, varlıq aləmi iki köklü olmamasına baxmayaraq ikitirəlidir, yə’ni Ahuramazdadan başlanan varlıq, iki qola bölünür. Onlardan biri sepentmenu və yaxşı tə’sirlərindən ibarət yaxşı qol, digəri isə ənqromenu və onun bütün pis tə’sir və yaratdıqlarından ibarət pis qoldur. Əgər Zərdüştdən qalmış ən mö’təbər və ən tövhidi əsər olan qatları me`yar götürsək, onu beş-altı xeyir və şərdə, mövcud quruluşun ən gözəl quruluş olmaması və ali hikmətlə uyğun gəlməməsi əqidəsinə düçar olmuş görəcəyik. Bu cəhət onu səma elçilərindən .tamamilə ayırır

Zərdüşt dini həmin naqis cəhətlərinə görə dualizmlə mübarizə apara bilmədi. Belə ki, dualizm əqidəsi ondan sonra, bir daha iranlılar arasında varlığın iki köklü olması mə’nasında meydana çıxdı. İranda bir növ zərdüştçiliyin qollarından sayılan sasani .dövrünün zərdüştləri, manovilər və məzdəkilər ən yüksək səviyyəli «ikitirəli» olublar

Həqiqətdə demək lazımdır ki, zərdüşt dini şirk və ikitirəliyi hətta qatlar səviyyəsində belə iranlıların ürəyindən çıxara bilmədi və özü də bu xurafi əqidəyə məğlub olaraq .təhrif edildi

Ancaq islam neçə min illik bu xurafatı iranlıların beyinlərindən çıxara bildi. Bu islamın fövqəladə qüdrətinin və iranlıların ruhundakı dərin tə’sirlərinin nişanələrindəndir ki, dualizm əqidəsi ət və qanlarına hopmuş xalqı, bu iyrənc xurafatdan nicat verdi. Dualizm iranlıların canlarına elə yerimişdi ki, hətta Domuzil kimi bə’zi şərqşünaslar onu iranlı təfəkkürünün əsası hesab ediblər. Onlar bu xurafata o qədər əsir olmuşdular ki, onun tə’siri altında öz dinlərini belə təhrif edirdilər. Bəli, islam iki qüvvəyə pərəstiş edən iranlılardan əsl təkallahlı yetişdirdi ki, onlar «Göyləri və yeri (yoxdan) xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd olsun!...»(١) həqiqətini öyrənərək «O, yaratdığı hər şeyi gözəl yaratdı...»(٢) mə’nasına e’tiqad bəsləyib «...Rəbbimiz hər şeyə Öz surətini və şəklini verən sonra da ona doğru yolu göstərən Allahdır!»(٣) gerçəkliyinə iman gətirib onu dərk etdilər və Allah, yaradılış, varlıq və dünyaya eşq onların vücudlarını elə :əhatə etdi ki, varlıq aləminin sitayişində belə dedilər

١- [٢٠] ١-əl-Ən’am.

٢- [٢١] ٧-əs-Səcdə.

٣- [٢٢] ٥٠-Ta-ha.

Be cəhan xorrəm əz anəm ke cəhan xorrəm əz ust

Aşeqəm bər həme aləm ke həme aləm əz ust

Be eradət be xorəm zəhr ke şahed saqist

Be cəladət bekeşəm dərd ke dərman həm əz ust

Mə'nası: Mən dünyada ona görə şadam ki, dünyanın şadlığı ondandır; bütün aləmə aşiqəm ki, aləmin hamısı ondandır; saqi şahid olan zəhəri tam iradə və razılıqla .içərəm; dərmanı ondan olan dərdi şirinliklə çəkərəm

İranlı, islamdan sonra şərlər üçün nəinki Allaha rəqib olan mənşəyə qail deyil, əksinə ali irfani baxışda ümumi yaradılış aləmində olan pisliklər, onun gözündə məhv olur və o, «ümumiyyətlə pislik mövcud deyil» və ya «pis, olmayan şeydir» deyir. Qəzzali deyib ki, «mövcud quruluşdan gözəl quruluşun olması mümkün deyil.» Bu şəxs islamın yetişdirdiyi insandır ki, belə lətif və ali təfəkkür əldə edib. O, dərk edir ki, bir baxışda pis və xoşagəlməz olan bəla, çətinlik və müsibətlərin hamısı ali və dərin baxışda lütf və .gözəllikdir

Yerində «qeybin dili» ləqəbini almış və dərin fəlsəfi və irfani düşüncələri fəsahət və bəlağətin ən yüksək həddində, kinayə və məcaz şəklində bəyan etmiş Hafiz, səthi və məhdud baxışla, yuxarıdan olan dərin və hərtərəfli baxışı, yə'ni kamil arif olan təriqət :başçısının baxışı arasındakı fərqi, ikibaşlı ifadə ilə bəyan edərək belə deyir

Pire ma qoft xəta bər qələme son' nərəft

Afərin bər nəzəre pak xəta puşeş bad

Mə'nası: Bizim təriqət başçımız dedi ki, yaradılış qələmində heç bir xəta olmayıb; Afərin !onun bu pak və xəta örtən nəzərinə

Onun məqsədi budur ki, təriqət başçısının dünyanı haqqın vahid cilvəsi kimi görən və məhdudiyyət və səviyyəsizlikdən uzaq olan pak və nurlu baxışında, məhdud baxışlarda aşkar olan bütün xəta və «lazımsızlıqlar» məhv olur. Dünya Haqqın cilvəsidir. Haqqın zatı mütləq gözəllik və mütləq kamillikdir. Gözəlin cilvəsi də gözəldir və onun

gözəl olmaması qeyri-mümkündür. Əgər gözəl bədəndə hər hansı bir üzvə, yerləşdiyi yer və digər üzvlərlə birgə, həmin bədəni təşkil etməsi məsələsini nəzərə almadan diqqət yetirsək, onun kamillik, ləyaqət və düzlüyünü dərk etmərik. Belə şəraitdə bə’zən elə fikirləşirik ki, əgər o başqa cür olsaydı, daha yaxşı olardı. Amma onu geniş, hərtərəfli və gözəl bədəni təşkil edən bir üzv kimi nəzərə alanda fikrimiz tamamilə dəyişir.

Hafiz, demək olar ki, bütün qəzəllərində kinayə və məcazla dediyi mətləbləri digər bir beytlə təfsir edir. O, həmin qəzəlin digər bir beytində, adətinə uyğun olaraq, öz :məqsədini belə açıqlayır

Çeşməm əz ayine darame xətto xaləş şod

.Ləbəm əz buse robayan bəro duşəş bad

Mə'nası: Mənim gözüm onun qarşısında ayna tutanlardan, dodağım isə onun çiynindən .busə götürənlərdən oldu

O, bu beytin birinci misrasında özünün, dünyanı Onun xal, göz və qaşının cilvəsi və hər şeyi öz yerində gözəl görən «eynul-yəqin» (gözlə görüb yəqin etmə) mərhələsinə çatmasını bəyan edir və ikinci misrada «həqqul-yəqin» (haqqı olduğu kimi yəqinliklə .dərk etmə) mərhələsinə çatmasını arzulayır

Hafiz digər qəzəllərində də, ariflərin həqiqətə çatdıqdan sonra kamal, lütf, gözəllikdən .başqa bir şey görməməsini dəfələrlə bəyan edib

Ruye xubəd ayəti əz lotfe bər ma kəşf kərd

Zin səbəb coz lotfo xubi nist dər təfsiri ma

Mə'nası: Sənin gözəl üzün bizə bir nişanə aşkar etdi; buna görə də bizim təfsirimizdə .lütf və yaxşılıqdan başqa bir şey yoxdur

:Yaxud başqa bir yerdə belə deyir

Məra be kare cəhan çəndan eltifat nə bud

Roxe to dər nəzəre mən çenin xoşəş arast

Mə'nası: Mənim dünya işlərinə elə də marağım yox idi; sənin üzün onu mənə elə gözəl göstərdi

Ümumiyyətlə, dünyagörüşü irfani olan, vəhdəti fəlsəfi çoxluğun, cilvələnməni fəlsəfi səbəb-nəticənin, eşq və gözəlliyi fəlsəfi əql və vacibliyin canişini edən və dünyanı

«mütləq gözəlliyin cilvəsi» hesab edən Hafiz, «xəyyamvari» və «əbul-əravari» misalında fikirləşə bilərmi? Hafiz irfani dünyagörüşündəki «vəhdət», «cilvə» və «gözəllik» ünsürlərini .məşhur şe’rinin bu üç beytində çox gözəl və aşkar şəkildə bəyan edib

Əkse ruye to çu dər ayineye cam oftad

Arif əz pərtove mey dər təmə’e xam oftad

Hosne ruye to be yek celve ke dər ayine kərd

İn həme nəqş dər ayineyi ovham oftad

İn həme əkse meyo nəqşe neqarin ke nümud

Yek fruğe roxe saqist ke dər cam oftad

Bə’zilərinin bu beyti Hafizin yaradılışa e’tirazı kimi qiymətləndirmələrinin səbəbi onun «xətapuş» kəlməsindən istifadə etməsidir. Amma onlar bu nöqtəni unudublar ki, ikibaşlı cümlə və ya kəlmədən istifadə etmək və bə’zən zahiri mə’nasına zidd mə’na verən kəlmənin işlədilməsi bədii gözəlliklərdəndir və irfani şairlər bu üslubdan çox istifadə edirlər. Hafizin digər şe’rləri bu mətləbə gözəl dəlildir. Bundan əlavə, məsələn əgər Hafizin yaradılışa e`tiraz etməsini fərz etsək görəsən o, təriqət başçısına olan o qədər ehtiram, tə’zim və tam inamı ilə onu yalançı saya bilərmi? Çünki belə olan surətdə Hafizin məqsədi ya budur ki, təriqət başçısı yaradılışda heç bir səhvin olmaması .iddiasında yalançıdır və ya o, axmaq və sadəlövhdür

Hafiz özünün bə’zi şerlərində şərlərin yozulmasının əsas sirrini, yə’ni yaradılışın bölünməzliyini çox gözəl şəkildə bəyan edib və biz öz yerində həmin mətləbi açıqlamışıq. Buna görə də, hafizin həmin beytdə yaradılışa e’tiraz etməsini və təriqət .sahibinin nəzərini puça çıxarmaq istəməsini fikirləşmək avamlıqdır

## ŞEYTAN

Zehnlərdə belə bir təsəvvür yarana bilər ki, əgər zərdüştlikdə «əhrimən-yəzdan» ikiliyi fikri varsa, islamda da bir-birinə zidd qütblər olan «Allah və şeytan» əqidəsi vardır. Belə ?olan surətdə, zərdüşt dininin əhriməni ilə islamın şeytanı arasında nə fərq var

Zərdüşt dinində olan əhrimən düşüncəsi ilə islamdakı şeytan düşüncəsi arasında .müqayisə olunmaz dərəcədə fərq var. Bu məsələnin bir qədər izaha ehtiyacı var

Avesta tə’limində «anqrumanyu» və ya «əhrimən» adlı varlığın adı çəkilir və xəstəliklər, vəhşilər, yırtıcılar, ilanlar, əqrəblər və həmçinin məhsulsuz torpaqlar, quraqlıqlar və bu

kimi bütün pisliklər, şərlər, ziyanlar və zərərverici varlıqların yaradılışı böyük allah olan «ahuraməzdaya» və ya anqrumanyunun rəqibi olan «sepentmenuya» deyil, ona nisbət .verilir

Avestanın bə’zi tə’limlərindən belə mə’lum olur ki, əhrimənin özü ahuramazda kimi qədim və əzəli bir cövhərdir və ahuraməzda qətiyyən

onun xaliqi deyil. Ahuraməzda onu yaratmayıb, bəlkə kəşf edib. Amma Avestanın digər bə’zi tə’limləri, xüsusilə onun ən mö’təbər bölümlərindən olan qatlardan isə belə mə’lum olur ki, ahuramazda iki mövcud yaradıb. Onlardan biri sepentmenu və ya müqəddəs düşüncə, digəri isə anqrumanyu, yaxud xəbis düşüncə olan əhriməndir. Hər halda Avestadan mə’lum olan və zərdüştlərin e’tiqad bəsdlədikləri şey budur ki, dünyada olan varlıqlar iki qismə – xeyir və şərə bölünürlər. Xeyirlər mövcud olan, mövcud olmalı, mövcud olmaları yaxşı olan və vücudları dünya üçün xeyirli olan varlıqlardır. Şərlər isə o varlıqlardır ki, mövcud olmalarına baxmayaraq, əslində mövcud olmamalı və olmaları dünyada naqisliklərin yaranmasına səbəb olmuş varlıqlardır və bu şərlər ahuramazdanın məxluq və yaratdıqları şeylər deyildir və əhrimənin ahuramazdanın məxluqu olub-olmamasından asılı olmayaraq, onlar .əhrimənin yaratdıqlarıdır

Deməli, əhrimən dünyanın bir çox varlıqlarının yaradıcısıdır. Yaradılış aləminin bir hissəsi onun ixtiyarındadır, onun özü ya zatında qədim və əzəli bir əsl və ahuramazdanın şərik və bənzəridir, ya da onun məxluqu və eyni halda yaradılışdakı .şərikidir

Amma islam dünya görüşündə dünya və onda olan varlıqlar iki qismə, yə’ni xeyir və şərə bölünmür. Bu dünya görüşünə əsasən yaradılmamalı olan, amma yaradılmış və ya pis yaradılmış varlıq yoxdur. Hər bir şey gözəl və yerində yaradılıb və bütün şeylər .Allahın məxluqudur

Şeytanın əhatə dairəsi «yaradılış» deyil, «yaşayış»dır, yə’ni onun nüfuz dairəsi insanların əməl və vəzifə fəaliyyətləri çərçivəsindədir. Şeytan yalnız insanın vücuduna nüfuz edə bilər və özü də bu nüfuz onun bədən və cismində deyil, fikir və düşüncəsində məhdudlaşır. Hətta onun, insanın fikir və düşüncəsinə olan nüfuzu da vəsvəsə etmək və puç bir əməli onun xəyalında yaxşı kimi canlandırmaqda məhdudlaşır. Qur’an bu mə’naları «təzyin» (bəzəyərək gözəl göstərmə), «təsvil» (çirkin bir şeyi gözəl bir şey kimi nəzərə çarpdıraraq aldatma), «vəsvəsə» və bu kimi ibarətlərlə bəyan edir. Amma onun yaradılış aləmində nəsə yaratması və ya insanlara qeyri-ixtiyari hökmranlıq edə bilməsi, yə’ni məcburi qüdrət kimi insanların vücudlarına hakim olaraq onları məcburi olaraq pis işə vadar edə bilməsi, şeytanın qüdrət və bacarıq dairəsindən xaricdir.

Hətta insanların özləri ona əl uzatsalar da belə, şeytanın onlara olan hökmranlığı məhduddur. «Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur!

səh:٥٣

(Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!...»(١)

Qur’an şeytanın qiyamət günü deyəcəyi sözləri onun dilindən belə nəql edir ki, o, ona e’tiraz edən və azğınlıqları üçün onun məs’uliyyət daşımasını bildirənlərin cavabında :belə deyir

Əslində mənim sizin üzərinizdə heç bir hakimiyyətim (sizi özümə tabe edə biləcək...» heç bir qüdrətim) yox idi. Lakin mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, (siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın...»(٢)

Şeytanın insana bu qədər hakim ola bilməsinin fəlsəfəsi insanın «ixtiyarı»dır. İnsan vücudunun məqam və dərəcəsi, onun azad və muxtar olmasını tələb edir. Azad və muxtar varlıq, həmişə iki yol ayrıcı və iki çağırış qarşısında dayanmalı və öz kamalını .yeganə yol olan «ixtiyar» və «seçmə» ilə əldə etməlidir

Əz cəhan do bang miayəd be zedd

Ta kodaminra to başi mostəedd

On yei bangəş nəşure ətqiya

.Van degər bangəş nəfure əşqiya

Mə’nası: Dünyadan bir-birinə zidd olan iki səs eşidilir; sən onların hansına hazırsan; .onların biri pərhizkarların dirçəliş nidası; digəri isə bədbəxtlərin azğınlıq səsidir

İslam dünya görüşünə əsasən yaradılış aləmində, heç bir varlığın müstəqil rolu yoxdur. Qur’an heç bir varlıq üçün müstəqil rol qail deyil. Hər bir varlığın malik olduğu rol yalnız, vasitə və Allahın tam iradəsinin həyata keçməsi üçün keçid xarakteri daşıyır. Qur’an mələklərin, Allahın yaradılışdakı iradəsinin gerçəkləşməsi istiqamətində vasitə rolunu təsdiq edir. Amma şeytan üçün nəinki Avestada əhrimənin ahuramazdanın müqabilindəki kimi müstəqil və yaradıcı rola malik olmasını rədd edir, hətta mələklərin .də belə bir rola malik olmasına qail deyildir

Buna görə də, adətən islami mətnlərin tərcüməsində şeytanın «əhrimən» və ya «div» kimi tərcümə edilməsi aşkar səhvdir. Şeytan kəlməsinin fars

---

۱- [۲۳] ən-Nəhl, ۹۹-۱۰۰.

۲- [۲۴] İbrahim-۲۲.

dilində sinonimi yoxdur və buna görə də tərcümələrdə həmin kəlmənin özü .gətirilməlidir

Qur’an baxımından şeytan, qətiyyən Allah müqabilində olan qütb deyildir. O, hətta Allahın izni ilə yaradılışda əli olan və ilahi iradənin icraçıları sayılan mələklərin .müqabilində də bir qütb sayılmır

Ümumiyyətlə bizim camaatın «cin» barəsindəki təsəvvürü, Qur’anın cin haqqında verdiyi anlayışlardan fərqlidir. Qur’an baxımından cin, insan kimi bir varlıqdır və o da insan kimi bir sıra şər’i vəzifələr daşıyır. Amma o, gözəgörünməz bir varlıqdır. Cin, avam kütlənin təsəvvüründə isə mələk sırasında olan bir varlıqdır. Qur’an cini insana, avam kütlə isə mələyə tay bilir. Qur’anın aşkar tə’birlərinə əsasən, şeytan, cin növündəndir. İslam dünya görüşünə əsasən, cinlərin əksinə olaraq, mələklərin yaradılış aləmində rolları vardır. İslam ədəbiyyatında, cinlə mələyin bir sırada tutulması, müsəlmanların zərdüşt məfhumları keçmişinə malik olmaları baxımından .düçar olduqları səhvdən yaranıb

Deməli, islam dünya görüşü zərdüşt, manovi və məzdəki dünyagörüşünün əksinə olaraq, təkqütblüdür. Şeytan, Qur’an baxımından «O yaratdığı hər şeyi gözəl yaratdı...» və həmçinin «Rəbbimiz hər şeyə Öz surətini və şəklini verən sonra da ona doğru yolu .göstərən Allahdır!» nümunəsidir

Şeytan, şeytanlıq və onun azdırmalarının mövcudluğu bir sıra hikmət və məsləhətə .əsaslanır və həmin hikmətə əsasən şeytan həqiqi, gerçək və mütləq deyil, nisbi şərdir

Hər şeydən maraqlısı budur ki, Qur’anın məntiqinə əsasən, Allah özü şeytana «azdırmaq» və «yoldan çıxarmaq» vəzifəsini əta edib. Allah-taala burada şeytana xitab edərək buyurur: «Onlardan kimi bacarırsansa, səsinlə (vəsvəsənlə) yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, (onları harama, zinaya sövq etməklə) mallarına və övladlarına ortaq ol, onlara cürbəcür (yalan) və’dlər ver. Şeytan (ona uyanlara) (yalnız yalan və’d verər!»(١)

Şeytan sanki, aşağıdakı ayədə, özünün insanları azdırmaq vəzifəsini daşımağa hazır olduğunu elan edib: «İblis dedi: «...Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb

yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (sənə ibadət və itaət etməyə) mane olacağam!

səh:۵۵

---

۱- [۲۵] İsra-۶۴.

Sonra onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükr edən görməyəcəksən!»(١)

Əlbəttə şeytanın insanları azdıraraq yoldan çıxarması və onun bu vəzifədəki nüfuz dairəsi əvvəldə qeyd etdiyimiz qədərdir və burada insanlara qarşı heç bir icbar və zorakılıqdan söhbət gedə bilməz. Onun etdiyi yeganə şey «vəsvəsə», «dəvət», «təzyin» və «təsvil»dir.

Bu nöqtəni də xatırlatmaq lazımdır ki, bizim «yaradılış aləmi şeytanın nüfuz dairəsindən xaricdir» deməkdən məqsədimiz, onun yaradılışda heç bir rolunun olmaması deyildir. Məgər aləmdə hansısa bir varlıq mövcud ola bilərmi ki, onun yaradılışda heç bir rolu olmasın? Məqsədimiz budur ki, şeytan nə bir qrup varlıqların müstəqil xaliqi, nə Allah müqabilində olan bir qütb və nə də mələklər kimi kainatın tədbir və idarəsi tapşırılan və onda rolu olan bir varlıqdır. Həmçinin onun insana olan hökmranlığı da istədiyini məcburi şəkildə qəbul etdirmək həddində deyildir. Qur’an şeytan və cinlərin yaradılışda müəyyən rola malik olmalarına qaildir, amma o, ümumilikdə insanın rolundan artıq və üstün deyil.

Bu bəhsdən əsas məqsəd budur ki, Qur’an, şeytan məsələsini zati tövhid və «...Ona bənzər heç bir şey yoxdur...»(٢) prinsipinə və həmçinin yaradılışda tövhid və «...Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur...»(٣), «...Allah hər şeyin xaliqidir...»(۴), «Özünə heç bir övlad götürməyən və mülkündə (səltənətində) heç bir şəriki olmayan...»(۵) prinsiplərinə kiçicik bir xələl gətirməyən formada irəli sürüb.

## FƏLSƏFİ BƏDBİNLİK

«Şərlər məsələsinin» digər tə’sirlərindən biri də fəlsəfi bədbinlikdir. «Bədbin filosoflar» adətən materialistlərdən çıxır. Materializm və bədbinlik arasında bir növ inkaredilməz əlaqə və bağlılıq var. Nə üçün? Cavab aydındır, çünki materializm şərlər məsələsinin həllində acizdir. İlahi fəlsəfəyə əsasən, vücud xeyirlə bərabərdir, şər nisbidir və hər bir şərin altında bir xeyir yatır. Amma maddi baxışa əsasən belə bir şey yoxdur.

۱- [۲۶] ۱۶-۱۷ Ə’raf.
۲- [۲۷] ۱۱-Şura.
۳- [۲۸] ۵۴-Ə’raf.
۴- [۲۹] ۱۶-Rə’d.
۵- [۳۰] ۱۱۱-İsra.

Dünyaya qarşı bədbinlik əzabvericidir. İnsanın dünyanı hissiz, dərksiz və hədəfsiz bilməsi çox ağırdır. Özünü bu dünyanın kiçik övladı bilən və özü üçün hədəf qail olan insan, onu yaradaraq ona hədəfli olmağı öyrədən dünyanın özünün hədəfsiz olmasını düşünəndə çox pis hala düşür. Əgər dünyada ədalətin olmamasını və təbiətdə ayrı-seçkilik və zülmün olmasını düşünən şəxsə, dünyanın bütün ne`mətlərini versələr .belə, bədbin və narazı olacaq

Bu şəxsin öz səadəti və bəşəriyyətin xoşbəxtliyi istiqamətindəki fəaliyyəti də ümid və şövqlə olmayacaq. Varlığın kökü zülm üzərində qurulan yerdə insanın ədalətsevərliyi də mə’nasızdır. Dünya hədəfsizdirsə, bizim hədəfə malik olmağımız puç bir şey və .axmaqlıqdır

İman sahiblərinin tam ruhi sakitlik və rahatlığa malik olmalarının səbəbi, onların dünyanı ağılsız, hədəfsiz, zalım, zülm tərəfdarı və ya laqeyid deyil, hikmət və elmə əsaslanan, hədəfli, ədalətli, haqq və haqq əhli tərəfdarı hesab etmələrindəndir. Təkallahlılar, şər işlərin heç birinin hesabsız və əbəs olmamalarına e’tiqad bəsləyirlər. Onların fikrincə, pisliklər ya ədalətli cəza, ya da hədəfə əsaslanan və mükafatı olan .bəla və imtahanlardır

Bəs imansız şəxslər nə düşünürlər? Onların ürəkləri nə ilə şad olur? İntihara əl atırlar .«və onlardan birinin dili ilə desək, «igidliklə ölümü qucaqlayırlar

Ümumdünya səhiyyə təşkilatı statistik rəqəmlərə əsaslanan hesabat yayaraq bildirib ki, intihar – xüsusilə ziyalılar arasında olan intihar – gün-gündən genişlənməkdədir. Bu təşkilatın hesabatına əsasən, intihar, səkkiz avropa ölkəsində həddindən artıq çoxalıb. Həmin səkkiz ölkədən biri, bizim xoşbəxtlik nümunəsi hesab etdiyimiz İsveçrədir. Həmin hesabatda deyilir ki, intihar üçüncü ölüm amilidir, yə’ni o, xərçəng xəstəliyindən çox adam tələf edir və təəssüflər olsun ki, bu iş savadlı kütlə arasında savadsız kütlədə .olduğundan daha çox baş verir

Həmin hesabatda deyilir ki, intihar iman və e’tiqadını əldən verməkdə olan inkişaf etmiş ölkələrdə daha çox baş verir. Qərbi Almaniyada hər il altmış min nəfər intihar edir ki, onların on iki min nəfəri intihar nəticəsində ölür, qalanlarına isə ölümdən nicat verilir. (Ustadın bu çıxışı təqribən iyirmi səkkiz il bundan əvvəl olub və statistik

(.rəqəmlər həmin vaxtınkıdır

!Budur «Aləmlərin Rəbbi» olan Allaha imanlarını əldən verənlərin həyatı

İntihar üçün bir sıra səbəblər, o cümlədən diqqəti cəlb etmək, eşqdə məğlubiyyətə uğramaq, ictimai və iqtisadi rəqabətlərdə məğlubiyyət, yoxsulluq, narkotik maddələr düşkünlüyü, həyat və varlığın puç sanılması

.kimi müxtəlif amillər qeydə alınıb. Amma onların hamısının ən başlıcası imansızlıqdır

Vilyam Ceymsin «Din və ruh» adı ilə tərcümə edilmiş kitabının birinci fəslində Mark Orl :adlı materialist bir yazıçı və həmçinin Nitse və Şupenhaver barəsində belə deyilir

Mark Orlın sözləri əsaslı acılıq, qəm və kədər nişanəsidir, onun nalələri bıçaqla başı» kəsilməkdə olan donuzun nalələrinə bənzəyir. «Nitse» və «Şupenhaverin» ruhi vəziyyəti, onların diş qıcamaqla qarışmış qaraqabaqlıqları və düşkünlüklərini göstərir. Bu iki alman yazıçısının acınacaqlı nalələri can verməkdə olan siçanın cır-cırlarını xatırladır. Bu iki yazıçının sözlərində dinin həyatın çətinlik və məşəqqətlərinə verdiyi saf mə'na və .«məfhum görünmür

Vilyam Ceymsin bədbin adlandırdığı Nitse, məşhur güc və qüdrət fəlsəfəsinin banisidir. :O, həmin fəlsəfi görüşlərində belə deyir

Mülayimlik və qəlbin riqqətini kənara atmaq lazımdır; ürəyi yumşaqlıq acizlikdən» yaranır; təvazökarlıq və itaətkarlıq alçaqlıqdır; həlimlik, hövsələ, əfv və birinin səhvinə göz yummaq zəiflik və süstlükdür. Nəfsi öldürmək nəyə lazımdır? Nəfsi bəsləmək lazımdır! Başqasını istəmək nə deməkdir? İnsan özünü istəməli, özünə pərəstiş etməli, zəif və aciz şəxslərin məhv olub aradan getməsi üçün onlara qarşı laqeyid (yanaşmalıdır».(١)

Nitse, təbii ki, bu cür fikir və düşüncə ilə dünyanı özünə zindan etmişdi. Bu düşüncələrin səmərəsi, ömrünün sonunda onun öz payına düşdü. O, ömrünün :sonunda bacısına yazdığı məktubda belə deyir

Günlər keçdikcə həyat mənim üçün daha da çətinləşir. Xəstəlik nəticəsində, ruh» düşgünlüyü və narahıtçılığın son həddində olduğum illərdə bu qədər qəmli və ümidsiz olmamışdım, görəsən nə olub? Olmalı şeylər olub ! Camaatla olan fikir ayrılıqlarım onların mənə olan e`timadlarını aradan aparıb və indi hər ikimiz səhv olduğumuzu görürük; ilahi, mən bu gün necə də yalqızam! Deyib güləcəyim, bir fincan çay içə biləcəyim bir nəfər belə yoxdur. Məni dostcasına nəvaziş edəcək bir nəfər belə (yoxdur!»(٢)

:Vilyam Ceymsin, barəsində danışdığı digər şəxs, yə’ni Şupenhaver isə belə düşünür

səh:۵۸

---

..Avropada fəlsəfənin inkişafı; ۳-cü cild [۳۱] -۱

.Avropada fəlsəfənin inkişafı; ۳-cü cild [۳۲] -۲

Həyatın əsası əziyyət və zərərdir. Ləzzət və kef, qəmi aradan aparmaqdadır. Müsbət» bir iş yoxdur, hər şey mənfidir. Canlı varlıq həyat mərtəbəsində nə qədər yüksəkdədirsə, əziyyəti o qədər çoxdur, çünki o, daha çox hiss edir, keçmişin çətinliklərini yadına salır və gələcəyin əziyyətlərin daha yaxşı müəyyənləşdirə bilir. Bir an olan kefin dalınca bir ömürlük əzab gəlir. Evlənməyəndə çətinlikdə olursan, evlənəndən sonra isə min cür dərd-bəlaya düşürsən. Eşq bəlası böyük müsibətdir və camaat qadını şadlıq amili hesab edir, halbuki o, qəmlər dağarcığıdır. Başqaları ilə ünsiyyətdə olanda giriftarçılığa düçar olursan, olmayanda da həyatdan bezirsən. Xülasə, nə qədər ki, canında can var, bu əziyyət və məşəqqətdən qurtulmaq mümkün deyil. Həyat başdan-başa can vermək, bəlkə də hər an təxirə düşən ölümdür, axırda da əcəlin çatır, halbuki həyatdan heç bir xeyir götürülmür və heç bir faydalı nəticə əldə (edilmir.»(١

İslam dünyasında da dünyanı qaranlıq görən və həmişə yaradılış cərəyanları müqabilində sərt, qaraqabaq və qəzəbli çöhrə göstərən şəxslər, Vilyam Ceymsin dili ilə desək, bir növ «diş qıcayanlar» olublar. Məşhur ərəb şair və filosofu Əbul-Əla Müirri və həmçinin şair Xəyyam bu dəstədəndir. Xəyyama şair deməyimin səbəbi budur ki, tədqiqatçılar məşhur bədbin şe’rlərin filosof və riyaziyyatçı Xəyyamdan olmasına inanmır. Şair Xəyyam üçün heyrət, əzab və nalə olan şeylər filosof Xəyyam üçün həll .edilmiş məsələlərdən olub

Bizim əsrimizdə avropalılardan təqlid edən, bir çox səbəblərdən bu yolla gəncləri zəhərləyən və onları həyatdan soyudan və bə’zən intihara vadar edən bədbin yazıçılar yaranıblar və bir sıra görünən və görünməyən ünsürlər də onları təşviq edirlər. Onların sayı gün-gündən artmaqdadır. Sadıq Hidayət bu qrupa daxil olanlardandır. Onun yazıları Vilyam Ceymsin sözləri ilə desək, «başı kəsilməkdə olan donuzun naləsi və ya .«can verməkdə olan siçanın cır-cırına bənzəyir

Nitse, Şupenhaver, Əbul-əla və Xəyyamın müqabil nöqtəsi nikbin filosoflardır. İlahiyyatçıların hamısı və ya əksəriyyəti bu qrupdandır. Böyük arif Mövləvi bu qrupun təmsilçisidir. Onun bütün sözlərində eşq, şövq və mə’nəvi hal görünür. Bu böyük arifin fikrincə, insan şadlıq, ləzzət və səadət ocağıdır və yeganə şərt onun bu pulsuz kef ocağından istifadə etmək istəməsidir; dünyada şadlıq və ləzzətə çevrilməyən heç bir

qəm

səh:۵۹

---

..Avropada fəlsəfənin inkişafı; ۳-cü cild [۳۳] -۱

yoxdur. O, ləzzəti yalnız mey, cinsi yaxınlıq və ya musiqi eşitməkdə məhdudlaşdırmaq .istəyən insanları təhqir edir

Sə’di, Hafiz və irfan məsləkli digər şairlər də həmin yolla gediblər. Hafizin şerlərində, bə’zi ikimə’nalı sözlər tapılır, amma şe’r dili ilə tanış olanlar bilirlər ki, onların .məktəblərində gözəllikdən başqa heç nə görünmür

Bu məsələ yalnız irfan və sufiliyə aid deyil. Ümumiyyətlə imanın xasiyyəti budur. İmansızlıq bir növ çatışmamazlıqdır ki, tarazsızlıq yaradır və həmin tarazsızlıq müxtəlif ruhi əzab-əziyyətə səbəb olur. İmanda dəyişiklik xüsusiyyəti var və o, qəm-qüssəni .ləzzət və şadlığa çevirir

İslamın yetişdirdiyi şəxslər, hadisə və müsibətlə üzləşəndə bu həqiqətə diqqət edirlər: «Biz Allahın bəndələriyik və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) (qayıdacağıq.»(١)

Həmin tərbiyəni almış şəxslərə misal olaraq Peyğəmbərin (s) səhabələrindən olmuş bir müsəlman kişi və qadının hekayəsini nəql edirik. Əbu Təlhə Peyğəmbərin (s) səhabələrindəndir, mö’min bir qadın olan Ummu Suleym də onun həyat yoldaşı olub. Onların hər ikisinin çox sevdikləri bir oğulları olub. Bir gün həmin oğlan xəsətələnir və vəziyyəti getdikcə ağırlaşır. Uşağın xəstəliyi elə yerə çatır ki, Ummu Suleym oğlunun .öləcəyini başa düşür

O, ərinin, oğlunun ölümündə dözümsüzlük göstərməməsi üçün onu bir bəhanə ilə Peyğəmbərin (s) yanına göndərir. Əbu Təlhə Peyğəmbərin yanına gedəndən bir neçə .an sonra oğlu dünyasını dəyişir

Ummu Suleym oğlunun cənazəsini bir parçaya bükərək otaqda gizlədir və evdə olanlara, Əbu Təlhəyə oğlunun ölüm xəbərini verməyi qadağan edir. Sonra gedib yemək hazırlayır və özünü bəzəyərək ətir vurur. Əbu Təlhə bir neçə saatdan sonra qayıdır və evdə vəziyyətin dəyişdiyini görür. Oğlunun vəziyyətini soruşur. Ummu Suleym cavab verir ki, uşaq sakitləşib. Əbu Təlhə ac olduğu üçün yemək istəyir. Ummu Suleym əvvəlcədən hazırladığı xörəyi gətirir və onlar ikisi də oturub yeyirlər. Sonra isə cinsi əlaqədə olurlar və Əbu Təlhə rahatlaşır. Ummu Suleym deyir: Səndən bir şey

.soruşmaq istəyirəm

.Əbu Təlhə deyir: Soruş

Ummu Suleym: Əgər sənə, yanımızda olan əmanəti sahibinə qaytardığımızı xəbər ?versəm, əsəbləşərsən



---

.Bəqərə-۱۵۶ [۳۴] -۱

.Əbu Təlhə: – Xeyr, qətiyyən narahat olmaram, əmanəti sahibinə qaytarmaq lazımdır

Ummu Suleym: Subhanəllah, onda xəbər verim ki, Allah, yanımızda olan əmanəti, yəni .oğlumuzu bizdən alıb apardı

Əbu Təlhə arvadının bu sözündən çox tə’sirlənib deyir: – Allaha and olsun ki, mən .övladımın müsibətində sən anadan daha səbirli olmalıyam

O, sonra ayağa durub cənabət qusulu verərək iki rəkət namaz qılır və sonra .Peyğəmbərin (s) yanına gedib hadisəni o həzrətə danışır

Peyğəmbər (s) belə buyurur: Allah bu gün sizə bərəkət versin və sizə pak bir nəsil qismət etsin. Mən Allaha, ümmətimdə Bəni İsrailin «səbirlisi» kimisinin olmasına görə .şükr edirəm

Bəli, iman və dinin məşəqqətləri asanlaşdırması, hətta bə’zən onu şadlıq, ləzzət və .səadətə çevirməsi belə olur

Vilyam Ceyms, bundan əvvəl adını çəkdiyimiz kitabda dinlə dinsiz əxlaqın fərqi :barəsində söhbət edərək belə deyir

Din və ya əxlaqda əsas məsələ, bizim yaradılış və varlıq aləmini necə» qiymətləndirməyimizdən ibarətdir. Biz yaradılış və varlıq aləmini necə qiymətləndiririk? Biz bu varlıq və kainatı çətinlik və əziyyət kimi qiymətləndirərək onun bir hissəsini qəbul, digər bir hissəsini isə rədd edirik? Yoxsa əksinə, onu açıq qucaq, eşq və məhəbbətlə dolu ürəklə qarşılayırıq? Sırf əxlaq, kainata hakim hesab etdiyi qanunlara elm və agahlıqla tabe olur. Amma bu itaət bir növ ağırlıq və hüznlə birgədir ki, həmin qəlbdə heç bir hərarət və şövq olmur və həmin qanunların onun boynunda xalta olması hissi ondan heç vaxt ayrılmır. Amma dində məsələ bunun əksinədir və həmin soyuq və qəmli itaət, öz yerini həyatın hər bir şeyini lütf, şövq, səmimiyyət və şadlığa çevirən səmimi qarşılama və qəbula verir . Rəvaqi filosofu öz canını tapşırdığı dünyadan hədsiz ehtiram və tə`zim umur, amma məsihi Allahı (din Allahı) məhəbbət və eşq istəyir. Biz burada bu iki dəstənin iki müxtəlif mühitdə bir-birinin müqabilində dayanan iki hiss və duyğuya malik olmalarını görürük; onlardan biri qütb soyuqluğu,

digəri isə ekvator istiliyinə malikdir. Sanki onların hər birinin əldə etdiyi nəticə, yə’ni qeydsiz-şərtsiz qəbul etdikləri«.

## ?NAZ YA E’TİRAZ

Şərlər məsələsi və bə’zi vaxtlar onlara qarşı e’tiraz bəhsi bizim ədəbiyyatımızın nisbətən mühüm bir hissəsini təşkil edir. Şairlər bə’zən

ciddi və bə’zən də əyləncəli şəkildə bu mövzuya çox toxunublar. Bu barədə deyilənləri ciddilik, yə’ni yaradılışın tənqidi, yaxud ona e’tiraz kimi qiymətləndirmək olmaz. Həmin şe’rlərin əksəriyyəti zarafat və əyləncə xarakteri daşıyır və necə deyərlər, şe’r sujetləridir. Onların bə’zilərini «dəllal arif» kimi qiymətləndirmək olar. Xəyyama mənsub rübailərdə bu qism şe`rlər çoxdur. Əvvəldə qeyd etdiyim kimi, həmin şe’rlərin filosof Xəyyamdan olması mə’lum deyil. Şair Xəyyamın şe`rlərində sual və ya e’tiraz kimi səslənən məsələlər filosof Xəyyam üçün həll edilmiş məsələlərdir. Buna görə də, həmin şe’rlər ya filosof Xəyyamdan deyil, ya üzdəniraq dindarlarla baş qatmaq xarakterlidir, yaxud da «dəllal arif» növündəndir. Hər halda Xəyyama mənsub olan rübailərdə belə deyilir:

Əcram ke sakinane in eyvanənd

Əsbabe tərəddod xerədməndanənd

Han ta sərreşteye xerəd qom nə kuni

Kanan ke modəbberənd sərgərdanənd

Əflak ke coz ğəm nəfəzayənd degər

Nə nəhənd be ca ta nəröbayənd degər

Naamədeqan əgər be danənd ke ma

Əz dəhr çe mi kəşim nayənd degər.

Mə’nası: Bu eyvanın sakinləri olan cansız cisimlər ağıllıların keçididir; sayıq ol ki, ağıl kələfinin ucunu itirməyəsən, işlərin axırını fikirləşənlər sərgərdandırlar.

Çun hasele adəmi dər in şuristan

Coz xurdəne ğosse nist ta kəndəne can

Xorrəme del an ke zin cəhan zud berəft

Və asude kəsi xod nəyaməd be cəhan

Mə’nası: Fələyin qəm verməkdən başqa bir işi yoxdur və insanı öldürməyənə kimi ondan əl çəkmir; əgər dünyaya gəlməyənlər, bizim fələyin əlindən nə çəkdiyimizi .bilsələr, buraya gəlməzlər

Ey çərxi fələk xərabi əz kineye tust

Bidadəgri şiveye dirineye tust

Ey xak əgər sineye to beşkafənd

Bəs qohəre qiyməti ke dər sineye tust

Mə’nası: Ey çərxi-fələk! bütün xarabalıqlar səndəndir; haqsızlıq sənin keçmiş peşəndir; ey torpaq! əgər sənin sinəni açsalar, orada çoxlu qiymətli cəvahirlər olduğunu .görərlər

Çərxi-fələyə göndərilən bu e`tiraz və söyüşlər, əslində yuxarı məqama aiddir, çünki çərxi-fələk heç nədir və o, naçar şəkildə kəc və tərs rəftarlarda günahlandırılır. Bəlkə buna görədir ki, bir hədisdə belə deyilir: «Zəmanəni söyməyin, zəmanə Allahdır.» (Hədisin düzgün izahı belədir ki, zəmanəni tənqid etmək bütün varlıq aləmini tənqid edib Allaha qarşı e’tiraz səsi yüksəltməkdir. Amma bə’zi alimlər iddia edirlər ki, bu hədis zəmanənin doğrudan da Allah olmasına inam bəsləyən zərvaniyyə firqəsinin (.uydurmalarındandır

Nasir Xosrov doğrudan da həkim adlandırılmağa layiq şairdir. Bu şair bir tərəfdən dərin və incə mə’nalı söz ustası, bir tərəfdən bu cür e’tirazlardan üstün fikir sahibi, digər tərəfdən isə güclü dini əqidəyə malik bir şəxsiyyət olub. O, həmin dini e’tiqadlarına əsasən bu barədə ağız açmamalı idi. Amma bütün bunlara baxmayaraq, onun divanında da bu məsələ ilə bağlı şe’rlər vardır ki, onları bir növ əyləncə və zarafat .və yaxud da «dəllal arif» hesab etmək lazımdır. O, bir şe’rində belə deyir

Bar xodaya əgər ze ruye xodayi

Tinəte insan həme cəmil sereşti

Çehreye rumi və surəte həbəşira

?Mayeye xubi çe bovəd və elləti zeşti

?Təl’əte hindu və ruye tork çera şod

?Həm ço del duzəxi və ruye beheşti

Əz çe səid oftad və əz çe şəqi şod

?Zahede mehrabiyo keşişe kənəşti

Çist xelaf əndər afərineşe aləm

?Çun həmera dayevo məşşate to gəşti

Girəm donya, ze bi məhəlliye donya

Bər gerehi xərbəto xəsise beheşti

?Ne'məte mon'em çera əst dərya-dərya

?Mohnəte mofles çera əst kəşti-kəşti

Mə'nası: İlahi, əgər hamını gözəl yaratsaydın nə olardı? Mən başa düşə bilmirəm ki, nə üçün rumlular gözəl, həbəşilər isə çirkindirlər? Nə üçün

səh:۶۳

Hindlini cəhənnəm kimi qara, türkü isə behişt kimi ağ yaratmısan? Nə üçün zahid ?xoşbəxt, keşiş isə bədbəxtdir? Hamını sən yaratmısan, bəs bu fərqlər nə üçündür

:Nasir Xosrovun uzun və məşhur bir qəsidəsi var. O belə başlayır

İlahi tulo ərze aləmətra

.Təvani dər dele muri keşidən

Mə'nası: İlahi sənin elə bir qüdrətin var ki, sən bütün dünyanı bir qarışqanın qarnında .yerləşdirə bilərsən

:O, həmin qəsidədə belə deyir

Həme cur mən əz bulğareyan əst

Kəz an ahəm həmi bayəd keşidən

Gene bulğariyanra niz həm nist

Bequyəm gər to betvani şenidən

Xodaya rast quyəm fetnə əz tust

Vəli əz tərs nətvanəm çeğidən

Ləbo dəndane torkan xətara

Nə bayesti çenin xub afəridən

Ke əz dəste ləbo dəndani işan

Be dəndane dəsto ləb bayəd gəzidən

Be ahu miykoni ğovğa ke be qoriz

.Be tazi mizəni hey bər dovidən

Mə'nası: Mənim bütün bədbəxtliklərim gözəllərin əlindəndir; mən onlardan ötrü ah

çəkməliyəm; əgər eşidə bilərsənsə deyim ki, onlarda da günah yoxdur; ilahi, bütün bədbəxtliklər səndəndir, amma qorxudan bir şey deyə bilmirəm; gözəllərin dil-dodaqlarını gərək belə gözəl yaratmayaydın; mən gərək onların gözəlliyinin .tə’sirindən əl-ayağımı dişləyəm; sən dovşana qaç, tazıya tut deyirsən

.Ədəbiyyatşünasların bə’ziləri iddia edirlər ki, bu qəsidə Nasir Xosrovun deyildir

Təqribən qırx il bundan əvvəl şirazlı şairlərdən biri, bu barədə bir qəsidə yazmışdı və onun cavabı mərhum Əxgər tərəfindən «Əxgər» jurnalında müsabiqəyə qoyuldu və elm əhlindən bu barədə öz nəzərlərini bildirmələri istənildi. Ölkənin müxtəlif yerlərindən ruhani, qeyri-ruhani, kişi və qadınlığından asılı olmayaraq, bir çoxları həmin tədbirdə .iştirak etdilər

Onların bə’ziləri nəsr, bə’ziləri isə nəzmlə ona cavab verdilər və hətta bə’ziləri həmin şairin nəzərini təsdiqlədilər. Onların hamısı mərhum Əxgər tərəfindən «Yaradılışın sirləri» adlı kitabda çap edildi. Mən həmin cavabların nə olmasına toxunmaq və bu barədə fikir bildirmək istəmirəm. Əlbəttə alimlərdən bə’ziləri öz açıqlamalarında .maraqlı nöqtələrə toxunublar

## İKİNCİ FƏSİL: MƏSƏLƏNİN HƏLLİ

### İŞARƏ

;İslam fəlsəfəsi .١

;Yol və məsləklər .٢

;Ayrı-seçkiliklər .٣

!Ayrı-seçkilik deyil fərqlər .۴

;Fərqlərin sirrləri .۵

;Şaquli sistem .۶

;Üfiqi sistem .٧

;İlahi qanun .٨

?Qanun nədir .٩

;İstisnalar .١٠

;Qəza-qədər və cəbr məsələsi .١١

.Xülasə .١٢

Ən yaxşı quruluş» və «şərlər» məsələsi fəlsəfənin ən mühüm bəhslərindəndir və birinci» fəsldə dediyimiz kimi, bu məsələ şərq və qərbdə «dualizm», «materialist» və «bədbinlik» fəlsəfələrinin yaranmasına səbəb olub. Bu məsələyə diqqət etməyən və ya onun barəsində söhbət etməyən çox az adam tapmaq mümkündür. Şərq və qərb filosofları «şərlər» probleminə diqqət yetiriblər. Amma mənə elə gəlir ki, qərb filosofları bu iradlara qəti cavab tapa bilməyiblər. Lakin islam filosofları həmin iradları təhlil edərək .sualların öhdəsindən gəlmiş, bu sahədə mühüm elmi kəşflər etmişlər

Burada şərqin ilahi fəlsəfəsi barəsində bir cümlə deməyim və bu böyük mə'nəvi xəzinəni qiymətləndirməyim yerinə düşərdi. Şərqin ilahi fəlsəfəsi islamın parlaq şüaları sayəsində yaranaraq bəşəriyyətə hədiyyə edilmiş böyük və qiymətli bir sərvətdir. Amma təəssüflər olsun ki, bu böyük sərvət ilə dərindən çox az adam tanışdır və nadanlar və təəssübkeş düşmənlər tərəfindən ona çoxlu zülmlər edilib. Qədim fəlsəfə barəsindəki mə'lumatları «əflake tis'ə və üqule əşərə»dən kənara çıxmayanlar, onun yalnız adını eşitdikləri və əgər kitablara müraciət ediblərsə də, onlardan baş aça bilmədikləri üçün, elə biliblər ki, islam fəlsəfəsi də onun barəsində bəhs edir və indi bu gün doqquz fələk fərziyyəsinin əsassızlığı aydınlaşıbsa, onlar başlarını qaldıraraq özlərini Farabi, İbni Sina və Sədrul-Mütəəllihindən üstün saya bilərlər. Bəli, həmin qrup elə təsəvvür edir ki, islam fəlsəfəsi elə həmin qədim yunan fəlsəfəsidir və onun yunan .fəlsəfəsindən artıq və fərqli heç bir şeyi yoxdur

Onlar ya bilərəkdən, ya da bilmədən islama və islam maarifinə qarşı böyük cinayət və xəyanət törətmiş olurlar. İslam fəlsəfəsi yunan fəlsəfəsindən Eynşteynin fizikası yunan fizikasından fərqlənən qədər fərqlidir. İbni Sinanın «İlahiyyat»ının tam şəkildə avropaya getməməsi və onların da bu dəyərli xəzinədən xəbərsizliklərinə dəlalət edən .sübutlar vardır. Misal olaraq aşağıdakı məsələyə diqqət etmək kifayətdir

Biz «Fəlsəfənin əsasları və realizm üsulu» kitabının ikinci cildinin haşiyəsində bu nöqtəni xatırlatmışıq ki, Əbu Əli İbni Sina «İşarələr» kitabının üçüncü fəslində Dekartın, fəlsəfədə yeni fikir və dəyərli düşüncə kimi qiymətləndirilən «mən fikirləşirəm, deməli varam» cümləsini tam aydınlıqla izah edərək onu güclü dəlillərlə rədd etmişdir. Əgər

İbni Sinanın fəlsəfəsi avropalılar üçün düzgün tərcümə edilsəydi, Dekartın həmin sözü «yeni kəşf» və «yeni fikir» markası ilə müasir fəlsəfənin təməli hesab

səh:۶۶

edilməzdi. Amma nə etmək olar ki, hələ ki, avropa etiketi olan hər bir şeyin bazarı daha rövnəqlidir, hərçənd ki, o, bizim neçə illər bundan əvvəl vaz keçdiyimiz puç söz olmuş !olsa belə

İndi birinci fəsldə irəli sürdüyümüz sualların cavabları barəsində danışacağıq. Biz həmin sualları dörd başlıq altında irəli sürdük: «ayrı-seçkiliklər»; «fanilik və yoxluqlar»; «naqisliklər» və «bəlalar.» Biz bu dörd növün birincisinə «ayrı-seçkiliklər» başlığı altında, qalanlarına isə «şərlər» adı ilə cavab verəcəyik. Burada hər şeydən əvvəl bu iradların .həllində olan müxtəlif məslək və yollara işarə etməyi lazım sayırıq

## YOL VƏ MƏSLƏKLƏR

İlahi ədalətlə bağlı iradların həllində olan yol və məsləklər bir-birindən fərqlidirlər. Din şüası ilə Allaha iman bəsləyən iman əhli, adətən öz vicdanını xülasə bir cavab ilə qane edir. O, öz-özlüyündə belə fikirləşir ki, tam qəti və möhkəm dəlillər elm və hikmətli Allahın olmasını sübut edir. İndi həmin qadir, elmli və həkim Allahın zülm etməsinə nə səbəb var? Məgər Allahın kiminləsə düşmənçiliyi var ki, O, həmin düşmənçiliyə görə həmin şəxsin haqqını əlindən alsın? Yoxsa möhtacdır və buna görə başqalarının haqqını oğurlayıb özünə götürmək istəyir? Zülmün yaranmasına səbəb olan şey ya ruhi çatışmamazlıqlardır, ya da ki, ehtiyaclar. Allahda zülm yaradan səbəblər olmadığı üçün Onun barəsində zülm məsələsi mə’nasızdır. O, mütləq alim, mütləq qadir və mütləq həkimdir. O, ən yaxşı və layiqli quruluşun necəliyini bilir və həm də həmin quruluşu yaratmağa qadirdir. Buna görə də Allahın dünyanı ən gözəl və layiqli quruluşun əks formasında yaratmasına heç bir dəlil yoxdur. Şər adlandırılan şeylər, .əgər gözəl və qəşəng quruluşa zidd olsaydı, heç vaxt yaradılmazdı

Bu qrup, bə’zən onların fikrincə yozula bilməyən hadisələrlə rastlaşanda da, onları bizə mə’lum olmayan və yalnız Allahın bildiyi hikmət və məsləhət kimi qiymətləndirirlər. .Başqa sözlə desək, onu «talenin sirri» adlandırırlar

Bu tərzi-təfəkkürün öz-özlüyündə bir növ isbat və deduksiya, özü də düzgün deduksiya olmasında heç bir şəkk-şübhə yoxdur. Bu qrup belə deyə bilər ki, əgər bə’zi şərlərin məsələsi yozulmazdırsa, bu, bəşəriyyətin dünyanın sirlərini dərk etməkdə naqisliyindən irəli gəlir. Əgər insan özünü sirr və hikmətlə dolu dünyada görürsə, bir

neçə yerdə sirr və hikməti başa düşməyəndə, təbii ki, məsələnin kökündə şəkk .etməməlidir

İman əhlinin avam kütləsi bu məsələlərlə rastlaşanda, məsələni yuxarıda dediyimiz .kimi həll edirlər

Əvvəldə adını çəkdiyimiz hədis əhli, ilahi maarifdə sükut və sırf tabeçilik tərəfdarıdır və təbii ki, bu məsələlər barəsində fikir söyləməkdən çəkinirlər. Onların yolları əslinlə elə həmin avam kütlənin yolundan başqa bir şey deyil. Əş’əri mütəkəllimlər də elə yolla gediblər ki, onlar üçün də təbii olaraq həll edilməli bir məsələ qalmayıb. Amma digər mütəkəllimlər və habelə ilahiyyatda hiss və təcrübə üsulunun tərəfdarları, ilahi ədalət məsələsinin iradlarının həlli yolunu kainatın sirləri və onlarda olan fayda və .məsləhətlərdə araşdırma və tədqiqat aparmaqda görürlər

Amma ilahi filosoflar da məsələyə «səbəbdən nəticəyə çatmaq» yolu ilə daxil olurlar və yuxarıda nəql etdiyimiz mətləbi dəlil və bürhan formasına salırlar. Onlar deyirlər ki, Allahın əsəri olan dünya, Onun cilvəsi misalındadır. Allah-taala mütləq gözəldir və gözəlin cilvəsi də gözəldir. Onlar həmçinin şərlər mahiyyətinin təhlilinə, onların yoxluq olmalarına və zati deyil, qeyri-zati olmaqlarına toxunurlar. Həmin filosoflar həmçinin şərlərin olmalarının zəruriliyi, onların xeyirlərdən ayrılmazlıqları, başqa sözlə desək, yaradılışın parçalanmazlığını isbat edirlər və həm də şərlərin tə’sir və faydaları .barəsində bəhslər edirlər

Biz burada filosofların gətirdikləri həmin bürhan barəsində söz açmayacağıq. Çünki o, .bu kitabın səviyyəsindən çox yuxarıdır. Amma digər hissələr barəsində danışacağıq

Bundan əvvəl dediyimiz kimi, bu məsələnin iradları «ayrı-seçkiliklər» və «şərlər» adı altında xülasə edilir. Biz əvvəlcə ayrı-seçkiliklər bəhsinə daxil olacağıq və sonra, başqa .bir fəsldə şərlər məsələsini araşdıraraq təhlil edəcəyik

## AYRI–SEÇKİLİKLƏR

Ayrı–seçkilik məsələsinin iradı bu idi ki, varlıqlar bir–birlərinə nisbətdə zatən bərabər haqqa malik olduqları halda, nə üçün müxtəlif və bir–birlərindən fərqli yaradılıblar? Nə üçün biri qara, digəri isə ağdır? Nə üçün biri çirkin, digəri isə gözəldir? Biri kamil, digəri isə naqisdir? Nə üçün biri mələk, digəri insan, üçüncüsü heyvan, dördüncüsü bitgi, beşincisi isə cansız varlıqdır? Nə üçün bunun əksi olmayıb? Nə üçün heyvan mələk, mələk isə heyvan olmayıb? Nə üçün varlıqlar içərisində yalnız insan, insan yaradılaraq müəyyən vəzifələr daşımalı, savab və ya cəza görməli, başqa varlıqlar isə belə olmamalıdır? Əgər bu yaxşı idisə, nə üçün hamı belə olmayıb? Əgər pisdirsə, onda nə ?üçün insan belə yaradılıb

Bu sualların iki cür cavabı var. Cavablardan biri xülasə, digəri isə müfəssəldir. Xülasə cavab bizim, bundan öncə, yol və məsləkləri izah edərkən dediyimizdir. Biz orada dedik ki, iman əhli adətən bu məsələdə xülasə cavabla öz zehnlərini qane edirlər. Onlar deyirlər ki, bu suallar bir sıra iradlar deyil, bir sıra məchul və namə'lum məsələlərin irəli sürülməsidir və biz, «başa düşmürük» deyərək məsələni həll edə .bilərik

Biz, Allahı «əlim, həkim, qəni, kamil, cavad» və bu kimi sifətlərlə tanımışıq və Onu bu sifətlərlə tanıdığımız üçün baş verən hər bir şeyin «hikmət» və «məsləhət» əsasında olmasını bilirik. Hərçənd ki, biz həmin hikmət və məsləhətlərin hamısını dərk edə bilmirik. Biz, necə deyərlər, «talenin sirrindən» xəbərdar deyilik. Neçə min illik kütləvi sə'y ilə özünün hiss edilən bədəninin sirlərindən tam baş çıxarmayan insanın «varlığın müəmmalarından» və «talenin sirlərindən» baş açmaq istəməsi çox iddiaçılıq və xudxahlıqdır. Bəşəriyyət varlıq aləmində onun ağlını heyran edən bu qədər hikmət və tədbir gördükdən sonra, hər hansı bir işin Hikməti namə'lum olan yerdə bu məchulun .səbəbinin yaradılış deyil, onun dərrakəsinin naqisliyi olmasını e'tiraf etməlidir

Bu qrup şəxslər heç vaxt başlarını bu cür «niyə, nə üçün?»lərlə qatmır və vaxtlarını həmin məsələlərə sərf etmək əvəzinə, bir tərəfdən başa düşdükləri, digər tərəfdən isə .əməli olan məsələlərdə araşdırma aparmağa sərf edirlər

Bu cavabın düzlüyündə heç bir şəkk–şübhə ola bilməz. İmanlı şəxslər bu məsələlərin

cüz’i dərinliklərinə getmək vəzifəsi daşımırlar və avam kütlənin bu qism məsələlərə daxil olmaq iste’dadları da yoxdur. Hətta bu cür məsələlərə daxil olmaq onlara qadağan edilib. Əslində bunun özü bir növ

deduksiyadır. Belə ki, biz «səbəb» və onun kamilliyi yolu ilə «nəticənin» kamilliyini e'tiraf .edirik

Amma burada daha başqa bir məsələ vardır və o da budur ki, camaatın əksəriyyəti Allahı «əsər», yə'ni dünyanın quruluşu yolu ilə tanıyır. Onların çoxunun bu barədəki agahlıqlarının əsaslandığı məsələ dünyadır. Amma bu növ agahlıq naqis agahlıqdır. Buna görə də onlar təbii ki, agahlıqlarının söykənəcəyi olan bu nöqtədə məchul bir şeylə rastlaşanda, az-çox təşvişə düşürlər və həmin iradların həlli ancaq həmin irad nöqtələrini araşdırmaqdan başqa bir yolla həll edilə bilməz. Onlar Allahı dünyadan müstəqil və ayrı tanımayıblar ki, Allahın mütləq kamal, ehtiyacsızlıq və gözəllik kimi tanınması, onları ən gözəl yaradıcının, ən gözəl əsəri və ya ən kamil yaradıcının ən kamil əsəri kimi tanış etmiş olsun. Onların dünya ilə yalnız bir əlaqə yolları var və o da adi və sadə hissiyyat yoludur. Onlar Allahı dünya aynasında görürlər. Buna görə də onların aynanın səthində gördükləri ləkələr görülən şeylərə əsər qoyur. Onlar əgər dünyanı Allahın aynasında görə bilsəydilər, başqa sözlə desək, dünyanı yuxarıdan görə bilsəydilər, aşağıdan görünən bütün naqislik və xoşagəlməzliklərin hamısı məhv olaraq aradan gedər və mə'lum olardı ki, onlar gözün görməsindəki səhv ucbatından .naqisdirlər. Bu, Hafizin «təriqət başçısının nəzəri» adlandırdığı həmin baxışdır

Agahlıqlarının yeganə əaslandığı aləm dünya olan Allah və Onun həkim, əlim, adil, ehtiyacsızlıq və kamilliyini ancaq və ancaq dünya aynasında görən şəxslər, istər-istəməz dünya barəsində məchul və namə'lum işlərlə rastlaşanda aynalarında ləkə .yaranır və həmin ləkə, aynanın həqiqəti düzgün göstərməsinə mane olur

Digər tərəfdən, bu iradlar bizim yaşadığımız əsrdə müxtəlif qruplar, xüsusilə materializmə meylli şəxslərin yazı və çıxışlarında daha çox səslənir. Mən bu cür suallar irəli sürən adamlarla çox rastlaşıram. Onlar ya ümumiyyətlə Allaha e'tiqad bəsləmir, ya da onların imanları ümumi təsdiqlə hikmət və məsləhətə qənaət edəcək qədər möhkəm deyildir. Buna görə də problemin həlli üçün həmin sualların kökü ilə bağlı .məsələlərin irəli sürülməsi lazımdır

Digər bir məsələ də budur ki, «hikmət» və «məsləhətlər»lə bağlı mühüm bir irad vardır və o, çox az irəli sürülür. Həmin irad həll edilməsə, yuxarıdakı xülasə cavab öz dəyərini

əldən verəcək. Həmin iradın həlli bizim, gələcəkdə, barəsində danışacağımız müfəssəl cavabın əsası olan və filosofların həmin cavaba çox əaslandıqları bir əsl hazırlamağımızdan asılıdır. Əvvəldə dediyimiz xülasə cavab və sonra danışacağımız müfəssəl

:cavablar, yalnız həmin əslə əsaslananda dəyər əldə edirlər. Həmin irad budur

Görəsən ümumiyyətlə «məsləhət» və «hikmət» Allah barəsində mə’na və məfhum verirmi? Görəsən «Allah filan işi filan məsləhətə görə edib və ya Allahın filan işinin hikməti filan şeydir» demək olarmı? Görəsən Allah barəsində bu cür danışmaq, Onu ?məxluqata oxşadaraq onlarla müqayisə etmək deyilmi

Ola bilər ki, kimsə «hikmət» və «məsləhət»in Allah barəsində mə’na və məfhumsuz olmasını və bunların hamısının Xaliqi məxluq ilə müqayisədən yaranmasını iddia etsin. Çünki «məsləhət filan cür tələb edir», deməyin mə’nası budur ki, filan məqsədə çatmaq üçün filan vasitədən istifadə edilməlidir. Filan məqsədin seçilməsi məsləhətdir, çünki o, bizi filan məqsədə çatdırır və filan məqsədin seçilməsi məsləhət deyil, çünki o, bizi filan məqsədə çatdırmır. Məsələn deyirik ki, məsləhət ləzzətin mə’na və məfhum tapması üçün əzab-əziyyətin olmasını tələb edib; hikmət uşağın hazır yeməyinin olması üçün ananın döşlərinin olmasını tələb edib; hikmət və məsləhət filan heyvanın özünü düşmənindən qoruması üçün buynuzlu olmasını tələb edib. Görəsən «bunların hamısı ?Allahı insanlar və digər naqis canlılarla müqayisə etmək» misalından deyilmi

İnsan və digər naqis varlıqlar üçün məsləhət və hikmət məsələsi mə’na və məfhum daşıyır. Çünki insan və ya hər hansı bir digər naqis varlıq bir sıra səbəb və nəticələrdən təşkil edilmiş bir quruluşda yerləşib. Həmin varlığın hansısa nəticəyə çatmaq üçün bir səbəbə əl atmaqdan başqa çarəsi yoxdur. Həmin varlıq, əgər müəyyən məqsədə çatmaq üçün aləmdə həmin məqsədə çatılması üçün nəzərdə tutulmuş vasitədən istifadə etsə, məsləhət və hikmətə uyğun hərəkət etmiş sayılır, başqa halda isə onun .işi hikmət və məsləhətə zidd əməl kimi qiymətləndirilir

Məsləhət və hikmət, yaradılış aləminin bir hissəsi olan və məhdud qüdrətə malik və mövcud quruluşa tabe olmaqdan başqa bir çarəsi olmayan varlıq üçün düzgün sayılır. .Qüdrətin məhdudluğu, məsləhət və hikmətin mə’nasının bir hissəsidir

Bəs görəsən bu quruluşun fövqündə olan və həmin quruluşun yaradıcısı olan bir varlıq üçün məsləhət və hikmətin nə mə’nası ola bilər? Onun hansısa məqsədə çatmaq üçün bir sıra vasitələrə əl atmağa nə ehtiyacı vardır ki, barəsində «filan işi həkimanə, filan işi isə qeyri-həkimanə idi» də deyilsin? Buna görə də bizim «Allah, əzab-əziyyəti ləzzətin

mə’na tapması üçün, ananın döşlərini uşağın südsüz qalmaması üçün yaradıb» deməyimiz düzgün deyildir. Allah-taala, uşağı ana döşünə möhtac etmədən də

doyuzdura bilər və insana, əzab-əziyyət çəkmədən ləzzətin mə’nasını başa salmaq qüdrətinə də malikdir.

Səbəb-nəticə qanunu bizim gözümüzdə çox ciddi bir məsələdir, amma o, Allah baxımından formal xarakter daşımaqdan başqa bir şey deyil. Buna görə də biz Allah deyil, həkim ola bilərik; həmçinin bizim işlərimiz Allahın, başqa bir quruluş əsasında yaradılmamış və quruluşun eyni olan işləri deyil, həkimanə, yə’ni mövcud qanuna uyğun ola bilər. Allah-taala elə bir quruluşun xaliqidir ki, həmin quruluşun yaradılışından sonra onu tanıyaraq əməlini ona uyğunlaşdıranın işi həkimanədir.

Belə də deyilə bilər ki, Allah öz elm və hikmətini bəndələrinə aydınlaşdırmaq və onlara agahlıq vasitəsi vermək üçün dünyanı nizamlı şəkildə və bir sıra səbəb-nəticə qanunu əsasında yaradıb, çünki əgər nəzm, harmoniya və dəqiqlik olmasaydı, yə’ni təsadüf mövcud olsaydı və hər bir müqəddimədən istənilən nəticə gözlənilsəydi, onda Allahı tanımaq yolu da olmazdı.

Bu sözün cavabı budur ki, bəndələrin agahlıq əldə etmələrinin həkimanə yaradılış aləmini araşdırmalarına əsaslanmasını deməyin özü, dünyaya qəti və zəruri bir quruluş və qanunun hakim olması mə’nasını verir. Halbuki yuxarıdakı nəzəriyyəyə əsasən, nəticəyə çatmaq üçün vasitələrə əl atmaq Allahın deyil, bəndələrin işlərindəndir; Allah həmin yoldan istifadə etmədən bəndələr üçün həmin agahlığı yaratmaq imkanına malikdir.

Buna görə də şər və ayrı-seçkilik məsələlərini «məsləhət» və «hikmət»ə əsaslanaraq izah etmək istəyənlərə, ayrı-seçkilik və pisliklər məsələsinin bu əsasla izah edilə bilməməsinə irad tutula bilər. Çünki Allah-taala ayrı-seçkilik və pisliklərdə olan bütün xeyir və faydaları, həmin narahatedici vasitələrin özləri olmadan belə yarada bilərdi.

Bunun özü böyük bir iraddır və ilk növbədə bu həll edilmədir ki, sonra növbə, digər bir iradın cavabında «məsləhət» məsələsinin irəli sürülməsinə gəlib çatsın.

### DÜNYANIN QURULUŞU ONUN ZATIDIRMI?

İndi cavabın əsas hissəsinə daxil olacağıq. Mühüm məsələ bizim dünyanın quruluşunu tanımağımızdır. Görəsən dünyanın quruluşu şərti bir quruluşdur, yoxsa zati? Bu

baxımdan xilqət və yaradılışın mə’nası nədir? Görəsən onun mə’nası budurmu ki, Allah, aralarında heç bir gerçək və zati əlaqə və bağlılıq olmayan şeylər və hadisələr toplumu yaradır, onları cərgəyə düzərək bir-birinin arxasında yerləşdirir və həmin yerləşdirmədən quruluş və qanun, müqəddimə və nəticə yaranır? Yoxsa səbəb və nəticələr

və həmçinin müqəddimələrlə nəticələr arasındakı əlaqə elə şəkildədir ki, hər bir nəticənin öz səbəbinin arxasında dayanması və nəticənin müqəddimədən sonra gəlməsi onun vücudunun zati və eynidir? Elmi dildə desək: ədədlərdə olduğu kimi «Dünyanın şaquli və üfüqi quruluşunda hər bir vücudun mərtəbəsi həmin vücudun .zatının dayağıdır.» Bu məsələni izah etmək üçün ədədlərə aid bir misal çəkək

Ədədlərdə birin ikidən, ikinin də üçdən əvvəl olması mə'lum məsələdir. Həmçinin birdən başqa bütün ədədlər, hansısa ədəddən əvvəl və hansındansa sonra gəlirlər. Hər bir ədəd bir mərtəbəni tutub və öz mərtəbəsində müəyyən hökm və tə'sirə malikdir və hansısa həddə məhdudlaşmayan ədədlər, birlikdə müəyyən quruluş .yaradıblar

Ədədlər hansı vəziyyətdədirlər? Görəsən ədədlərin vücud və mahiyyətləri onların mərtəbə və dərəcələrindən ayrı şeydirmi? Onların hər biri öz mərtəbələrində müstəqil vücud və mahiyyətə malikdir və istənilən dərəcə və mərtəbəni tuta bilərmi? Məsələn, beş rəqəmi onsuz da beşdir və onun dördlə altı və ya altı ilə səkkiz arasında yerləşməsi və yaxud dörd ilə altı arasında yerləşən ədədin məsələn, yeddi olması fərq etmirmi? Görəsən hər bir ədəd öz mahiyyətini qorumaqla, istənilən mərtəbədə yer tuta bilərmi? Məsələn bu, cəmiyyətdə müxtəlif mövqelər tutan və həmin ictimai mərtəbələr mahiyyətinə heç bir tə'sir göstərməyən və həmçinin mahiyyətləri də onunla heç cür bağlı olmayan insan kimidirmi? Yoxsa, məsələ bunun əksidir? Yə'ni beş ədədinin mahiyyəti beşdir və onun beş olması onun mərtəbə və dərəcəsi, yə'ni dörd ilə altının arasında yerləşməsi ilə eynidir? Beşin altı ilə səkkiz arasında yerləşməsini fərz etmək, beşin beş olmaması və yeddi olması ilə bərabərdir, yə'ni bizim fərzi və xəyali beşimiz beş deyil, yeddidir ki, o da öz yerində yerləşib və biz səhv olaraq onun adını beş qoymuşuq. Başqa sözlə desək, beş ədədinin yeddinin yerində yerləşməsini fərz etmək .puç, mə'nasız və qeyri-əqli bir təsəvvürdür ki, bizim xəyalımız belə bir iş görür

İndi səbəb-nəticə və müqəddimə-nəticə qanunlarının necəliyinə nəzər salaq. Görəsən onlar bir dəfə yaradılıb sonradan hardasa yerləşdirilirlərmi? Yoxsa, onların vücudu yerləşdikləri mərtəbə ilə bərabərdir? Məsələn, Sə'di Şirazi zaman və məkan baxımından bizdən əvvəl olub və xüsusi zaman və məkan şəraitində yerləşibsə, bu o deməkdir ki, o, əvvəlcə yaradılıb və sonradan həmin xüsusi şəraitdə yerləşdirilib?

Yoxsa Sə’dinin vücudu, onun həmin şərait, zaman və məkan, mövqe, məqama malik xüsusi vücudu və onun digər əşyalarla olan nisbəti ilə bərabərdir və onların hamısı onun vücudunun formulunun bir hissəsidir və Sə’di onların hamısının ümumi

toplumu deməkdir? Buna görə də Sə’dini öz zaman və məkanından ayırmaq, onu özündən ayırmaq deməkdir. Bunun mə’nası odur ki, Sə’di, Sə’di deyil və biz ondan .sonrakı zamanda olmuş Camini fərz edərək ona Sə’di adı vermişik

Varlığın quruluşu haqqında olan bəhs yorucu bir mövzudur. Bə’ziləri belə fikirləşiblər ki, onların varlıq aləmi və hər bir nəticənin öz yerində yerləşməsini zəruri və qəti bir iş kimi fərz etmələri, Allah-taalanın qüdrət və iradəsi üçün bir növ məhdudiyyət qail .olmaq deməkdir

Amma onlar bu məsələdən xəbərsizdirlər ki, söhbət dünyada varlıqlardan başqa olması zəruri olan və olmaması mümkün olmayan varlığın olmasından getmir. Söhbət bu məsələdən gedir ki, varlıqların tərtib və quruluşları onların vücudlarının eynidir ki, Allah tərəfindən bağışlanır. Onlara müəyyən quruluş verən Haqqın iradəsidir. Amma bunun mə’nası Allahın, onları bir iradə ilə yaratması və digər bir iradə ilə şəklə salması demək deyildir ki, quruluş iradəsinin götürülməsi onların yaranma iradəsinin qalması fərzinə səbəb olan nəticəni versin. Varlıqların vücudları ilə vücud mərtəbələri bir olduğu üçün, onların vücuda gəlmələri iradəsi quruluş və quruluş iradələri vücud .iradələrinin eynidir

Buna görə də Allah-taalanın hər bir şeyin vücuda gəlməsinə olan iradəsi, yalnız həmin şeyin səbəbini istəmək yolu ilə həyata keçir və həmin səbəbin vücuda gəlməsi iradəsi, səbəbin səbəbinin yaranmasını iradə etmək yolu ilə baş verir və bundan başqa bir şeyin olması qeyri-mümkündür. Varlıqlar, şaquli və yüksələn xətt üzrə birbaşa Allahın iradəsinə bağlanmış səbəbdə sona çatırlar; Allahın, onun vücuda gəlməsini iradə etməsi bütün əşya və bütün quruluşların vücuda gəlmələrinin iradə edilməsinin (eynidir. «Bizim buyuruğumuz bir göz qırpımında yerinə yetər...»(١)

Buna görə də, Allahın qüdrət və iradəsinin sonsuz olması və Onun Özünün yaratdığı quruluşa düçar olmamasına baxmayaraq, həm hikmət və həm də məsləhət məsələləri Onun barəsində də özünü doğruldur. Allah hikmətinin mə’nası Onun, əşyaları özlərinin vücudlarının son hədəf və kamilliklərinə çatdırmasıdır. Amma insanların işində olan hikmətin mə’nası budur ki, onlar özlərinin hədəf və kamilliklərinə çatmaları üçün .müəyyən bir iş görürlər

Nəticənin vücudu və onun öz səbəbi ilə bağlılığı, ayrılıq fərz edilməsinə gətirib çıxaran iki şey deyil, bir olduğu üçün Allah-taalanın onu iradə etməsi, onun öz xüsusi səbəbi ilə əlaqədə olmasını iradə



---

۱- [۳۵] Qəmər-۵۰.

etməkdən ibarətdir. Həmin səbəbin iradə edilməsi də, onun öz xüsusi səbəbi ilə əlaqəsinin iradəsinə bərabərdir və iş sonda, iradə edilməsi Haqqın zatı ilə əlaqə ilə bərabər olan səbəbə çatır və Haqqın onu iradə etməsi bütün əşya, bütün əlaqə və .bütün quruluşların iradə edilməsi ilə bərabərdir

## XOŞ VƏ ƏBƏDİ XATİRƏ

Yadımdadır ki, Qum şəhərində təhsil aldığım illərdə bir gün özüm, təhsilim və həyatda seçdiyim yolu qiymətləndirirdim. Öz-özümə fikirləşirdim ki, görəsən dini təhsil yerinə, müasir təhsil sahələrindən birini seçsəydim yaxşı olardı, yoxsa yox? Təbii ki, malik olduğum ruhiyyə, iman və mə’nəvi maarifə qail olduğum dəyərə görə, zehnimə gələn ilk şey bu oldu ki, görəsən elə olan surətdə mənim ruhi və mə’nəvi vəziyyətim necə olardı? Fikirləşdim ki, indi tövhid, nübüvvət, məad, imamət və sairənin əsaslarına iman və e’tiqadım var və onları çox sevirəm, amma görəsən əgər təbii, riyazi və ya ədəbi ?elmlərdən hər hansı birisini oxusaydım hansı vəziyyətdə olardım

Öz-özümə cavab verdim ki, bu əsaslara inam və e’tiqad bəsləmək və ümumiyyətlə həqiqi ruhani olmaq, insanın qədimi elm sahələrində təhsil almasından asılı deyil. Bu təhsildən məhrum olaraq digər sahələrdə mütəxəssis olanlar çoxdur. Amma buna baxmayaraq, onlar güclü imana malikdirlər və əməldə təqvalı və pərhizkardırlar, hətta bə’zən az-çox islami mütaliə ilə məşğul olan belə şəxslər islamın hami və təbliğatçısı da olurlar. Ola bilərdi ki, mən həmin elm sahələrində imanım üçün indi əldə .etdiklərimdən daha yaxşı şeylər əldə edə biləm

Mən həmin vaxtlar ilahi fəlsəfə ilə təzə-təzə tanış olmuşdum və onu, bu sahənin yalnız bir sıra əzbərçiliyə malik əksər iddiaçı və müəllimlərinin əksinə olan, islam ilahiyyatını doğrudan da dadmış, onun düşüncələrini dərindən dərk etmiş və ən şirin ifadələrlə bəyan edən bir ustadın yanında öyrənirdim. Həmin günlərin ləzzəti və xüsusilə, ustadın .dərin, lətif və şirin açıqlama və ifadələri ömrümün unudulmaz xatirələrindəndir

Mən həmin günlərdə tam müqəddiməsi ilə öyrəndiyimiz bu məsələlərlə tanış olmuşdum. «Vahid varlıqdan yalnız vahid şey yarana bilər» qaydasını filosoflar tək dərk etmişdim (ən azı mən belə fikirləşirdim). Dünyanın qəti və xələl gəlməyən quruluşuna əql gözü ilə baxırdım, «sual» və «necə-nə üçün»lərimin birdən-birə necə yoxa çıxması,

şeyləri bir quruluşda yerləşdirən bu qəti qayda ilə «vücudda Allahdan başqa heç bir -tə’sir qüvvəsi yoxdur» prinsipi arasında heç bir ziddiyyət görməməyim və onları bir

birlərinin kənarında yerləşdirməyim barəsində fikirləşirdim. Mən artıq «iş Allahın işidir və o, bizim də işimizdir» cümləsinin mə’nasını başa düşürdüm və onun iki hissəsi arasında ziddiyyət görmürdüm və «orta mövqe» prinsipi mənim üçün həll olmuşdu. Molla Sədranın nəticə ilə səbəb arasındakı əlaqənin necəliyi barsindəki bəyanı və xüsusilə həmin mətləbdən «Vahid varlıqdan yalnız vahid şey yarana bilər» qaydasının isbatında istifadə edilməsi məni çox güclü tə’sir altına alaraq vəcdə gətirmişdi. Xülasə, zehnimdə əsaslı bir plan yaranmışdı və o, geniş dünyagörüşündəki problemlərimin həlli yolları idi. Bu mətləb və bu qism bir sıra digər mətləblərin dərki nəticəsində islam maarifinin əsalətliyinə inanmışdım. Mən Qur’anın, Nəhcül- bəlağənin və həmçinin peyğəmbər və imamların hədis və dualarındakı tövhid maarifini çox yüksək səviyyədə .hiss edərək duyurdum

Onda fikirləşirdim ki, əgər mən bu sahədə təhsil almasaydım və həmin ustadın gözəl bəyanlarından feyz ala bilməsəydim, istər mə’nəvi və istərsə də maddi cəhətdən hər bir şey indikindən yaxşı ola bilərdi və indi malik olduğum şeylərin hamısına, ən azı oxşar və ya əvəzedicisinə, bəlkə bundan da yaxşısına malik olardım, amma həqiqətən nə özü və nə də əvəzedicəsinə sahib ola bilməyəcəyim yeganə şey, zehnimdə .formalaşdığını dediyim həmin plan və onun nəticələridir. Mən indi də həmin fikirdəyəm

Əvvəldə, sadə şəkildə irəli sürülməsi nəzərdə tutulan ilahi ədalət bəhsi, dərin fəlsəfi bəhslər «qalasının» qapısına kimi irəlilədi və əgər bir qədər də irəliləmək istəsək, onda gərək daha yüksək qüllələrə çıxmağa hazırlaşaq. Amma deyəsən belə bir iş üçün hazırlıq yoxdur. Buna görə də mətləbi sadə dillə, aşağı səviyyədə araşdırmağımız daha yaxşıdır. Məncə bu kitabı mütaliə edəcək oxucular, mətləbi sadə bəyan və açıqlamalarla daha yaxşı başa düşürlər. Sözün qısası budur ki, «şərlər» və «ayrı-seçkiliklər» barəsindəki iradın xülasə və qısa cavabı, yə’ni «ortada bir sıra məsləhətlər var və onlarda olan fayda və mənfətlərə görə həmin məsələlər sırf şər sayılmır, əksinə onlar xeyirlə qarışığı olan şərdirlər və məsələnin xeyirli cəhəti şər cəhətindən çox olduğu üçün onlar ümumi baxışda şər deyil, xeyirdirlər» cavabı, səbəb-nəticə qanunlarının şərti deyil, qəti, dəyişməz və zati olmasına əsaslanır. Bu mətləbi bilmək bizim «mövcud olan şey ayrı-seçkilik deyil, fərqlilikdir» barəsindəki gələcək bəhsimizin .başa düşülməsinə şərait yaradır

## !BURADA AYRI–SEÇKİLİKDƏN YOX, FƏRQLİLİKDƏN DANIŞMAQ LAZIMDIR

Yaradılışda olan şey ayrı-seçkilik deyil, fərqlilikdir. Ayrı-seçkilik bərabər şərait və yeksan haqlılıqda, şeylər arasında fərq qoyulması deməkdir. Amma fərqliliyin mə’nası, bərabər olmayan şəraitdə şeylər arasında fərq qoyulmasıdır. Başqa sözlə desək, ayrı-
.seçkilik bəxş edənin tərəfindən, fərq isə qəbul edənin özündəndir

Sadə bir məsəl çəkməklə məsələ aydınlaşacaq. Biz, əgər tutumu on litr olan iki qabı su kranının altına qoyub birinə on, digərinə isə beş litr su töksək, ayrı-seçkilik etmiş oluruq. Burada fərqin mənşəyi su tökən qüvvədir. Amma qarşımızda bir ədəd beş litrlik və bir ədəd də on litrlik qabımız olsa və biz onların hər ikisini dənizə batıraraq su doldursaq yenə də suların miqdarında fərq olduğunu görəcəyik. Amma bu fərqin mənşəyi dəniz və ya suyun təzyiqi deyil, həmin qabların tutum baxımından olan .fərqləridir

Başqa bir misal çəkim. Müəllimin, hamısı bir səviyyədə olan və dərsləri bərabər olan şagirdlərə müxtəlif qiymətlər verməsi ayrı-seçkilikdir. Amma birdən müəllim hamıya bir gözlə baxır və bir cür dərs keçirsə və hamıdan bir cür imtahan götürürsə və şagirdlərin bə’ziləri kütbeyinlik, yaddaşsızlıq, çalışmamazlıq və sairə səbəblərdən imtahanı pis vercələr və ya ümumiyyətlə verə bilməcələr, bə’ziləri isə güclü iste’dada malik olmaları və çalışqanlıq göstərmələri nəticəsində imtahanın suallarına tam cavab versələr və müəllim onlara, verdikləri cavab əsasında qiymət versə, burada ayrı-seçkilik deyil, fərq baş verəcəkdir. Ədalət, müəllimin bütün qiymətləri bir-birinin üstünə gələrək bütün şagirdlər arasında bərabər bölməsi demək deyildir. Ədalət odur ki, müəllim şagirdlərin hər birinə layiq olduğu qiyməti versin. Bu cür yerlərdə tərəflər arasında fərq qoymaq eyni ilə ədalət və bərabərlik, fərq qoymamaq isə ayrı-seçkilik .və zülmdür

Burada təbii olaraq qarşıya belə bir mətləb gəlir ki, Allahı müəllimlə müqayisə etmək olmaz. Allah varlıqların yaradanıdır və mövcud olan hər bir fərq onun tərəfindəndir. Amma müəllim şagirdlərin yaradanı deyil və onlardan birinin zehnli, digərinin isə kütbeyin olması müəllimdən asılı deyil. Əgər biri iste’dadlı və çalışqandırsa və digəri iste’dadsız və tənbəldirsə, bunun müəllimlə heç bir əlaqəsi yoxdur. Allah və varlıq

barəsində isə, e’tiraf etmək lazımdır ki, bütün fərq və ayrı-seçkiliklər Onun tərəfindəndir. Allahın işi ikimərhələli olub. Belə ki, O, bir mərhələdə varlıqları fərqli yaradıb, digər mərhələdə isə onlarla fərqləri əsasında rəftar

edərək onlara layiq olduqlarını verib. İrad işin birinci mərhələsinə aiddir ki, Allah nə ?üçün əvvəldə hamını bərabər və yeksan yaratmayıb? Fərqlərin sirri nədədir

## FƏRQLƏRİN SİRRİ

:Fərqlərin sirri bir kəlmədir

Varlıqlar arasındakı fərqlər onlar üçün zatidir və o, səbəb-nəticə qanununun» zərurətlərindəndir.» Bu çox ağır cümlədir, amma izah etməkdən başqa heç bir çarə yoxdur. Biz burada dediyimiz şeyləri bir daha sadə dillə təkrar etmək və dərin bir bəhsin çətinliyini asanlaşdırmaq məcburiyyətindəyik. Ali və lazımi nəticə əldə etmək .ümidi ilə əvvəlki bəhsimizi davam etdirək və icbari olaraq bir az filosoflaşaq

İlahi maarifdə səthi fikirləşən bir qrup mütəkəllim, birinci ehtimalın tərəfdarıdır. Amma əqli dəlillər və qəti fəlsəfi bürhanların sübut etdiyi və Qur’anın da düzlüyünü təsdiqlədiyi, ikinci nəzəriyyədir. Həmin nəzəriyyəyə əsasən, dünyanın hamısı əvvəldən axıra kimi bir iradə ilə vücuda gəlir və hamı Allahın iradəsi ilə yaranır. Amma onlar ayrı-ayrı iradələrlə deyil, bir iradə ilə, özü də bəsit bir iradə ilə yaranır. Qur’ani-kərim :buyurur

.Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə yaratdıq»

(Bizim buyuruğumuz bir göz qırpımında yerinə yetər.»(١)

Bu əqidəyə əsasən, yaradılış üçün xüsusi quruluş, müəyyən qanun və tərtibat mövcuddur və Allahın, şeyləri yaratmaq iradəsi, quruluş iradəsinin eynidir. Səbəb-nəticə qanunu da oradan yaranır. Səbəb-nəticə qanununun mə’nası budur ki, hər bir nəticənin özünəməxsus səbəbi və hər bir səbəbin özünəməxsus nəticəsi var; nə müəyyən bir nəticə, heç bir vasitə olmadan, istənilən səbəbdən yarana bilər və nə də müəyyən bir səbəb vasitəsiz, hər bir nəticəni yarada bilər. Həqiqət budur ki, səbəb-nəticə qanununda, hər bir varlıq və şey müəyyən yer və məqama malikdir, yə’ni nəticə müəyyən bir

١- [٣٦] Qəmər-٤٩-٥٠.

şeyin nəticəsidir və bu ayənin «Şübhəsiz ki, Biz hər bir şeyi müəyyən ölçüdə yaratdıq» ifadəsinin dəqiq mə’nasıdır. Bu mətləbin aydınlaşması üçün, dünyanın quruluşunu .şaquli və üfüqi hissələrə bölməklə izah edirik

## ŞAQULİ SİSTEM

Şaquli quruluşdan məqsəd, səbəb-nəticə, şeylərin yaradılma tərtibi, necə deyərlər, Allahın əşyalara nisbət failliyi və şeylərin ondan yaranma tərtibidir. İlahi zatın ucalığı və müqəddəsliyi varlıqların Ona nisbətdə mərtəbə-mərtəbə, bir-birinin ardınca yerləşmələrini, yə’ni birinci, ikinci, üçüncü və bu cür tərtiblə olmaları və bir-birlərindən sonra yaranaraq hər birinin özündən qabaqkının nəticəsi olmasını tələb edir. Əlbəttə məqsəd, zaman baxımından birinci, ikinci, üçüncü və sairə olmaq deyil. Orada, zaman .məsələsi yoxdur, zamanın özü də məxluqlardan biridir

Dini terminologiyada mələk, ilahi qoşun, Allahın şəriəti deyil, yaradılış elçiləri, işlərin bölücü və tədbirçisi kimi gəlmiş ifadələr və Allahın bir sıra ilahi və mə’nəvi təşkilatının olmasını göstərən ərş, kürsi, lövhə və qələm kimi məfhumların hamısı, bu həqiqəti başa salmaq üçündür ki, Allah-taala yaradılışı xüsusi quruluş və müəyyən tərtiblə idarə edir. Filosoflar bu mətləbi fəlsəfədə xüsusi terminlərlə, islam maarifində isə başqa ifadələrlə bəyan ediblər. Biz burada həmin məfhumların, islamın daha şirin və .sadə dili ilə ifadə olunmasına üstünlük veririk

Bu quruluşda, Allahın zatı bütün varlıqların fövqündə dayanır və mələklər Onun fərmanının icraçılarıdır. Mələklərin öz arasında da silsiləvi mərtəbələr mövcuddur. Onlardan bə’ziləri başçı və fərman verən, bə’ziləri isə köməkçi sayılırlar. Mikail ruzi üçün, Əzrail can və ruhun alınması üçün tə’yin edilmiş mələkdir. Bu iki mələyin hər birinin köməkçiləri də vardır. Hər bir mələyin müəyyən vəzifə və yeri vardır. «...Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri (olmasın.»(١

Yaddan çıxarmamalıyıq ki, Allahın varlıqlarla olan nisbəti yaratmaq və icad etməkdir və Onun təşkilatını ictimai təşkilat və insan cəmiyyətlərində olan şərti əlaqələr kimi təsəvvür etmək olmaz. Allahla mələklər arasındakı fərman vermək və itaət quruluşu, şərti və e’tibari deyil, həqiqi və inkaredilməz xarakter daşıyır. Allahın fərmanı söz deyil,

«icad»dır və mələklərin ona tabeçilikləri də ona uyğun bir şeydir. Bizim «Allah



---

۱- [۳۷] ۱۶۴-Saffat.

mələklərə filan şey etmələri fərmanını verdi» deməyimizin mə’nası budur ki, O, onları elə yaradıb ki, onlar müəyyən iş və nəticə üçün fail olsunlar. Mələklərin itaət etmələrinin mə’nası da həmin təkvini səbəb və nəticəlikdir. Qeyd edilən təşkilat təkvini .bir quruluşun nümunəsidir

Buna görə də, Qur’ani-kərim yaradılışın tədbiri və idarəsini bə’zən Allaha, bə’zən isə :mələklərə nisbət verir. Bə’zən deyir

(O, göydən yerə qədər olan bütün işləri idarə edir...»(١)»

:Bə’zən isə belə deyir

And olsun işə əncam çəkənlərə (Allahın əmri ilə dünyanın işlərini idarə edən» (mələklərə)...»(٢)

Bə’zən ölən insanların canlarının alınmasını mələklərə, bə’zən xüsusi ölüm mələyinə, .bə’zən isə özünə nisbət verir

:Vəhy çatdırılmasını bə’zən bir mələyə nisbət verərək belə buyurur

(Onu Cəbrail (Ruhuləmin) endirdi.»(٣)»

:Bə’zən isə Öz müqəddəs zatına nisbət verir

(Həqiqətən, Biz Qur’anı sənə tədriclə (ayə-ayə, surə-surə) nazil etdik.»(۴...»

Məsələnin sirri budur ki, Allahın işi müəyyən nizam və tərtibə malikdir, Onun, dünyanı .yaradıb idarə etmə quruluşu, iradə etməsinin eynidir

Varlıqlar arasında müəyyən quruluşun olmaması, hər bir varlığın hər bir şeyin mənşəyi olmasını və həmçinin, hər bir şeyin hər bir şeydən yaranmasının mümkünlüyünü tələb edir. Məsələn, kiçik bir qüvvədən böyük bir qüvvəyə münasib olan böyük partlayışın yaranması və bunun əksinə olaraq, böyük qüvvənin kiçik qüdrət göstərməsi mümkün olmalıdır. Həmçinin bir kibrit şö’ləsinin tə’siri dünyanı işıqlandıran günəşlə bərabər olmalıdır. Yaxud nəticə, öz səbəbinin yerini tutmalı, səbəb isə onun yerində durmalıdır. .Bu hesabla gərək Allahın məxluq, məxluqun isə Allah olması da mümkün olsun

Vacibin vacib, mümkünün isə mümkün olması, onların zati xüsusiyyətləridir, yə’ni vücudu mümkün olan, vacibul-vücud, vücudu vacib olan isə mümkünül-vücud ola bilməzdi. Başqa sözlə desək, məsələ belə deyil ki, vücuda gəlməsi mümkün olan varlıq vacibul-vücud və ya bunun



---

١- [٣٨] Səcdə-٥.

٢- [٣٩] Naziat-٥.

٣- [۴٠] Şuəra-١٩٣.

۴- [۴١] İnsan-٢٣.

əksi ola bilərdi. Amma təsadüfən və ya xarici bir amilin tə’siri ilə biri vacib, digəri isə mümkün olub. Xeyr, mümkünul-vücud vacibul-imkan, vacibul-vücud isə vacibul-.vücuddur

Mümkünlərin dərəcələri də belədir. Mümkünlərin hər bir dərəcəsi, varlığın hansı məqamındadırsa, həmin hala da malikdir. Məsələn, canlılara ruzi vermək və ya onların canlarını almaq vəzifəsinə tə’yin edilmiş varlığa verilmiş məqam, ona əta edilmiş vücud mərtəbəsinin zərurətlərindəndir. Yə’ni belə deyil ki, məsələn ağcaqanad bir .göstərişlə Mikailin, qarışqa Əzrailin, insan isə Cəbrailin yerini tuta bilərmiş

Kamilin naqisin, naqisin isə kamilin yerində oturması fərzindəki bütün səhvlər, insan varlıqlarının əlaqə zatiliyi, zərurilik və qətiliyini dərk etməmələri və onların varlıq aləmindəki, mərtəbələrini insanların cəmiyyətdəki, şərti və fərzi əlaqələri kimi fərz etmələrindən yaranır. Bütün səhvlər Allahı insana oxşatmaq və dünyanın zati quruluşunu şərti insan cəmiyyətləri ilə müqayisə etməkdən yaranır. Belə adamlar öz-özlərində fikirləşirlər ki, sabah filan rəisin adi işçi, adi işçinin rəis olmasına heç bir maneə olmadığı kimi, nə üçün qoyun insanın, insan isə qoyunun yerində ola bilməsin? ?Nə üçün Allah onu qoyun, bunu isə insan yaradıb

Amma onlar bu işin qeyri-mümkünlüyünü bilmirlər. Çünki, hər hansı bir səbəbin müəyyən nəticə üçün səbəb olması və həmçinin hər bir nəticənin müəyyən səbəb üçün nəticə olma qanunu şərti deyildir. Əgər «A» «B» üçün səbəbdirsə, bu səbəb onun zati xüsusiyyətlərinə görədir. Həmçinin əgər «B» «A»-nın nəticəsidirsə, bu ona görədir ki, o, bir sıra xüsusiyyətlərə malikdir və ona görə də «A» üçün nəticə olub və həmin xüsusiyyət onların vücudlarının necəliyindən başqa bir şey deyil. Buna görə də həmin xüsusiyyət şərti, aksidensal (arizi) və başqasına ötürülmək qabiliyyətinə malik deyil, gerçək bir həqiqətdir. Deməli, hər bir səbəbin öz nəticəsi və hər bir nəticənin öz səbəbi ilə əlaqəsi, səbəb və nəticənin zatından yaranır. Nəticə özünün tam zatı ilə səbəbə .bağlıdır və səbəb bütün zatı ilə nəticənin yaranma mənşəyidir

Əvvəldə dediyimiz kimi, buradan belə mə’lum olur ki, hər bir varlığın vücud məqamı, onun zatının eynidir və bu, düz ədədlərin mərtəbələri barəsində olduğu kimi dəyişməz bir şeydir. Avtobus növbəsində dayanmış insanları dala-qabağa çəkərək onların

yerlərini dəyişmək mümkündür, amma ədədlərin yerlərini dəyişərək onları arxaya və ya qabağa çəkmək mümkün deyil. Rütbəsi dörddən sonra olan beş rəqəminin dörddən qabaq yerləşməsi mümkün deyil. Dörddən qabaq üçdən başqa heç bir ədəd ola

bilməz, hətta onu beş adlandırsaq belə, yalnız ad dəyişmiş oluruq və onun həqiqətini .dəyişdirmək qeyri-mümkündür

Dünyanın bütün varlıqları arasında, belə zati və köklü bir sistem mövcuddur. Qur'ani-kərimin «Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun müəyyən bir yeri olmasın» ayəsi bütün varlıqlar barəsində düz gəlir. Hər bir şeyin öz yeri var və onu öz yerindən .başqa bir yerdə fərz etmək onun zatını əldən verməklə bərabərdir

## EN DAİRƏSİ VƏ YA ÜFÜQİ SİSTEM

Təbiət aləmində varlıqların faillik, yaradılış və icad olma baxımından yerlərini müəyyənləşdirən şaquli sistemdən əlavə, digər bir sistem də hakimdir ki, o, hər hansı bir şeyin maddi şəraitini tə'yin edir. (Maddi və zəmani səbəblərə misal olaraq, ata-ananın uşağın yaranması üçün səbəb olmalarını göstərmək olar. Filosofların fikrincə, bu qism səbəblər yaratma və icadi deyil, maddi və e'dadi səbəblər hesab olunur. Bu səbəblər həmin şeylərin yaranma və icadi deyil, keçid xarakterli səbəbləridir və onlar yalnız yarananda fail tərəfindən yaradılacaq şeyin mövcud olmasına şərait yaradırlar. Filosoflar vücudlarının mərtəbəsi baxımından öz nəticələrinin en dairəsində yerləşən və nəticələri bə'zən zaman baxımından arxada olmalarına baxmayaraq, dərəcə baxımından öz səbəblərindən daha ali və kamil dərəcədə olan bu səbəbləri «ərzi və üfiqi səbəblər», vücud dərəcəsi baxımından daha ali mərtəbədə olan və bu dünyaya tam əhatə və hakimliyi olan yaradan səbəbləri isə «tuli» və ya «şaquli səbəblər» adlandırılırlar.) Bu sistem üfüqi quruluş adlanır və dünya tarixi, həmin quruluşa əsasən qəti və müəyyən forma alır. Hər bir şey müəyyən zaman və məkanda yaranır və hər .bir müəyyən zaman və məkan, müəyyən hadisələrin zərfi olur

Biz, adətən hər hansı bir hadisə barəsində sual soruşaraq onun barəsində şəkk-şübhə yaradanda, yalnız həmin hadisənin özünə diqqət edir və onun, varlıq aləmində hansı yer və şəraitdə olmasını nəzərə almırıq. Halbuki, hər bir hadisə yaxşı və pisliyindən asılı olmayaraq, bir sıra xüsusi amillərin nəticəsidir və müəyyən şəraitə bağlıdır. Yanğın heç vaxt digər amil və hadisələrlə əlaqəsiz baş vermir və həmçinin onun baş verməsinin qarşısının alınması da maddi və ya mə'nəviliyindən asılı olmayaraq, bir sıra səbəb və amillərdən ayrı deyil. Dünyada heç bir hadisə digər hadisələrdən «ayrı» və «müstəqil»

deyil. Dünyanın bütün hissələri bir-birinə bağlı və bir-biri ilə əlaqəlidirlər. Bu bağlılıq və əlaqə, dünyanın bütün hissələrini əhatə edir, ümumi və hərtərəfli bir vəhdət yaradır. Əşyaların bir-birlərinə bağlılığı prinsipi, başqa sözlə desək, dünyanın gerçək vəhdət prinsipi (əndamvari

vəhdət) ilahi fəlsəfənin çox əsaslandığı əsalətlərdəndir. Əşyaların vəhdəti prinsipi ilahi fəlsəfədə daha ciddi mə’na tapır və o, dünyanın «parçalanmazlığı»dır. Bu barədə sonra .geniş şəkildə söhbət açacağıq

Fəlsəfədə deyilir ki, «hər bir hadisə müəyyən zaman və məkan çərçivəsində baş verir». Hər bir hadisənin müəyyən zaman və məkanı var. Bütün zaman və məkanların bir .hadisənin baş verməsi üçün fərq etməməsi mümkün deyildir

Bizim həyati müşahidələrimiz də həmin mətləbi təsdiqləyir. Məsələn, dünyanın bir yerində yanğın baş verəndə həmin hadisə müəyyən zaman, məkan və maddədə baş verir. Yanğının baş verməsi, zaman və məkanın tə’yin etdiyi şəraitdən asılıdır. Həmin şəraitin özü də öz növbəsində müəyyən zaman və məkana malikdir və bir sıra səbəb və amillərdən asılıdır. Əgər bu müşahidəmizi davam etdirsək, belə nəticəyə gələcəyik ki, hadisələr silsiləsi zəncir halqaları kimi bir-birlərinə bağlıdır. Hər bir hadisə, özündən əvvəlki və sonrakı hadisə ilə, başqa sözlə desək, hər bir şey öz keçmiş və gələcəyinə .bağlıdır və bu bağlılıq əzəli və əbədi bir silsilə yaradır

Maraqlı burasıdır ki, bir-biri ilə üfüqi xətt boyunca və bir zamanda baş vermiş hadisələrdə daha dərin araşdırma aparanda, onlar arasında əlaqə və bağlılıq kəşf .edirik

Məsələn, bir yamaqçının xalçanı tə’mir etməsini və bir cərrahın xəstə üzərində cərrahiyyə əməliyyatı aparmasını fərz edək. Səthi baxışda bu iki iş arasında heç bir əlaqə görünmür. Amma bir yanğın hadisəsinin həmin xəstə və xalçanın yanmasına səbəb olmasını biləndə, cərrahla yamaqçının hər ikisinin işinin bir kökdən yarandığını təsdiqləyirik. Əgər həmin hadisə baş verməsəydi, indi bu iki nəfərin heç biri bu işlə .məşğul olmazdı

Bir babadan yaranmış bütün insanların işləri həmin babanın müəyyən zaman və məkanda olmasına bağlıdır və nəticədə həmin insanların işlərinin hamısı bir-birinə .bağlı olur

Yerin günəşdən ayrılması, yer üzündə baş verən bütün işlərin müştərək nöqtəsidir. Əgər həmin hadisə baş verməsəydi, yer üzündə olan işlərin heç biri də olmazdı. Həmin

.hadisənin baş verməsi onun arxasınca digər hadisələrin baş verməsinə səbəb olub

Fəlsəfədə «vücube bil-qiyas» və «imkane bil-qiyas» adlı terminlər var. Bu terminlər o deməkdir ki, biz, bir hadisəni digər bir hadisə ilə müqayisə edəndə, birinci hadisənin olması fərzi ilə digərinin vücudunun zəruri olmasını görəndə, ikinci hadisənin birinci hadisəyə nisbətdə «vücube bil-qiyas» olmasını deyirik. Amma birinci hadisənin olmasını ,fərz etməklə

ikinci hadisənin olub-olmamasının hər ikisinə bərabər olmasını görəndə deyirik ki, ikinci hadisə birinciyə nisbətdə «imkan bil-qiyas»dır. (Müqayisə ilə vacib və ya mümkün (.olması başa düşülən hallar. Red

Səthi baxışda bə’zi hadisələr arasında «vücube bil-qiyas», bə’zən isə hadisələr arasında heç bir əlaqə olmaması və «imkane bil-qiyas» olması düşünülür. Amma dəqiq nəzər salanda görürük ki, hər iki hadisə arasında «vücube bil-qiyas» hakimdir və «imkane bil-qiyasın» xarici nümunəsi yoxdur. Çünki, bütün hadisələr axırda «son hədəf» və «baş səbəb»də müştərəkdirlər və hər bir səbəb və nəticə arasında zəruri əlaqə olduğu üçün .bütün hadisələr arasında zəruri əlaqə də hakimdir

:Bu ümumi və zəruri bağlılığın əsaslandığı prinsiplər aşağıdakılardan ibarətdir

;Ümumi səbəb-nəticə qanunu-١

;Səbəb-nəticənin zəruriliyi-٢

;Səbəb-nəticənin bir-birinə uyğunluğu-٣

Varlıq aləminin illətul-iləldə, yə’ni bütün səbəblərin son və baş səbəbdə sona-۴ .çatması

Birinci prinsip bütün elmlərin əsaslandığı əsas və aşkar qanundur, onu inkar etmək .bütün şeylərin inkarı və səfsətəçilik burulğanında qərq olmağı tələb edir

İkinci prinsip bu həqiqəti bəyan edir ki, hər bir nəticə yalnız səbəbin mövcud olması ilə deyil, əksinə səbəbin olması baxımından zərurət məqamında yaranır. Nəticənin, öz səbəbi tərəfindən zəruri olmayınca vücuda gəlməsi qeyri-mümkündür. Bunun əksi də belədir. Yə’ni hər bir şeyin «tam səbəb»inin mövcud olması, nəticənin vücuda gəlməsini zəruri edir və bu halda nəticənin mövcud olmaması qeyri-mümkündür. Buradan belə bir nəticə əldə edilir ki, mövcud olan hər bir şeyin vücuda gəlməsi və habelə mövcud .olmayan hər bir şeyin isə vücuda gəlməməsi zəruri olub

Üçüncü prinsip səbəb-nəticənin müəyyən əlaqəsinə zəmanət verir. Həmin prinsipdən belə bir nəticə əldə edilir ki, heç bir səbəb öz nəticəsinin yerinə başqa bir nəticə yarada

bilməz və həmçinin heç bir nəticənin öz səbəbindən başqa digər bir səbəbdən yaranması mümkün deyil.

Bu üç prinsipdən belə bir nəticə əldə edilir ki, dünya qəti və dəyişməz bir quruluşa malikdir və «mənşə birliyi» olan dördüncü prinsipi buna əlavə etməklə, dünyanın bütün hadisələri arasında ümumi və sarsılmaz bağlılıq və əlaqə olması nəticəsi əldə edilir.

Üçüncü fəsldə «tutumların fərqi» başlığı altında bu mətləb barəsində başqa izahlar da verəcəyik.

## İLAHİ QANUN

Fəlsəfədə, «dünyanın quruluşu» və «səbəblər qanunu» adlandırılan şey, dini terminologiyada «ilahi sünnə» adlandırılır. Qur'ani-kərim bir neçə yerdə belə buyurub:

«...Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən.»(1)

Məqsəd budur ki, Allahın işləri xüsusi üsluba, sabit və dəyişməz formula malikdir. Bu mə'na Fatir surəsində bir neçə dəfə tə'kidlə təkrarlanıb.

«...Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan.»(2)

Allahın sünnəsində heç vaxt dəyişiklik olduğunu görməzsən. Yə'ni ilahi sünnə, ləğv edilərək başqa birisi ilə əvəz olunan qanun kimi deyildir və sən heç vaxt Allahın sünnəsində dəyişiklik tapmazsan. Belə ki, Allahın sünnəsi bə'zi maddələr artırılaraq, bir hissəsi ləğv edilən və ya əsli ləğv edilmədən dəyişdirilən şərti qanunlar kimi deyil.

Bu, ilahi kitabın çox maraqlı və heyrətləndirici cümlələrindəndir. Qur'an nə qədər böyükdür! O, doğrudan da elmlərin qabaqcılı və pərhizkarların dostudur! Filosoflar dərin elmi axtarışlarda illərlə çalışaraq səbəb-nəticə və yaradılış qanununu əldə etdikdən sonra, böyük bir qanun və sirr kəşf etdikləri üçün öyünmək istəyəndə, bu sirri yetərli ifadə və eyni halda sadə dillə bəyan etmiş Qur'anı öz qarşılarında görürlər: «Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan».

Kim bundan aydın bir şey deyə bilər? Hansı cümlə bundan yetərli və möhkəm mə'nalı ola bilər? Allahın sünnəsi heç vaxt dəyişmir.»

Qur'ani-kərim təkcə yaradılışın qanun və sünnəyə əsaslanmasını xatırlatmır, hətta bə'zi xüsusi sünnələrin adlarını da çəkir.

O, cəmiyyətlərin xoşbəxtlik və bədbəxtlikləri barəsində belə buyurur: «...Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü dəyişməz...»(3)

Bu ayə, xalqların tərəqqi və tənəzzüllərinin sirlərini bəyan edir.

Heç bir xalq, bədbəxtlik amillərini özündən uzaqlaşdırmayınca, bədbəxtlikdən

xoşbəxtliyə çata bilməz. Həmçinin Allah, heç bir xoşbəxt xalqı onlar özləri öz .bədbəxtliklərinə şərait yaratmayınca bədbəxt etmir



---

.Əhzab-۶۲ [۴۲] -۱

.Fatir-۴۳ [۴۳] -۲

.Rə’d-۱۱ [۴۴] -۳

Biz nalə edirik ki, Allah nə üçün Amerikaya darğalıq edən bir ovuc yəhudini yeddi yüz milyon müsəlmana hərbi, siyasi, əqli və iqtisadi cəhətlərdən hakim edib? Nə üçün yüz milyon ərəb, beş iyun müharibəsində məğlub oldu? Allah nə üçün müsəlmanlara izzət vermir? Nə üçün təbiətin qanunlarını müsəlmanların xeyirləri istiqamətində dəyişmir? Əsəbləşir, gecələr yuxusuz qalır, əziyyət çəkir, nalə edir, dua və razi-niyaz edərək kömək diləyirik, amma heç biri müstəcab olmur. Qur'anın bizə verdiyi cavab bu :cümlədir

«.Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə, Allah da onun tövrünü dəyişməz»

Allah öz qanununu dəyişdirmir. Biz özümüzü dəyişdirməliyik. Biz cəhalətdə qərq olmuşuq, əxlaq pozğunluqlarında çabalayırıq, heç bir vəhdət və birliyimiz yoxdur, amma bununla belə Allahın bizim yardımçı və hamimiz olmasını istəyirik. Biz kiçik bir hadisə üçün min cür şayiə düzəldirik, yalançılıq və əyriliyi özümüzə peşə etmişik, bütün fəzilətlərdən uzaqlaşmışıq və eyni halda dünyaya ağalıq etmək istəyirik. Bu mümkün !!!olan iş deyil

Yəhudi xalqına murdarlıq və çirkinliklərinə görə bütün xalqlardan çox peyğəmbər göndərilib. Çünki, onların tərbiyəçiyə daha çox ehtiyacları olub. Keçmiş səmavi kitablarda onlar üçün iki ictimai dəyişiklik və iki inqilab proqnozu verilmişdi ki, onların hər ikisi gerçəkləşdi. Qur'an yəhudi tarixində, həmin proqnozların cərəyanlarını və onların gerçəkləşməsini nəql edib. Orada deyilir ki, onlar yer üzündə iki dəfə fəsad .törədəcəklər və Allah onları məhv edəcək

Qur'an, sonra ümumi bir formulu xatırladıb buyurur ki, hər bir fəsad, məğlubiyyət və bədbəxtliyin müqəddiməsi və hər bir özünəqayıdış və islah xarakterli fikir isə ilahi :rəhmətin zəminəsidir. Ayənin mətni belədir

Biz İsrail oğullarına Tövratda: «Siz yer üzündə (Zəkəriyyanı, sonra da Yəhyanı» öldürməklə) iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq (yaxıd zülm) edəcəksiniz!» - .deyə bildirdik

Yəni istismarçılar öz müstəmləkələrinə etdikləri kimi camaata qarşı zorakılıq edəcək,) (.başqalarının hüquqlarını pozacaqsınız

Onlardan (o fitnə-fəsadın) birincisinin (cəza) vaxtı gələndə üstünüzə çox güclü qullarımızı (Büxtünnəsəri, yaxud Calutu orduları ilə birlikdə) göndərdik. Onlar (sizi öldürmək, əsir almaq və qarət etmək üçün) evlərinizin arasında gəzib dolaşır, sizi təʼqib edirdilər. Bu vəʼd artıq yerinə yetirildi...

Bundan) sonra sizə onların üzərində təkrar zəfər çaldırdıq, (yenidən) var-dövlət, oğul-) uşaq verməklə kömək göstərdik və sayca sizi (əvvəl olduğunuzdan və ya .düşmənlərinizdən) daha çox etdik

Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də! İkinci fitnə-fəsadınızın (cəza) vaxtı gəldikdə üzünüzü qara etmək (sizi xəcil etmək), məscidinizə birinci dəfə girdikləri kimi girmək və ələ keçirdikləri hər şeyi məhv etmək üçün (Fars və Rum padşahlarını) ...üstünüzə göndərdik

Tövbə edəcəyiniz təqdirdə), ola bilsin ki, Rəbbiniz sizə rəhm etsin! Əgər siz (yaramaz) əməllərinizə qayıtsanız, biz də sizə yenidən cəza verərik.) (Bizim qanununmuz budur ki, siz yüz dəfə də fəsad etsəniz sizi yüz dəfə əzişdirək və əgər özünüzü yaxşı istiqamətdə dəyişdirsəniz, Biz də sizə qarşı rəftarımızı dəyişdirək.) Biz Cəhənnəmi (kafirlərdən ötrü bir zindan etdik.(1)

Bu ayələr, əslində həmin ayənin, yə'ni «Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə, .Allah da onun tövrünü dəyişməz» ayəsinin genişləndirilmiş formasıdır

## ?QANUN NƏDİR

Bura qədər söylədiklərimizdən mə'lum oldu ki, dünyada baş verən hadisələr bir sıra sabit qanunlar və dəyişməz ilahi sünnələr çərçivəsindədir. Başqa sözlə desək, Allahın dünyada bir sıra iş üsulları var və O, öz işlərini heç vaxt həmin üslublardan xaricdə .həyata keçirmir

İndi isə qanunun nə olmasına baxaq. Qanun nədir? Sünnə nə deməkdir? Görəsən ilahi qanun və sünnə, şərti düzəldilən qanunlar, ictimai öhdəçiliklər və əqli zərurətlər qismindəndir? Bəlkə onlar Allahın yaratdığı xüsusi bir məxluqdurlar? Yoxsa bu iki ifadə, ilahi qanun və sünnə barəsində düzgün deyil? Nə isə, görəsən Allahın öz sünnəsini yaratmaması mümkündürmü? Nə üçün Allahın qanun və sünnəsinin dəyişməsi qeyri-?mümkündür

Sualın cavabında qeyd etməliyik ki, sünnə və qanun xüsusi və ayrı bir yaradılışa malik ola bilən bir şey deyil. Qanun ümumi və zehndən ayrılan bir məfhumdur və xarici aləmdə külliyyat və qanun şəklində bir şey yoxdur. Xaricdə mövcud olan şey, həmin

səbəb-nəticə sistemi və varlığın dərəcə və məqamlarıdır ki, onlar bizim zehnimizdə abstraklaşaraq qanun



---

.İsra, ۴-۸ [۴۵] -۱

kimi əks olunur. Varlığın dərəcələri və onun hər bir dərəcəsinin sabit və müəyyn bir mövqeyi var. Səbəbin öz xüsusi yerini başqasına tapşırması və ya nəticənin öz yerini dəyişməsi təsəvvüredilməzdir. «Dünyanın qanunu var» ifadəsi həmin həqiqət :barəsindədir

Deməli, yaradılış qanunu şərti və e’tibari deyil. Çünki o, şeylərin necəliyindən yaranıb .və həmin səbəbdən, onun dəyişməsi qeyri-mümkündür

## İSTİSNALAR

Görəsən yaradılış qanunları istisnalara malikdirmi? Görəsən möcüzə və qeyri-adi işlər ?ilahi sünnənin ziddinədirmi

Hər iki sualın cavabı mənfidir. Nə yaradılış qanunlarının istisnaları var və nə də .xariqüladə işlər yaradılış qanunlarından istisna şeylərdir

Əgər dünyanın sünnələrində dəyişikliklər müşahidə olunursa, həmin dəyişikliklər şəraitin dəyişməsinin nəticəsidir. Aydındır ki, hər bir sünnə xüsusi şəraitdə icra olur və şəraitin dəyişməsi ilə o, əvəz edilir və yeni şəraitdə digər bir sünnə həyata keçirilir və həmin yeni sünnə də yalnız özünün xüsusi şəraitində ümumi hal daşıyır. Deməli, qanun və sünnənin dəyişməsi də qanun və sünnənin hökmü ilədir. Amma bu, qanunun qanun ilə ləğv edilməsi demək deyildir. Onun mə’nası budur ki, bir qanunun şəraiti dəyişir və .yeni şərait yaranır və yeni şəraitdə yeni qanun hakim olur

Dünyada dəyişməz qanun və sünnələrdən başqa bir şey yoxdur. Əgər ölü, möcüzəvi olaraq dirilirsə, onun öz şərait və qanunu var. Həmçinin əgər İsa ibni Məryəm kimi bir .uşaq atasız doğulursa, bu heç də ilahi sünnənin ziddinə deyil

Sadəcə olaraq bəşəriyyət, yaradılışın bütün qanun və sünnələrini bilmir. Buna görə də öz nəzərində olan qanun və sünnəyə zidd bir şey görən kimi, onun qanun və sünnəyə zidd olmasını, istisnanın baş verməsi və səbəb-nəticə qanununun pozulmasını güman edir. Çox vaxt da, onun qanun kimi nəzərdə tutduğu şey həqiqi qanun deyil, qanuna oxşar bir şey olur. Məsələn, biz belə güman edirik ki, yeni nəsil yaranmasının qanunu canlıların erkək və dişi cütləşməsi ilə hasil olur. Amma unutmaq olmaz ki, bu, sünnənin özü deyil, zahiridir. İsanın qeyri-adi yaradılışı da sünnənin özündə deyil, zahirində

dəyişikliklə təzahür edir. Həqiqi yaradılış qanunlarının dəyişməzliyi bir məsələ, bizim tanıdığımız qanunların dünyanın həqiqi qanunları olub-olmaması isə başqa bir .məsələdir

səh:٨٧

Dua və sədəqənin bəlaların uzaqlaşdırılmasındakı tə’siri də belədir. Hədislərdən birində deyilir ki, Peyğəmbərdən (s), dünyada baş verən hər bir hadisənin ilahi təqdir və qəzası ilə olmasına baxmayaraq, dua və dava-dərmanın nə tə’siri ola bilməsi barəsində soruşurlar və o həzrət cavabında buyurur ki, duanın özü də qəza-qədərdəndir.

Digər bir rəvayətdə deyilir ki, Əli (ə) bir divarın dibində oturubmuş. O həzrət divarın çartlaq olmasını və onun aşıb dağılmaq ehtimalını başa düşən kimi tez ayağa durur və oradan uzaqlaşır. Bir nəfər ona e’tiraz edərək deyir ki, Allahın qəzasından qaçırsanmı? Yə’ni əgər sən ölməlisənsə, uçuq divarın kənarından qaçıb-qaçmamağından asılı olmayaraq öləcəksən, amma əgər sənə ziyan dəyməli deyilsə, hər necə olsa salamat qalacaqsan. Buna görə də divarın altından qaçmağının nə mə’nası var? Əli (ə) onun cavabında belə buyurur: «Mən Allahın qəzasından Onun qədərinə doğru qaçıram».

Bu cümlənin mə’nası budur ki, dünyada qarşıya çıxan hər bir hadisə, ilahi qəza-qədər çərçivəsindədir. Birinin özünü təhlükəyə atıb zərər görməsi Allahın qəza və qanunudur. Həmçinin təhlükədən qaçaraq nicat tapması da Allahın qanun və qədəridir. İnsanın mikroblu yerə daxil olaraq xəstələnməsi və müalicə olunaraq xəstəlikdən qurtarması da qanundur. Buna görə də əgər insan uçuq divarın altından durub kənara çəkilirsə, Allahın qanun və qəzasına zidd bir iş görməyib və bu şəraitdə Allahın qanunu onun ölümdən qorunmasıdır. Əgər divarın altında oturursa və divarın uçması ilə məhv olursa, bu da yaradılışın qanunudur.

Qur’ani-kərim bu həqiqəti çox gözəl ifadə ilə bəyan edib. Təlaq surəsində belə oxuyuruq:

«...Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər.

səh:۸۹

Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz buyurduğunu yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü (hədd, müddət) (tə’yin etmişdir.»(١)

Bu ayədə, sanki bütün qanunlardan üstün və onların hamısına hakim olan bir qanun .bəyan edilib və o, təqva və təvəkkül qanunudur

Həmin ayədən belə bir nəticə əldə edilir ki, təvəkkülün ardınca Allahın inayət və lütf göstərməsi qaçılmaz bir işdir. Kim həqiqətən Allaha təvəkkül etsə, Allahın inayət və lütfünə nail olacaqdır. Bu bütün şəraitlərdə hakim olan bir qanundur. Eyni zamanda, ilahi işlərin də müəyyən qayda-qanun çərçivəsində olmasının yaddan çıxmaması üçün :buyurub

Allah hər şey üçün bir ölçü (hədd, müddət) tə’yin etmişdir». Həmçinin buyurub: «Kim» Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər». Yə’ni Onun işi qanunsuz və vasitəsiz deyil, hərçənd ki, həmin vasitənin adi və hamı üçün mə’lum olan vasitə və üsullardan olmaması, «Və ona gözləmədiyi yerdən ruzi verər» formasında .olması da mümkündür

## QƏZA–QƏDƏR VƏ CƏBR MƏSƏLƏSİ

İlahi təqdir dünyanın qanun və sünnəyə malik olması mə’nasında olduğu üçün, qəza-qədərdə e’tiqad baxımından yaranan cəbr məsələsi də həll olur. Biz «İnsan və tale» kitabında bu barədə geniş söhbət etmişik və bu barədə ətraflı mə’lumat əldə etmək istəyənlər həmin kitaba müraciət etsinlər. Həmin məsələ barədə burada da xülasə .şəkildə söhbət etmək məcburiyyətindəyik

Bu irad, bir qrupun ilahi təqdiri hər bir hadisəni birbaşa və dünyanın qanunlarından xaric şəkildə idarə etməsi mə’nasında təsəvvür etmələrindən yaranıb. Aşağıdakı şe’r .Xəyyama məxsusdur

Mən mey xurəmo hər ke çun mən əhl bovəd

Mey xurdəne mən be nəzdi u səhl bovəd

Mey xurdəne mən həqq ze əzəl mi danest

Gər mey nə xurəm elmi xuda cəhl bovəd

səh:۹۰

---

۱- [۴۶] ۳-۲ Təlaq.

Mə’nası: Mən şərab içirəm və kim mənim kimi şərab əhlidirsə, mənim bu işim ona asan gəlir; Allah mənim şərab içəcəyimi əvvəldən bilirdi və indi mən şərab içməsəm Allahın .elmi düz çıxmaz

Bu şe’rin sahibi elə fikirləşirmiş ki, insanın bir işin görülməsini istəməsi, Allahın iradəsinə zidd olan bir şeydir və buna görə də o, insanın şərab içmək istəməməsinin qeyri-mümkünlüyünü güman edib. O, belə güman edib ki, insanın şərab içmək istəməməsinin qeyri-mümkünlüyünün səbəbi Allahın onun şərab içməsini istəməsidir. .Çünki, Allahın iradəsi dəyişməzdir. İnsan istəsə də, istəməsə də şərab içməlidir

Bu, çox mə’nasız bir sözdür və tam nadanlıq üzündən deyilib. Buna görə də həmin şe’rin sahibinin filosof Xəyyam olmasına inanmaq çox çətindir. Hər bir filosof və hətta «yarım filosof»lar da Allahın heç kəsin şərab içib-içməməsini birbaşa istəmədiyini başa düşür. Allah dünya üçün qanun və quruluş müəyyənləşdirib və dünyada heç bir qanun həmin çərçivədən kənara çıxmır. Heç bir təbii hadisə təbii səbəb olmadan baş vermədiyi kimi, insanların ixtiyari işləri də onun ixtiyar və iradəsi olmadan baş vermir. Allahın insan barəsindəki qanunu insanın iradə, qüdrət və ixtiyara malik olması, yaxşı və ya pis işi öz razılığı ilə seçməsidir. İxtiyar və bir şeyi seçmək, insan vücudunun sütunudur və onun ixtiyarsız olması qeyri-mümkündür. Belə ki, varlığın insan, amma ixtiyarsız olmasının fərz edilməsi yalnız fərziyyədir. Əgər o, insan deyilsə, başını şərab kuzəsinə soxaraq onu içən inək və ya uzunqulaq kimidir və heç bir şər’i məs’uliyyət də daşımır. Deməli, insanı istəyən ilahi qəza-qədər, onun muxtar olmasını da istəyib. Buna görə də insanın öz ixtiyar və iradəsi ilə deyil, ilahi cəbr ilə şərab içməsi əzəli elmə ziddir .və o, ilahi cəbr və məcburiyyətlə şərab içəndə Allahın elmi cəhl olar

Əvvəldə qeyd etmişdik ki, müasir tədqiqatçılar həmin şair Xəyyamın filosof Xəyyam olmasında şəkk edirlər. Onlar ehtimal verir və hətta sübut edirlər ki, Xəyyam adlı bir neçə şəxsiyyət olub və tarix onları qarışdırıb. Hər halda istər bir neçə Xəyyam olmuş olsun və istərsə də bir Xəyyam o, və ya onlar bir-birinə zidd şəxsiyyətə malik olublar. Allah elmini və ilahi təqdiri, insanın günah etməsinin səbəbi saymaq və seçici amil olan insanın məs’uliyyətini aradan aparmaq puç bir sözdür və onun cavabında gözəl :deyiblər

Elme əzəli elləte osyankərdən

Nəzde uqəla ze ğayəte cəhl bovəd

səh:۹۱

Mə’nası: Allahın əzəli elmini günah edilməsinin amili hesab etmək, ağıllı insanların .yanında çox böyük bir nadanlıqdır

## XÜLASƏ

Bu fəsldə, uzun və bəlkə də yorucu olan söhbətimizdən, ayrı-seçkilik və fərqlərə :tutulan iradlara verilən cavabların xülasəsi belə oldu

Varlıq aləmi bir sıra zati və dəyişməz qanunauyğunluqlarla idarə edilir və ona əsasən .۱ hər bir şey və hadisə müəyyən məqam, mərtəbə və mövqeyə malikdir və onun .dəyişməsi mümkün deyil

Varlığın müxtəlif məqam və dərəcələrinin olması, onun qanuna malik olmasının .۲ tələblərindəndir, fərq və ziddiyyətlərin yaranması, yoxluq və naqisliklərin qarşıya .çıxmasının mənşəyi də həmin mətləbdir

Fərq və ziddiyyət yaradılmır, əksinə o, yaradılmışların zati tələblərindəndir və .۳ .yaradanın yaradılmışlar arasında ayrı- seçkilik qoymasını güman etmək səhvdir

Ədalət və hikmət mövzusunda naqislik kimi başa düşülən şey, fərqlər deyil, ayrı- .۴ .seçkiliklərdir və dünyada mövcud olan şey də, ayrı-seçkiliklər deyil, fərqlərdir

## ÜÇÜNCÜ FƏSİL: ŞƏRLƏR

### İŞARƏ

١. Üç istiqamətli bəhs;

٢. Bizim üslubumuz;

٣. Dualizm məsələsi;

۴. Şər, yoxluqdur;

۵. Şər nisbidir;

۶. Şərlər, ədalət prinsipi baxımından.

səh:٩٣

## ÜÇ İSTİQAMƏTLİ BƏHS

İndiyə kimi danışdıqlarımız, ayrı-seçkilik və fərqlər barəsində idi. Bundan əvvəl də dediyim kimi, ilahi ədalətlə bağlı iradlar bir neçə cəhətdə - ayrı-seçkiliklər, fanilik və yoxluqlar, naqislik və çatışmamazlıqlar və bəlalar barəsindədir. Bundan əvvəl bu dörd növ iradın birinci hissəsini «ayrı-seçkiliklər», qalan üç hissəsini isə «şərlər» adı altında araşdırmağa söz vermişdik. İndi isə, ayrı-seçkiliklər bəhsini qurtardıqdan sonra şərlər .barəsindəki söhbətə daxil oluruq

:Filosofların şərlər məsələsinə verdikləri cavablar üç hissədən ibarətdir

Şərlərin mahiyyəti nədən ibarətdir? Görəsən pislik və şərlər mövcud və həqiqətə .١ ?malik işlərdir, yoxsa onlar yoxluqdurlar

Şərlərin varlıq və ya yoxluq olmasından asılı olmayaraq, görəsən xeyir işlərdə şərlər .٢ bir-birlərindən ayrıla bilən işlərdir, yoxsa ayrılmaz? Əgər onların ayrılmazlıqlarını fərz etsək, onda görəsən dünya bütün xeyir və şərləri ilə birlikdə təsəvvür edildikdə xeyirdir, yoxsa şər? Yə’ni, dünyanın xeyirləri şərlərindən çoxdur, yoxsa şərlər üstünlük təşkil edirlər? Yoxsa onların heç biri-digərindən çox deyil və onlar bir-birləri ilə ?bərabərdirlər

Şərlərin varlıq və ya yoxluq olmaları və onların xeyirlərdən ayrılan və ya ayrılmaz .٣ olmalarından asılı olmayaraq, digər bir məsələ də budur ki, görəsən şər olan şey doğrudan da şərdir və onda heç bir xeyirli cəhət yoxdur, yə’ni o, heç olmasa bir və ya bir neçə xeyirin əsas və müqəddiməsi deyil? Yoxsa, hər bir şərdə xeyir, bəlkə xeyirlər ?gizlənib və hər bir şər bir və ya bir neçə xeyir törədicisidir

Birinci hissədə varlığa iki mənşə qail olan «dualizm»ə cavab verilir və ona ikinci hissəni artırmaqla şərləri ilahi hikmətə irad hesab edən materialistlərə və həmçinin şərləri ilahi ədalətə nöqsan sayanlara cavab verilir. Bəhsin üçüncü hissəsi, dünyanın gözəl və qəşəng quruluşunu canlandırır və onu birinci cavab üçün qənaətbəxş və ya .təkmilləşdirici və müstəqil cavab hesab etmək olar

## BİZİM ÜSLUBUMUZ

Biz, şərlər məsələsinin iradlarına İslam filosoflarının bu bəhs barəsindəki dedikləri mətləblərindən istifadə edərək, yeni üsullarla cavab verəcəyik. Bu kitabda gətirəcəyimiz cavab İslam fəlsəfəsi kitabları, xüsusilə Molla Sədranın əsərlərində şərlər məsələsinin iradlarına cavab kimi bəyan edilmiş cavablardır. Hər iki cavab mahiyyət baxımından birdir. Bizim cavabla onların cavabları arasındakı fərq, bizim seçdiyimiz xüsusi üslubdadır.

Şərlər məsələsini «ilahi ədalət» baxımından araşdırmağımızın səbəbi də həmin cəhətdir. Halbuki, İslam filosofları adətən bu məsələni tövhid bəhsi və «dualizm» iradının rəddində və ya «ilahi elm və lütf» məsələsi və ilahi qəzanın şərlərlə bağlılığının necəliyi barəsindəki söhbətlərində irəli sürürlər. Onlar məsələni həmin xüsusi baxışla araşdırdıqları üçün, cavablar birbaşa «yaradılış başlanğıcının ikiliyi»nin rəddinə və ya ilahi qəzanın şərlərlə bağlılığına aid olur. Ondan, ilahi ədalət bəhsində yalnız dolayı .yolla istifadə etmək mümkündür

## DUALİZM MƏSƏLƏSİ

Dualizm nəzəriyyəsi və onun tərəfdarlarının iradlarının əsası, bundan əvvəl işarə etdiyimiz kimi «varlıqlar öz zatlarında iki cür, yə'ni yaxşı və pis olduqları üçün onların hər biri, bir mənbədən yaranmalı, pislik və yaxşılıqların hər biri digərindən ayrı yaradıcıya aid olmalıdır» məsələsidir. Dualizm fikri tərəfdarları əslində, Allahı pisliklərdən uzaqlaşdırmaq istəyiblər, lakin bu əqidələri ilə Ona şərik qoşmaq kimi üzdəniraq e'tiqadlara düçar olublar. Dünyanı yaxşı və pis olan iki hissəyə bölən, pislikləri artıq və hətta ziyanlı sayan və onları təbii olaraq Allahdan deyil, Onun müqabilində olan bir qüvvədən bilən dualizm nəzəriyyəsində Allah-taala yaxşı niyyətdə olan, amma aciz və bacarıqsız bir qüvvə kimidir ki, mövcud vəziyyətdən əzab çəkir və ona razı deyil, lakin özünün şər, eqoist və Onun istəklərinin əksinə olaraq .fəsad və pis işlər görən rəqibi müqabilində yerləşib

Onlar Allahın sonsuz qüdrət və tam iradəsi inamını və Onun rəqibsiz qəza-qədərini .Onun həkim, adil və xeyir olması ilə bir yerdə qoruya bilməyiblər

Amma İslam əqidəsi, Allahı hər iki vücudun mənşəyi, sonsuz mərhəmət və ali hikmətə malik hesab etməsi ilə yanaşı, Onun güclü iradə və müqavimətsiz qüdrətinə heç bir xələl gətirmir və hər şeyi, hətta şeytanı və onun azdıraraq yoldan çıxarmasını da Ona .nisbət verir

Şərlər məsələsi İslam baxımından başqa cür həll edilir. İslamda deyilir ki, dünya işlərinin bir baxışda yaxşı və pis qismlərə bölünməsinə baxmayaraq, digər bir baxışda yaradılış aləmində heç bir pislik müşahidə edilmir, hər bir şey xeyir sanılır, mövcud quruluş ən gözəl quruluş hesab edilir və ondan yaxşısının olmasının mümkünlüyü

.təsəvvür edilmir

Şərlər məsələsinə bu cür cavab verilməsi, varlıq və yoxluq məsələsinə dərindən diqqət edilən xüsusi bir fəlsəfəyə əsaslanır. Bu fəlsəfənin «dualizmə» verdiyi cavab budur ki, şərlər, yaradan və yaradılış mənşəyinə

ehtiyacı olan həqiqi və gerçək varlıqlar deyildir. Bu məsələni şərlərin yoxluq olmaları və şərlərin nisbilik başlıqları ilə izah etmək olar. Bu iki mətləbin izahı ilə varlıqda dualizm .iradı tamamilə həll olaraq aradan qalxacaq

## !ŞƏR YOXLUQDUR

Sadə bir təhlil şərlər mahiyyətinin yoxluq olmasını, yə'ni, onların hamısının yoxluq qismindən olmalarını göstərir. Bu mətləbin uzaq keçmişi var. Onun kökləri qədim Yunanıstandandır. Fəlsəfi kitablarda həmin fikri qədim Yunanıstana, xüsusilə Əflatuna nisbət verirlər. Amma müasir alimlər onu daha yaxşı təhlil ediblər. Biz həmin mətləbi düzgün və əsaslı hesab etdiyimiz üçün, bu kitabın həcminə münasib olan qədər onu araşdıracağıq. Burada oxuculardan mətləblərin ağırlığına görə əvvəlcədən üzr istəyir, onların bir az səbirli olaraq məqsədimi dərk etməyə çalışmalarını arzu edirəm. Məncə bu məsələ, diqqət etmək dəyərinə malik bir məsələdir. Əlbəttə imkan daxilində .məsələnin bəyanını asanlaşdırmağa çalışacağam

Şər yoxluqdur» deyənlərin məqsədi, şər adlı şeylərin mövcud olmaması demək» deyildir ki, həmin məsələnin zərurətə zidd olması və bizim hiss və gözümüzlə korluq, karlıq, xəstəlik, zülm, haqsızlıq, nadanlıq, acizlik, ölüm, zəlzələ və sairənin olmasını duyaraq gördüyümüz kimi başa düşülsün. Onların nə mövcudluğunu və nə də şər olmalarını inkar etmək olmaz. Həmçinin, məqsəd «şər yoxluq olduğu üçün mövcud deyil və o, mövcud olmadığı və insanın vəzifəsi pisliklər və pislərlə mübarizə aparmaq və yaxşılıqları əldə edərək onları təsdiqləmək olduğu üçün o, heç bir məs'uliyyət daşımır, çünki hər bir vəziyyət pis deyil, yaxşı olduğu üçün həmişə mövcud vəziyyətlə razılaşmaq və hətta onu ən yaxşı vəziyyət hesab etmək lazımdır» demək mə'nasında .da deyildir

Hökm çıxarmaqda tələsməyin. Biz nə korluq, karlıq, zülm, haqsızlıq, yoxsulluq, xəstəlik və sairənin olmamasını və nə də onların şər olmasını inkar etmək istəyirik. Həmçinin insanların məs'uliyyətlərini əllərindən almaq və onların dünyanın dəyişdirilməsi və cəmiyyətin təkmilləşdirilməsindəki rollarını nəzərdən qaçırmaq da istəmirik. Dünyanın, xüsusilə insanın təkamülə əsaslanması və insanın öhdəsinə qoyulan şeyləri yerbəyer etmək vəzifəsi dünyanın gözəl quruluşunun bir hissəsidir. Deməli, bu məsələlərdə heç

bir sözümüz yoxdur. Məsələ burasındadır ki, onların hamısı «yoxluq» qismindən və ,vücudları da «çatışmamazlıq» və «boşluqlar» qəbilindəndir. Onlar ya özləri yoxluq

çatışmamazlıq, dağıdıcı və boşluq olduqları, yaxud da həmin şeylərin mənşələri olduqları üçün şərdirlər. İnsanın dünyanın zəruri təkamül quruluşundakı vəzifəsi çatışmazlıqları düzəltmək, boşluqların yerini doldurmaq və bu boşluq və .çatışmazlıqların köklərini kəsməkdir

Bu təhlil qəbul edilərsə, birinci mərhələyə çatmış oluruq. Onun tə'siri budur ki, o, bizim zehnimizdən «Şərləri kim yaradıb? Nə üçün bə'zi varlıqlar xeyir, bə'ziləri isə şərdirlər?» suallarını çıxarır və şərlərin varlıq deyil, boşluq və yoxluq qismindən olmasını aydınlaşdırır və habelə varlığın iki qollu və hətta iki köklü olmasını iddia edən «dualizm» .fikrinin yaranma şəraitini zehnimizdən uzaqlaşdırır

Amma hələ ki, ilahi ədalət və ali hikmət baxımından digər mərhələlər qalıb və bu .mərhələ qurtardıqdan sonra onlara keçməliyik

Dünyada yaxşılıq və pisliklər, məsələn cansız əşyalar bitkilərdən, bitkilər isə heyvanlardan ayrı olduqları və hər biri özünəməxsus mövqedə dayandıqları kimi, bir-birlərindən ayrı və seçilən iki qrup da deyildirlər. Bizim, pis şeylərin mahiyyətləri pislikdən təşkil edilmiş müəyyən bir qrup olmaları və onlarda heç bir yaxşılığın olmamasını, yaxşıların da öz növbələrində ayrı və fərqli bir qrup olmalarını fikirləşməyimiz səhvdir. Bəli, yaxşılıq və pisliklər bir-birlərinə qarışmış və bir-birlərindən ayrılmaz şeylərdirlər. Təbiətdə yaxşılıq olan yerdə pislik, pislik olan yerdə isə yaxşılıq vardır. Təbiət aləmində pislə yaxşı bir-birinə elə qarışıb ki, sanki onlar mürəkkəb bir şey əmələ gətiriblər. Lakin onların tərkibə girmələri kimyəvi birləşmə .kimi deyil, varlıq və yoxluq növündən olan daha dərin və incə bir tərkibdir

Varlıqla yoxluq xaricdə bir-birindən ayrı iki qrup deyildirlər. Yoxluq puçluqdur və o, varlığın müqabilində xüsusi bir yerə malik ola bilməz. Lakin qüvvə və əməl, hərəkət və təkamül, ziddiyyət və maneçilik dünyası olan təbiət aləmində, varlıqlar olan yerdə yoxluqlar da gerçəkləşir. Biz korluqdan danışanda onun kor adamın gözündə olan xüsusi bir şey və xarici gerçəklik olmasını fikirləşməməliyik. Xeyir, korluq «görmə» .qabiliyyətinin olmamasıdır və o, xüsusi bir gerçəkliyə malik deyil

Yaxşılıq və pislik də varlıq və yoxluq kimidir və bəlkə yaxşılıq varlığın, pislik isə yoxluğun eynidir. Harda pislikdən danışılırsa, orada mütləq bir yoxluq və

çatışmamazlıq vardır. Pislik ya özü yoxluq növündəndir, ya da ki, bir növ yoxluğa səbəb olan, yə’ni öz-özlüyündə yaxşı, amma bir yoxluğa səbəb olduğu üçün pis sayılan varlıqdır və onun pisliyi başqa cəhətdən deyil, yalnız yoxluğa səbəb olması cəhətindəndir. Biz nadanlıq, yoxsulluq, ölüm və sairəni pis bilirik. Bunlar zati baxımdan yoxluqdurlar. Biz yırtıcı

və vəhşi heyvanlar, mikrob və bəlaları da pis adlandırırıq. Lakin onlar zati baxımdan .deyil, yoxluğa səbəb olan varlıqlardır

Nadanlıq elmin olmaması və yoxluğu deməkdir. Elm bir gerçəklik və həqiqi kamaldır. Amma cəhalət və nadanlıq gerçəklik deyil. Bizim biri haqqında nadan və elmsiz deməyimiz, həmin şəxsin elmsizlik adlı xüsusi bir sifətə malik olması, alimlərin isə həmin sifətə malik olmamaları demək deyil. Alimlər elm öyrənməmişdən qabaq nadandırlar. Onlar elm öyrəndikdən sonra nəinki, bir şeyi əldən vermirlər, hətta başqa bir şey də əldə edirlər. Əgər nadanlıq həqiqi gerçəklik olsaydı, elm öyrənmək nadanlığın əldən verilməsinə səbəb olduğu üçün, o da cismin bir forma və keyfiyyətini əldən verərək digər bir forma və keyfiyyət əldə etməsi kimi bir sifətin digər bir sifətə .çevrilməsi olardı

Yoxsulluq da bir şeyin olması və varlılıq deyil, heç nəyə malik olmamaq deməkdir. Yoxsul, öz növbəsində yoxsulluq adlı bir şeyə malik olana deyil, sərvət adlı şeyə malik olmayan şəxsə deyilir. Yə’ni o da varlı şəxs kimi deyil və onun haqqında məsələn «o da bir şeyə malikdir və onunla varlı arasındakı fərq, varlının sərvətə, onun isə yoxsulluğa .malik olmasıdır» demək olmaz

Ölüm də bir şey əldə etmək deyil, bir şeyi əldən vermək deməkdir. Çünki, canlılıq və həyat sifətini əldən verən və cansız bir şeyə çevrilən cism, tərəqqi deyil, tənəzzülə .uğrayıb

Lakin yırtıcı və vəhşi heyvanlar, mikroblar, sellər, zəlzələlər və bəlalar ölümə və ya bir üzvün əldən verilməsinə səbəb olduqları və ya iste’dadların kamilliyə çatmalarına mane olduqları üçün pisdirlər. Əgər yırtıcılar ölüm və ya xəstəliyə səbəb olmasaydılar, pis olmazdılar. Həmçinin əgər bitgilərə zərər vuran ziyanvericilər, ağaclar və ya meyvələrin məhv olmasına səbəb olmasaydılar, şər hesab edilməzdilər. Sel və zəlzələlər insan tələfatına və ya maddi ziyanlara səbəb olmasaydılar, pis olmazdılar. Pislik həmin tələfat və ziyanlardadır. Biz yırtıcı heyvanı onun xüsusi mahiyyətinə görə deyil, başqasının həyatını əlindən aldığı üçün pis adlandırırıq. Əslində zati cəhətdən pis olan, həyatın əldən verilməsidir. Əgər yırtıcı mövcud olsa, lakin yırtıcılıq etməsə, yə’ni kiminsə həyatını əlindən almasa pis sayılmayacaq. O, mövcud olaraq başqasının

.həyatını əlindən alanda pis olur

Səbəb-nəticə qanunu baxımından, adətən mikrob, sel, zəlzələ, müharibə və bu kimi ikinci qism pisliklərin səbəbi həqiqi yoxluqlar, yə’ni yoxsulluq, nadanlıq və bu qism .işlərdir. Belə ki, onlar yoxluqların mənşəyi olduqları üçün pisdirlər

Biz bu növ pisliklərlə mübarizə aparmaq üçün əvvəlcə birinci qism pisliklərlə mübarizə aparmalı və nadanlıq, acizlik, yoxsulluq kimi boşluqları doldurmalıyıq ki, onlar ikinci .qism pisliklərə yol tapa bilməsinlər

Bu məsələ əxlaqi işlər və çirkin sifətlər barəsində də eynidir. Zalım məzlumun haqqını tapdadığı üçün pisdir. Haqq hər hansı bir varlığın müəyyən bir şeyi əldə etmək haqqına malik olduğu və almalı olduğu şeydir. Məsələn, elm insan iste’dadının tələb etdiyi və ona tərəf irəlilədiyi bir kamaldır və buna görə də insan, onu əldə etmək haqqına malikdir. Əgər birindən elm öyrənməsi haqqını alsalar və ona elm öyrənmək icazəsi verməsələr, bu zülm və pis bir işdir. Çünki, həmin iş insanın kamala çatmasına maneçilik törədir və onun kamal əldə edə bilməməsinə səbəb olur. Həmçinin zülm, zalım şəxsin özü üçün də pisdir, çünki, o, həmin şəxsin ali iste’dadları ilə ziddiyyətdədir. Əgər zalımın qəzəb qüvvəsindən başqa üstün bir qüvvəsi olmasaydı, zülm etmək onun .üçün pis sayılmaz, hətta mə’na verməzdi

Beləliklə, pisliklərin hamısının yoxluq növündən olmasını bildikdən sonra «dualizm» məsələsi iradının cavabı aydınlaşır. Dualizmin iradı belə idi ki, dünyada iki növ varlıq .olduğu üçün onun iki mənşə və yaradanı olmalıdır

Həmin iradın cavabı budur ki, dünyada yalnız bir növ varlıq var və o, yaxşılıqlardır. Pisliklərin hamısı yoxluqlar qismindəndir və yoxluqlar varlıq deyildirlər. Yoxluq «yaratmaqdan» deyil, «yaratmamaqdan»dır. Dünyada iki yaradanın – biri varlıqların, digəri isə yoxluqların yaradanı olmasını demək olmaz. Varlıqla yoxluğun misalı günəşlə kölgə kimidir. Biz günəşin qabağından bir şey asanda həmin səbəbdən gün düşmədiyi üçün qaranlıq qalan yeri kölgə adlandırırıq. Kölgə nədir? Kölgə qaranlıq və zülmətdir, zülmət isə nurun olmamasından başqa bir şey deyildir. Biz «nur günəşin dünyanı işıqlandıran gövdəsindən saçır» deyəndə, kölgənin haradan saçdığını və zülmətin mənbəyinin hara olmasını soruşmamalıyıq. Kölgə və zülmət heç nədən saçmır və .onların özlərinin müstəqil mənbələri yoxdur

Filosofların «şərlər zati deyil, ərəzi və aksidensal şeylərdir» cümlələrinin mə’nası da .budur

## ŞƏR NİSBİDİR

Əşyaların vəsf edildiyi sifətlər iki qismdir. Onların bə’ziləri həqiqi, bə’ziləri isə nisbidirlər. Hər hansı bir sifət, əşyalar üçün bütün hallarda sabit olaraq heç bir şəraitdə ondan ayrılmayanda biz onu «həqiqi» sifət

adlandırırıq. Həqiqi sifət odur ki, bir zatın həmin sifətlə vəsf edilməsi üçün həmin sifətin özünün fərz edilməsi kifayət etmiş olsun. Nisbi sifət isə odur ki, tə'yin olunan ismin həmin sifətlə vəsf edilməsi üçün, nisbət və müqayisə tərəfi kimi üçüncü bir tərəfin fərz edilməsinə də ehtiyac olsun və təkcə sifətlə tə'yin olunan ismin fərz edilməsi kifayət etməsin. Buna görə də hər hansı bir sifətin bir şeyə nisbət verilməsi, üçüncü bir şeydən .və bunun onunla müqayisəsindən asılı olanda, biz həmin sifəti nisbi sifət adlandırırıq

Məsələn, həyat bir həqiqətdir. Hər hansı bir varlıq digər bir şeylə müqayisə edilməsindən asılı olmayaraq, ya canlı ya da cansız və ölüdür. Həmçinin əgər rənglərin gerçək məsələlər olmasını fərz etsək, ağlıq və qaralıq da həqiqi sifətlərdir. Məsələn, rəngi ağ olan əşyalar başqa şeylə müqayisəsi nəzərə alınmadan ağdır. Qara şey də belədir və onun qaralığının düz olması üçün onun başqa bir şeylə müqayisə edilməsi .lazım deyildir. Bir çox sifətlər, o cümlədən kəmiyyət və miqdar da həmin cürdür

Lakin, kiçiklik və böyüklük nisbi sifətlərdir. Biz hər hansı bir şeyə kiçik deyəndə, onu nə ilə müqayisə və nəyə nisbətdə kiçik adlandırdığımıza baxmalıyıq. Hər bir şey həm böyük və həm də kiçik ola bilər. Onun kiçik və ya böyük adlandırılması bizim onu nə ilə .müqayisə edərək ölçməyimizdən asılıdır

Məsələn, biz bir alma və ya armudu kiçik, digər bir alma və ya armudu isə böyük adlandırırıq. Burada ölçü və me'yar kimi digər alma və armudların həcmləri nəzərdə tutulur, yə'ni nəzərdə tutulan alma bizim gördüyümüz digər almalara nisbətdə ya böyük ya da kiçik olur. Biz hansısa bir qarpızı da kiçik adlandırırıq. Bu da onu digər qarpızlarla müqayisə nəticəsində olur. Bizim çox kiçik adlandırdığımız həmin qarpız çox böyük adlandırdığımız almadan qat-qat böyükdür. Amma həmin qarpızı almalarla .deyil, qarpızlarla müqayisə etdiyimiz üçün ona kiçik deyirik

Böyüklüyü sizi heyrətləndirən və təəccübünüzdən barmağınızı dişləməyə vadar edən çox böyük bir qarışqanın və kiçikliyi sizdə böyük heyrət hissi yaradan çox balaca bir dəvənin həcmini nəzərə alanda, həmin çox kiçik olan dəvənin həmin çox böyük qarışqanın milyonlarla bərabəri olduğunu görəcəksiniz. Çox kiçik adlandırdığımız şeyin çox böyük adlandırdığımız şeydən böyük olması necə olur? Görəsən burada hansı ziddiyyət var? Xeyr, burada heç bir ziddiyyət yoxdur. Çox kiçik dediyimiz şey dəvələrin

ən balacasıdır və onun kiçikliyi, bizim zehnimizin, əvvəlcədən dəvədən düzəltdiyi şəkil və me’yarla müqayisə edilir. O çox böyük adlandırdığımız şey də, qarışqaların ən böyüyüdür və o, zehnimizin əvvəldən qarışqalar barəsində formalaşmış ölçü və me’yarı ilə müqayisədədir. Bizim, «böyüklük

və kiçiklik nisbi məfhumlardır» cümləmizin mə’nası da budur. Amma kəmiyyət və ədədlər həqiqi sifətlərdir. Məsələn, əgər bizim yüz dənə almamız varsa, onların saylarının yüz olması nisbi deyil, həqiqi bir sifətdir. Həmçinin əgər onların həcmləri, .məsələn yarım kub metrdirsə, bu həcm də həqiqi bir sifətdir

Ədəd və miqdar kəmiyyət, kiçiklik və böyüklük isə izafə növündəndirlər. Bir, iki üç və s. .olmaq həqiqi, birinci, ikinci, üçüncü və s. olmaq isə nisbi işlərdir

Burada, bir nöqtədə olan səhvin aradan qalxması üçün bir məsələni xatırlatmaq lazımdır. «Şər nisbidir» cümləsindən məqsədimiz, həqiqilik müqabilində olan, yə’ni bir şeylə müqayisədə olan nisbilikdir. Nisbilik bə’zən mütləqlik müqabilində işlədilir. Onda, onun mə’nası bu olur ki, bir şeyin gerçəkliyi bir sıra şərtlərlə bağlıdır. Mütləqliyin mə’nası isə, əşyaların bir sıra şərtlərə bağlı olmamasıdır. Biz əgər nisbiliyi bu mə’nada götürsək, təbii və maddi işlərin hamısı bir sıra məhdud zaman və məkan şərtlərinə bağlı olmaları və yalnız həmin şəraitdə öz gerçəkliklərinə bağlılıqları baxımından nisbidirlər. Yalnız abstrak şeylər mütləq vücuda malikdirlər və həqiqi mütləq hər bir şərt, səbəb və bağlılıqdan azad gerçəklik olan Haqqın müqəddəs zatıdır. Buna görə də Onun zatının zəruriliyi məcazi deyil, əzəli zərurətdir. Bütün bunları deməkdən məqsədim budur ki, zati şərlər, yə’ni yoxluqların yarandıqları varlıqların şər olmalarının nisbiliyindən məqsəd, mütləq müqabilində işlədilən nisbilik deyil, həqiqilik müqabilində .dayanan nisbilikdir. Xeyirlərin də çoxu bu mə’nada nisbidirlər

İndi isə pislərin pis olmalarının həqiqi və ya nisbi sifət olmasını araşdıracağıq. Bundan əvvəl qeyd etdik ki, pislər iki qismdir. Onların bir qismi yoxluq olan pislər, digər qismi isə var olan pislərdirlər ki, bunların pis olmalarının səbəbi onların bir sıra yoxluqların .mənşəyi olmalarıdır

Nadanlıq, acizlik və yoxsulluq kimi yoxluq olan şərlər, həqiqi (qeyri-nisbi), amma yoxluq olan sifətlərdirlər. Lakin sel, zəlzələ, yırtıcı və vəhşi heyvan, mikrob və xəstəlik kimi var olan və pisliklərinin səbəbi onların bir sıra yoxluqların mənşəyi olmaları olan şərlər isə şübhəsiz ki, nisbidirlər. Bu qism işlərin pis olmaları müəyyən şey və ya əşyalara nisbətdədir. İlanın zəhəri onun özü üçün pis deyil, ondan zərər görən insan və heyvanlar üçün pisdir. Qoyun yeyərək məhv etdiyi bitgi üçün pis, amma özü, ya insan və ya canavar üçün pis olmadığı kimi, canavar da qoyun üçün pisdir, lakin özü və .bitgilər üçün pis deyil

:Mövlana deyir

Zəhre mar an marra başəd həyat

Leyk an mər adəmirra şod məmat

Pəs bəde mutəlq nə başəd dər cəhan

Bəd be nisbət başəd inra həm be dan

Mə’nası: İlanın zəhəri ilanın özü üçün həyatdır, amma həmin zəhər insan üçün .ölümdür. Deməli dünyada mütləq və tam bir pis yoxdur, bil ki, pislik nisbidir

Mövlana bu şe’rində iki məsələni bir-biri ilə qarışdırıb. Onlardan biri budur ki, pislik) (əlbəttə ikinci növ pislik) əşyaların nisbi və müqayisəli vücudundadır, yə’ni hər bir şey özü üçün yaxşıdır. Əgər nəsə pisdirsə o, başqa birisi üçün pisdir. Məsələn, ilanın zəhəri ilanın özü üçün yaxşı, başqaları üçün isə pisdir. Burada demək lazımdır ki, ilanın zəhəri öz-özlüyündə pis deyil, başqaları üçün pisdir. Digər bir məsələ isə budur ki, vücudu hər şeyə nisbətdə yaxşı olan vacibul-vücud kimi şeyə, mütləq xeyir deyirlər. Hər bir şeyə nisbətdə pis olması fərz edilən şeyi isə, mütləq pis adlandırırlar. Mütləq xeyir və şərin müqabilində işlədilən nisbi xeyir və şərdən məqsəd, bir şeyin bütün şeylərə nisbətdə deyil, bə’zi şeylərə nisbətdə xeyir və şər olmasıdır. Dünyada olan şeylərin əksəriyyəti belədir. Mövlananın bu beytdə gətirdiyi mətləb bu iki məsələnin qarışığıdır. Onun birinci .beyti birinci məsələni, ikinci beyti isə ikinci məsələni xatırladır

Digər tərəfdən, hər bir şeyin yaradılma və xəlq etmənin aid olduğu və gerçək vücudu

olan həqiqi vücudu başqası üçün deyil, onun özü üçündür. Hər bir şeyin başqa bir şey .və ya şeylər üçün olması, həqiqi olmayan şərti vücududur və yaratma ona aid olmur

Başqa sözlə desək, hər bir şeyin bir özü, bir də başqası üçün olan vücudu vardır. Daha dəqiq desək, hər bir şeyin vücudu iki cür – bir dəfə özü üçün

və öz-özlüyündə, bir dəfə isə başqası üçün nəzərdə tutulur. Şeylər özlərinin özləri üçün olmaları baxımından, bir həqiqətdirlər və bu baxımdan pis deyildirlər. Hər bir şey özü üçün yaxşıdır. Əgr bir şey pisdirsə o, başqası üçün pisdir. Məsələn əqrəbin özü üçün pis olmasını demək olarmı? Yaxud canavarın özü üçün pis olmasını demək mümkündürmü? Xeyir! Əqrəb və canavarın vücudunun onların özləri üçün yaxşı olmasında heç bir şəkk-şübhə yoxdur. Onlar özləri üçün biz özümüzə qarşı olduğumuz kimidirlər. Deməli, hər hansı bir şeyin pis olması onun öz varlığında deyil, başqasına nisbət verilməsindədir. Digər tərəfdən, həqiqət və gerçəkliyin hər bir şeyin öz-özlüyündə olan vücudu olması və başqalarına nisbət verilərək nəzərdə tutulan vücudların isə nisbi və şərti olmasında və buna görə həqiqi olmamalarında heç bir şübhə yoxdur. Belə ki, onlar, yəni şeyin başqaları ilə nisbətdə nəzərdə tutulan vücudları, varlıq aləmində yerləşməyiblər və həqiqi vücuda malik olmadıqları üçün onlara nə üçün nisbi vücud verilməsi barəsində də danışmaq olmaz. Başqa sözlə desək, hər bir şey iki dəfə yaranmayıb və ona iki vücud, məsələn bir öz-özlüyündə .olan vücud və bir dəfə də başqalarına nisbətdə olan vücud verilməyib

Fərz edin ki, şagirdə bir mətləbi deyir, sonra isə onu dörd dəfə təkrar edirsiniz. Siz həmin dörd dəfənin hamısında bir mətləbi eyni ilə deyibsiniz. Başqa sözlə desək, sizin tərəfinizdən vücuda gəlmiş mətləb dörd dəfənin hamısında bir cür olub. Amma həmin dörd dəfənin hər birinin məxsus sifəti var. Onların biri birinci, biri ikinci, biri üçüncü, digəri isə dördüncüdür. İndi sual budur ki, siz hər dəfə iki iş görmüsünüz? Yəni, siz həm mətləbi təkrar etmisiniz və həm də onlara «birinci, ikinci, üçüncü...» sifətləri vermisiniz, yoxsa həmin sifətlər bir sıra nisbi və eyni halda şərti sifətlərdir ki, sizin, dörd dəfənin hamısında bir cür olan təkrarınızın bir-biri ilə müqayisəsindən yaranıb? Aydındır ki, sualın ikinci hissəsi düzdür. Şərti və intizai olan bu qism sifətlər, bunlarla yanaşı .özlərinin həqiqi və gerçək olan işlərinin zəruri və ayrılmaz hissələrindəndir

Buna görə də bu işlər barəsində ayrı və müstəqil söhbət etmək, «Yaradan və xaliq nə üçün bu nisbi varlıqları yaradıb?» sualını vermək olmaz. Çünki, birincisi onlar gerçək varlıqlar olmadıqları üçün onların yaradılışından söhbət edilə bilməz, ikincisi həmin şərti və intizai varlıqlar gerçək və həqiqi varlıqların ayrılmaz hissələridirlər və onlar müstəqil olaraq irəli sürülə bilməzlər. Onların qeyri-müstəqil formada irəli sürülməsi

isə belə ola bilər ki, bunların, onun üçün şərti və intizai zərurətlər olduqları həqiqi varlıqlar nə üçün yaradılıblar? Biz gələn fəsldə bu məsələni araşdıraraq ona cavab .verəcəyik

Bu məsələni də xatırladaq ki, bizim «birinci, ikinci və sairə olmağımız şərti və intizai işlər olduğu üçün gerçək vücuda malik deyildirlər və buna görə də yaradılmırlar və onlar barəsində yaradılma fərz edilmir» deməyimiz başqa bir məsələ ilə, yə'ni «təqdim və tə'xir» və ya insan və ya azad və şüurlu amilin iki iş və ya şeydən birini digərindən qabağa salması məsələsi ilə qarışdırmamalıdır. Bu başqa bir məsələdir ki, biz sonra onun barəsində də danışacağıq. Yuxarıdakı misala diqqət edilsə, həmin məsələ .aydınlaşar

Hər halda şərti işlərin səbəbə nisbət verilməsi məcazi mə'na daşıyır. Buna görə də filosoflar deyirlər ki, şərlər zati cəhətdən yaradanla bağlı olmayıb, nəticə və yaradılmış da deyildirlər. Onların məxluq və nəticə olmaları ərəzi və aksidensaldır. Əvvəldə dediyimiz kimi, bu, eyni ilə günəşin kölgənin yaranma səbəbi olması kimidir. Əlbəttə günəş olmasa kölgə də olmaz. Amma günəşin kölgənin yaranma səbəbi olması onun nurun yaranma səbəbi olmasından fərqlidir. Günəş, nuru həqiqi olaraq yaradır. Lakin kölgəni həqiqətən yaratmır. Kölgə yaradılmalı bir şey deyil. O, nurun məhdud olması səbəbindən yaranır və ümumiyyətlə eyn ilə nurun məhdudluğu deməkdir. Məsələ birinci və ikinci qism şərlər barəsində də belədir. Şərlər, şərti və yoxluq qismli işlərdirlər. Kor adamda korluq müstəqil bir gerçəklik olmadığı üçün, onu bir başlanğıcın, onun korluğunu isə digər bir yaradanın yaratmış olduğunu demək olmaz. .Korluq və ya hər hansı bir şər, yoxluqdur və yoxluğun yaradan və başlanğıcı olmaz

## ŞƏRLƏR – ƏDALƏT PRİNSİPİ BAXIMINDAN

Beləliklə, «dualizm» iradı, varlığın iki mənşə və kökə malik olma xülyası aradan gedir. Çünki, söhbətimizdə sübut etdik ki, aləmdə iki cür mənşənin olmasını tələb edən iki cür .varlıq yoxdur

Amma bundan əvvəl dediyimiz kimi, şərlərin yoxluq olmaları məsələsi, təkcə, ilahi ədalət məsələsinin həll edilməsi üçün kifayət etmir. Bu ilkin mərhələdir və hal-hazırda həmin bəhsdən əldə edilən nəticə yalnız budur ki, varlıqlar iki növ deyildir, yə'ni varlıq olmaları baxımından pis və yaxşı qismlərə bölünmürlər. Demək varlıq, varlıq olması baxımından xeyir, yoxluq isə yoxluq olması baxımından şərdir. Varlıqlar yoxluqlarla birgə olduqları və ya bir sıra yoxluqların mənşələri olmaları baxımından şərdirlər.

Deməli, varlığın özündə heç bir ikilik hökm sürmədiyi üçün bizdə varlığın iki kökə malik olması fikri də yaranmamalıdır. Yoxluq da, yoxluq olduğu üçün ayrı bir mənşə və .başlanğıcın olmasını tələb etmir

səh:۱۰۴

Amma şərlər məsələsi, ilahi ədalət baxımından başqa formadadır. Həmin baxımdan, şeylərin ikiliyindən söhbət getmir. Burada söhbət budur ki, şeylərin iki və ya bir cür olub-olmamalarından asılı olmayaraq, varlıq aləmində nə üçün naqislik, çatışmamazlıq, fanilik və yoxluq vardır? Nə üçün biri kar, digəri kor, üçüncüsü isə şikəst yaradılıb? Karlıq, korluq və sairənin yoxluq olması bu iradın həll edilməsi üçün kifayət etmir. Çünki, həmin halda da bu sual öz yerində qalır ki, nə üçün varlıq həmin yoxluqların yerini doldurmayıb? Məgər bu feyzin bir növ əsirgənilməsi və o da öz növbəsində bir növ zülm deyilmi? Dünyada narahatçılıqlara səbəb olan boşluqlar var !və ilahi ədalət onların doldurulmasını tələb edir

Bundan əvvəl dediyimiz kimi, bir sıra varlıqlar da var ki, onlar nadanlıq, acizlik, yoxsulluq və bu kimi yoxluqlara səbəb olurlar və bir sıra fanilik, naqislik və çatışmamazlıqların yaranma amilidirlər. Xəstəlik, tufan, yanğın və zəlzələləri buna misal göstərmək olar. İlahi ədalət, naqislik və çatışmamazlıq kimi nəticələrin olmaması .üçün həmin şeylərin özlərinin də olmamalarını tələb edir

.Məsələyə bu cəhətdən yanaşanda iki mətləbə diqqət yetirmək lazımdır

Həmin məsələlərdən biri budur ki, görəsən bu naqislik və çatışmamazlıqların dünyanın işlərindən ayrılması mümkündür, yoxsa yox? Yə'ni dünya bu çatışmamazlıqlarsız mövcud ola bilərmi? Yoxsa, bunlar dünyanın ayrılmaz zərurətləridir və onların ?olmaması dünyanın olmaması deməkdir

Digər bir məsələ isə budur ki, görəsən naqislik və çatışmamazlıq adlandırılan şeylər tamamilə şərdirlər və onlarda heç bir xeyir yoxdur, yoxsa onlar tamamilə şər deyildir və onlarda çoxlu xeyir və mənfəət də vardır və onlar olmasa dünyanın nəzmi bir-birinə ?dəyər və xeyirlər yaranmazlar

Bizim bundan əvvəl də işarə etdiyimiz şərlər bəhsimizin ikinci və üçüncü hissəsi bu iki mətləbdən ibarətdir. Bəhsin ikinci hissəsi birinci hissə barəsində danışanda aydınlaşdı və gələcəkdə daha da aydın olacaq. Amma üçüncü hissənin aydınlaşması üçün daha çox söhbətə ehtiyac var və biz dördüncü fəsldə onun barəsində geniş surətdə .danışacağıq

## DÖRDÜNCÜ FƏSİL: ŞƏRLƏRİN FAYDASI

### İŞARƏ


۱. Ümumi quruluş;

۲. Çirkinlik gözəlliyin aynasıdır;

۳. Kütlə, yoxsa fərd?

۴. Tutumların fərqi;

۵. Bədbəxtliklər xoşbəxtliklərin anasıdır;

۶. Övliyalar üçün bəla;

۷. Bəla və çətinliklərin tərbiyəvi tə’siri;

۸. Allahın təqdirinə razılıq;

۹. Bəla və ne’mət nisbidir;

۱۰. Ziddiyyətlər toplumu;

۱۱. Ziddiyyətlərin fəlsəfi əsası.

səh:۱۰۶

Keçən fəsldəki söhbətimiz şərlər barəsində fəlsəfi və əqli bir bəhs idi. Amma bu fəsldə .həmin məsələni başqa bir baxışdan araşdıracağıq

Adətən, dünya şərləri barəsində danışaraq ona irad tutanlar, dünyanın həmin şərlər olmayan formasının necəliyi barəsində fikirləşmirlər. Onlar ancaq sadə və qısa formada «kaş ki, dünya ləzzətlə dolu olaydı; hamı öz arzusuna çataydı və ortada heç :bir əziyyət və narahatçılıq olmayaydı» deyirlər. Aşağıdakı şe’r Xəyyama nisbət verilir

Gər bər fələkəm dəst bədi çun yəzdan

Bər daşətmi mən in fələkra zemyan

Əz no fələki çenan həmi saxtəmi

Kazade be kame del rəsidi asan

Mə’nası: Əgər fələyə əlim çatsaydı, mən bu fələyi götürüb onun yerinə başqa birini .qoyardım; yerində elə bir fələk qurardım ki, insan orada öz arzusuna çata bilsin

Biz indi şairin, arzuladığı mövcud dünyadan yaxşı bir dünya qurmağın mümkün olub-olmamasını araşdıracağıq. Biz «dünya» qurmaq üçün işə başlamalı olsaq, necə deyərlər, «fələyin damını söküb onu yenisi ilə əvəz etmək istəsək» yalnız bir insanın yaşayışına layiq məhdud və uşaqvari düşüncələrimizdən əl çəkərək böyük və geniş bir plan fikrində olmalıyıq. Mən bu mühəndisliyin asan olmasına və bəlkə də müəyyən .qərara gələ biləcəyimizə inanmıram

Hər halda ilk növbədə mövcud vəziyyəti araşdıraraq onu daha yaxşı tanımağımız və ondan sonra «daha yaxşı layihə» fikri ilə zehnimizi yormamağımız yaxşı olar. Bəlkə də ciddi bir araşdırma aparsaq, mövcud vəziyyətin qənaətbəxş olduğunu görəcəyik. Dünyanı araşdırmaq üçün bəla, müsibət və hadisələri iki baxımdan tədqiq etmək .lazımdır

?Dünyanın ümumi quruluşunda şərlər hansı mövqedə dururlar .١

?Şərlər öz mövqelərində hansı dəyərə malikdirlər .٢

Birinci sualda söhbət dünyanın ümumi quruluşunda şərlərin aradan götürülüb-götürülə bilinməmələrindən gedir. Başqa sözlə desək, şərlərsiz dünya mümkündür, yoxsa ilk baxışda zehnə gələn fikrin əksinə olaraq, onarın dünyadan çıxarılmaları və dünyanın şərlərsiz olması qeyri-mümkündür, bəla və müsibətlərin olmaması isə dünyanın olmaması deməkdirmi? Daha dəqiq desək, dünyanın şərləri onun ?xeyirlərindən ayrılmazdırlarmı

İkinci hissədə isə məsələ budur ki, görəsən şərlər yalnız ziyan və zərərvericidirlər? Onlar yalnız mənfi dəyərə malikdirlərmi? Yoxsa, şərlərin müsbət tə'sirləri də var və onların mənfi cəhətləri onların müsbət və xeyirli cəhətlərinin kənarında sıfra ?bərabərdirmi

## FƏRQLƏNDİRMƏ PRİNSİPİ

Ayrı-seçkilik» və «şər nisbidir» başlıqlı söhbətlərimizdən, şərlərin xeyirlərdən» ayrılmazlıqları mə'lum oldu. Çünki, yoxluq növündən olan şərlər, başqa sözlə desək, yaradılış aləmində nadanlıq, acizlik və yoxsulluq qismindən olan boşluqların yaradılış aləminə aid olan hissəsi tutumsuzluq və qabiliyyətlərin naqisliyi qismindəndir. Belə ki, yaradılış aləmində hər bir varlığın malik olduğu naqislik, feyzin əsirgənilməsi səbəbindən deyil, həmin varlığın tutumunun naqisliyinə görə olduğu üçün bu, zülm və ayrı-seçkilik sayılmır. Bu işlərdən tutumsuzluq və iste'dadların naqisliyinə bağlı olmayan şey insanın ixtiyar, məs'uliyyət və iradəsi dairəsində olanlardır və insan muxtar, azad və özü və cəmiyyəti qurmaq məs'uliyyəti daşıyan bir varlıq olduğu üçün, onları quraraq boşluqları doldurmalıdır. İnsanın «Allahın xəlifəsi» olmasının cəhətlərindən biri də budur. İnsanın belə yaradılması və bu cür məs'uliyyət daşıması da ən yaxşı quruluş layihəsinin bir hissəsidir. Amma mövcud olan və öz-özlüyündə xeyir, başqaları üçün isə şər olan şərlərin pislikləri, dediyimiz kimi nisbi olduğu üçün onların həqiqi vücudlarının ayrılmaz zərurətlərindəndir və bu, onların xeyirli .cəhətlərindən ayrılmazdır

Burada əvvəlki söhbətlərimizə artırılması zəruri olan digər bir mətləb də var və o, dünyanın müxtəlif hissələrinin «əndamvariliyi» prinsipidir. Dünya parçalanmaz bir .quruluşa malikdir

Fəlsəfi və elmi dünya görüşlərində olan mühüm məsələlərdən biri, dünya hissələrinin bir-birləri ilə əlaqə və bağlılıq baxımından necəliyidir. Dünyanın müxtəlif hissələri bir-birləri ilə necə əlaqədədir və onlar bir-birləri ilə necə bağlanıblar? Görəsən onların əlaqə və bağlılıqları bir sıra pərakəndə işlər kimidir? Dünyanın bir hissəsinin olmaması və ya onun varlıqlarının bir hissəsinin məhv olaraq yoxa çıxması dünyanın digər hissələri baxımından mümkündürmü? Yoxsa, dünyanın bütün hissələri bir-birlərinə bir

?növ bağlıdırlar

Biz «Fəlsəfənin əsasları və realizm üsulu» kitabının beşinci cildində bu barədə söhbət etmişik. Burada ancaq bunu deyirəm ki, həmin məsələ fəlsəfə tarixinin ən qədim zamanlarından diqqət mərkəzində olub və Ərəstu dünyanın «əndamvari birliyi» nəzəriyyəsinin tərəfdarıdır. Bu məsələ İslam

dünyasında da həmişə təsdiqlənib. Səfəvilər dövrünün məşhur arif və filosofu :Mirfendriski şe’r dili ilə belə deyib

Həqq can cəhanəst to cəhan həmçu bədən

Əsnafe məlaek çu qovayi intən

Əflako ənasero məvalide ə’za

Tohid həmin əsto degərha həme fənn

Mə’nası: Haqq dünyanın ruhudur və dünya bədən kimidir; mələklər, fələklər, ünsürlər, varlıqlar və bədən üzvləri bu dünyanın qüvvələridir; tövhid də bu deməkdir və qalan .hər bir şey puçdur

Məşhur Alman filosofu Hegel öz fəlsəfəsində bu məsələyə diqqət edib. Hegel fəlsəfə və məntiqindən çox tə’sirlənmiş Marks və Engelsin materialist fəlsəfəsi isə bu .məsələni «qarşılıqlı tə’sir prinsipi» adı ilə qəbul edib

Biz indi geniş surətdə, həmin bəhsə daxil ola bilmərik. Əlbəttə bunu da qeyd etmək lazımdır ki, dünyanın müxtəlif hissələri arasında əndamvari əlaqə və bağlılıq barəsində .söhbət edənlərin hamısı eyni səviyyədə bəhs etməyiblər

Həmin məsələdən məqsədimiz dünyanın parçalanmaz və ayrılmaz bir quruluşa malik olmasıdır. Yə’ni dünyanın varlıqları arasındakı əlaqəni, onun bə’zi hissələrini aradan götürərək digər hissələrin saxlamaq fərz edilməsi mümkün olan şəkildə deyil. Onun bir hissəsinin saxlanılması hamısının saxlanılması demək olduğu kimi, bə’zi hissələrinin .aradan götürülməsi də hamısının aradan götürülməsi deməkdir

Buna görə də təkcə yoxluqlar varlıqlardan və nisbi varlıqlar həqiqi varlıqlardan deyil, hətta həqiqi varlıqlar da bir-birlərindən ayrılmazdırlar. Deməli, şərlər yuxarıda dediyimiz iki cəhətdən əlavə və həmin iki cəhəti nəzərə almadan da xeyirdən ayrılmazdır. Hafizin dili ilə desək, «Mustafanın çırağı» ilə «Əbu Ləhəbin pisliyi» bir birinin .kənarındadır

Dər in çəmən qole bi xar kəs nə çid ari

Çerağe musətəfəvi ba şərare buləhəbist

Mə’nası: Bu çəməndə heç kəs tikansız gül dərməyib; bəli, Mustafanın çırağı Əbu Ləhəbin pisliyi ilədir (yə’ni yaxşı ilə pis bir-birindən ayrılmazdır).

O, aşağıdakı şe’rində də dünya varlıqlarının bir-birlərindən ayrılmazlıqlarına işarə edib.

Dər karxaneye eşq əz kofr naqozirəst

Atəş kera be suzəd gər bu ləhəb nə başəd

Mə’nası: Eşq məktəbində küfrün olması, qarşısıalınmazdır (yə’ni nə qədər ki, dünya var, pislik də olmalıdır); Əbu Ləhəb olmasa atəş, kimi yandırar.

**ÜMUMİ QURULUŞ**

Bura kimi olan söhbətimiz varlıq aləmindəki şeylərin bir-biri ilə əlaqə və bağlılığı, dünyanın parçalanaraq bölünməsinin qeyri-mümkünlüyü barəsində idi. Bundan əlavə digər bir məsələni də nəzərə almaq lazımdır ki, şeylər yaxşılıq və pislik baxımından tək və digər əşyalardan ayrı nəzərə alınanda bir hökmə, ümumi bir quruluşun bir hissəsi və əndamın bir üzvü kimi nəzərdə tutulanda isə, digər bir hökmə malik olurlar və bu hökm bə’zən birincinin ziddinə olur. Mə’lumdur ki, həqiqətən tək olan şeylər bir sistemdə fərz ediləndə, onların həqiqi vücudları fərdi, cəmdəki orqanik vücudları isə şərti və e’tibari olduğu kimi, həqiqətən və yaradılış baxımından bir quruluşun üzvü olan varlıqlar tək nəzərdə tutulanda da, onların orqanik vücudları həqiqi vücudları, fərdi vücudları isə şərti vücudları olur. İndi belə deyirik:

Əgər bizdən düz və ya əyri xəttin hansının yaxşı olmasını soruşsalar, əlbəttə düz xəttin əyri xətdən yaxşı olmasını deyərik. Lakin soruşulan xətt ümumi bir quruluşun bir hissəsi olsa, hökm çıxarmaq üçün həmin ümumi quruluşun tənasübünü nəzərə almalıyıq. Hər hansı bir cəmdə, mütləq formada nə düz və nə də əyri xətt yaxşı deyil. İnsanın alnında qaşın əyri, burunun düz, dişlərin ağ, göz bəbəyinin isə qara olması yaxşıdır. Aşağıdakı cümlənin sahibi çox gözəl deyib.

Əbruye kəc ər rast bədi kəc budi

Mə’nası: Qaşın gözəlliyi onun əyri olmasındadır; əgər düz olsaydı, yaxşı görünməzdi.

Ümumi bir quruluşda hər bir şey öz simmetriya qanununa uyğun olduqda gözəl görünür.

Əz şir həmle xoş budo əz ğəzal rəm

Mə’nası: Şirin yaxşılığı onun başqa heyvanlara hücum etməsi, ceyranın yaxşılığı isə .onun qaçmasındadır

Rəsm əsərində müxtəlif rənglər və çalarlar olmalıdır, hər bir şeyin bir rəngdə olması .isə düzgün deyildir

Biz dünyanı ümumi və cəm şəklində nəzərə alanda, ümumi quruluş, simmetriya, harmoniya, tənasübdə alçaqlıq və yüksəkliklərin, eniş-yoxuşun, qaranlıq və işığın, ləzzət və narahatçılıqların, müvəffəqiyyət və uğursuzluqların hamısının lazımlığını .qəbul etmək zərurətindəyik

Cəhan çun çeşmo xətto xalo əbrust

Ke hər çizəş be caye xiş neykust

.Mə’nası: Dünya qaş, göz, xal kimidir ki, onların hər biri öz yerində gözəldir

Ümumiyyətlə, əgər ixtilaf və ayrılıq olmasa, çoxluq və rəngarənglik və habelə müxtəlif varlıqlar olmayacaq. Onda istər gözəllik, istərsə də çirkinlik və ya pis və yaxşı quruluşun heç bir mə’nası olmayacaq. Əgər dünyada fərq və ixtilaf olmasaydı, onda dünyanın hamısı, məsələn karbon kimi sadə və bəsit bir maddədən yaranmalı idi. Dünyanın əzəmət və gözəlliyi onun sonsuz rəngarəngliyindədir. Qur’ani-kərim rəng, dil, gecə-gündüz, insanlar və sairə şeylər arsındakı fərqləri Hakim və Həkim yaradanın .qüdrət nişanələrindən hesab edir

## ÇİRKİNLİK GÖZƏLLİYİN AYNASIDIR

Çirkinliklərin mövcud olması, onların təkcə dünyanın bir hissəsi olmaları və ümumi quruluşun onlara bağlı olması cəhətindən zəruriliyindən əlavə, gözəllikləri daha yaxşı göstərərək əks etdirmək baxımından da lazımdır. Əgər gözəlliklə çirkinlik bir-birlərinin qarşısında dayanmasaydılar, nə gözəl gözəl, nə də çirkin çirkin olardı. Əgər dünyada çirkin olmasaydı gözəl də olmazdı. Dünyada hamı gözəl olsaydı, heç kəs gözəl olmazdı. Çirkin də belədir, yə’ni əgər hamı çirkin olsaydı, daha heç kəs çirkin sayılmazdı. Əgər hamı Yusif kimi gözəl olsaydı, gözəllik aradan gedərdi. Həmçinin əgər hamı Cahiz kimi çirkin olsaydı, dünyada çirkinlik mövcud olmazdı. Güc məsələsi də belədir. Əgər bütün

insanlar qəhrəman gücünə malik olsaydılar, qəhrəmanlıq mövcud olmazdı. Qəhrəmanların bu qədər tə’riflənmələrinin səbəbi onların saylarının az olması ilə bağlıdır. Həqiqət budur ki, insanların gözəllikləri dərk və hiss etmələri bu gözəlliklərin müqabilində çirkinliyin olması şəraitində mümkündür. İnsanların

gözəlliklərə tərəf hərəkət edərək onlara vurulmaları, başqa sözlə desək, gözəlliyə doğru cəzb edilməyin səbəbi, onların çirkinlikləri görərək onlardan üz döndərmələridir. Həmçinin əgər dağlıq və yüksəkliklər olmasaydı, düzənlik olmazdı və su yuxarıdan .aşağı axmazdı

Əslində gözəllərin cazibə qüvvəsi çirkinlərin dəf etmə qüvvəsindən güc alır. Gözəlliyin əfsun və cadugərliyi çirkinliyin nursuzluğundan doğur. Çirkinlərin gözəllərin boyunlarında çox böyük haqları var. Çünki, çirkinlər olmasaydı, gözəllər seçilməz və məşhurlaşmazdı. Onlar öz mə’na və məfhumlarını çirkinlərdən alıblar. Əgər hamı bir cür olsaydı nə hərəkət, nə cazibə, nə eşq, nə qəzəl, nə dərd, nə ah-nalə, nə yanğı, nə hərarət və nə də heç nə olmazdı. «Dünyada hər şey bir olsaydı, dünya daha yaxşı olardı» demək, xam bir xəyaldır. Onlar elə bilirlər ki, ədalət və hikmət hər şeyin bir və bərabər olmasını tələb edir, halbuki, bütün yaxşılıq və gözəlliklər, həyacan və hərəkətlər, yerdəyişmələr və təkamüllər həmin yeknəsəqlik və bərabərlikdə məhv olur. Əgər dağla dərə bir olsaydı, nə dağ və nə də dərə olardı. Əgər eniş olmasaydı, yoxuş da olmazdı. Əgər Müaviyə olmasaydı, o böyüklük və gözəllikdə olan Əli ibni Əbu .Talib də olmazdı

Dər karxaneye eşq əz kofr naqozirəst

(.Eşq məktəbində küfrün olması, qarşısıalınmazdır)

Əlbəttə belə təsəvvür etmək olmaz ki, hikmət sahibi olan Allah, mövcud quruluşun ən gözəl quruluş olması üçün, əsas diqqəti cəm və ümumi kütləyə olduğuna görə, hamısı pis və ya yaxşı olmaq imkanı baxımından bərabər olan varlıqların pis olmaq imkanı ola biləni yaxşı, yaxşı ola biləni isə pis yaradıb, püşk və əsassız bir iradə ilə onların hər .birini öz vəzifəsinə tə’yin edib

Bundan əvvəl dedik ki, dünya şaquli və üfüqiliyi nəzərə alınmadan zəruri bir quruluşa malikdir və Allah-taala hər bir varlığa qəbul edə biləcəyi vücud, kamal və gözəllik verir və bu barədə olan nöqsanlar ilahi feyz tərəfindən deyil, həmin varlığın öz zatı .tərəfindəndir

Çirkinliyin filan faydası var» deməyin mə’nası, gözəl yaradıla bilən filan şəxsin digər bir »

şəxsin gözəlliyinin üzə çıxması üçün çirkin yaradılması demək deyil və buna görə də «nə üçün iş, bunun əksinə olmadı?» sualı mə’nasızdır. Həmin cümlənin mə’nası budur ki, hər bir varlığın özünün mümkün gözəllik və kamilliyinin ən yüksək həddini əldə etməsi ilə yanaşı bu ixtilafların gözəlliyin dəyər qazanması, cazibə və hərəkət yaranması və

bu kimi bir sıra müsbət tə’sir və faydaları da vardır. İndi çəkəcəyim misal, bəlkə də .məsələni daha yaxşı aydınlaşdıracaq

## ?CƏMİYYƏT, YOXSA FƏRD

Alimlər «cəmiyyət, yaxud fərdin əsaləti» adı ilə fərd və ya kütlənin əsas olması barəsində bəhs edirlər. Bu barədə bəzən fəlsəfi cəhətdən bəhs edilir və bu sual irəli sürülür ki, fərd və şəxs həqiqi, kütlə isə etibari və intizaidir? Yoxsa, məsələ bunun əksinədir və fərd etibari və intizai, cəmiyyət isə həqiqidir? Əlbəttə burada üçüncü bir forma da fərz edilə bilər və o, bunların hər ikisinin əsil və həqiqiliyidir və bizim fikrimizcə bu, düzgün olan yeganə fərziyyədir. Bəzən isə bu məsələ barəsində hüquqi və qanunun fəlsəfəsi baxımından söhbət edilir və məqsəd qanunun hədəfidir. Sual budur ki, görəsən qanunun hədəfi «fərdin xoşbəxtliyidir», yoxsa «kütlənin qüdrəti?» Fərdi əsalətin tərəfdarları deyirlər ki, qanunverici mümkün olan qədər fərd və şəxslərin asayiş, rifah, azadlıq və rahatlığını nəzərdə tutmalıdır və ilk növbədə əhəmiyyət daşıyan məsələ, fərdin xoşbəxtliyidir; cəmiyyətin dağılaraq məhv edilməsindən başqa heç bir şəraitdə, cəmiyyətin mənafeyi bəhanəsi ilə fərdlərin rahatlıq və xoşbəxtliyini əllərindən almaq olmaz. Yalnız belə bir yerdə cəmiyyətin mənafe və məsləhətini fərdi mənafedən üstün tutmaq olar. Çünki, cəmiyyət dağılanda təbii olaraq fərd də məhv olacaqdır və əslində burada da fərdin məsləhət və mənafeyi nəzərdə tutulub. Amma cəmiyyətin əsaləti nəzəriyyəsinin tərəfdarları deyirlər ki, ilk növbədə əhəmiyyət daşıyan məsələ, cəmiyyətin qüdrətli və izzətli olmasıdır və qanunverici və siyasətçilər öz səylərini cəmiyyətin izzət, güclülük və qüdrətliliyi istiqamətində toplamalıdırlar. Fərdin nailiyyət, asayiş, şadlıq, səadət, xoşbəxtlik və azadlığı, bir sözlə fərdlə bağlı olan hər bir şey cəmiyyətə qurban verilməlidir, hətta əgər bütün fərdlər əzab-əziyyət və bədbəxtçilik çəkməli olsalar belə, cəmiyyət .başıuca olmalıdır

Bu iki fikri müqayisə etmək üçün ölkənin dövlət büdcəsini nəzərdə tutaq. Əgər ölkə başçıları fərdi əsaləti düşüncəsinə malik olsalar, cəmiyyətin ümumi inkişafı zəifləsə belə, öz ölkələrinin büdcələrini fərdlərin asayişini tə’min etmək və ölkə əhalisinin ümumi iqtisadi vəziyyətinin yaxşılaşması istiqamətində olan proqramlara sərf edəcəklər. Amma onlar, cəmiyyətin əsaləti təfəkkürünə malik olsalar, fərdi ehtiyaclara

əhəmiyyət verməyərək cəmiyyətin gələcək inkişafını və digər cəmiyyətlər arasında baş ucalığını tə’min edəcək proqramlar hazırlamağa çalışacaqlar. Dünyanın qüdrətli .ölkələrinin kosmik uçuş proqramları həmin təfəkkür tərzinə əsaslanır

səh:۱۱۳

Bildiyimiz kimi, həmin proqramlar səhiyyə və ümumi tə’lim-tərbiyə proqramlarından qabaqda durur. Həmin proqramları hazırlayanlar üçün ölkələrində insanların ac, xəstə, nadan və cahil olmaları əhəmiyyət daşımır. Onlar üçün mühüm olan şey, ölkələrinin baş ucalığı və iftixar məsələsidir. Bu proqramların xərci o qədər ağır və çoxdur ki, həmin xərclər ölkə əhalisinin belini sındırır və həmin dövlətlər, incə hiylələrlə dünya sərvətlərinin əlli faizini oğurlamalarına baxmayaraq, yenə də büdcə çatışmamazlığı ilə .üzləşirlər

Məsələ burasındadır ki, həmin böyük büdcələr iqtisadi, mədəni və səhiyyə proqramı ilə ümumi kütlənin xeyrinə sərf edilsə, xalq üçün rifah, asayiş və azadlıq yarana bilər. Amma həmin büdcələr əhalinin əzilməsinə baxmayaraq, dediyimiz proqramlara sərf ediləndə cəmiyyətin fəxr və ağalığına səbəb olur.

Cəmiyyətin əsaləti nəzəriyyəsinin tərəfdarları deyirlər ki, ilk növbədə cəmiyyətin qüdrət və iftixar məsələsini nəzərə almaq lazımdır. Fərdi əsalətin tərəfdarları isə, ilk .növbədə fərdin mənafe, asayiş və azadlığının mülahizə olunmasını vurğulayırlar

Bizim bu məsələni irəli sürməkdən məqsədimiz, diqqəti fərdin hesabının kütlənin hesabından ayrı olmasına cəlb etməkdir. Fərd üçün ziyanlı və çirkin olan şey, cəm üçün .xeyirli və gözəl ola bilər

## TUTUMLARIN FƏRQİ

Dediyimiz kimi, insan cəmiyyətlərində bə’zən fərd ilə cəm arasında qarşıdurma və ziddiyyət yaranır, yə’ni bə’zən fərdin, cəmiyyətin mənafeyi üçün öz hüququndan məhrum olması lazım gəlir. Amma dünyanın təbii quruluşlarında məsələ belə deyil. Orada dünyanın ümumi quruluşunun gözəl olması üçün heç bir fərd və hissəyə zülm .edilməyib

İkinci fəsildə «Fərqlərin sirri» adı altında etdiyimiz söhbətdə mə’lum oldu ki, dünyanı kamil və gözəl tablo şəklinə salmış fərq və ixtilaflar, zatidirlər. Yaradılışda varlıqlar üçün müəyyənləşdirilmiş yer və mövqeylər dəyişilə bilən ictimai mövqe və vəzifələr .kimi deyil

Həmin vəzifə və yerlər həndəsi fiqurların xüsusiyyətləri kimi, zati xüsusiyyətlərdir.

Bizim «üçbucağın bucaqlarının cəmi iki düz bucağa (yə’ni ۱۸۰ dərəcəyə) bərabər olmasını, dördbucağın bucaqlarının cəmi isə dörd düz bucağa (yə’ni ۳۶۰ dərəcəyə) bərabər olmasını» deməyimizin mə’nası bu deyil ki, ona ۱۸۰ dərəcə olmaq, digərinə isə ۳۶۰ dərəcə olmaq (xaricdən) verilib. Buna görə də «nə üçün üçbucağa zülm edilərək ona dörd bucağın xususiyyəti verilməyib?» sualı mə’nasızdır. Bəli, üçbucaq həmin müəyyən

xüsusiyyətdən başqa heç bir xüsusiyyətə malik ola bilməz. Üçbucağı heç kəs üçbucaq etməyib, yə’ni məsələ belə deyil ki, o, əvvəl başqa bir şəkildə və başqa xüsusiyyətlərə malik bir şey olub və sonra kimsə gəlib onu üçbucaq edib və yaxud üçbucaq, dördbucaq və sairə öz varlıqlarının hansısa bir mərhələsində və öz həqiqi məqamlarının hansı birindəsə heç bir xüsusiyyətə malik olmayıblar və sonra məcburi bir qüvvə gəlib həmin xüsusiyyətləri onların arasında bölüb və üçbucağa bucaqlarının cəminin ١٨٠ dərəcəyə bərabər olması xüsusiyyətini, dördbucağın bucaqlarının isə ٣٦٠ dərəcəyə bərabər olma xüsusiyyətini verməyib. Buna görə də «nə üçün ayrı-seçkilik edilib?» sualının yaranmasına heç bir yer yoxdur. Yaxud üçbucaq «mənə cəfa edilib, .gərək mən də dördbucaqlının xüsusiyyətlərinə malik olum!» e’tirazını edə bilməz

Dünyanın varlıqları arasındakı fərqlər də bu cürdür. Cansız əşyaların inkişaf və dərk etmə qüvvəsinə malik olmamaları, bitgilərin isə inkişafa malik olaraq dərk etmə qüvvəsindən məhrum olmaları, heyvanın həm inkişaf və həm də dərk etmə qüvvəsinə malik olmasının səbəbi cansız əşya, bitgi və heyvanın vücudunun məqam və dərəcəsinin zati xüsusiyyətlərindəndir, yə’ni məsələ belə deyil ki, onların hamısı əvvəl bir olublar, amma yaradan sonra birinə dərk etmə və inkişaf xüsusiyyəti verib, digərinə isə heç nə verməyib və üçüncüsünə digər bir şey verərək digərini həmin şeydən məhrum edib. Əbu Əli ibni Sinanın məşhur bir cümləsi var ki, həmin cümlə bu «!həqiqəti açıqlayır. O deyib: «Allah əriyi ərik etməyib, onu yaradıb

Burada ərik misal olaraq qeyd edilib və məqsəd bütün varlıqlardır. Allah əşyaları yaradıb və onların xilqətdə bir-birləri ilə fərq və ixtilafları var. Allah ərik, alma, nar və sairəni yaradıb. Amma məsələ belə deyil ki, məsələn. onların hamısı əvvəl bir cür .olublar və Allah onların arasında fərq qoyub

Allah zamanı yaradıb. Zamanın keçmiş, indi və gələcək kimi müəyyən xüsusiyyətləri vardır. Allah zamanı necə yaradıb? Görəsən zamanı, əvvəl bütün hissələri bir toplum şəklində olan sap yumağı kimi yaradıb və sonra onu çəkib açaraq bu şəklə salıb? Allah cismi də yaradıb. Cismi məsələn, əvvəl həcm, uzunluq və tutumsuz yaradıb və sonra ona həcm və tutum verib, yoxsa cismi yaratmaq tutum, həcm və uzunluğun yaranması ilə bərabərdir və cismin yaradılması ilə uzunluq və tutumun yaranması .arasında hansınınsa əvvəl və ya sonra olması və ikilik yoxdur

Qur'ani-kərimin bu barədə də çox incə bir ifadəsi var. Qur'an Musa ibni İmranın dilindən nəql edir ki, Fir'on ondan və qardaşı Harundan sizin Rəbbiniz kimdir? deyə soruşanda Musa belə cavab verir:

«Rəbbimiz hər şeyə Öz surətini və şəklini verən, sonra da ona doğru yolu göstərən... Allahdır.»(١)

Burada, «xələqəh» kəlməsində maraqlı bir nöqtə var. Kəlmənin əvəzliyə izafə edilməsindən belə başa düşülür ki, hər bir şeyin xüsusi bir yaradılışı var və həmin yaradılış yalnız həmin şeyə məxsusdur. Belə ki, hər bir şey yaradılışın yalnız bir formasını qəbul edə bilər və Allah, ona həmin yaradılışı əta edir. Belə fikirləşmək olmaz ki, məsələn əşyalar hansısa başqa bir formada olublar və Allah onları indi olduqları şəklə salıb. Həmçinin bu fikir də səhvdir ki, əşyalar heç olmasa indikindən pis və ya yaxşı başqa cür və başqa yaranışda ola bilərlərmiş, amma həmin imkanların mövcud olmasına baxmayaraq, Allah bu xüsusi formanı seçib. Həqiqət budur ki, dünya yalnız mövcud forma və quruluşda ola bilərdi və onun hər bir hissəsi yalnız müəyyən yaradılış formasında olmaq imkanında olub və Allah hər bir şeyə həmin mümkün formanı verib.

Qur'an bu mətləbi çox ali və lətif bir təmsillə bəyan edib. Qur'an, yuxarıdan tökülərək tədricən sel yaradan və müxtəlif çay və arxların axarlarında yer tutan yağış suyunu misal çəkərək belə buyurur:

«Allah göydən bir yağmur endirdi, vadilər öz tutumlarına görə onunla dolub daşdı...»(٢)

Yə'ni Allahın rəhməti şərait və iste'dada malik heç bir varlığı məhrum etmir, amma varlıqların iste'dad və tutumları da bərabər deyil. İste'dadlar müxtəlifdir, hər bir qab Allahın rəhmətindən öz tutumu qədər bəhrələnə bilər.

Bu nöqtə, bizim ikinci fəsildə «fərqlərin sirri» adı ilə bəyan etdiyimiz mətləb idi. Onu burada təkrar etmək təkmilləşdirmə faydasından əlavə, dünyanın yaradılışında cəmiyyətin əsalətinin nəzərdə tutulmasının və ümumi quruluşun gözəlliyi üçün bə'zi hissələrə zülm edilməməsi güman edilməməsi məqsədi daşıyırdı. Bəli, burada gözəl bir toplum yaranıb və onun gözəlliyi fərq və ixtilafların olmasına borcludur. Burada həm

.fərdi haqlara və həm də şəxsi mənafelərə riayət edilib



---

.Ta-ha ۵۰ [۴۷] -۱

.Rə’d-۱۷ [۴۸] -۲

Şərlər məsələsinə edilmiş iradların cavabında yalnız, ümumi quruluşda fərqlərin olmasının lazım və zəruriliyinə istinad edənlərin cavabları naqisdir, çünki, belə olan surətdə nöqsanlı yaradılan fərd və hansısa bir hissənin nə üçün məhz onun naqis olması məsələsinə e’tiraz etmək haqqı var. Bəli, həmin naqis şəxs «əgər ümumi quruluşda biri kamil, digəri isə naqis yaradılmalı idisə, nə üçün başqası deyil, məhz mən naqis yaradıldım?» sualını verə bilər. Nə üçün iş bunun əksi olmayıb? Həmçinin çirkin olan da e’tiraz edə bilər ki, «indi ki, yaradılış aləmində həm gözəl və həm də çirkin olmalıydı, nə üçün mən çirkin, başqası isə gözəl oldu? Nə üçün bunun əksi olmayıb? Əgər vücuddan biri çox, digəri isə az bəhrələnməlidirsə, nə üçün məsələn «A»-ya çox «?«B»-yə isə az çatmalı idi

Buna görə də dünyanın ümumi quruluşunda, gözəllə çirkinin, kamillə naqisin birlikdə olmasının zəruriliyini demək məsələni həll etmir və tutulan irada cavab olmur. Bu mətləbi də artırmaq lazımdır ki, bütün bunlarla yanaşı varlıqların hər biri və dünyanın .hər hansı bir hissəsi, özünün ala bilməsi mümkün olan haqq və payını alıb

Başqa sözlə desək, şərlər və pisliklər üçün «fayda», «hikmət» və «mənafe» adı ilə zikr edilən şeylərin hamısı, bizim səbəblərlə nəticələr, həmçinin müqəddimə ilə nəticə və hədəflə nəzərdə tutulan şey arasındakı əlaqələrin zəruriliyi və ilahi sünnənin .dəyişməzliyini başa düşməyimizdən sonradır

### BƏDBƏXTLİKLƏR XOŞBƏXTLİKLƏRİN ANASIDIR

Pisliklərin gözəllikləri cilvələndirmək və ali bir toplum yaratmaqda mühüm rol oynamalarından əlavə, yaxşı və pisliklər barəsindəki mühüm mətləblərdən biri də budur ki, bizim bədbəxtlik və pislik, kamal və xoşbəxtlik adlandırdığımız şeylər arasında səbəb-nəticə əlaqəsi vardır. Pisliklər yaxşılıqların anası və onların .yaradıcısıdır. Bu pisliklərin üçüncü faydasıdır

Onların birinci xeyirli əhəmiyyəti, pislik və çirkinliklərin mövcudluqlarının, dünyanın gözəl toplumunun yaranmasında zəruriliyi idi. İkinci əhəmiyyəti bu idi ki, hətta gözəlliklər öz gözəlliklərini pisliklərdən alırlar və pislik və çirkinlik olmasaydı, gözəllik və yaxşılıq heç bir mə’na verməzdi. Belə ki, gözəlin gözəlliyinin hiss edilməsi çirkin və .çirkinliklərin olmaları və onlar arasında müqayisənin yaranmasındadır

İndi pislik və bədbəxtliklərin üçüncü tə’sirini çirkinliklərin gözəlliklərin müqəddimə və yaradıcısı olmaları adı altında izah edəcəyik. Bə’zən

xoşbəxtliklərin daxilində bədbəxtliklər yarandığı kimi, çətinlik və bədbəxtliklərdə də .səadət və xoşbəxtliklər yatır. Bu, dünyanın formuludur

Necə ki Allah gecəni gündüzə, gündüzü də gecəyə qatar. (Allah bəndələrinin...» mənafeyi naminə bə'zən insanlar daha çox ruzi qazana bilsinlər deyə, gecəni qısaldıb gündüzü uzadar, bəzən də onlar daha çox istirahət edib dincələ bilsinlər deyə, (gündüzü qısaldıb gecəni uzadar). Allah (hər şeyi) eşidən və görəndir!»(١)

Zülmət gecənin sonu nurdur» məşhur atalar sözü əziyyətlərə qatlaşmaqla xoşbəxtliyə» nail olmağın bir-birindən heç cür ayrılmazlığını bəyan edir. Pozulmuş şəraitlərdə ağlar .qara istehsal etdiyi kimi sanki, ağlar da qaralardan doğulurlar

On doqquzuncu əsrin məşhur alman filosofu Hegelin bu baxımdan diqqəti cəlb edən :bir sözü var. O, bu barədə belə deyir

Mənfi işlər arasındakı çəkişmə və şər, xəyaldan yaranmayıb, işlər tamamilə həqiqət» və gerçəklik, hikmət baxımından xeyir və təkamülün pillələridirlər. Çəkişmə tərəqqinin qanunudur. Sifət və səciyyələr dünyanın hərc-mərclik savaşlarında və iğtişaşlarda kamilləşərək formalaşırlar və şəxs yalnız çətinlik, məs'uliyyət və iztirab yolu ilə ali şəxsiyyət dərcəsinə çatır. Çətinlik həm əqli işdir, həm də həyat nişanəsi və islahat mühərrikidir. Əqli işlər arasında şəhvətlərin də öz yerləri vardır. Heç bir böyük iş, şəhvətsiz öz kamilliyinə çatmayıb və hətta Napalyonun şöhrətpərəstlik və eqoistliyi onun öz istəyi olmadan belə, xalqların inkişaf və tərəqqisinə kömək edib. Həyat xoşbəxtlik (asayiş və ondan yaranan razılıq) üçün deyil, təkamül üçündür. Dünya tarixi səadət və xoşbəxtlik səhnəsi deyil; xoşbəxtlik dövrləri onun ruhsuz səhifələrini təşkil edir. Çünki həmin dövrlər qarşılıqlı razılaşma dövrləri olub və belə ağır razılıq və qənatlik kişiyə layiq bir şey deyil. Tarix, həqiqi aləmin ziddiyyətləri inkişaf və təkamül (vasitəsi ilə həll edilən dövrlərdə düzəlib».(٢)

:Qur'ani-kərim çətinliklə asayişin ayrılmazlığını bəyan etmək üçün belə buyurur

«!Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr»

Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Buna görə də çətinliklərə səbrlə

(!dözmək lazımdır

səh:۱۱۸

---

.Həcc-۶۱ [۴۹] -۱

.Fəlsəfə tarixi; Vill Dorant [۵۰] -۲

Qur’an çətinlikdən sonra asanlıq və rahatlığın olmamasını demir. Qur’anın tə’biri budur ki, çətinlikdə asanlıq var, yə’ni asanlıq çətinliyin batinində və onunla birlikdədir. .«Mövləvinin dili ilə desək «zidd ziddin içində gizlənib

Zendəgi dər mordəno dər mohnətəst

.Abe heyvan dər dərune zolmətəst

.Mə’nası: Həyat ölüm və çətinlikdədir; dirilik gətirən su, zülmətdə (quyunun dibində)dir

Burada incə bir nöqtə var ki, onun başa düşülməsi bu surənin bütün ayələrinin nəql .edilməsindən asılıdır

Bağışlayan və rəhm edən Allahın adı ilə. (Ya Peyğəmbər!) Məgər biz sənin köksünü » açıb genişlətmədikmi?! Ağır yükünü səndən götürmədikmi?! Elə bir yük ki sənin belini bükürdü. Sənin ad-sanını, şan-şöhrətini ucaltmadıqmı?! «Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Ya Peyğəmbər!) Elə ki, (risaləti təbliğ etməkdən və ya dünya işlərindən) azad oldun, qalx «!dua et! Və ancaq Rəbbinə yalvar

.Peyğəmbərə (s) xitab olunan bu surə o həzrətin özünə məxsusdur

Bu surə məhəbbət hissi ilə dolu ifadələrlə sanki, xoşagəlməz hallardan narahat olmuş Peyğəmbərin (s) şərəfli ruhunu nəvaziş edir və Allahın onun çiynində olan ağır yükü necə götürdüyünü və çətinlikləri asanlıqlara çevirdiyini xatırladır. Sonra dəqiq elmlərdə olan üslubla, baş vermiş və gerçək bir hadisədən belə nəticə alır: «Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr!» Yə’ni biz keçmişdə sənin çiynində olan ağır yükü götürmüşüksə, sənin adını ucaltmışıqsa və sənə səbr, dözüm qüdrəti vermişiksə, sən !onlardan belə bir nəticəyə gəl ki, hər çətinlikdən sonra bir asanlıq gəlir

Daha sonra nəticənin sabitləşməsi və onun qətiliyinə inandırmaq üçün bir daha təkrar «!edir: «Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr

Burada maraqlı nöqtə budur ki, həmin ümumi formuldan nəticə əldə etdikdən sonra gələcəkdəki hərəkət istiqaməti və davranış yolunu da müəyyənləşdirərək belə

buyurur: «Elə ki, (risaləti təbliğ etməkdən və ya dünya işlərindən) azad oldun, qalx dua et!»

Yə’ni asanlıq çətinliyin batinində yerləşdirildiyi üçün asudə olan kimi, bir daha özünü əziyyətə sal və yenidən çalışaraq sə’y göstərməyə başla. Çətinlik və giriftarçılıqların kamillik və tərəqqinin müqəddiməsi olması məsələsi canlı varlıqların, xüsusilə insanın xüsusiyyətlərindəndir. Zərbələr

səh:۱۱۹

cansız varlıqları məhv edir və onların qüdrətini zəiflədir, amma canlı varlıqları təhrik «.edərək hərəkətə gətirir və gücləndirir. «Nə çox varlılıqlar ki, yoxsulluğun içindədir

Çətinlik və məşəqqətlər bəşəriyyətin təkamülü üçün zəruridir. Çətinlik və əziyyətlər olmasa, bəşəriyyət məhv olar. Qur’an bu barədə belə buyurur: «Biz insanı məşəqqətdə (yaratdıq!...»(١)

.İnsan, öz layiqli varlığını tapması üçün məşəqqətlərə dözərək çətinlik çəkməlidir

Ziddiyyət və çəkişmə, təkamül qamçısıdır. Canlı varlıqlar kamilliyə doğru olan yollarını bu qamçı ilə qət edirlər. Bu qanun özünü bitgilər, heyvanlar, xüsusilə insanlar aləmində .doğruldur

Həzrət Əli (ə) özünün Bəsrədəki nümayəndəsi Osman ibni Huneyfə yazdığı məktubda, bu bioloji qanunu xatırladır ki, naz-ne’mət içində yaşamaq və çətinliklərdən qaçmaq, insanın zəif və acizliyinə, çətin və ağır şəraitdə yaşamaq isə güclü və qıvraq olmasına səbəb olur və onun varlığının gövhərini püxtələşdirərək qüdrətli edir. O həzrət həmin məktubda öz nümayəndəsini, imkanlıların gecə keçirdikləri məclisdə iştirak etdiyi və heç bir yoxsulun iştirak etmədiyi və ancaq varlıların çağrıldığı qonaqlığa ayaq basdığı üçün məzəmmət edir. Həzrət imam (ə) həmin münasibətlə öz sadə həyatını izah edərək ardıcılları, xüsusilə özünün dövlət adamlarından onun yolu ilə getmələrini .istəyir

Sonra bəhanə gətirilməsinin qarşısını almaq üçün bu məsələni izah edir ki, münasib olmayan şərait və sadə yemək insanın gücünü azaldaraq zəiflətmir. O, həmçinin, bağbanın daimi qulluğundan məhrum olan çöl ağaclarının daha möhkəm və davamlı gövdəyə malik olmalarını, həmişə qulluq edilən bağ ağaclarının gövdələrinin isə .nazikqabıq və davamsız olmalarını xatırladır

:Allah-taala Qur’ani-kərimdə belə buyurur

Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə» (imtahan edərik. (Ya Məhəmməd! Belə imtahanlara) səbr edən şəxslərə müjdə ver!»(٢)

Yə’ni bəla və çətinliklər müqavimət və dözümlülük göstərənlərə xeyirlidir və onlar

həmin şəxsdə xeyirli izlər buraxırlar. Buna görə də həmin hallarda onlara müjdə .vermək lazımdır



---

.Bələd-۴ [۵۱] -۱

.Bəqərə-۱۵۵ [۵۲] -۲

Allah, insanların ruhlarını tərbiyə edərək formalaşdırmaq üçün şəriət və yaradılış proqramları qoyub və həmin iki proqramın hər birində çətinlik və əziyyətlərə yer ayırıb. Şəriət proqramında ibadəti vacib edib. Yaradılış proqramında isə, insanların yolları üstündə çətinliklər qoyub. Oruc, həcc, cihad, sədəqə və namaz şər'i vəzifə yolu ilə müəyyənləşdirilmiş çətinliklərdir və onların yerinə yetirilməsində səbr və dözümlülük göstərmək, ruhların kamilləşməsi və ali insani iste'dadların formalaşmasına səbəb olur. (Əlbətttə bu mətləb dində çətinlik və ağırlığın olmaması kimi qəti məsələ olan prinsiplə heç bir ziddiyyət daşımır. Çünki, çətinliyin rədd edilməsindən məqsəd, dində vəzifə və tapşırığın olmaması deyil, insanın inkişafına və onun düzgün fəaliyyətinə mane ola bilən hökmlərin mövcud olmamasıdır. Dini qanunlar elə hazırlanıb ki, onlar nə əl-ayağa dolaşan acizlər və nə də tənbəl insanlar yetişdirəndir.) Aclıq, qorxu, maddi ziyan və insan tələfatı yaradılış proqramında nəzərdə tutulmuş və insanı məcburi .olaraq əhatə edən çətinliklərdir

## ÖVLİYALAR ÜÇÜN BƏLA

Buna görə də Allah-taala, bəndələrindən birinə xüsusi lütf göstərəndə onu çətinliklərə .salır. «Bəla övliyalar üçündür» məşhur cümləsi də həmin məsələni bəyan edir

:İmam Baqirdən (ə) nəql edilmiş bir hədisdə belə deyilir

Kişi səfərdən ailəsinə hədiyyə göndərdiyi kimi, Allah da mö'min bəndəsini axtararaq» «.ona bəla hədiyyə edir

:İmam Sadiqdən (ə) nəql edilmiş bir hədisdə isə belə deyilir

.«Allah-taala bir bəndəsini sevdikdə onu çətinliklər dəryasında batırıb çıxarır»

Yə'ni, Allah sevdiyi və kamala çatmalarını istədiyi bəndələrini, öz şagirdini çalışması və çabalayaraq üzgüçülüyü öyrənməsi üçün suya atan məşqçi kimi bəlalar dəryasına atır. İnsan üzgüçülük barəsində ömrü boyu kitab oxusa da, suya girməyincə üzgüçü ola bilməz. O, üzgüçülüyü əməli surətdə suya girib, boğulmaqla mübarizəni təcrübədən keçirdikdən və bə'zən gec tərpəndiyi üçün özünü boğulmaq təhlükəsi qarşısında gördükdən sonra öyrənir. İnsan çətinliklərdən çıxa bilməsi üçün çətinliklərlə üzləşməli .və püxtələşərək kamilləşməsi üçün çətinlik çəkməlidir

Bə’zi quşlar barəsində yazırlar ki, onlar balaları tükləşərək qol-qanad açdıqdan sonra, onlara uçmağı öyrətmək üçün yuvadan kənara çıxarır və yuxarı qaldıraraq göyün ortasında buraxırlar. Quşun balası məcburi olaraq sə’y göstərməyə başlayır və hərəkət edərək qeyri-münəzzəm qol-qanad

çalmağa başlayır. Mehriban ana balası yorulanda və ya yerə çatmağa az qalanda özünü yetirərək onu qanadları üstünə alır və yorğunluğunu alması üçün qanadlarının üstündə saxlayır. Amma bala quşun yorğunluğu çıxan kimi anası onu bir daha göyə qaldıraraq oradan buraxır və onu sə’y göstərərək qanad çalmağa vadar edir və yorulanda yenə də balasını tutur. Ana quş bu əməli balası uçmaq öyrənincəyə qədər .təkrar edir

Bir dəfə müsəlmanlardan biri Peyğəmbəri (s) evinə qonaq çağırır. Peyğəmbər (s) həmin müsəlmanın həyətinə daxil olanda görür ki, onun hasarının üstündə bir toyuq yumurtadı, amma yumurta ya yerə düşmədi, ya da düşdü, lakin sınmadı. O həzrət bu hadisədən çox təəccübləndi. Ev sahibi dedi: «Təəccübləndinizmi? Səni, Peyğəmbərliyə göndərən Allaha and olsun ki, mənə heç vaxt ziyan dəyməyib.» Peyğəmbər (s) həmin kişinin evini tərk etdi və buyurdu ki, çətinlik və müsibətlərə giriftar olmayan şəxs .Allahın lütfündən uzaqdır

:İmam Sadiqdən (ə) nəql edilib

Bəlalara ən çox giriftar olan şəxslər Peyğəmbərlər, onlardan sonra fəzilət baxımından» sonrakı yerdə duranlar və onlardan sonra da həmin baxımdan yuxarıdan aşağı .«olanlardır

Hədis kitablarında Əmirəl-mö’minin Əli (ə), imamlar və onların övladlarının bəla və .çətinliklərinin ağırlığına aid fəsillər vardır

Ne’mət və yaxşılıqlar azğınlar və Allahın xoşu gəlməyən adamlar üçün ne’mət və lütf şəklində olan əzab ola bildiyi kimi, bəlalar da Allah dostları üçün qəzəb və hiddət .formasında olan lütfdür

## BƏLALARIN TƏRBİYƏVİ TƏ’SİRİ

.Çətinlik və bəlalar həm fərdləri formalaşdıran və həm də xalqları oyadan bir amildir

Çətinlik, yatmış insanları oyadaraq sayıqlaşdırır, iradə və əzmləri təhrik edərək hərəkətə gətirir. O, dəmir və polada vurulan cila kimi, insanların ruhları ilə hər nə qədər çox təmasda olsa, onları bir o qədər qətiyyətli, fəal və zirək edir. Çünki həyatın

xüsusiyyəti insanın çətinliklər müqabilində müqavimət göstərməsi və bilə-bilə və ya .bilmədən onunla mübarizəyə hazır olmasıdır

Çətinlik xariqüladə qüvvəyə malik maddə kimi mahiyyəti dəyişdirmək xüsusiyyətinə malikdir. O, insanın ruhunu təzələyir. Həyat maddəsi iki şey, yə’ni eşq və bəladır. Bu iki .şey dahilər yetişdirir, solğun və sönük maddədən parlaq və nurlu gövhər yaradır

səh:۱۲۲

Həmeye omr təlxi keşidəəst sə'di

.Ke naməş bər aməd be şirin zəbani

.Mə'nası: Sə'di bütün ömrü boyu çətinlik çəkib ki, axırda adı şirindil olmaqda çəkilir

Çətinliklər qoynunda yaşayan xalqlar güclü və iradəli olurlar. Rahatlıq sevən insanlar .naz-qəmzəli, məğlub və bədbəxtdirlər

Ən dər təbiətəst ke bayəd şəvəd zəlil

.Hər melləti ke rahətiyo eyş xu konəd

Mə'nası: Təbiətin qanunu belədir ki, rahatlıq və eyş-işrətdə olan xalq zillətə düçar .olsun

:Mövləvi Yusifin (ə) zindan əhvalatı barəsində necə də gözəl deyib

Şe'rin məzmunu belədir: Doğruçu Yusifin uzaq yoldan bir qonağı gəldi; onlar uşaqlıqdan bir-birləri ilə tanış olmuşdular; o, Yusifə qardaşları və həsədin zülmünü başa saldı. Yusif deyir ki, qardaşlarım zülm və həsəd zəncirinə bənzəyirdilər, mən isə şir kimi idim; şirə zəncirdə olmaq ar deyil və biz Haqqın təqdirindən gileylənmirik; şirin boynunda zəncir olmasına baxmayaraq, o bütün zəncir düzəldənlərə ağalıq edir; o (qonaq) dedi ki, sən zindan və quyuda olanda necə idin? Cavab verdi ki, ay yoxa çıxan kimi; dedi ki, əgər aysız gecədən sonra ay yenidən iki dənə olsa axırda göydə bədr (on dörd gecəlik ay) olar; üzərliyi döyməklərinə baxmayaraq o sonradan elə əziz olur ki, ondan bəlanın uzaqlaşdırılması üçün istifadə edirlər; torpağın altına toxum atdılar, sonra ondan sünbüllər düzəltdilər; onu sonra bir daha dəyirmanda döydülər, qiyməti artdı və canları gücləndirən çörək oldu; çörəyi də dişin altında çeynədilər və o, xeyirli əql, ruh və dərrakə oldu; həmin ruh sonra bir də eşqdə məhv oldu, «əkinçiləri .təəccübləndirən» (Qur'an ayəsinə işarədir) şəklə gəldi

Başqa bir yerdə bu həqiqəti başa salmaq üçün döyüldükcə kökələn heyvanın halını :nəql edir

Şe'rin məzmunu: Adı əsğər (kirpinin bir növü) olan bir heyvan var ki, ona nə qədər

çubuq zərbəsi vursalar daha da kökəlir; ona çubuq vuran kimi yaxşılaşır və o, çubuq yarasından kökəlir; mö’min insanın ruhu əsğər kimidir ki, o, çubuq yarası ilə yağlı və kök olur; buna görə də peyğəmbərlərin çətinlikləri hamıdan çoxdur, onların canları .bütün canlardan möhkəm olur

Sonra bəlanın ruhun təmizlənməsindəki tə’sirini dabbaqlıq zamanı dərinin .aşılanmasında işlədilən dərmana bənzədərək belə deyir

Şe’rin məzmunu belədir: Dəri dərmandan bəla çəkir və yaxşı gönə çevrilir; əgər ona acı və iti şey sürtməsəydin şişər, iylənərək qurd basardı; insanı da həmin dəri kimi hesab et ki, rütubətlərdən çirkin hala düşüb; ona acı və iti şeyi çox sürt ki, pak, lətif və şövkətli olsun; ey insan, əgər belə olmaq istəyirsənsə, Allah sənin ixtiyarın olmadan sənə müsibət və bəla verməsinə razı ol; çünki Allahın bəlası sizin paklığınızdır, onun .elmi sizin tədbirinizdən üstündür

Əli ibni Əl-Cəhm Abbasi xəlifələrinin zamanında yaşamış güclü şairlərdəndir. O, zindana düşüb və zindanın azadlıqsevər insanlar üçün faydaları, insanı yetişdirməsi və insan üçün fəxr olması, habelə zindana düşməyin necə fəzilət olması və hansı üstünlükləri yaratması barəsində çox gözəl və ali şe’rlər deyib və Məs’udi, onun həmin şe’rlərini «Murucuz-zəhəb» kitabında nəql edib. Biz həmin şe’rlərdən birini .ədəbiyyatsevərlər üçün nəql edirik

?Mənə dedilər ki, sən həbs edildin?! Dedim ki, hansı iti qılınc qın zindanına getmir»

Görmürsən ki, şir böyüklüyü və e’tinasızlığı üzündən bir guşədə qalır, amma alçaq ?yırtıcılar hər yerə hücum çəkirlər

.Od daşın bağrında gizlənib və dəmirlə toqquşmayınca sıçramır

.«Zindan nə qədərki cinayət üçün deyil, yaxşı yerdir

### ALLAHIN TƏQDİRİNƏ RAZILIQ

İlahi təqdirə razılıq və Allah istəyən şeyə şad olmaq sifəti bəlaların dəyərli faydalarını .nəzərə alanda yaranır

:Sə’di belə deyir

Şe’rin məzmunu belədir: Dar düşüncəlilər həmişə rahatlıq axtararlar, arif bəla istəyir ki, bəlanın özü onun üçün rahatlıqdır; başının üstünü ölüm kəsdirmiş bu beş günlük ömürdə hər nəyin varsa qoy keç ki, heç nə yoxdur; eşq qılıncı ilə öldürülən insana

zaval yoxdur; Allahdan gələn hər bir şey gözəldir; Sə’di, Allah razılığı olan yerdə öz .razılığını istəmə

:Nəql edilmiş duaların bə’zilərində belə deyilir

«.İlahi, mənə, sənə şükr edənlərin səbrini əta etməyini istəyirəm»

Şükr edənlərin səbri acı deyil, bal kimi şirin bir səbrdir. Bəlaların insan ruhunu tərbiyə etməsini bilənlər, bəlalardan razı qalmaqdan əlavə, onların qarşısına açıq ürəklə çıxırlar və hətta bə’zən özlərini bəlanın çənginə atır və

özləri üçün hadisə yaradırlar. Onlar üzərək özlərini püxtələşdirmək üçün dərya və .burulğan yaradırlar

:Mövləvi bir az öncə nəql etdiyimiz şe’rinin davamında belə deyir

Şe’rin məzmunu belədir: Bəlanın dalınca şirinlik gəldiyi üçün bəla ona şirin gəlir, xəstəliyin dalınca sağlamlıq gəldiyi üçün dərman acı olmur; Həmin fikirli adam .ölümdən qorxmur və ölümü özünə çox rahat bilir

:Sə’di isə belə bir şe’r deyib

Şe’rin məzmunu belədir: Mirvarini köpək balığının ağzından çıxardırlar, canından .qorxan dənizə getməz

## BƏLA VƏ NE’MƏT NİSBİDİR

Bu nöqtəni yaddan çıxarmaq lazım deyil ki, bəla və müsibətlər insan, onlardan istifadə etdiyi və səbr, müqavimətlə çətinlik yaradan bəlalarla qarşılaşaraq öz ruhunu kamilləşdirdiyi təqdirdə ne’mətdirlər. Amma insan, əgər çətinliklər müqabilində qaçmaq yolunu seçsə və nalə edərək şikayətlənsə, həmin bəla onun üçün doğrudan .da bəladır

Həqiqət budur ki, dünyanın ne’mətləri də onun bəlaları kimi səadət, tərəqqi və həm də bədbəxtlik və fəlakət mənbəyi ola bilər. Nə yoxsulluq mütləq bədbəxtlikdir və nə də varlılıq mütləq xoşbəxtlik! İnsanların tərbiyə və kamilliyinə səbəb olmuş yoxsulluqlar və həmçinin bədbəxtlik və fəlakətinə cəbəb olmuş sərvətlər çoxdur. Təhlükəsizlik və təhlükə də belədir. Bə’zi şəxs və ya xalqlar təhlükəsizlik və rifah halında olanda əyyaşlıqla məşğul olur və düşkün həyat keçirirlər və nəticədə xarlıq və zillət uçurumundan aşırlar. Amma bir çox xalqlar bədbəxtlik və aclıq qamçısı nəticəsində hərəkətə gəlir, izzət və ağalığa çatırlar. Bu qanun sağlamlıq və xəstəlik, izzət və xarlıq və digər təbii ne’mət və bəlalara da şamildir. Ne’mətlər və həmçinin bəla və çətinliklər də bəxşişdirlər. Çünki, onların hər birindən həm ali dərəcədə istifadə etmək olar və həm də onların hər biri bəla və bədbəxtlik sayıla bilərlər. Səbəb budur ki, onların hər biri tənəzzül və bədbəxtlik mənşəyi ola bilərlər. Həm yoxsulluq, həm də sərvət yolu ilə .səadətə çatmaq mümkündür və insan bu iki yolun hər biri ilə bədbəxtliyə də çata bilər

Buna görə də hər hansı bir şeyin ne’mət olması, insanın ona verdiyi reaksiyadan və həmin ne’mət müqabilində şükr edən, yaxud naşükür olmasından asılıdır. Həmçinin, bəlanın bəla olması da, insanın onun müqabilindəki əks əməli, səbirli və təmkinli və ya süst və iradəsizliyindən asılıdır. Buna görə də bir şey iki şəxsə nisbət verilməsi baxımından

müxtəlif şəkillərə düşür, yə'ni bir şey birinə nisbət veriləndə ne'mət, digərinə nisbətdə .isə bəla olur. Buna görə də biz ne'mət və bəlaların nisbi olmasını deyirik

İlahi və mə'nəvi cəza olan şeyləri, yə'ni insanın əməlinin pis tə'sirlərini bəla adlandırmaq lazımdır. Bunlar birincisi insanın iradə və ixtiyarının nəticə və məhsulu olduqları, ikincisi isə heç bir xeyir və kamalın müqəddiməsi olmadıqları üçün həqiqi bəla və müsibətdirlər. Aşağıdakı rəvayətdə deyildiyi kimi, məsələn qəlbin qəsavəti və .daş ürəklilik insan üçün bəladır

«.Allah-taala heç bir bəndəsini daşürəklilikdən yüksək bəlaya düçar etməyib»

Peyğəmbərlərin əhvalatında deyilir: Bir kişi Şueyb peyğəmbərin yanına gələrək ona deyir ki, Allah nə üçün məni bu qədər günah etməyimə baxmayaraq cəzalandırmır? .Ona cavab gəlir ki, sən ən pis cəzalara düçar olmusan, amma xəbərin yoxdur

:Mövləvi bu dastanı belə bəyan edir

Məzmunu belədir: Şueybin zamanında biri deyirdi ki, Allah məndən çoxlu eyb görüb; Allah məndən çoxlu günah və cinayət görməsinə baxmayaraq, kərəmini məndən əsirgəmir; Allah Şueybin qulağına dedi ki, ona başa sal ki, ey səfeh, sənin, «nə qədər günah edirəmsə, Allah kərəmini məndən əsirgəmir» deməyin tamamilə tərsinədir; Hər neçə vaxtdan bir səni tuturam və sən bundan xəbərsizsən, başdan ayağa kimi zəncirlənmisən; ey qara qazan, sənin hisin öz əleyhinədir və o, sənin batini simanı məhv edib; sənin ürəyində pas üstündən pas bağlayıb və onlar hamısı bir-birinin .üstünə yığılıb və səni sirləri görməkdən məhrum edib

Yə'ni sən tərsinə fikirləşirsən. Sən elə bilirsən ki, Allahın səni cəzalandırması səni hiss etdiyin aşkar cəzaya düçar etməsidir, halbuki sən belə bir cəza almağa layiq olsaydın o, cəza deyil, lütf və rəhmət olardı. Çünki o, sənin qəflətdən oyanmağına səbəb ola bilərdi. Amma indi düçar olduğun cəza, sənin əməllərinin ayrılmaz hissəsi olan və yüz .faiz cəza olan bir cəzaya düçar olmusan

Həqiqi bədbəxtlik və fəlakətlər insan əməllərinin nəticə və izləridir və Qur'anın .aşağıdakı ayəsi həmin nəticə və cəzalar barəsindədir

Biz (bunları haram buyurmaqla) onlara zülm etmədik. Onlar (günah işlər görməklə)...»

(özləri özlərinə zülm edirdilər...»(١)



---

.Nəhl-١١٨ [۵٣] -١

Russonun «Umil» adında maraqlı bir kitabı var ki, o, həmin kitabı uşaqların tərbiyə üsulu barəsində yazıb. Umil fərzi və əfsanəvi uşağın adıdır ki, Russo onu öz kitabında tərbiyə edir və onun ruhi və cismi cəhətlərinin hamısının formalaşmasına diqqət yetirir. Russonun bütün arzusu Umilin, təbiəti təcrübə etmək yolu və onunla pəncə-pəncəyə .dayanaraq çətinliklər qoynunda formalaşmasıdır

Russonun fikrincə ən bədbəxt uşaqlar, valideynləri onları naz-ne'mət içində yetişdirən və dünyanın isti-soyuğunu dadmağa və eniş-yoxuşunu duymağa qoymayan uşaqlardır. Həmin uşaqlar çətinliklər müqabilində həssas, ləzzətlər müqabilində isə e'tinasız olurlar. Onlar kiçik bir ağacın budağı kimi, hər bir mehin müqabilində titrəyir və hər bir kiçik pis hadisə onları narahat edir. Hətta kiçik bir hadisə onları intihar etmək fikrinə salır. Digər tərəfdən onlara nə qədər ləzzət almaq şəraiti yaradılırsa, həyəcanlanmır və sevinmirlər. Bu cür insanlar heç vaxt ne'mətin dadını dərk etmir, aclıq görmədikləri üçün yeməyin ləzzətini duymurlar. Ən yaxşı yeməklər onlar üçün .kəndli uşağın yediyi arpa çörəyindən ləzzətsiz və dadsızdır

Sadiq Hidayət nə üçün intihar etdi? Onun intihar etməsinin səbəblərindən biri, onun əşrəfzadə və aristokrat olması idi. Onun pulu həddindən artıq çox, normal düşüncəsi isə yox idi. O, iman ne'mətindən məhrum idi və dünyanı özü kimi şəhvətpərəst, puç və mə'nasız hesab edirdi. Onun tanış olduğu ləzzətlər ən çirkin ləzzətlər idilər və həmin qism ləzzətlərdən maraqlı bir şey qalmamışdı ki, varlıq və həyat, onun intizarını çəkmək dəyərinə malik olsun. O, artıq həyatdan ləzzət ala bilmirdi. Onun kimi düzgün təfəkkürə malik olmayan və iman ne'mətindən məhrum olanlar çox idilər, amma onların heç biri onun kimi tox və əşrafzadə deyildi və həyat onlar üçün hələ ki, maraqlı .idi. Buna görə də başqaları intihara əl atmadılar

Əgər Hidayət kimilər dünyadan şikayətlənir və onu çirkin adlandırırlarsa, onların bundan başqa yolları da yoxdur. Çünki, onların naz-ne'mət içində böyümələri bunu tələb edir. Onlar ilahi ne'mətlərin xoşagələn tamlarını hiss edə bilmirlər. Əgər Sadiq Hidayəti bir kəndə apararaq ona öküz dalında xış çəkdirsəydilər, aclıq və çılpaqlığı daddırsaydılar, hərdənbir kürəyinə bir qamçı da vursaydılar və çox acanda qabağına bir parça çörək atsaydılar, həyatın mə'nasını yaxşı başa düşər və dünyanın su, çörək .və digər maddi-mə'nəvi ne'mətləri onun gözündə çox dəyər və qiymətli olardı

:Sə’di, «Gülüstan» kitabının birinci fəslində belə bir dastan nəql edir

Bir dəfə bir ağa, öz nökəri ilə gəmiyə minir. Dəniz görməmiş nökəri vəhşət bürüyür və»
o, səbirsizlik göstərməyə başlayır. Hətta iş o yerə çatır

ki, onun keçirdiyi gərginlik, gəminin digər sərnişinlərini də narahat edir. Gəmidə olan bir həkim deyir ki, mən onun dərdini bilirəm. Oradakılara göstəriş verir ki, nökəri dənizə atsınlar. Özünü coşqun və rəhimsiz ləpələr üstündə ölümlə üz-üzə görən nökər, çox çalışaraq özünü gəmiyə çatdırmağa və batmaqdan qurtarmağa çalışır. O, bir müddət nəticəsiz təlaşdan sonra, batmaq istəyəndə həkim onu sudan çıxarmaq göstərişi verir. Nökər bu hadisədən sonra sakitləşir və əvvəlki kimi səs-küy salmır. Həkimdən məsələnin sirrini soruşurlar. O, deyir ki, nökərin, gəminin qədrini bilməsi «.üçün dənizə düşməsi lazım idi

Bəli, ləzzətlərdən istifadə etməyin şərti, çətinliklərlə tanış olmaq, onları dadmaqdır. Dərənin dibinə düşməyən şəxs, dağın əzəmətini dərk edə bilməz. Rifahı yaxşı olan sinif arasında intiharın çox olmasının səbəblərindən biri, onlarda adətən imansızlığın çox olması, digəri isə həmin təbəqənin həyatın ləzzət və dəyərini dərk etməmələri, dünyanın gözəlliyini hiss etməmələri və həyatın mə'nasını başa düşməmələridir. Həddindən artıq olan rifah və ləzzət insanı hiss və duyğusuz edərək axmaq və ağılsız bir varlıq şəklinə salır. Belə bir insan, kiçik bir məsələ üstündə intihar edir. Qərb dünyasında puçluğun səbəblərindən biri imanın əldən verilməsi, digəri isə rifahın həddindən artıq yüksək olmasıdır. Qərb, şərqin süfrəsinin başında oturaraq onun ?qanını sovurur, belə olan halda nə üçün də puçluq və nehilizmdən dəm vurmasın

İntiharı həssaslığın üstünə yıxanlar, həmin həssaslığın hansı növ həssaslıq olmasını bilməlidirlər. Onların həssaslıqları zövq və dərk etmə həssaslığı deyil, həmin həssaslığın mə'nası onlar daha incə düşüncəyə malik olmaları və başqalarının dərk etmədikləri şeyləri başa düşmələri deyil. Onların həssaslıqlarının mə'nası budur ki, onlar dünyanın gözəllikləri müqabilində hissiz və sarsaq, çətinliklərin müqabilində isə tez inciyən və müqavimətsizdirlər. Elə, belə adamlar intihar etməlidir və onların intihar etmələri daha yaxşıdır. Onlar bəşəriyyət üçün ardırlar və bəşəriyyət onların .vücudlarının murdarlığından təmizlənməlidir

Bir vaxtlar, bir tanışımız var idi və elə bilirdik ki, o, dünyanın ən xoşbəxt insanlarındandır. Həyat üçün lazım olan hər bir maddi imkana malik idi. Pul, sərvət, vəzifə, məqam, ad-san, bir sözlə hər şeyi var idi. Bir dəfə övlad olmasından söz düşdü. O, dedi ki, mən istəmirdim və istəmirəm ki, uşağım olsun. Ondan səbəbini soruşdum.

Dedi ki, mən özüm bu dünyaya gəlmişəm bəsdir, nə üçün digər bir varlığın da əziyyətə düşməsinə səbəb olum və o da mənim çəkdiyim çətinlikləri çəksin? Əvvəlcə təəccübləndim, amma sonra onun ruh və düşüncəsi ilə bir az çox tanış olandan sonra, gördüm ki, yazıq

düz deyir, o, bu qədər naz-ne’mət içində əziyyətdən başqa bir şey görmür. Adətən bizim bütün çətinlikləri özlərindən uzaqlaşdırdıqlarını güman etdiyimiz şəxslər, .hamıdan çox əzab çəkirlər

Bəli, bəla və müsibətlər böyük ne’mətdir və onlara görə Allaha şükr etmək lazımdır. Bə’zən qəzəb, lütf formasında göründüyü kimi, ne’mətlər də bə’zi vaxtlar qəzəb libasında zahir olurlar. Bu qəzəblərə görə şükr etmək lazımdır. Amma hər halda bu məsələni yaddan çıxarmaq lazım deyil ki, ne’mətin ne’mət və bəlanın da bəla olması, bizim ona verdiyimiz reaksiyadan asılıdır. Biz bütün müsibətləri ne’mətə və həmçinin bütün ne’mətləri bəla və müsibətə çevirə bilərik. İndi əgər bütün bunlar bizdən asılıdırsa, onda gör biz ne’mət libasında olan ne’mətlərin ne’mətə, bəla və müsibət ?formasında olan müsibətlərin isə bəlaya çevrilməsində nələr edə bilərik

## ZİDDİYYƏTLƏR TOPLUMU

Biz, bu fəsldə olan söhbətlərimizdən belə nəticəyə gəldik ki, yaradılışın əsas formulu ziddiyyətlər formuludur və dünya ziddiyyətlər toplumundan başqa bir şey deyil. Bu dünyada varlıqla yoxluq, həyat və ölüm, sağlamlıq və xəstəlik, gənclik və qocalıq və xoşbəxtliklə bədbəxtlik bir-birlərinin kənarında və birgədirlər. Sə’dinin sözü ilə desək .(((dəfinə ilə ilan, gül ilə tikan, qəmlə sevinc birgədirlər

:Mövləvi deyir

Məzmunu: Əziyyət rəhmətlər xəzinəsidir; dəri soyulanda beyin təzələnir; qardaşım, qaranlıq və soyuq yerə və qəmə, süstlüyə və ağrılara səbr etmək həyat suyu və məstlik piyaləsidir ki, bütün yüksəkliklər alçaqlıqlardadır; baharlar xəzan fəslində gizləniblər; o xəzan bahardadı, ondan qaçma; qəmlə yoldaş ol və vəhşətlə uyğunlaş, .uzun ömrü öz ölümünlə tələb et

Dünya maddəsinin dəyişməsi və təkamülün yaranması ziddiyyətlərdən yaranır. Əgər ziddiyyət olmasaydı, heç vaxt rəngarənglik və təkamül olmaz, dünya hər an yeni bir rol .oynaya bilməzdi və varlıq aləmində yeni izlər buraxılmazdı

Əgər məsələyə fəlsəfi rəng vermək istəsək deməliyik ki, maddənin müxtəlif formalar qəbul etmək qabiliyyətinə malik olması və formaların bir-biri ilə ziddiyyəti, həm qurucu

və həm də dağıdıcı amildir; həm yaratmaq və həm də dağıtmaq amilidir; keçmişi dağıtmaq və gələcəyi qurmaq, köhnə formaları aradan apararaq yeni formalar gətirmək amili! Həm viran etmək və dağıdıcılıq və həm də rəngarənglik və təkamül –ziddiyyətin məhsuludur. Çünki, bir şey dağıdılmasaydı, yeni hissələrin bir

birləri ilə birləşməsi, tərkibə girmə və təkamülün heç bir mə’nası olmazdı. Bir şeyin hissə və təşkiledici ünsürləri bir-birləri ilə döyüşərək bir-birlərinə tə’sir etməyincə orta təbiət və yeni tərkib yaranmır. Deməli, «ziddiyyət, xeyirlərin mənşəyi və dünyanın əsasıdır və dünya ona söykənir» demək düzdür. Biz bu kitabın birinci fəslində ədalətin mahiyyətinin nə olması barəsində danışarkən, Molla Sədranın «Əsfar» kitabının ikinci cildindəki mə’nalı sözlərini nəql edərək maddə və formalarda iki tələbatın olmasının necəliyini və bir-birinə zidd həmin təlabatların rollarının daimi olaraq dəyişməsini tələb .etməsini dedik. İndi həmin şəxsdən digər bir tə’bir nəql edəcəyik

:Molla Sədra «Əsfar» kitabının üçüncü cildinin ١١٧-ci səhifəsində belə deyir

Əgər ziddiyyət olmasaydı, bağışlayan Allahın feyz verməsinin davam etməsi mümkün» .«olmazdı

Təbiət aləmi kəsilmə və birləşmələr, kəsilmələr, yapışmalar, qayçılamalar və tikməklərlə doludur və bu, dünyanın zərurətlərindəndir. Dünyanın maddəsi həmişə dövriyyədə olan sərmayə kimidir və onun qazandığı mənfəətlər onun cərəyan və hərəkətdə olmasına borcludur. Əgər dünya sabit və dəyişməz olsaydı, o, xeyir və .ziyanı gətirməyən donmuş və dövriyyəsiz sərmayəyə bənzəyərdi

Hər hansı bir bazarda dövriyyəyə buraxılan müəyyən sərmayə, bə’zən xeyir, bə’zən isə ziyan gətirir. Amma sərmayələrin hamısını nəzərə alanda, ziyan olmur və .sərmayənin hərəkətdə olması mütləq artan və çoxalandır

Dünyanın quruluşunda da, onun bütün maddələrinin, maddənin qabiliyyəti və formaların ziddiyyəti formulu vasitəsi ilə işə düşməsi, mütləq xeyir verən və mənfəətlidir və o, dünyanı kamilliyə doğru sövq edir. Dialektik məntiqdə ziddiyyətlər məsələsi fövqəladə əhəmiyyətli bir məsələ kimi qiymətləndirilir və o, dialektik dünyagörüşünün əsası sayılır. Amma İslam filosof və arifləri, bu fəlsəfənin yaranmasından çox qabaq ziddiyyət prinsipinə diqqət edib, bu barədə maraqlı məsələlər bəyan ediblər. Hətta yunan fəlsəfəsindən nəql edilmiş bə’zi şeylərdən belə .mə’lum olur ki, onların arasında da bu əsas və prinsipə diqqət edilirmiş

Təntavi özünün «Əl-Cəvahir» təfsirinin ١١-ci cildinin beşinci səhifəsində, Sokratın

«ziddiyyət prinsipindən» ölümdən sonrakı həyatın sübutuna dəlil kimi istifadə etməsini nəql edib.

Təntavi yazır ki, Sokratı e’dam etmək istəyəndə o, həyatının son anlarında, ölümdən sonra digər bir həyatın olmasını sübut etmək üçün belə dəlil gətirib:

Biz dünyada həmişə təzadların — gözəlliyin çirkinlikdən, ədalətin zülmdən, oyaqlığın» yuxudan, yuxunun oyaqlıqdan, güclülüyün acizlikdən və bunun əksinin bir-birlərindən yaranmalarını görürük. Hər bir şey öz ziddindən yaranır. Bu ümumi qanun ölümlə həyat, varlıqla yoxluğa da şamildir və bu dəlilə görə, ölümdən digər bir həyat .«yaranmalıdır. Belə olmasa təbiətin ümumi qanunu pozular

:Mövləvi ziddiyyətlərin bir-birlərinin tərkibində yetişmələri barəsində belə deyir

Məzmunu: Dənizin dibində gövhərlər daşla bir yerdədirlər; iftixarlar xarlıqların .içindədir

İbni Xəldun, Əli Əl-verdinin «Əl-muhzələ» kitabındakı sözlərinə əsaslanaraq belə deyir: «Çəkişmə, insan həyatının əsas sütunlarından biri və bəşəriyyətin təbiətində olan .«mühüm ünsürlərdəndir

Bundan öncə də sözlərinin bir hissəsini nəql etdiyimiz məşhur alman filosofu Hegelin, ziddiyyətlər barəsində «Hegel dialektikası» adı ilə məşhurlaşmış xüsusi nəzəri var və filosoflar, onun həmin nəzəriyyələrinə həddindən artıq çox istinad edirlər. O, belə :deyir

Hər bir fikir və əşyanın hər hansı bir forması, habelə dünyada olan hər bir təsəvvür və» vəziyyət, güclü şəkildə öz ziddinə tərəf çəkilir, sonra onunla birləşərək üstün və möhkəm bir cəm yaradır. İnkişafın barışdıraraq vəhdətə çevirməsi üçün hər bir .«vəziyyət və əşyanın bir ziddi olmalıdır

Əmirəl-mö'minin Əli (ə) öz xütbələrinin müxtəlif yerlərində ziddiyyət qanununa .toxunub

Bu böyük imam özünün ۱۸۴-cü xütbəsində Allahı tanımaq barəsində «O, heç nə kimi deyil» prinsipindən istifadə edib və Allahla dünya arasında mənfi müqayisə aparıb. Onun sözlərinin tərcümə və mə'nası belədir: «Allahın hiss və şüur cihazlarını yaratmasından başa düşmək olar ki, Onun özünün belə üzv və cihazları yoxdur. Başqa sözlə desək, Allahın, məxluqatın hiss və şüuru üçün yer və vasitə yaratması, Onun şüur və dərkinin vasitə və üzv vasitəsi ilə olmamasına dəlildir. Varlıqlar arasında

bərqərar etdiyi ziddiyyətdən onun özünün ziddinin olmaması başa düşülür. Həmçinin onlar arasında (cismani) yaxınlıq yaratmasından, Onun özünün cismani yaxınının olmaması dərk edilir. O, nurla zülmət, aydınlıqla qaranlıq, quru ilə yaş və isti ilə soyuq arasında ziddiyyət yaradıb. Düşmən və ziddiyyətli təbiətlər arasında ülfət yaradaraq bir-birlərinə biganə və yad olanları bir-birləri ilə birləşdirib. Uzaqları bir birlərinə yaxın, yaxınları isə bir-birindən uzaq edib».

O həzrət Nəhcül-bəlağənin birinci xütbəsində Adəmin yaranması barəsində belə :buyurur

Əmirəl-mö’minin (ə) burada Allah-taalanın, Adəmin gilini yerin müxtəlif hissələrindən yoğuraraq, sonra ona ruh üfürməsini bəyan etdikdən sonra, yaradılmış insanın :vəsfində belə deyir

O, müxtəlif təbiətlərlə qarışıb, onda həm yeksan və bir-birinə bənzər və həm də bir-» .«birinə zidd hissələrdən istifadə edilib

## ZİDDİYYƏTİN FƏLSƏFİ ƏSASI

Dayaq nöqtəsi hərəkət və tərpənmə olan dünyada, mütləq ziddiyyət hakim olmalıdır. Çünki, filosofların dediyi kimi, qeyri-müafiq hərəkətin olması mümkün deyil. Hərəkət .sə’y və təlaşdır, təlaş da çarpışma və qarşıdurma olan yerdə gerçəkləşir

Başqa ifadə ilə desək, heç bir təbii hərəkət qəsrsiz mümkün deyil. Cism özünün qeyri-təbii yerində olanda öz təbii yerinə doğru hərəkət etməyə başlayır. Lakin cism öz təbii yerində olanda sakit və hərəkətsiz olur. İnsan da kamala doğru, ona malik olmadığı təqdirdə tələsir. İnsanın səadəti həmişə hansısa mətləb və hədəfin olmasındadır və .hədəfə malik olmaq məhrumluq və həmin şey olmayanda həyata keçir

Biz dialektik məntiqi hərəkəti, ziddiyyət və təbiətin hissələrinin bir-birinə bağlılığına əsaslanana qədər qəbul edirik. Bu əsl, ən qədim zamanlardan İslam filosoflarının diqqət mərkəzində olub. Bizim yolumuzu onlardan ayıran və Hegeldən sonra dialektik təfəkkürün özəyi sayılan şey, başqa şeylər, o cümlədən düşüncənin də maddə kimi hərəkət, ziddiyyət və sairənin tə’siri altına düşməsidir. Hərəkət, ziddiyyət və qarşılıqlı tə’sir qanunları təbiətə aid olduğu çərçivədə düzgündür və onlar fəlsəfi əsaslardır. Amma onların məntiq adlandıraraq mə’rifət və agahlığı da həmin qanunlara tabe etmək istəmələri qəbul edilməzdir. İndi həmin məsələlər barəsində söhbət etmək .imkanımız yoxdur

## ÜMUMİ NƏTİCƏ

Bizim, ilahi ədalət baxımından şərlər məsələsi barəsindəki söhbətimiz burada sona

çatır. Biz ölüm məsələsini, xüsusi mülahizə ilə müstəqil bir fəsildə araşdıracağıq. Mən burada, üçüncü fəslin sonunda dediklərimizdən

əlavə, indiyə kimi dediklərimizin xülasə və ümumi əsaslarını bir daha xatırlatmaq .istəyirəm

Hikmət sifəti, yə’ni Allah və insanın həkim olması, iki cür gerçəkləşir. İnsanın həkim .١ olmasının mə’nası budur ki, onun hər bir işdə əqli hədəfi vardır və o, həmin hədəflərə çatmaq üçün öz işlərində ən ali və üstün hədəflər və ən yaxşı vasitələri seçir. Amma Allah-taala mütləq ehtiyacsızdır və O, hansısa hədəf axtarmır. Onun malik olmadığı və buna görə də axtara biləcəyi hansısa kamillik yoxdur. Allahın həkim olmasının mə’nası budur ki, O, varlıqları onların özlərinin imkanları olan layiqli kamala çatdırır. Onun işi varlığı kamala çatdırmaq olan yaratmaq və ya şeyləri kamilliyə çatdırmağın digər bir növü olan tədbir, təkmilləşdirmək və əşyaları onların ikinci dərəcəli kamilliklərinə doğru sövq etməkdir. Sual və iradların bə’ziləri, Allahın həkim olmasını insanın həkim olmasına bənzədərək onları bir-biri ilə müqayisə etməkdən yaranır. Adətən «filan şey nə üçün yaranıb?» sualı veriləndə, sualı soruşan, məsələni öz zehnində «Allahın həmin işdən hədəf və məqsədi nədir?» formasında irəli sürür. Amma o, bu məsələdən xəbərsizdir ki, bizim, Allah üçün də insan üçün qail olduğumuz kimi hədəfə qail olmağımızın mə’nası, Allahın da insan kimi öz işlərinin çatışmamazlıqlarını düzəltməsi və özünü kamilləşdirməsidir. Əgər əvvəlcədən, Allahın Həkim olmasının mə’nasının, Onun zatının deyil, işlərinin hədəfə malik olması demək olmasına, hər bir məxluqun hikmətinin onun canında gizlənmiş bir hədəf olmasına və Allahın hikmətinin varlıqları onların təbii hədəflərinə doğru sövq etmək olmasına diqqət yetirsək qabaqcadan .cavabımızı əldə edəcəyik

İlahi feyzin mə’nası, dünyanın hamısını bürüyən və xüsusi quruluşa malik olan bir .٢ feyzdir, yə’ni onların arasında dal-qabaqlıq, səbəb-nəticəlik hakimdir və bu quruluş dəyişməzdir. Belə ki, heç bir varlıq öz məqam və dərəcəsindən kənara çıxaraq başqasının məqamını tutmaq imkanına malik deyil. Varlıqlar, xüsusilə insanın təkamül hərəkəti öz məqamını tərk edərək başqasının məqamını tutmaq deyil, insanın vücudunun genişliyi mə’nasınadır. Varlıqların məqam və dərəcəyə malik olmaları, onların arasında naqislik və kamillik, güclülük və zəiflik baxımından fərq və ixtilafın .hakim olmasını tələb edir. Bu qism ixtilaflar ayrı-seçkilik deyil

.Allahın yaratması cüz’i və təsadüfi deyil, ümumi və zəruridir .٣

Bu barədə olan səhvlərin digər bir kökü Allah işlərinin insanın işləri ilə müqayisəsidir. Belə ki, bə’ziləri belə güman edirlər ki, Allahın işləri də insanın işləri kimi cüz’i və .təsadüfi ola bilər

İnsan, varlıqların biri və quruluşun bir hissəsi olduğu və onun iradəsi, cüz’i və təsadüfi səbəblərin oylağı olduğu üçün müəyyən zaman və məkanda — müəyyən şəraitin tə’siri altında — məsələn, bir zavod tikmək qərarına gəlir. O, heç bir təbii bağlılıqları olmayan şeyləri, o cümlədən kərpic, sement, dəmir, torpaq, əhəng və sairəni .toplayaraq, onları sü’ni əlaqələrlə xüsusi şəkildə bir-birinə birləşdirərək zavod tikir

Bəs Allah-taala necə? Görəsən Allahın möhkəm yaradılışı da bir neçə yad şey arasında ?sü’ni və müvəqqəti əlaqə yaratmaq qismindəndirmi

Sü’ni və müvəqqəti əlaqə yaratmaq, birincisi, varlıq aləminin bir hissəsi olan və onda hakim olan qanunlara tabe, ikincisi, müəyyən çərçivədə əşyaların mövcud qüvvə, güc və xüsusiyyətlərdən bəhrələnmək istəyən, üçüncüsü, iradəsi cüz’i səbəblərin oyuncağı olan (məsələn, o, özünü soyuq və istidən ev vasitəsi ilə qoruyur) dördüncüsü, failliyi yaratmaq deyil, hərəkət failliyi həddində olan, yə’ni heç nə yaratmayan və varlıqları yalnız hərəkətə gətirərək yerini dəyişdirmək yolu ilə bir-biri ilə əlaqələndirən insan kimi varlığa layiqdir. Amma Allah yaradıcı faildir. O, əşyaları bütün qüvvə, güc və xüsusiyyətləri ilə yaradıb və həmin qüvvə və xüsusiyyətlər, bütün sahələrdə bərabər .və yeksan tə’sir göstərirlər

Məsələn, Allah-taala od, su və elektriki yaradır. Amma insan həmin od, su və elektrik arasında bir növ sü’ni əlaqə yaradaraq onlardan bəhrələnir. İnsan bu sü’ni əlaqəni elə tənzimləyir ki, ondan özünə faydası olan müəyyən yerdə istifadə edir (məsələn, işığın kilidini vurur) və lazım olmayanda ondan istifadə etmir, (məsələn işığı söndürür). Allah-taala isə həmin şeyləri bütün xüsusiyyət və tə’sirləri ilə birlikdə yaradandır. Odun zəruri xüsusiyyəti yandırmaq və qızdırmaq, elektrikin xüsusiyyəti isə işıqlıq və hərəkət yaratmaqdır. Allah od və ya elektriki müəyyən şəxs üçün yaratmayıb və belə bir işin olmasının mə’nası da olmazdı ki, məsələn o, birinin evini qızdırsın, amma paltarını yandırmasın. Allah, xüsusiyyəti yandırmaq olan odu yaradıb. Deməli, odu ilahi hikmət baxımından varlıq aləmində ümumi nəzərə almaq lazımdır. Onun vücudu ümumilikdə xeyirli və lazımdır, yoxsa artıq və zərərli? Burada onu cüz’i nəzərə alaraq kiminsə evini .qızdırması, digərinin isə anbarını yandırmasını fikirləşmək lazım deyil

Bir şeyin vücuda gəlməsi üçün Allahın tam failliyi kifayət etmir, yaranmalı olan şeyin .۴

.yaranmaq qabiliyyət və iste’dadının olması da şərtdir

Bə’zi varlıqların bə’zi ne’mətlərdən məhrum olmalarının mənşəyi onların müəyyən şeyə lazım olan iste’dadlara malik olmamalarıdır. Barələrində bundan əvvəl danışdığımız acizlik, zəiflik, nadanlıq və sairə kimi yoxluq qismli şərlər, bəşəriyyətə aid olması, yə’ni quruluşun cüz’i və təsadüfi cəhətləri deyil, Allahın müqəddəs zatı, yə’ni quruluşun ümumiliyi baxımından, iste’dadların naqisliyindən yaranıb.

۵. Allah-taala zatən vacibul-vücud olduğu kimi, bütün cəhət və heysiyyətlərdən də vacibdir. Hansısa bir varlığın vücuda gəlmək və ya kamala çatmaq imkanı ola-ola, Allah tərəfindən ona həmin feyzin əta edilməməsi qeyri-mümkündür. Bə’zən bir varlığın hansısa bir şəraitdə, bir kamalı əldə etmək imkanına malik ola-ola ondan məhrum qalması, külli və zəruri səbəblər əsasında olan imkan deyil, cüzi və təsadüfi səbəblər əsasında olan imkandır.

۶. Şərlər ya yoxluq, ya da digər əşyalarda yoxluq mənşəyi olan varlıqlardır və onlar yoxluq mənşəyi olduqları üçün şərdirlər.

۷. İkinci qism şərlərin şərlikləri onların öz-özlərində deyil, nisbi və izafi vücudlarındadır.

۸. Doğrudan da mövcud olan, yaradılan və səbəb-nəticənin əlaqə qurduğu şey, izafi vücud deyil, həqiqi vücuddur.

۹. Şərlər ümumi baxışda zati deyil, tabeçilik və ərəzlə olan məxluqdurlar.

۱۰. Dünya parçalanmaz bir vəhdətə malikdir və onun bə’zi hissələrinin aradan götürülərək bə’zisinin saxlanılması sırf xülya və xəyal oyunudur.

۱۱. Şərlər və xeyirlər bir-birindən ayrı, iki sıra və cərgədə duran şeylər deyildirlər və onlar bir-birlərinə qarışıblar. Yoxluqlar varlıqlardan, izafi vücudlar isə həqiqi vücudlardan ayrılmazdır.

۱۲. Dünyanın parçalanmazlığı prinsipinə əsasən, təkcə yoxluqlar varlıqlardan və izafi vücudlar həqiqi vücudlardan deyil, həqiqi vücudlar da bir-birlərindən ayrılmazdır.

۱۳. Varlıqlar tək və müstəqil olmaları baxımından bir hökmə, nəyinsə bir hissəsi və hansısa bir əndamın üzvü olmaları baxımından isə başqa bir hökmə malikdirlər.

Birlik və əndamvarilik hakim olan yerədə, təklik və müstəqilin olması e’tibari və .۱۴ .intizaidir

.Əgər şər və çirkinlik olmasaydı, xeyir və gözəlliyin mənası olmazdı .۱۵

.Şər və çirkinliklər xeyir və gözəlliklərin aynasıdır .۱۶

.Şərlər xeyirlər qaynağı, müsibət və çətinliklər isə xoşbəxtliklər anasıdır .۱۷

## BEŞİNCİ FƏSİL: ÖLÜM–İTİMLƏR

### İŞARƏ

.۱ Ölüm anlayışı;

.۲ Ölüm qorxusu;

.۳ Ölüm nisbidir;

.۴ Dünya ruh üçün ana bətni kimidir;

.۵ Dünya insanlıq məktəbidir;

.۶ E’tirazın kökü;

.۷ Ölüm həyatın genişlənməsidir.

## ÖLÜM ANLAYIŞI

Bəşəriyyəti həmişə narahat edən fikirlərdən biri, ölüm düşüncəsi və həyatın sona çatması məsələsidir. İnsan özündən «Dünyaya nə üçün gəlmişəm və nə üçün gedirəm?», «Bu tikib sökməkdən məqsəd nədir?», «Bu iş bihudə və boş bir iş deyilmi?» .suallarını soruşur

:Bu şe’r Xəyyama mənsubdur

Şe’rin məzmunu belədir: Məst adam hazır qədəhin sınmasını rəva bilməz; bəs onda bu ?qədər nazlı qamət və baş-gözü Allah nə üçün yaradıb və nə üçün sındırır

İnsan bir qədəhdir ki, Allah məhəbbətdən ona yüz dənə busə vurur; zamanın bu .kuzəgəri belə zərif qədəh düzəldir və sonra onu yerə çırpır

Ölüm qorxusu fəlsəfi bədbinliyin yaranma səbəblərindəndir. Bədbin filosoflar, həyat və varlığı hədəfsiz, bihudə və hər bir hikmətdən boş təsəvvür edirlər. Bu təsəvvür onları sərgərdan edib və bə’zən onlarda intihar hisslərini aşılayıb və aşılayır. Onlar öz-özlərində fikirləşirlər ki, əgər getməli və ölməliyiksə, gərək gəlməyəydik, amma indi ki, ixtiyarsız gəlmişik, bizim əlimizdən heç olmasa da bu bihudəçiliyin davam etməsinə yol .verməmək və son qoymaq gəlir və bu puçluğa son qoymağın özü ağıllı bir işdir

:Bu şe’r də Xəyyama mənsubdur

Şe’rin məzmunu belədir: Əgər bu dünyaya gəlməyim öz əlimdə olsaydı gəlməzdim; Əgər getmək mənlik olsaydı nə vaxt gedərdim?! Ən yaxşısı isə bu olardı ki, bu .xarabaya nə gələydim, nə olaydım və nə də gedəydim

İnsanın bu şoranlıqdakı qazancı qəm-qüssə yeməkdən başqa bir şey deyil; xoşbəxt o adamdır ki, bu dünyadan tez gedib və rahat o adamdır ki, ümumiyyətlə bu dünyaya .gəlməyib

## ÖLÜM QORXUSU

Ölüm məsələsi və bu baxımdan dünyanın quruluşuna tutulan iradları araşdırmazdan əvvəl, bu məsələyə də diqqət yetirmək lazımdır ki, ölüm qorxusu və ondan nigaran

olmaq insana məxsusdur. Heyvanlar ölüm barəsində fikirləşmirlər. Heyvanlarda olan yeganə şey təhlükədən qaçmaq instinkti və mövcud həyatı qorumaq meylidir. Əlbəttə mövcud yaşayışın qorunması mə’nasında olan qalmaq meyli, həyatın zəruri tələblərindəndir. Amma insanda bundan əlavə gələcəyə baxış və gələcəkdə qalmaq da

vardır. Başqa sözlə desək, insanda əbədi qalmaq arzusu vardır və bu arzu insana məxsusdur. Arzu, gələcəyi təsəvvür etməyə, əbədi qalmaq arzusu isə əbədiliyi təsəvvür etmək və düşünməyə əsaslanır və bu düşüncə və təsəvvür insanın xüsusiyyətlərindəndir. Buna görə də həmişə insanın fikrini özündə toplamış ölüm qorxusu hər bir heyvanda ani şərti refleks formasında olan təhlükədən qaçmaq instinktindən ayrı bir şeydir. İnsanın uşağı da, onda əbədilik arzusu, düşüncə kimi inkişaf etməmişdən əvvəl təhlükədən qaçmaq instinktinin hökmü ilə təhlükələrdən .uzaqlaşır

Ölüm qorxusu əbədilik meylinin məhsuludur. Təbiət aləmində heç bir puç və bihudə meyl olmadığı üçün, bu meyli insanın ölümdən sonra əbədi olacağının dəlili hesab etmək olar. Bizim, yox olmaq fikrindən narahat olmağımız, bizim yox olmayacağımızın dəlilidir. Əgər biz gül və bitgilər kimi məhdud və müvəqqəti bir yaşayışa malik olsaydıq, bizdə əsaslı və köklü şəkildə əbədilik meyli yaranmazdı. Susuzluğun olması suyun olmasına bir dəlildir. Digər başqa əsaslı meyl və iste'dadların olması da meyl və iste'dadın üz tutduğu kamilliyin mövcudluğunun dəlilidir. Sanki, hər bir iste'dad, tərəfinə doğru gedilməli olan kamilliyin zehni xatirəsidir. İnsanı həmişə özünə məşğul etmiş əbədilik arzusu və ölüm nigarançılığı, onun yox olmayacaq gerçəkliyinin təzahür və cilvəsidir. Bu arzu və nigarançılıq eynilə insanın oyaq haldakı xüsusiyyət və müşahidələrinin cilvəsi olan yuxu kimidir. Yuxu aləmində aşkara çıxan şey, oyaqlıqda bizim ruhumuza daxil olmuş və bə'zən orada kök salmış şeyin cilvəsidir. Oyaq vəziyyətdə əbədilik arzusu kimi, bizim ruhumuzda cilvələnən və bu dünyanın müvəqqəti həyatı ilə heç cür uyuşmayan şey, bizim istər-istəməz «İsgəndərin vəhşət zindanından» qurtulacaq və yükünü bağlayaraq «Süleyman mülkünə gedəcək» əbədi .həqiqətimizin təzahür və cilvəsidir

.Mövləvi bu həqiqəti çox maraqlı formada bəyan edib

Məzmunu: Fil arxası üstündə yatan kimi yuxuda Hindistanı görür; uzunqulaq isə yuxusunda heç vaxt Hindistanı görmür, çünki o, (Hindistan) qəribi deyil; fil Hindistanı o .qədər yadına salar ki, həmin xatirələr gecə yuxusunda canlanar

Bu cür təsəvvürlər, düşüncələr və arzular arif və filosofların insanın bu maddi

.dünyadakı «qürbət» və ya «uyuşmazlığı» adlandırdıqları həqiqətdir

## ÖLÜM NİSBİDİR

Ölümlə bağlı irad, onun, yox olmaq güman edilməsindən yaranıb. Halbuki o, insan üçün yoxluq deyil, dəyişiklik, bir tərəfdən bataraq digər tərəfdən çıxmaq deməkdir. Başqa sözlə desək, ölüm yoxluqdur, amma mütləq deyil nisbidir, yə’ni bir tərəfdə yox olaraq .digər tərəfdə var olmaqdır

İnsanın mütləq ölümü yoxdur. Ölüm bir halı əldən verərək başqa bir halı ələ gətirməkdir və hər bir dəyişiklik kimi, fanilik də nisbidir. Torpaq bitgiyə çevriləndə ölür, amma bu mütləq ölüm deyil. Torpaq özünün əvvəlki vəziyyət və xüsusiyyətlərini əldən verir və artıq, cansız formada olduğu şəkildə olmur. Amma əgər bir hal və vəziyyətdə .ölübsə, başqa bir vəziyyətdə həyat əldə edib

Şe’rin məzmunu belədir: Cansızlıqdan ölüb canlı oldum və canlılıqdan ölüb heyvanlıqdan baş qaldırdım; heyvanlıqdan da ölüb adam oldum, bəs nə üçün ölüb ?azalacağımdan qorxuram

## DÜNYA RUH ÜÇÜN ANA BƏTNİ KİMİDİR

Bu dünyadan başqa bir dünyaya köçmək, uşağın ana bətnindən doğulmasına bənzəyir. Bu bənzətmə bir cəhətdən yetərli, digər cəhətdən isə yetərsizdir. Bənzətmənin yetərsizliyi dünya ilə axirətin fərqinin ana bətni ilə ondan xarici aləmin fərqlərindən daha dərin və əsaslı olmasındadır. Ana bətni ilə xarici aləmin hər ikisi təbiət aləmi və dünya həyatının bir hissələridir. Amma dünya həyatı ilə axirət aləmi, bir-birindən əsaslı fərqlənən iki həyatdır. Lakin bu bənzətmə digər cəhətdən, yə’ni şəraitlər arasındakı fərqləri göstərməsi baxımından yetərlidir. Uşaq ana bətnində olanda cift və göbək yolu vasitəsi ilə qidalanır, amma bu dünyaya ayaq basdıqdan sonra həmin yol bağlanır və o, ağız və həzm boruları vasitəsi ilə qidalanır. Onun ağ ciyəri ana bətnində olanda yaradılır, amma işləmir. Uşaq ana bətnindən xaric olan kimi .onlardan istifadə olunmağa başlanılır

Uşağın ana bətnində olduğu müddətdə nəfəs boruları və ciyərindən kiçicik bir istifadə etməməsi çox maraqlıdır. Hətta bəlkə uşağın həmin orqanı, ana bətnində bir an işə

düşsə, uşağın ölümünə səbəb olar. Bu vəziyyət, o, ana bətnində olduğu son ana kimi davam edir. Amma ana bətnindən xaric olan kimi tənəffüs orqanları işə düşməyə .başlayır və bundan sonra onun fəaliyyəti bir an dayansa, onu ölüm təhlükəsi gözləyir

Doğuşdan əvvəlki həyat tərzi beləcə ondan sonrakı həyat tərzinə çevrilir. Uşaq doğulmamışdan qabaq bir həyat tərzində, ondan sonra isə digər bir həyat tərzində .yaşayır

Ümumiyyətlə, tənəffüs orqanı uşaq ana bətnində olanda yaradılmasına baxmayaraq, ora üçün yaradılmır. Onun yaradılması ana bətnindən sonrakı həyat üçün əvvəlcədən olan hazırlıqdır. Görmə, eşitmə, dadma və

qoxulama orqanlarının da heç biri bütün genişlik və mürəkkəbliyi ilə həmin yaşayış .üçün deyil, ondan sonrakı mərhələ üçündür

Bu dünya digər dünyaya nisbətdə, insanın ruhi orqan və sistemləri yaradılaraq onu başqa bir yaşayışa hazırlayan ana bətni kimidir. İnsanın ruhi iste’dadları, bəsitlik və abstraktlığı, onun «mən»inin parçalanmazlığı və nisbi sabitliyi, sonsuz arzuları, geniş və sonsuz düşüncələrinin uzun, geniş və hətta əbədi həyat üçün lazım olan vasitələridir. İnsanı bu maddi və fani dünyada qərib və onunla «uyuşmaz» edən də bu şeylərdir. İnsanın bu dünyada «qamışlıqdan kəsilmiş, ah-naləsindən yer-göy ağlayan və həmişə vüsal dərdini demək üçün çox-çox geniş bir sinə axtaran «ney» halında olmasının səbəbi də budur. (İnsanın neyə bənzədilməsi Mövləvinin bir şe’rindəki təmsilə işarədir). İnsanın özünü «başda oturan şah» bilməsi və dünyanı özünə nisbətdə «mehnətlər küncü» adlandırmasının və ya «özünü müqəddəs gülüstanın quşu», dünyanı .isə «hadisələr tələsi» kimi görməsinin səbəbi də həmin şeydir

:Qur’ani-kərim buyurur

«Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) (hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»(١)

İnsanın bütün bu təchizat və vəsaitlə Allaha, onun üçün geniş və münasib meydan olan dünyaya qayıtmaması, ana bətnindən sonra heç bir dünyanın olmamasına və bütün döllərin ana bətni dövrü qurtardıqdan sonra fani olmalarına bənzəyir. Belə çıxır ki, ana bətnində heç bir rol oynamayan və həmin bitgi mərhələsi üçün artıq bir şey olan bu görmə və eşitmə orqanları, beyin və sinir sistemi, ciyər, mə’də və sairə boş .yerə yaradılıb və onlar istifadə edilməmiş yoxluq diyarına göndərilirlər

Bəli, ölüm insan həyatının bir mərhələsinin sonu, digər bir mərhələsinin isə .başlanğıcıdır

Yeni körpənin doğulması doğulduğu dünyaya nisbətdə doğulmaq, bundan əvvəlki dünyaya nisbətdə isə ölüm olduğu kimi, insanın ölümü də dünyaya nisbətdə ölüm, .dünyadan sonrakı aləmə nisbətdə isə doğulmaqdır

## !DÜNYA İNSANLIQ MƏKTƏBİDİR

Dünya, insan üçün axirətə nisbətdə hazırlıq və təkmilləşmə məktəbidir. Dünya axirətə nisbətdə bir gənc üçün məktəb və universitet dövrü kimidir. Dünya doğrudan da .məktəb və tərbiyə ocağıdır



---

.Mu’minun-۱۱۵ [۵۴] -۱

Nəhcül-bəlağənin qısa kəlmələr bölməsində deyilir ki, bir nəfər həzrət Əlinin (ə) yanına gəlir və dünyanı pisləməyə başlayaraq «dünya zalımdır, dünya insanı aldadır, dünya cinayətkar və hoqqabazdır» və bu kimi sözlər deyərək, gileylənməyə başlayır. Həmin şəxs böyük şəxsiyyətlərin dünyanı məzəmmət etdiklərini eşidib elə bilirmiş ki, dünyanı məzəmmət etməkdən məqsəd, onun həqiqətini məzəmmət etməkdir və dünya zati baxımdan pisdir. Amma əslində o, dünyapərəstliyin, insan və onun səadəti ilə bir araya sığmayan məhdud istək və baxışların pis olmasını bilmirdi. Əli (ə) ona belə deyir: «Dünya səni aldatmır, sən dünyaya aldanırsan; dünya sənə qarşı cinayət törətməyib, sən ona qarşı cinayət törətmisən.» O Həzrət söhbətinin davamında bu nöqtəyə çatır: «Dünya onunla sədaqətli olana qarşı sədaqətlidir, onu dərk edən üçün sağlamlıq mənbəyidir; dünya Allah dostlarının mə’bəd və ibadətgahı, Allah mələklərinin səcdəgah və namaz yeri, Allah vəhyinin nazil olduğu yer və Allah övliyalarının .«ticarətxanasıdır

:Şeyx Əttar bu dastanı nəzmə çəkərək belə deyib

Məzmunu: Bir nəfər o ədalətli Allah şirinin yanında dünyanı pislədi; heydər ona dedi ki, dünya pis deyil sən pissən, çünki ağıldan uzaqsan; dünya həm gecə və həm də gündüz işlənilməsi lazım olan əkin sahəsi kimidir ki, kim başında izzət və din havasını gəzdirirsə, bu dünyadan məhsul götürə bilər; bu gün əkdiyin toxum sabah bar verər, əgər bir şey əkməsən, sabah onun barı puç olar; belə olsa sən dünyadan bir bəhrə aparmayacaqsan və həyat görməmiş öləcəksən; sonra həmişə qəm-qüssə içində .qalacaqsan, iş çətin, insan süst, yol isə uzaqdır

:Qur’ani-kərim buyurur

Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı» (yaradan Odur...»(١

.Yə’ni həyatla ölümün birləşməsi olan dünya, bəşəriyyətin xeyirxahlıq labaratoriyasıdır

Bilmək lazımdır ki, Allahın imtahanları iste’dad və bacarıqları aşkar etmək üçündür və hər hansı bir iste’dadın üzə çıxarılması, onu inkişaf etdirmək və kamilləşdirməkdir. Bu imtahan və sınaq varlığın sirlərindən pərdə götürmək deyil, sirr kimi gizli iste’dadları

üzə çıxarmaqdır. Burada pərdə götürmək yaratmaq istiqamətlidir. İlahi sınaq və imtahan, insanın



---

.Mulk-۲ [۵۵] -۱

sifətlərini iste’dad və qüvvə xəlvətgahından fe’liyyət və kamal səhifəsinə çıxarır. İlahi .sınaq çəkini azaltmaq deyil, onu artırmaqdır

Bu izahdan sonra mə’lum olur ki, qeyd etdiyimiz ayə dünyanı iste’dadların .yetişdirilməsi və insanların tərbiyə ocağı olması həqiqətini açıqlayır

## E’TİRAZIN KÖKÜ

Ölümün mahiyyəti barəsindəki təfsirlə, e’tirazların əsassız olması aydınlaşır. Həmin e’tirazlar əslində insan və dünyanı tanımamaq, başqa sözlə desək, naqis və sonsuz .dünya görüşündən yaranır

Doğrudan da əgər ölüm dünyanın sonudursa, əbədi qalmaq meyl və arzusu həddindən artıq çox narahatedicidir və ölüm, işıqlı və gələcəyi görən düşüncədə, .sonsuz dərəcədə vəhşət yaradandır

Bə’zilərinin, həyatı puç saymalarının səbəbi onların əbədi yaşamaq arzusuna malik olmaları və həmin arzunun gerçəkləşməsini qeyri-mümkün bir iş saymalarıdır. Əgər onlar əbədilik arzusuna malik olmasaydılar, həyat və yaşayışı hətta tam yoxluqla sona çatsa belə, puç sanmaz və onu heç olmasa müvəqqəti xoşbəxtlik və tez keçən dövlət adlandırardılar. Onlar həmin surətdə, heç vaxt yoxluğun bu cür varlıqdan yaxşı olmasını fikirləşməzdilər. Çünki, həmin şəraitdə, bu varlığın müddətinin qısa olması fərz edilir və onun dalınca yoxluğun gəlməsi ona eyb sayılır. Deməli, bütün eyb və iradlar yoxluq və müddətin qısalığı baxımındandır. İndi bəs, həmin qısa müddətli !?varlığın yerinə də, yoxluğun olması necə yaxşı ola bilər

Bəli, biz indi özümüzdə əbədilik arzusunu görürük və bu arzu, əbədiliyin özünün təsəvvür edilməsindən yaranır. Yə’ni biz əbədilik və onun gözəllik və cazibələri barəsində təsəvvürə malikik və həmin cazibələr bizdə həmişə olmaq və həyatın .ne’mətlərindən həmişə istifadə etmək arzusu yaradır

Bizim zehnimizə bir sıra materialist fikirlər hücum edəndə və bizə, həmin fikir və arzuların boş olmasını və əbədiliyin olmamasını təlqin edəndə, bizim narahat olmağa və bizdə böyük əzab və vəhşət hissinin yaranmasına haqqımız var. Onda arzu edirk ki, kaş bu dünyaya gəlməyəydik, bu əzab və vəhşətlə üzləşməyəydik. Deməli, varlığın boş

və puç olması fikri, zatı istəklə sonradan qazanılmış təlqin arasındakı uyuşmazlığın nəticəsidir. Əgər həmin instintk olmasaydı, bizə hətta həmin səhv materialist fikirlər .təlqin edilməsəydi də, bizdə belə bir təsəvvür yaranmazdı

İnsan və onun həqiqi və gizli quruluşu, onda iste’dadına malik olduğu kamala çatmaq üçün əbədilik arzusunu yaradıb. Bu quruluş və mövcud iste’dadlar, məhdud və bir neçə günlük dünya həyatından artıq olduğu üçün, yaşayışın, dünya həyatı ilə xülasə olunacağı şəraitdə həmin iste’dadların

hamısı bihudə olmuş olur. Əbədi həyata imanı olmayan insan, öz quruluşu və arzu düşüncələri arasında uyuşmazlıq görür və dili ilə deyir ki, varlığın sonu yoxluqdur və bütün yollar fanilikdə bitir, bəs həyat və yaşayış puç və bihudədir! Amma o, daha geniş və yetərli olan iste'dadlar dili ilə belə deyir: Yoxluq yoxdur, qarşıda sonu olmayan bir yol var, əgər mənim həyatım məhdud olsaydı, mən əbədilik iste'dad və arzusu ilə .yaradılmazdım

Buna görə də əvvəldə dediyimiz kimi, Qur'ani-kərim qiyamətin rədd edilməsi .düşüncəsini, yaradılışı bihudə hesab etməklə bir hesab edir

Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) » (hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»(١)

Bəli, dünyanı «məktəb» və «təkmilləşmə ocağı» hesab edən və başqa həyat və dünyaya imanı olan şəxs, e'tiraz edərək «bizi ya gərək dünyaya gətirməyəydilər, ya da gətiriblərsə ölməməliyik» demir. Necə ki, birinin «uşaq, ya məktəbə getməməlidir, ya da .əgər məktəbə gedirsə, heç vaxt məktəbi tərk etməməlidir» deməsi məntiqi deyil

Xacə Nəsrəddin Tusinin ustadı olmuş Baba Əfzəl Kaşani çox ali bir rübaidə ölümün :fəlsəfəsini bəyan edib

Məzmunu belədir: Ruh gövhəri bədən sədəfinə birləşən kimi həyat suyundan insanın surəti formalaşdı; gövhər tamam olan və sədəf sınan kimi o, sultanın tacının üstündə .oturdu

Bu rübaidə cism, çox bahalı gövhər olan insan ruhunu öz batinində yetişdirən sədəfə bənzədilib. Gövhərin vücudu kamilləşəndə, onun öz alçaq yerindən insanın başındakı uca məqamına qalxması üçün həmin sədəfi sındırması zəruridir. İnsan ölümünün fəlsəfəsi də onun, təbiət aləminin zindanından, genişliyi yer və göyün genişliyi qədər olan gözəl cənnətə köçürülməsi və yaxınlığında hər bir kamillik əldə edilən qüdrətli hökmdar və böyük Allahın ətrafında yer tutmasıdır. «Şübhəsiz ki, müttəqilər (axirətdə) cənnət bağlarında və çaylar kənarında, haqq məclisində qadir hökmdar Allahın hüzurunda olacaqlar».(٢) Bəqərə surəsinin ١٥۶-cı ayəsinin mə'nası da elə budur: «...Biz «...Allahın bəndələriyik və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq

Nə üçün ölürük?» iradı və onun cavabı çox gözəl şəkildə Məsnəvinin dastanlarının» :birində gəlib



---

.Mu’minun-۱۱۵ [۵۶] -۱

.Qəmər ۵۴-۵۵ [۵۷] -۲

Məzmunu: Musa dedi ki, ey işləri hesaba əsaslanan Allah, nə üçün bir şeyin planın çəkir, sonra isə onu xarab edirsən? Kişi-arvad vasitəsi ilə onları artırır, sonra isə onları viran edirsən? Allah ona dedi ki, mən sənin bu sualının inkar, qəflət və nəfsani istəklərdən yaranmadığını bilirəm; əgər belə olmasaydı, səni ədəbləndirərərək məzəmmət edər və bu sualına görə incidərdim; amma sən bizim işlərimizin hikmətini və məsələnin sirrini bilmək istəyirsən; sən bu məsələni öyrənərək camaatı ondan xəbərdar etmək və hər bir «çiyi» püxtələşdirmək istəyirsən; Allah sonra dedi ki, ey dərrakə sahibi, sualı soruşdun, indi cavabını eşit! Ya Musa! Torpaqda toxum ək ki, sən özün də həmin işin insaf olmasını e'tiraf edəsən; Musanın əkini bitəndən sonra sünbüllər yetişərək gözəl şəklə düşdü; o, əlinə oraq alaraq onların hamısını biçdi və qeybdən qulağına nida gəldi ki, nə üçün əkin əkərək onu yetişdirir, sonra isə onu biçirsən? Musa dedi ki, ey Rəbbim, mənim buranı dağıdaraq viran etməyimin səbəbi burada toxum və samanın olmasıdır; toxumun saman anbarında olması yaxşı deyil, həmçinin toxum anbarında samanın olması da pisdir; bunları bir-birinə qatmaq hikmətə uyğun deyil və aralarında fərq qoymaq vacibdir; Allah ondan soruşdu ki, bu biliyi hardan öyrənmisən? Bu şamın nurunu hardan alışdırmısan? Musa dedi ki, ey Allahım, bu ayırma qabiliyyətini sən mənə vermisən, Allah ona dedi ki, bəs səncə mənim belə bir ayırma qabiliyyətim yoxdur? Məxluqat arasında pak və çirkin qara ruhlar var; bu sədəflər bir dərəcədə deyildirlər, onların arasında dürr və xalis olmayanı var; buğdanı samandan ayırmaq lazım olduğu kimi, bu yaxşıları da pislərdən ayırmaq .lazımdır

## ÖLÜM HƏYATIN GENİŞLƏNMƏSİDİR

Ölüm barəsində danışanda bu məsələyə də diqqət etmək lazımdır ki, «ölüm və həyat» hadisələri, varlıq aləmində ardıcıllıq və dəyişmə sistemi yaradırlar. Həmişə bir qrupun ölümü digər bir qrupun həyatına şərait yaradır. Ölən canlıların, bədənləri istifadəsiz qalmır və onlardan bitgilər və ya yeni və təravətli canlılar yaradılır. Sədəf sınır və təbiətə parlaq bir gövhər təhvil verir. Həmin cism və maddədən bir daha yeni bir sədəf yaranır və onun içində başqa bir gövhər yetişir. Sədəfin sınması və təbiətə gövhər təhvil verməsi saysız-hesabsız miqdarda təkrarlanır və beləliklə, zamanın sonsuz uzunluğunda həyat feyzi genişlənir. Əgər min il bundan əvvəl yaşayan insanlar ölməsəydilər, bu günki insanların yaşamasına növbə çatmazdı, necə ki, müasir

insanlar da yer boşaltmasalar gələcək nəsillər üçün vücuda gəlmək imkanı olmayacaq. Əgər keçən ilki güllər yer

üzündən silinməsəydilər, yeni ilin təzə və təravətli gülləri özlərini göstərmək üçün yer tapmazdılar. Maddə, məkan baxımından həyatı qəbul etmək üçün məhdud, zaman baxımından isə sonsuz tutuma malikdir. Maraqlıdır ki, dünyanın cismləri məkan baxımından hər nə qədər genişliyə malik olsalar, zaman baxımından da genişliyə malik .olurlar və varlığın bu cəhətdə də misilsiz genişliyi var

Ölümə irad tutanlardan olmuş Xəyyam öz e'tirazlarına cavab olan bir nöqtəni :xatırladaraq deyir

Məzmunu: İnsan çətinlik çəkməklə azad olar, qətrə sədəfin həbsində dürr olar, əgər .mal qalmasa

.Piyalənin boşalmasından, saqinin onu bir daha dolduracağını fikirləşmək olmaz

:O, həmçinin belə deyir

Şe'rin məzmunu belədir: Dur! Fani dünyanın qəmini çəkmə, otur bir az güzaranını şadlıqda keçirməklə məşğul ol; əgər dünyanın təbiətində vəfa olsaydı, başqalarının .əlindən sənə növbə çatmazdı

Şair bu cəhəti dünyanın vəfasızlığının üstünə atır. Bəli, əgər yalnız indi növbəsi olan şəxs me'yar olsa, bunu vəfasızlıq adlandırmaq olar. Amma əgər öz dövrlərini keçirməli olanları nəzərə alsaq, ad dəyişilir və vəfasızlığın yerinə insaf, ədalət və növbənin riayət .edilməsi gəlir

Burada kimsə deyə bilər ki, Allahın qüdrəti sonsuz olduğu üçün, həm indikilərin həmişə qalmaları və həm də gələcək nəsillərin yer, ərzaq və digər şeylərlə tə'min olunmasına !?nə mane olur

Onlar bilmirlər ki, vücud imkanı olan hər şey Allah tərəfindən verilib və verilir və əgər nə isə mövcud deyilsə, deməli elə də olmalıdır. Başqa yer və münasib mühit imkanı hazırlanması fərziyyəsi, əgər mümkün olsa belə, orada digər insanların vücuda gəlmələrinə şərait yaradır, amma insanların qalmalarının və onların həyatlarını davam etdirmələrinin, gələcək nəsillərin vücuda gəlmələri yollarını bağlaması iradı, yenə də .öz yerində qalır

Bu nöqtə «ölüm nisbidir» adı altında verdiyimiz cavabı daha da təkmilləşdirir. Bu iki nöqtənin xülasəsi budur ki, dünyanın maddəsi öz təbii seyr və cövhəri hərəkətləri ilə abstrak ruhların parlaq gövhərlərini yaradır. Abstrak ruh, maddəni buraxaraq daha ali və güclü həyatı davam etdirir və maddə bir daha öz ətəyində digər bir gövhər yetişdirir. Bu quruluşda həyatın təkamül və genişlənməsindən başqa heç bir şey .yoxdur və həmin genişlənmə yerdəyişmələrdə həyata keçir

Ölüm haqqında söylənilən digər bir irad, onu kuzə düzəldərək sındıran sənətkara bənzətmək və varlığın başlanğıcı və yaradılış aləminin

icraçısının, kuzə düzəldəndən ibrət almasını arzulamaq isə o qədər uşaqyanadır ki, bu barədə söhbət etməyə belə dəyməz. Bu cür düşüncələr şair taktikası və bir növ incə və mahir xülyapərəstlikdir ki, yalnız poeziya və incəsənət baxımından müəyyən dəyərə malikdir. Çox ehtimal ki, Xəyyama nisbət verilən şe'rlərin sahibinin nəzəri belə olub və ya o, məhdud materialist təfəkkür tərzinə malik olmaqdan yaranıb. Amma «yuxuya getdiyininz kimi ölür və yuxudan durduğunuz kimi dirilirsiniz» deyən şəxsin fəlsəfəsində bütün iradlar həll edilib. (Bu, Peyğəmbərdən (s) nəql edilmiş bir hədisdir.) Belə şəxs ölümdən nəinki qorxmur, bəlkə Əli (ə) kimi onun arzusundadır və onu nicat .və qurtuluş hesab edir

Böyük İslam filosoflarından biri olmuş Mirdamad belə deyir: «Ölümün acılığından .«qorxma, çünki onun acılığı elə ondan qorxmaqdadır

İslam filosoflarından olmuş Şeyx Şəhabəddin Söhrəvərdi isə belə deyib: «Filosof öz iradəsi ilə ruhunu bədənindən çıxara bilməyincə, onu filosof hesab etmirik». Ruhu .bədəndən çıxarmaq onun üçün sadə və adi bir iş olmalı və onun adətinə çevrilməlidir

Bu cümləyə oxşar digər bir kəlam da İsfahan dini mədrəsəsinin banisi olmuş tədqiqatçı .filosof Mirdamaddan nəql edilib

O, öz fikri ilə bütün şəxsiyyəti olan bədəninin ölərək məhv olmasından narahatdır. Buna görə də ölüm düşüncəsi onun dünyaya qarşı bədbin olmasına səbəb olur. Belə düşüncə ilə yaşayan şəxs, dünyaya olan baxışını və ondan olan anlayışlarını .dəyişdirməli və bu iradların dünyaya olan səhv baxışlardan yaranmasını bilməlidir

.Bu bəhs mənə Feyziyyə mədrəsəsində olan sadə qəlbli bir kitab satanı xatırladır

Qum şəhərində təhsil aldığım illərdə, Feyziyyə mədrəsəsində sadəlövh bir kişi kitab satırdı. Həmin kişi satdığı kitabları yerə düzər və tələbələr ondan kitab alardılar. O, bə'zən çox təəccüblü işlər görür və çox gülməli sözlər danışardı ki, onun həmin söz və işləri dillərdə gəzərdi. Tələbələrdən biri danışırdı ki, bir gün onun yanına gedib satdığı kitablardan birinin qiymətini soruşdum. O, mənim cavabımda kitabı satmadığını dedi. Nə üçün? – deyə səbəbini soruşdum. Dedi: Onu satsam, gərək digər birini alıb onun .yerinə qoyam

Həmin tələbə deyirdi ki, kitab satanın bu sözünü eşidəndə məni gülmək tutdu. Kitab satan, əgər həmişə alqı-satqı və mübadilədə olmasa, kitab satan olmaz ki? Həm də !heç bir qazanc əldə edə bilməz

Səhv etməsəm, Xəyyamın şe’r məktəbinin davamçılarından olan həmin kitab satan :kişi, deyəsən aşağıdakı şe’ri deyibmiş

Şe’rin məzmunu belədir: Venera və ay göydə göründüyü kimi, heç kəs əsl şərabdan yaxşı bir şey görməyib; mən şərab satanlara təəccüblənirəm ki, onlar satdıqlarından ?yaxşı şey ala biləcəklərmi

O, mey satana irad tutur ki, nə üçün mey satırsan? Əlbəttə, bu irad tutma ciddi deyil, şe’r dili ilədir və o, öz gözəllik və incəliyinə görə həmin cəhətə borcludur. Amma həmin məntiqi «ciddilik» me’yarları ilə ölçdükdə, bir mey içənin mey satanın işini öz işi ilə necə səhv saldığını görürük. Mey, onu içən üçün hədəf, satan üçün isə vasitədir. Mey satanın işi mey alıb-satmaq, gəlir əldə etmək və həmin əməli bir daha təkrar etməkdir. İşi bu olan şəxsi malının qurtarması nəinki, narahat etməz, hətta sevindirər də, çünki, malın qurtarması, elə onun hədəflərinin bir hissəsidir. (Yə’ni mal satılıb qurtarsın və o, (.bir daha yeni mal gətirsin

Hanı o arif ki, süsənin dilini başa düşərək ondan soruşa ki, nə üçün getdi və nə üçün ?gəldi

Yaradılış, alverlə məşğul olmaq kimidir. Dünya bazarı malın tədarük görülməsi, satılması , qazanc əldə edilməsi və həmin işin bir daha təkrar edilməsidir. «Ölüm və həyat sistemi» mübadilə, artırmaq və təkmilləşdirmək sistemidir. Yaradılışın .mübadiləsinə irad tutan dünyanın qanun və hədəflərini bilmir

## ALTINCI FƏSİL: AXİRƏT CƏZALARI

### İŞARƏ

;Əməlin cəzası .١

;İki dünya arasındakı fərqlər .٢

۳. İki dünya arasındakı əlaqə;

۴. Üç növ cəza;

۵. Tənbih və ibrət;

səh:۱۴۷

۶. Dünya cəzaları;

۷. Axirət əzabı;

۸. Nəticə.

səh:۱۴۸

## ƏMƏLİN CƏZASI

İlahi ədalət bəhsində barəsində danışılmalı olan məsələlərdən biri də axirətdə əməllərə cəza verilməsi məsələsidir. Məad, yaxşı və pis əməllərə baxılması, yaxşı və pis iş görmüş insanlara əməllərinə müvafiq olaraq cəza verilməsinin özü ilahi ədalətin təzahürlərindəndir. Adətən məadın isbat edilməsi üçün gətirilən dəlillərdən biri də «Allah adil və həkim olduğu üçün insanların əməllərini hesabsız, cəza və mükafatsız .qoymur» müddəasıdır

:Əmirəl-mö'minin Əli (ə) buyurur

Allahın zalımlara bir müddət möhlət verməsi mümkündür, amma onları heç vaxt boş» buraxmayacaqdır. O, zalımların yolu üstündə dayanaraq sümük boğazı tutan kimi .«onların yolunu bağlayacaqdır

Bu fəsildə söhbət Allahın ədalətli olması vasitəsi ilə məadı isbat etmək deyil. Əksinə burada söhbətimiz ilahi ədalət baxımından cəzaların keyfiyyətinə edilən iradlar barəsindədir. Deyirlər ki, axirət dünyası barəsində nəql edilən cəza formaları ilahi ədalətin ziddinədir. Çünki, həmin cəzalarda günahla cəza arasında tənasüblük yoxdur .və cəzalar ədalətsiz formalarda icra edilir

Bu iradda ilahi ədalətə dəlil hesab edilən cəza, ədalətə irad və hikmətə zidd kimi qiymətləndirilir. Bu iradın əsası, cəza qanunlarında cinayətlə cəza arasında tənasübə riayət edilməməsidir. Məsələn ədalət, yoldan keçən şəxsin başına zibil tökənin cəzalandırılmasını tələb edir. İndi həmin şəxs üçün nəzərdə tutulmuş cəzanın çox ağır, məsələn e'dam və ya həbs olmamasında heç bir şübhə yoxdur. Cinayətlə cəza arasında tənasüb prinsipinə əsasən, belə bir cinayət üçün ən çoxu bir həftə həbs cəzası kifayətdir. Bu kiçik işə görə həmin şəxsi səhra məhkəməsində mühakimə edib güllələsələr ədalətsizliyə yol vermiş olarlar. Cinayətlərə görə cəza verilməsi ədalətin zərurətlərindəndir, amma cinayətlə cəza arasındakı tənasübə riayət edilməsə, .cəzanın özü bir növ ədalətsizlik olacaqdır

Qeybət, yalan, zina, qətl və bu kimi günahlar cinayətdirlər və cəza tələb edirlər. Amma görəsən axirətdə onlar üçün müəyyənləşdirilmiş cəza növləri, həddən artıq kəskin

deyilmi? Qur’an qətl üçün cəhənnəmdə əbədi qalmaq cəzası müəyyənləşdirib. Rəvayətlərdə nəql edilib ki, həmin şəxs cəhənnəm itlərinin yeməyi olacaqdır. Bu minvalla digər günahlar üçün də ağır və dözülməz cəzaların veriləcəyi qeyd edilib. Onlar keyfiyyətləri baxımından həddindən artıq çox ağır, zaman baxımından isə çox uzun müddətli cəzalardırlar. İndi irad budur ki, günahla onun üçün

?müəyyənləşdirilmiş cəza arasındakı tənasübsizlik, ilahi ədalətlə nə qədər düz gəlir

Bu irada cavab vermək üçün müxtəlif cəza növləri barəsində söhbət edərək, axirət cəza növlərini tanımağımız lazımdır. Bu da əvvəlcə, mö'təbər İslam sənədləri və əqli dəlillərin imkanı çərçivəsində axirət dünyasının quruluşu və həmin dünyanın quruluşu .ilə bu dünyanın quruluşu arasındakı fərqlər barəsində söhbət etməyimizi tələb edir

## İKİ DÜNYA ARASINDAKI FƏRQLƏR

Görəsən axirət dünyasına da bu dünyaya hakim olan təbii qanun və əsaslar hakimdirmi? Görəsən bu dünya ilə axirət dünyası arasında fərq və ya fərqlər vardırmı? Axirət dünyası eyni ilə bu dünya kimidirmi və onun yeganə fərqi zaman baxımından ?bundan sonra gəlməsidir

Bu iki dünya arasında fərqin mövcudluğu qətidir. Əgər oxşarlıqlar varsa, fərqlərin .olması da inkaredilməzdir

Onlar müxtəlif qanunların hakim olduğu iki həyat və iki dünyadırlar. Hökm çıxarmaqda tələsməyin, mən ilahi ədalətin dünyanın qanunlarından olub, axirətə aid olmamasını və orada zülmün rəva olmasını demək istəmirəm. Xeyr, bir qədər diqqət yetirsəniz .mə'lum olar ki, mən digər bir mətləbi çatdırmaq istəyirəm

Bu iki növ həyat arasında mövcud olan fərqləri göstərmək üçün əlimizdə heç bir misal yoxdur. Çünki hər hansı bir misalı gətirmək istəsək, onun bu dünya qanunlarına aid olması qaçılmaz bir iş olacaq. Amma zehnləri həmin məsələ ilə tanış etmək üçün bir qədər güzəştlə dünya və axirəti ana bətni ilə dünyaya oxşatmaq olar. Həmin misaldan .bundan əvvəl də, başqa bir məqsəd üçün istifadə etmişdik

Uşaq ana bətnində olanda bir növ həyat tərzinə, doğulduqdan sonra isə digər bir həyat tərzinə malik olur. Bu iki həyat tərzinin müştərək cəhəti, onların hər ikisində qidalanma xüsusiyyətinin olmasıdır. Amma ana bətnində olan döllə, dünyaya gələn uşağın qidalanması arasında fərq vardır. Uşaq ana bətnində bir bitgi kimi yaşayır. Bitgi öz kökü ilə qidalandığı kimi, uşaq da göbək vasitəsi ilə ananın qanından qidalanır və həmçinin nə ciyərləri ilə nəfəs alır və nə də mə'dəsi hansısa bir fəaliyyət göstərir. Amma bu dünyaya ayaq basan kimi, onun əvvəlki yaşayış tərzi dəyişir, həyatına başqa

bir quruluş hakim olur. O, burada bir an belə əvvəlki kimi yaşaya bilmir və yeni yerləşdiyi bu dünyada nəfəs almalı və ağızı ilə yemək yeyərək qidalanmalıdır. Doğulmamışdan qabaq ciyərinə hava, mə’dəsinə isə yemək getsəydi o, ölərdi. İndi isə bunun əksi olub. İndi əgər bir neçə an

ciyərinə hava getməsə və bir neçə saat yemək yeməsə ölər. Uşaq doğulandan sonra onu əvvəlki şəraitdə, məsələn bağlı bir qutuda yerləşdirərək ona, göbək vasitəsi ilə qan vurmaq və onun ağız-burun yollarını bağlamaqla saxlamaq olmaz. Çünki uşağın .yaşayış sistemi dəyişib və o, bu yeni sistemdən istifadə etməlidir

Axirət dünyası da bu dünya ilə müqayisədə belədir. Orada olan həyat tərzi bu dünyadakından fərqlidir. Hər iki dünyada yaşayış var, amma onlar eyni deyildirlər. Oradakı yaşayışın qanun və sistemi, bu dünyadakından fərqlidir. Başqa sözlə desək, dünya ilə axirət iki aləm və həyatdırlar. Bu iki dünya arasındakı fərqləri əldə etmək .üçün bu barədə dini sənədlərdə olan vəsflərə müraciət etmək lazımdır

.İndi isə onlar arasındakı bir neçə fərqə işarə edək

Sabitlik və dəyişkənlik; Bu dünyada hərəkət və dəyişkənlik mövcuddur. Burada uşaq .١ böyüyür, kamilləşir və sonra qocalaraq ölür. Bu dünyada yeni şeylər köhnəlir və köhnələr aradan gedir. Amma axirət dünyasında qocalıq və köhnəlik yoxdur. Orada ölüm məsələsi də yoxdur. Bu dünya fanilik, axirət dünyası isə əbədilik dünyasıdır. Bura .aradan getmə və fanilik, ora isə sabitlik və bərqərarlıq evidir

Xalis və saf olmayan həyat; İkinci fərq budur ki, bu dünyada ölümlə həyat bir-birinə .٢ qarışıb, amma ora birbaşa yaşayış dünyasıdır. Burada cansız əşyalar və heyvanlar var və onların hər biri digərinə çevrilir. İndi bizim bədənimiz olan və yaşayan cismimiz, nə vaxtsa ölü və cansız olub və həyat bir daha ondan ayrılacaq və o, cansız hala qayıdacaqdır. Dünyada həyatla ölüm bir-birinə qarışıb. Amma axirətdə belə deyildir. Axirətin torpaq, gövhər, çınqıl, ağac və meyvələrinin hamısı həyata malikdirlər. Od .orada da şüurlu və fəaldır

:Qur’ani-kərim «Ənkəbut» surəsinin ۶۴-cü ayəsində belə buyurur

«.Axirət yurdu isə , şübhəsiz ki, əbədi həyatdır»

.Axirət canlı bir varlıqdır

Bu dünyada bədən üzvləri şüur və dərkə malik deyildirlər. Amma axirət dünyasında dəri, bədən və dırnağın da dərk etmə qüvvəsi var və onlar hətta söz də danışırlar.

Qiyamətdə ağızlara möhür vurulacaq və hər bir bədən üzvü gördüyü iş barəsində özü .danışacaqdır

Dildən sual soruşulmayacaq ki, o da yalanla əməlləri ört-basdır edə bilsin. Orada .bütün üzvlər danışıq qüvvəsinə malik olacaq və öz gördükləri işləri izah edəcəklər

:Qur’ani-kərim «Yasin» surəsinin ۶۵-ci ayəsində belə buyurur

Bu gün (Allaha and olsun ki, biz müşrik, kafir deyildik dediklərinə görə) onların» ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların «.əlləri bizimlə danışar, ayaqları isə şəhadət verər

Başqa bir yerdə isə insanların öz bədən üzvləri ilə bəhs və mübahisə etmələrini nəql edib. Qur’an, qiyamətdə günahkarların qulaq, göz və digər bədən üzvlərinin onların əleyhinə şəhadət vermələrini bəyan etdikdən sonra, həmin insanlarla onların :bədənləri arasındakı mübahisəni belə vəsf edir

Onlar öz dərilərinə: Nə üçün əleyhimizə şəhadət verirsiniz?-deyəcəklər. Dəriləri də» (belə cavab verəcəkdir: Hər şeyi dilə gətirən Allah bizi danışdırdı...»(١

Əkin və biçin; Dünya ilə axirətin üçüncü fərqi budur ki, bura əkin və toxum səpmə .٣ yeri, ora isə məhsul götürəmə və biçin yeridir. Axirətdə əməl və ya müqəddimə yoxdur, orada nə varsa məhsul və nəticədir. Ora imtahanların qiymətləri e’lan edilən gün kimidir. Əgər şagird imtahan vaxtı dərs oxumağa bir az möhlət verilməsini istəsə və ya qiymətlər bildiriləndə «məndən indi soruşun cavab verim» desə, alacağı cavab bu olacaq ki, imtahanın vaxtı keçib, indi qiymət vermək vaxtıdır. Peyğəmbərlərin «camaat, saleh əməllərlə məşğul olun və axirət evi üçün azuqə toplayın» deyə, fəryad .etmələrinin səbəbi də əməl vaxtının məhdud olmasıdır

:Əmirəl-mö’minin (ə) buyurur

Bu gün iş və əməl günüdür və hesabat yoxdur, sabah isə hesabat günüdür və (orada)» (iş (imkanı) yoxdur.»(٢

:O həzrət digər bir xütbəsində isə belə buyurur

Ey Allah bəndələri, dil və bədənlərinizin sağlam olduğu, bədən üzvlərinizin sözünüzə» «.baxdığı və fəaliyyət meydanı açıq olduğu indiki vaxtda iş görün

Yə’ni, bədən sənin fəaliyyət göstərməyin və iş görməyin üçün vasitədir, səndən alınmamışdan və məhv olmamışdan qabaq onunla iş gör, (özü də) sənə xeyir və !faydası olan iş

Möhlət qurtardıqdan və Qadir Allahın əmri ilə ruh bədəndən ayrıldıqdan sonra, əlindən heç bir iş gəlməyəcək. Həmin vaxt «məni qaytarın yaxşı işlər görüm» deyib, nə qədər :fəryad etsən, eşidəcəyin cavab bu olacaq



---

.Fussilət-۲۱ [۵۸] -۱

.Nəhcül-bəlağə, ۴۲-ci xütbə [۵۹] -۲

Mümkün deyil!» Əgər ağacdan qopmuş kal meyvənin ağaca birləşməsi və onun,» keçmiş vəziyyətinə qayıdaraq yetişib şirinləşməsi mümkün olsa, dünyaya qayıtmaq da .mümkün olar. Amma yaradılış qanunu başqa cürdür

:Peyğəmbərin (s) bu barədə buyurduğu cümlə, necə də gözəldir. O həzrət buyurub

«.Dünya axirətin əkinəcəyidir»

Bu hədisdə insanın ömrü, eləcə də dünya və axirət həyatı ilin iki fəslinə bənzədilib. .Dünya əkin fəsli, axirət isə məhsul yığımı fəsli misalındadır

Şəxsi və müştərək müqəddərat; Dünya ilə axirət arasında olan dördüncü fərq, .۴ dünyada müqəddəratların müəyyən qədər müştərək olmasıdır. Amma axirətdə hər bir şəxsin digərindən ayrı bir müqəddəratı var. Məqsəd budur ki, dünya həyatı ictimaidir və ictimai həyatda birlik və vəhdət mövcuddur. Xeyirxah insanların yaxşı işləri başqalarının səadətində tə'sir göstərir. həmçinin pis əməlli insanların pis işləri, cəmiyyətə mənfi tə'sir göstərir. Buna görə də burada müştərək məs'uliyyətlər də vardır. Cəmiyyətin üzvləri bir bədən üzvləri kimi, az-çox bir-birlərinin cəzasını çəkməlidirlər. Onlardan birinin fəaliyyətinin pozulması başqa üzvlərin sağlamlıqlarının aradan getməsinə səbəb olur. Məsələn, qara ciyərin yaxşı işləməməsinin zərəri, digər .üzvlərə də tə'sir göstərir

Cəmiyyətin üzvləri müştərək müqəddərata malik olduqları üçün bir nəfər günah etmək istəyəndə başqaları ona mane olaraq qarşısını almalıdırlar. Peyğəmbər (s) bir nəfərin günahının cəmiyyətə tə'sirini bir misalla belə bəyan edib: Bir qrup adam gəmiyə minmişdi və gəmi dənizin ortasında hərəkət edirdi. Sərnişinlərdən biri öz oturduğu yeri deşməyə başladı. Digər sərnişinlər həmin şəxs öz yerini deşir deyə, ona bir söz demədilər və beləliklə su həmin yerdən gəmiyə dolaraq onu batırdı. Amma əgər digər sərnişinlər onun əlindən tutaraq həmin işi görməsinə mane olsaydılar, həm «.öz canları sağ qalardı və həm də onu xilas edərdilər

Dünyada qurunun oduna yaş da yanır və ya hansısa təhlükədən birlikdə nicat tapırlar. Bir qrupun müştərək həyat keçirdiyi cəmiyyətdə həm yaxşı və həm də pis işlərlə məşğul olanlar var. Bə'zən pis işlərlə məşğul olanlar, xeyirxahlıq və yaxşı işlərlə

məşğul olanların səmərəsindən bəhrələnirlər və bə’zən də günahsız insanlar, .günahkarların əməllərinin zərbəsindən ziyan görürlər

Amma axirət dünyası belə deyil. Orada başqalarının əməlinə şərik olmaq qeyri-mümkündür. Nə biri başqasının gördüyü və heç bir rolu olmadığı işdən bəhrələnə bilir və nə də heç kimə, kiminsə günahına görə əzab verilir. Axirət «ayrılıq» evidir, yaxşını pisdən, pakı isə napakdan ayırır. Orada

(günahkarları çağırırlar ki: «Ey günahkarlar! Bu gün (mö'minlərdən) ayrılın!»(١)

.Orada ata oğuldan, oğul isə atadan ayrılar və hər kəs öz əməlinin cəzasını çəkər

(Heç bir günahkar başqasının günahını daşımaz...»(٢...»

Bu fərqin yaranma mənşəyi, axirətin sırf fe'liyyət, bu dünyanın isə hərəkət, yə'ni iste'dadla hərəkətin bir-birinə qarışmış dünya olmasıdır. Sırf fe'liyyətlər bir-birlərindən tə'sirlənmir və bir-birlərinin kənarında olmalarına baxmayaraq, tərkibə girmirlər. Amma qarışıq fe'liyyətlər tə'sir qəbul edir və bir-birləri ilə tərkibə girmək imkanına malikdirlər. Buna görə də dünyada insanların bir növ vəhdəti olan «cəmiyyət» yaranır, amma «cəmiyyət» axirət üçün mə'nasız bir şeydir. Dünyada tədrici tə'sir göstərmə və .tə'sirlənmə var, amma axirətdə belə bir şey yoxdur

Dünyada xeyirxah insanlarla oturub-duranda, həmin yoldaşlıqdan müsbət tə'sirlər :əldə edilir, pis insanlarla oturub-duranda isə azğınlığa səbəb olur. Mövləvi deyir

.Məzmunu: Gizli yollarla sinələrdən sinələrə məhəbbət və kinlər yol tapır

:Firdovsi isə belə deyir

Məzmunu: Əgər ənbər satanın yanından keçsən, paltarını ənbər iyi bürüyər; əgər .kömür satanın yanından keçsən, ondan pis və qaralıqdan başqa bir şey tapmazsan

Axirət dünyasında isə adam əbədi olaraq xeyirxahlarla otursa da, onun məqamı yüksəlmir və həmçinin pislərlə oturanda da, onun dərəcəsi tənəzzülə uğramır. Orada kiminləsə oturub-durmaq tə'sirli deyil və heç bir şey digər şeylərə tə'sir göstərmir. Orada kiməsə kin bəsləmək və ya birinin xeyrini istəmək, sinədən sinəyə keçmir. Orada nə ətir satanla oturub-duranda adamdan xoş iy gəlir və nə də kömür satanla olanda üstünə qara toz qonur. Orada, istər təbii, istərsə də şərti mübadilə mövcud .deyil. Alış-veriş mübadiləsi bu dünyaya məxsusdur

Əlbəttə, «axirət dünyasında olan həyat ictimai deyildir» sözündən məqsəd, orada hamının fərdi və tək həyat keçirməsi, özündən başqa heç kəsi görməməsi və başqaları ilə ünsiyyətdə olmaması demək deyildir. Məqsədimiz budur ki, bu dünyada olan

cəmiyyət, yə’ni fərdlərin həqiqi tərkibi nəticəsində yaranmış müqəddəratlar, onları bir-birinə bağlayan



---

۱- [۶۰] Yasin-۵۹.

۲- [۶۱] Ən’am-۱۶۴.

əxlaqi və mə’nəvi birliklər, tə’sirlənmə və tə’sir göstərmələr, əməkdaşlıqlar, ziddiyyətlər və mübadilələr o dünyada mövcud deyil. Amma həm cənnətdə və həm də cəhənnəmdə birgə və cəm həyat vardır, ancaq bu fərqlə ki, xeyirxah və əməli saleh insanların cəmiyyətlərində olanlar ünsiyyət, ülfət, səfa və səmimiyyətdədirlər. Qur’anın tə’biri ilə desək: «...Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər».(١) Yaramaz şəxslərin cəmiyyətlərində isə nifrət, bir-birindən bezmək və .xoşagəlməz sözlər hakim olar

Hər tayfa (cəhənnəmə) girdikcə özündən əvvəlki dindaşına və ya tayfadaşına (onu...» (doğru yoldan azdırdığı üçün) lə’nət oxuyacaq...»(٢

Şübhəsiz ki, bu — cəhənnəm əhlinin bir-biri ilə bu cür çəkişməsi, çənə-boğaz olması —» (bir həqiqətdir.»(٣

## İKİ DÜNYA ARASINDAKI ƏLAQƏ

Keçən söhbətimizdən bu dünya ilə axirət dünyasının quruluşu arasındakı fərqlər .aydınlaşdı. İndi isə bu iki dünya arasındakı əlaqənin nədən ibarət olmasına baxaq

Dünya ilə axirət arasında əlaqə bərqərar olmasında heç bir şəkk-şübhə yoxdur. Onların arasında çox möhkəm bağlılıq və əlaqə vardır. Dünya ilə axirət arasındakı əlaqə bir ömürün iki hissəsi və ilin iki fəsli kimidir. Bir fəsildə əkmək, digər fəsildə isə biçmək lazımdır. Ümumiyyətlə, onlardan biri əkin, digəri isə biçin, biri toxum, digəri isə meyvədir. Axirətdəki cənnət və cəhənnəm burada yaranır. «Təfsirul-mizan» kitabının :١٣-cü cildinin ٢٣-cü səhifəsində nəql edilmiş bir hədisdə belə deyilir

Cənnət hal-hazırda heç bir əkini olmayan boş bir səhradır. Burada deyilən» «Subhənallahi vəlhəmdu-lillahi və la ilahə illəllahu vəllahu əkbər və la hovlə və la .«quvvətə illa billahil əliyyil əzim» zikrləri orada əkilən ağaclardır

Vəsailuş-şiə» kitabının ٢-ci cildinin ١٢٠٨-ci səhifəsində əziz İslam Peyğəmbərindən (s)» :nəql edilmiş digər bir hədisdə belə deyilir

Me’rac gecəsi cənnətə daxil oldum və gördüm ki, mələklər qızıl və gümüş palçıqla» bənnalıq edir, bə’zən isə işdən əl çəkirlər. Onlara dedim ki, nə üçün gah işləyir, gah da

dayanırsınız? Dedilər ki, tikinti mallarının gəlməsini gözləyirik. Soruşdum ki, tikinti ,malları nədir? Onlar dedilər ki

səh:۱۵۵

---

۱- [۶۲] Hicr-۴۷.

۲- [۶۳] Ə’raf-۳۸.

۳- [۶۴] Sad-۶۴.

tikinti malları mö’minin dünyada dediyi «Sübhənallahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər» zikrləridir. Mö’minlər həmin zikrləri deyəndə biz tikir, «.dayananda isə əl saxlayırıq

:Həmin kitabın ١٢٠۶-cı səhifəsində, Peyğəmbərin (s) belə buyurduğu nəql edilib

Allah-taala cənnətdə (mö’minlərin bu dünyada dedikləri) «Sübhanəllah», «Əlhəmdu-» .lillah», «La ilahə illəllah» zikrlərinin hər biri üçün bir ağac əkər

.Qureyş qəbiləsindən olan bir kişi dedi: Onda bizim cənnətdə çoxlu ağaclarımız var

O həzrət buyurdu: Bəli, amma diqqətli olun ki, od göndərərək onları yandırmayasınız. Bunun dəlili Allah-taalanın bu ayəsidir ki, buyurur: «Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi (puça çıxartmayın!»(١)

Yə’ni bu dünyadakı yaxşı işlərinizlə cənnət ağacları yaratdığınız kimi, pis işlərinizlə cəhənnəm odu yaradırsınız və həmin od öz yaxşılıqlarınızla yaratdıqlarınızı məhv edə .bilər

Digər bir hədisdə isə belə buyurub: «Od ağacı yandıraraq külə döndərdiyi kimi, həsəd «.də insanın imanını yandırıb məhv edər

Bütün bunlardan mə’lum olur ki, cəhənnəm də, cənnət kimi boş səhradır. Orada olan .od və əzablar, insanın öz əli ilə yandıraraq göndərdiyi günahların cilvəsidir

Zahid məni aldatma Cəhənnəmdə od olmaz

.Onlar ki, yanarlar, odu burdan apararlar

Təqva və yaxşı işlərdən cənnətin huri, qəsr və əbədi ne’mətləri yarandığı kimi, çirkinlik və murdarlıqlardan da cəhənnəmin ilan, kərtənkələ, qaynar su və zəqqum yeməkləri yaranır. Allah-taala cəhənnəm əhli barəsində belə buyurur: «Bizi aciz buraxacaqlarını (əzabımızdan qaçıb canlarını qurtara biləcəklərini) zənn edərək ayələrimizi (batil (etməyə) cəhd göstərənlər isə şiddətli bir əzaba düçar olacaqlar».(٢)

---

۱- [۶۵] Məhəmməd-۳۳.

۲- [۶۶] Səba-۵.

## ÜÇ NÖV CƏZA

İki dünya arasındakı fərqlər» və «iki dünya arasındakı əlaqə» başlıqlı söhbətlərimiz indi» barəsində danışmaq istədiyimiz məsələ, yə'ni cəzaların növləri barəsindəki söhbətimiz üçün müqəddimə idi. Biz indiki söhbətimizdə axirətdəki cəza növlərinin dünyadakı cəza növlərindən fərqli olmasını sübut etmək istəyirik. Cinayətlə cəza arasında tənasüb .olmaması barəsində edilmiş iradın cavabı bu fərqin başa düşülməsindən asılıdır

:Cəza üç növdür

.(Şərti cəza; (tənbih və ibrət .١

.(Günahla təbii və birbaşa əlaqəsi olan cəza; (dünyadakı cəzalar .٢

.(Cinayətin öz cilvəsi olan və ondan başqa bir şey olmayan cəzalar (axirət əzabları .٣

## TƏNBİH VƏ İBRƏT

Birinci cəza növü insan cəmiyyətlərində ilahi və ya qeyri-ilahi qanunvericilər tərəfindən müəyyənləşdirilmiş cəza qanunlarıdır. Həmin cəza növlərinin iki faydası vardır. Onlardan biri cəzadan yaranan qorxu nəticəsində, həmin cinayətkarların yaramaz işlər törətmələrinin qarşısının alınmasıdır. Buna görə də həmin cəza növlərini tənbih adlandırmaq olar. Onun digər faydası isə, zərər çəkmiş tərəfin sakitləşməsi və təsəlli tapmasıdır. Bu fayda, cinayət başqalarına qarşı törədildikdə və onların haqlarının .pozulduğu təqdirdədir

İnsanda intiqam və ondan yaranan rahatlanma hissi çox güclüdür və həmin hiss deyəsən ibtidai icma quruluşları vaxtı, indikindən də güclü olub. Əgər canini qanun yolu ilə cəzalandırmasaydılar, cəmiyyətdə həddindən artıq çox pozğunçuluq və özbaşınalıq yaranardı. Bu hiss insanda indi də vardır və ən azı mütərəqqi cəmiyyətlərdə bir az zəif və ya gizlidir. Zülmə mə'ruz qalmış insanda, ruhi gərginlik yaranır və əgər onun həmin gərginliyi aradan qaldırılmasa o, bilərəkdən və ya bilmədən bir gün cinayət törədə bilər. Amma cinayətkarı onun gözü qarşısında cəzalandıranda, onun gərginliyi aradan .gedir və ruhu, kin-küdurətlərdən təmizlənir

Cinayətkarların tərbiyə olunmaları və cəmiyyətdə nizam-intizam yaradılması üçün cəza qanunlarının olması lazım və zəruridir və heç bir şey onun yerini tuta bilməz. Bə’zilərinin «cinayətkarı cəzalandırmaq əvəzinə tərbiyə etmək və həbsxana əvəzinə tərbiyə evləri yaratmaq lazımdır» sözləri bir növ «söz oynatmaq» kimidir. Cinayətkarı tərbiyə etmək və tərbiyə evləri yaratmaq şübhəsiz ki, lazımlı və zəruri bir işdir və düzgün

tərbiyənin, cinayətin sayını azaltması qətidir. Unutmaq olmaz ki, cinayətlərin baş verməsinin səbəblərindən biri, ictimai qarışıqlıqlar olduğu kimi, düzgün ictimai, iqtisadi və mədəni sistemlərin yaradılmamasıdır və belə mərkəzlərin yaranması cinayətlərin azalmasında mühüm rola malikdir. Amma bunların heç biri digərinin yerini tutmur. Nə tərbiyə və ədalətli quruluş cəzanın canişini ola bilir və nə də cəza, düzgün tərbiyə və .ictimai quruluşun yerini tuta bilir

Tərbiyə nə qədər düzgün və ictimai quruluş nə qədər ədalətli və sağlam olsa da, yenə azğın və itaətsiz insanlar tapılırlar və onların qarşısının alınmasının yeganə yolu, .bə’zən hətta çox ağır formalı cəzalardır

İmanı gücləndirmək, düzgün tərbiyə üsulu yaratmaq, cəmiyyəti saflaşdırmaq və cinayətin yaranma səbəblərini aradan aparmaqla cinayətlərin sayını çox azaltmaq olar və həmin yollardan istifadə edilməsi zəruridir. Amma inkar etmək lazım deyil ki, cəza da öz yerində lazımdır və başqa şeylərin heç biri, onun göstərdiyi tə’sirə malik deyil. Bəşəriyyət hələ ki, nəsihət vermək, yol göstərmək və digər tə’lim-tərbiyə vasitələri ilə bütün insanları tərbiyə etməyə nail olmayıb və bəlkə heç bundan sonra da olmayacaq və indiki maddi həyat tərzi və mədəniyyətin belə bir iş görəcəyinə, heç vaxt cinayət törədilməycək bir şərait yarada biləcəyinə ümid də yoxdur. Bu günki .mədəniyyət, cinayətləri nəinki azaltmayıb, hətta onları daha da çoxaldıb

Dediyimiz dəlillərə görə, insan cəmiyyətləri üçün şərti cəza qanunlarının zəruri və xeyirli olmasını qəbul etmək lazımdır. Amma əvvəldə qeyd etdiyimiz kimi, cəza qanunlarını müəyyənləşdirənlər, cinayətlə cəza arasındakı uyğunluqlara riayət .etməlidirlər

Amma maraqlı burasıdır ki, axirət dünyasında bu cür qanunların olması ağıla batan deyil. Çünki, orada nə cinayətin təkrarlanması və nə də intiqamdan yaranan rahatlıq hissi məsələsi var və nə də axirət əməl yeri deyil ki, insanı cəzalandırmaq onun ikinci dəfə həmin çirkin əmələ mürtəkib olmaması məqsədi daşısın. Həmçinin Allah-taalada intiqam və ondan yaranan rahatlıq hissi yoxdur ki, O, ürəyini soyutmaq üçün intiqam alsın. Orada məzlumların, xüsusilə Allah övliyaları və geniş ilahi rəhmət təzahürlərindən zülmə mə’ruz qalanların ürəklərini soyutmaq məsələsi də mövcud

,deyil. Mə’lumdur ki, Allah övliyalarından olmayan şəxs üçün belə

həmin dünyada bir az xeyir, rəhmət və bağışlanma əldə etmək, düşməndən intiqam .almaqdan daha üstündür

Bundan əlavə bütün əzablar insanların hüquqlarına aid olmadığı üçün, ilahi ədalətin, məzlumların zalımlardan intiqam almaqla razı salınmasını tələb etməsini demək olmaz. Əzabların mühüm bir hissəsi şirk, riya, Allaha ibadətin tərk edilməsi kimi insanların haqqı deyil, Allahın haqqı ilə bağlı məsələlərdə olacaq. Belə olan şəraitdə, .dünya cəzalarında dediyimiz iki tə’sir və xüsusiyyətin heç biri mövcud olmur

## DÜNYA CƏZALARI

Cəzaların ikinci növü cinayətlə səbəb-nəticə əlaqəsinə malik olan cəzalardır. Yə’ni həmin cəza görülmüş cinayətin nəticə və təbii məhsuludur. Bu cəzaları «əməlin cəzaları» və ya «günahın vəz’i əsəri» adlandırırlar. Günahların çoxu, bu dünyada ona mürtəkib olana xoşagəlməz vəz’i tə’sirlər göstərir. Məsələn, şərab içmək ictimai ziyanlara səbəb olmasından əlavə, şərab içənin ruhi və cismi vəziyyətinə bir sıra zərərlər də gətirir. Şərab içmək sinirlərin pozulması, qanın laxtalanması və qara ciyər xəstəliklərinin yaranmasına səbəb olur. Fahişəlik bir çox cinsi və infeksiya xəstəlikləri .yaradır

Bunlar günahın zati tə’sirləridir və qanuni cəzalar olmadıqları üçün cinayətlə cəza arasında tənasübün riayət edilməsi məsələsi burada irəli sürülə bilməz. Nəsihət verənin sözlərinə qulaq asmayan və öldürücü zəhəri başına çəkən şəxs mütləq öləcəkdir. Həmin ölüm zəhər içməyin təbii nəticəsi və vəz’i tə’siridir. İndi burada kiminsə «bu yazıq yalnız beş dəqiqə günah iş gördü, nə üçün ölümə düçar oldu və varlığını əldən verdi?» deməsi səhv bir işdir. Əgər birinə «özünü dağdan atsan öləcəksən» desələr, onun «mənim özbaşınalığımla bu ağır cəza arasında nə tənasüb və uyğunluq var?» deyib e’tiraz etmək haqqı yoxdur. Burada, məsələ səbəb-nəticə qanunu məsələsidir. Özünü dağdan atmaq və ya zəhər içmək səbəb, ölmək və məhv olmaq isə onun nəticəsidir. Həmin səbəblərin nəticəsi budur və bundan başqa cür ola .da bilməz

Cinayətlə cəzanın tənasüblüyü məsələsi, əlaqələri zati və gerçək olmayan şərti cəzalara aiddir. Amma təbii cəzalar əməlin nəticəsi və ayrılmaz hissəsidir və bu kitabın

ikinci fəslində dediymiz kimi, dünyanın səbəb-nəticə qanununda hər bir şeyin öz yeri .var və həqiqi səbəbin həqiqi nəticəyə səbəb olmaması qətiyyən mümkün deyil

Dünya ilə axirətin fərqlərindən danışarkən dedik ki, dünya əkin, axirət isə biçim mövsümüdür. Amma bə'zi əməllər öz nəticələrini elə bu dünyada

göstərirlər, necə deyərlər, biçin elə burada olur. Əlbəttə bu, yə’ni əməlin nəticəsinin burada alınması və biçinin burada olması, ilahi cəzanın bir növüdür. Amma bu kamil cəza deyil. Dəqiq hesab və tam cəza axirətdə olacaq. Dünya əməl evidir və onda bə’zən cəza da görünür. Amma axirət yüz faiz cəza və hesab evidir və orada əmələ .heç bir imkan yoxdur

Allahın yaratdıqları məxluqlarla bağlı işlər – istər xalqa xidmət olsun, istərsə də pislik — adətən onun axirət cəza və mükafatından heç bir şey əskilmədən bu dünyada cəza və .mükafatlandırılır

Valideynə pislik bu dünyada cəzalandırılır, xüsusilə əgər həmin pislik valideyni öldürmək olsa. Hətta insanın ata və anası fasiq və kafir olsalar belə, onlara qarşı .edilmiş pislik nəticəsiz qalmır

Abbasi xəlifələrindən olmuş Müntəsir atası Mütəvəkkili öldürdü və qısa bir müddətdən sonra özü də öldürüldü. Halbuki Mütəvəkkil çox xəbis və alçaq bir adam idi. Mütəvəkkil özünün şənlik məclislərində Əmirəl-mö’minin Əli əleyhissəlamı məsxərə edirmiş. Onun təlxəkləri özlərini o həzrətin şəklinə salır və onu yamsılayaraq məsxərə edirmişlər və öz şe’rlərində Əli əleyhissəlama qarşı nalayiq sözlər işlədirmişlər. Müntəsir atasının Həzrət Zəhranı (s.ə.) söyməsini eşidir və böyük şəxsiyyətlərin birindən, onun cəzasının nə olmasını soruşur. Həmin şəxs deyir ki, onun cəzası öldürməkdir, amma bil ki, atasını öldürənin ömrü qısalar. Müntəsir deyir ki, mən Allahın itaətində ömrümün qısalmasından qoxmuram. O, atasını öldürür və ondan sonra yeddi aydan çox (yaşamır.(١)

Əli əleyhissəlam xalqa yaxşılıq və xidmət etməyin bu dünyadakı əksül-əməli barəsində :belə buyurub

Birinə yaxşılıq etdikdən sonra onun sənə təşəkkür etməməsi və ya nankorluq etməsi,» səni yaxşı işlər görməkdən soyutmasın. Sən öz mükafatını, həmin şəxsdən almaq istədiyindən də çox miqdarda, heç bir yaxşılıq etmədiyin digər birisindən alacaqsan. Hər halda dünya sənin mükafatını qaytaracaq, hətta sən heç vaxt gözləmədiyin «!yerdən olsa belə

:Mövləvi əməl və əksül-əməl barəsində belə deyir

Məzmunu belədir: Bu dünya dağ, əməllərimiz isə nidadır; dağdan bizə tərəf səs .qayıdıb gələr

:Başqası isə dünyanın cəza və mükafatları barəsində belə deyib

Məzmunu belədir: Mən öz gözümlə gördüm ki, bir keçiddə bir quş qarışqanın canını aldı; amma o, başını ovdan qaldırmamışdı ki, başqa bir



---

.Səfinətul-bihar ۱۰-cu cild səh ۲۹۶ [۶۷] -۱

quş gəlib onun işini bitirdi; pislik edəndə onun afətindən amanda olmağını güman .etmə ki, təbiətə cəza vermək vacib edilib

Əlbəttə, bir nəfər və ya qrupa zərər və ziyan dəyəndə, belə fikirləşməməliyik ki, həmin zərər-ziyan, mütləq onların əməllərinin cəzasıdır. Çünki bu dünya müsibətlərinin digər fəlsəfələri də vardır. Hər halda, bizim fikrimizcə bu dünyada əməlin cəzası məsələsi .mövcuddur

## AXİRƏT ƏZABI

Axirət dünyasının cəzalarının günahlarla daha sıx təkvini əlaqəsi vardır. Axirətdə əməllə cəza arasındakı əlaqə, nə birinci növ cəzalar kimi şərti və nə də ikinci növ cəzalar kimi səbəb-nəticə əlaqəsidir, əksinə bu əlaqə onlardan da bir dərəcə artıqdır. Burada «eynilik» və «birlik» əlaqəsi hakimdir. Belə ki, axirətdə yaxşı və ya pis iş görənlərə .mükafat və ya cəza şəklində verilən əvəzlər, əməlin özünün cilvəsi və təzahürüdür

Qur’ani-kərim belə buyurur: «O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri, qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını (arzulayacaqdır...»(١

Digər bir yerdə isə belə buyurur: «...Onlar (dünyada) etdikləri bütün əməllərin (öz (qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz...»(٢

:Zilzal surəsinin ۶-٨-ci ayələrində isə belə buyurur

O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbrlərindən məhşərə) dəstə-» ...!dəstə çıxacaqlar

.Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə onun xeyrini görəcəkdir

«.Kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir

:Bə’zi təfsirçilərin son nazil olmuş ayə saydıqları aşağıdakı ayədə isə belə buyurur

Allaha tərəf qayıdacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi» (veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır.»(٣

:Qur’anın yetim malı yemək barəsindəki tə’biri isə belədir

səh:۱۶۱

---

۱- [۶۸] Ali İmran-۳۰.

۲- [۶۹] Kəhf-۴۹.

۳- [۷۰] Bəqərə-۲۸۱.

Həqiqətən yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda»
(çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər.»(١)

Yə’ni yetim malı yemək eyni ilə od və atəş yeməkdir. Amma onlar bu dünyada olduqları üçün, bunu başa düşmürlər, bədən pərdəsi aradan götürüldükdən və bu .dünyadan çıxan kimi od tutub yanacaqlar

:Qur’ani-kərim iman əhlinə belə xəbərdarlıq edir

Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə (axirət üçün»
(özünə nə hazırladığına) nəzər salsın. Allahdan qorxun...!»(٢)

Bu, çox maraqlı qətiyyət və aydın tonla deyilmiş hökmdür. Ayə əmr formasında, hamının sabah üçün nə göndərdiyinə baxmasının zəruriliyini bildirir. Burada əvvəlcədən bir şey göndərməkdən söz gedir. Yə’ni siz orada eyni ilə indi .göndərdiklərinizə malik olacaqsınız. Buna görə də nə göndərdiyinizə yaxşı baxın

Bu, səfərdən bir şey alaraq özündən qabaq vətənə göndərməyə bənzəyir. Həmin şəxs çox diqqətli olmalıdır. Çünki, səfərdən qayıdıb vətənə çatdıqdan sonra göndərdiyi poçt bağlamalarında özü göndərdiyi şeyləri görəcək. Onun oradan bir şey göndərməsi, .vətənə qayıtdıqdan sonra isə başqa bir şeylə rastlaşması mümkün deyil

Bu ayədə «Allahdan qorxun» ifadəsi iki dəfə təkrarlanıb və onların arasında yalnız kiçik bir cümlə vardır və o, «hər kəs sabah üçün nə etdiyinə (axirət üçün özünə nə hazırladığına) nəzər salsın» sözləridir. Bəlkə də Qur’anda bunun bənzəri və belə qısa .fasilə ilə iki dəfə təqvaya əmr edən ikinci bir ayə yoxdur

:Qur’anda yenə belə buyurulur

;Günəş (əmmamə kimi sarınıb) sönəcəyi zaman»

;Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman

;Dağlar yerindən qopardılacağı (toz kimi havada uçacağı) zaman

;Bədəvi ərəblərin çox əziz tutduğu) boğaz dəvələr başlı-başına buraxılacağı zaman)

;Vəhşi heyvanlar (bir-birindən qisas almaq üçün) bir yerə toplanacağı zaman



---

.Nisa-۱۰ [۷۱] -۱

.Həşr-۱۸ [۷۲] -۲

;Dənizlər od tutub yanacağı (və ya dolub daşacağı) zaman

;Ruhlar (bədənlərə) qovuşacağı zaman

:Diri-diri torpağa gömülən qız soruşulacağı zaman

;O, hansı günaha görə öldürüldü –deyə

;Əməl dəftərləri açılacağı zaman

;Göy (yerindən) qopardılacağı (və ya büküləcəyi) zaman

;Cəhənnəm alovlandırılacağı zaman

;Və Cənnət (mö'minlərə) yaxınlaşacağı zaman

(Hər kəs (dünyada bu günkü günə özü üçün yaxşı, pis) nə hazır etdiyini biləcəkdir!»(١)

Yə'ni, o dünyada insana cənnət ne'mətləri və ya cəhənnəm əzabından çatacaq hər bir şey, onun özünün hazırladığı şeydir, yalnız bu fərqlə ki, o, burda onları tanımır, orada isə tanıyacaqdır. Qur'anın bir çox ayələrinin belə bir məzmunu var: Allah qiyamət günü, sizə nə etdiklərinizi xəbər verəcəkdir. Yə'ni siz indi nə etdiyinizi bilmirsiniz, qiyamət .günü öz işlərinizdən xəbərdar olacaq və öz əməllərinizi tanıyacaqsınız

Ya Peyğəmbər!) De ki: (Qorxub) qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz )» gizlini də, aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə (dünyada) nələr (etdiyinizi (bir-bir) xəbər verəcəkdir.»(٢)

Axirətin cəzaları əməlin təzahürüdür. Oranın ne'mət və əzabları həmin yaxşı və pis əməllərdir ki, pərdə kənara çəkiləndən sonra, həmin formalarda cilvələnirlər. Qur'an oxumaq gözəl bir səs olacaq və insanın kənarında dayanacaqdır. Qeybət və .başqalarını incitmək cəhənnəm itlərinin yeməyi formasında olacaqdır

Başqa sözlə desək, bizim əməllərimizin bir müvəqqəti və fani olan və bu dünyada söz və ya əməl şəklində zahir olan mülki surəti, bir də bizdən baş verdikdən sonra heç vaxt fani olmayan, bizim ayrılmaz ardıcıl, davamçı və övladlarımızdan sayılan mələkuti

(mələikə və ruh aləminə mənsub) forması vardır. Bizim əməllərimizin mələkuti forması həmişə qalır. Biz bir gün onlara çatacaq və onları həmin formada müşahidə edəcəyik. Gözəl və ürəkaçan olsalar, bizim ne’mətlərimiz, çirkin və iyrənc olsalar isə, bizim .cəhənnəm odumuz olacaqlar



---

.Təkvir, ۱-۱۴ [۷۳] -۱

.Cümə-۸ [۷۴] -۲

Hədisdə nəql edilib ki, bir qadın Peyğəmbərdən məsələ soruşmaq üçün o həzrətin yanına gəlibmiş. Həmin qadının boyu qısa imiş. O, gedəndən sonra Ayişə əli ilə onun qısa boyluğunu yamsılayır. Peyğəmbər (s) ona belə buyurur: Dişlərini təmizlə! Ayişə deyir: Ey Allahın Peyğəmbəri, mən ki, bir şey yeməmişəm?! Həzrət bir də onun dişlərini təmizləməsini istəyir. Ayişə dişlərini təmizləyir və ağzından bir parça ət düşür.

Peyğəmbər (s), ilahi qüdrətlə qeybətin həmin dünyadakı mələkuti və qeybi mahiyyətini Ayişəyə göstərir.

Qur'ani-kərim qeybət barəsində belə buyurur:

«...Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)...»(١)

Peyğəmbərin (s) səhabələrindən olmuş Qeys ibni Asim nəql edib ki, bir gün Bəni-təmim qəbiləsindən olan bir dəstə adamla Peğəmbərin (s) yanına getmişdik. Mən o həzrətə dedim: Ey Allahın peyğəmbəri, biz səhrada yaşayırıq və sənin hüzurundan az bəhrələnirik, bizi moizə və nəsihət et.

Peyğəmbər (s) çox faydalı nəsihətlər verdi, o cümlədən belə buyurdu:

«Sənin, səndən heç vaxt ayrılmayacaq bir yoldaşın olacaq və o, səninlə birlikdə dəfn ediləcək, sən ölü, o isə diri olacaq. Əgər sənin yoldaşın şərəfli olsa səni əzizləyəcək, yaramaz olsa isə səni hadisələrin öhdəsinə buraxacaq. Sonra həmin yoldaşın səninlə məhşərə gələcək və qiyamətdə səninlə birgə olacaq və sən onun üçün məs'uliyyət daşıyacaqsan. Bəs seçdiyin yoldaşın yaxşı olmasına diqqət et. Çünki o, yaxşı olsa sənin ünsiyyət vasitən olacaq, belə olmasa (pis olsa isə) sənin vəhşətinə səbəb olacaq. Həmin yoldaşın sənin rəftarındır».

Qeys ibni Asim, Peyğəmbərə (s) deyir ki, istəyirəm sizin nəsihətləriniz şe'r formasına salınsın və biz onu əzbərləyək və onunla fəxr edək. Peyğəmbər (s) Həssan ibni Sabitin dalınca adam göndərir. Amma Həssan gəlməmiş, o həzrətin sözlərindən vəcdə gəlmiş Qeys, Peğəmbərin sözlərini nəzmə çəkir və o həzrətə təqdim edir.

Məzmunu: «Öz əllərinlə özünə bir dost seç ki, insanın qəbirdə (bərzəxdə) dostu onun

əməlləridir; sən qiyamət günü üçün dost seçib hazırlamaq məcburiyyətindəsən; əgər başın bir şeyə qarışsa, diqqətli ol ki, o, Allahın bəyəndiyi şeydən başqa bir şey olmasın; çünki insan ölümdən sonra öz



---

.Hucurat-۱۲ [۷۵] -۱

əməlindən başqa heç bir şeylə yoldaş olmur; həqiqətən insan öz ailəsində qonaqdan başqa bir şey deyil, bir az orada qalır və sonra köçüb gedir».

Digər bir hədisdə deyilir: «Bu əzablar sizin özünüzə qaytarılan əməllərinizdir».

Afərin Sə’di, bu şe’ri çox gözəl deyib:

Ömürdən gedir hər keçən nəfəs

Baxıram ətrafa qalmamış bir kəs.

Ey yatan əlli il qəflətdə bütün

Qoyma ki, boş keçsin bu qalan beş gün.

Utansın o kəs ki, ömrü puç etdi

Dünyadan köçəndə xəcalət getdi.

Köç vaxtı səhərin şirin yuxusu

Qoyar piyadəni yoldan doğrusu.

Hər gələn dünyada bir bina saldı

O getdi mənzili özgəyə qaldı.

Çoxları dünyaya göstərmiş həvəs

Tikdiyi mənzildə qalmamış bir kəs.

İndi ki, öləcək pis də yaxşı da

Xoş ona ki, çatdı yaxşı bir ada.

Bir yarpaq göndər öz qəbrinə bu gün

Ki sonra göndərmək deyildir mümkün.

Sütülkən kim yesə əkinin hər il

.Başşaq toplayacaq xərmən üstü bil

Ey pulsuz bazara gedən sərsəri

.Qorxuram əli boş dönəsən geri

## USTADIN XATİRƏSİ

Ömrümdə gördüyüm ən böyük şəxsiyyətlərdən, doğrudan da pərhizkarlıq, ibadət və yəqin əhllərinin simvolu və keçmiş alimlərin saleh davamçısı olmuş ustadım mərhum Hacı Mirzə Əliağa Şirazidən bir yuxu xatirəm var ki, məncə onu nəql etmək faydasız .olmaz

ci ilin (١٩۴٢-ci il) yayında Qumdan İsfahana getdim və onunla birinci dəfə-١٣٢١ İsfahanda tanış oldum. Əlbəttə, bu tanışlıq sonralar mənim ona qarşı çox güclü məhəbbətimə və onun mənə qarşı ustad və atalıq lütf və mərhəmətinə çevrildi. Bir gün o, ziyarət üçün Quma gəlmişdi. Həmin

müddətdə ustad bizim otağımızda qalırdı və onu sevən böyük alimlərin hamısı onunla .orada görüşürdülər

Mən ilk dəfə İsfahana gedəndə həmin şəhərdən olan, düz iyirmi il bir yerdə dərs oxuduğum və indi Qum dini mədrəsələrinin böyük müəllim və müctəhidlərindən olan əziz dostum mənə dedi ki, Sədrəddin mədrəsəsində böyük bir alim var və Nəhcül-bəlağədən dərs deyir, gəl onun dərsinə gedək. Bu təklif mənim üçün ağır idi. Çünki, fikirləşirdim ki, «Kifayətul-üsul» oxuyan tələbənin Nəhcül-bəlağə dərsinə getməyə nə ehtiyacı var?! Nəhcül-bəlağəni özüm oxuyub «bəraət və istishab» qanunları ilə .məsələlərimi həll edərəm

Yay tə’tili günlərində heç bir işimizin olmadığından və həmçinin bu təklifi əziz dərs yoldaşım verdiyi üçün oraya getdim və tezliklə öz səhvimi başa düşdüm. Başa düşdüm ki, mən Nəhcül-bəlağəni başa düşməmişəm və indi nəinki onu ustadla oxumağa ehtiyacım var, hətta onu dərs vermək üçün düz-əməlli bir ustadın olmamasını da e’tiraf etməliyəm. Bundan əlavə gördüm ki, təqva və mə’nəviyyat əhli olan elə bir şəxsiyyətin qarşısındayam ki, biz dini tələbələrin dili ilə desək, «onu görmək üçün uzaq .yollardan səfər etməyə dəyən» adamlardandır

Onun özü, canlı bir Nəhcül-bəlağə idi. Nəhcül-bəlağənin nəsihətləri ruhunun dərinliklərinə işləmişdi. Mən həmin şəxsin Əmirəl-mö’minin əleyhissəlamın ruhu ilə bağlı olduğunu hiss edirdim. Mən doğrudan da, həmişə hesablayanda, özümün ən böyük ruhi azuqəmin həmin şəxsin söhbətindən olmasını görürəm. Allah ondan razı .olsun və onu pak imamalar və övliyaları ilə məhşur etsin

Mənim həmin şəxsdən böyük xatirələrim var və onlardan biri, indi nəql etmək istədiyim yuxudur. O, bir gün dərs əsnasında göz yaşları ağ saqqalına süzüldüyü halda .bu yuxunu nəql etdi

Yuxuda gördüm ki, ölümüm çatıb. Mən yuxuda ölümü bizə deyilən kimi gördüm.» Özümü bədənimdən ayrı görür və bədənimin qəbristanlıqda dəfn edilməsini müşahidə edirdim. Məni qəbristanlığa apararaq dəfn edib getdilər. Tək qaldım və nə olacağından nigaran idim. Birdən, bir ağ itin qəbirə daxil olduğunu gördüm. Həmin vaxt bu itin mənim kobudluğumun təzahürü olmasını və indi mənim yanıma gəlməsini hiss etdim.

Nigaran oldum. Özümü itirmişdim və nə etmək lazım olduğunu bilmirdim, elə bu zaman həzrət imam Hüseyn (ə) gəldi və mənə dedi ki, qorxma, mən onu səndən ayıraram.»(Mərhum Hacı Mirzə Əliağa Peyğəmbər (s) və onun pak Əhli-beytinə (ə) çox bağlı olub. Böyük müctəhid, filosof, ədəbiyyatşünas, arif və təbiblərdən sayılan bu böyük insan hətta, qədim tibb və ədəbiyyat

kimi bə’zi sahələrdə birincilərdən sayılıb və İbni Sinanın «Qanun» kitabını tədris edib. O, həmçinin imam Hüseyn (ə) yolunun xidmətçilərindən idi. Minbərə gedər, moizə edər və dini müsibətlər oxuyardı. Çox az adam tapılardı ki, bu təqvalı və saf şəxsiyyətin minbərinə qulaq assın, amma batinən özündə bir dəyişiklik hiss etməsin. O, minbərdə moizə edəndə, Allah və qiyamətdən danışanda mə’nəvi və ruhi dəyişiklik halında olar, Allah, Peyğəmbər və Əhli-beyt məhəbbəti, onu özünə tərəf çəkərdi. Allahı zikr etməklə halı dəyişərdi. O, Allah-taalanın bu ayəsinin nümunəsi idi: «Mö’minlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər.»(١) Peyğəmbər (s) və ya Əmirəl-mö’mininin (ə) adını çəkəndə göz yaşı tökərdi. Bir dəfə Ayətullah Bürucirdi, onu Aşura ongünlüyündə keçirdiyi məclisdə söhbət etməyə də’vət etmişdi. Onun minbərləri xüsusi tərzdə keçərdi. Adətən, Nəhcül-bəlağədən kənara çıxmazdı. O, Ayətullahın evində minbərə gedərdi və iştirakçılarının əksəriyyəti elm əhli və tələbələr olan məclis, onun söhbətlərindən çox tə’sirlənərdi. Belə ki, o, söhbətə başlayandan qurtarana kimi (.məclisdə göz yaşı və hıçqırtı səslərindən başqa bir şey müşahidə edilməzdi

Həmin yuxu məsələsində, şəfaət barəsində nöqtələr var ki, Allahın köməyi ilə gələn .fəsildə ona toxunacağıq

## Nəticə

Günahla cəzanın tənasübü barəsindəki iradın cavabını belə xülasə etmək olar ki, tənasübün riayət edilməsi, ictimai və şərti cəzalarda mə’na verir. Qanunverici bu növ cəzalarda cinayətlə cəzanın mütənasib olmasını nəzərə almalıdır. Amma əməllə təkvini əlaqə və bağlılığı olan cəzalarda, yə’ni cəzanın əməlin həqiqi nəticə və əsəri olan yerlərdə və ya günahla eynilik və vəhdəti olan cəzalarda, yə’ni cəza, əməlin özü .olanda, tənasübün olub-olmaması barəsində danışmaq mümkün deyil

Necə ola bilər ki, Allah bizə çox kiçik günahlara görə böyük cəzalar versin?» deyən» Rassel, axirətin dünya ilə olan əlaqəsinin şərti və ictimai əlaqələr növündən .olmamasını dərk etməyib

Rassel kimilər İslam maarifi və həqiqətlərindən uzaq və xəbərsizdirlər. Onlar hətta

ilahi maarifin əlifbası ilə belə tanış deyildirlər. Rassel kimilər



---

.Ənfal-۲ [۷۶] -۱

yalnız xristian dünyası ilə tanışdırlar. Onlar İslamın fəlsəfə, irfan və digər dərin maarifindən azacıq da olsa, agahlığa malik deyildirlər. Rassel, İslam maarifi ilə azacıq tanışlığı olanların gözündə, İslam və şərq fəlsəfəsi sahəsində orta məktəb şagirdi .qədər də saya gəlmir

İslam, öz qoynunda çox böyük şəxsiyyətlər — bu dünyada olduqları halda axirətlə tanış olan və Rassellərin təsəvvürlərindən çox yüksək həqiqətləri duyan insanlar .yetişdirib

Qur’an məktəbinin şagirdləri, axirət dünyasının cəzalarının bu dünyada olan əməllərlə eyni olması həqiqətini və həmin cəzanın dünya əməllərindən başqa bir şey olmamasını çox yaxşı öyrəniblər. Mövləvinin bu həqiqəti bəyan edən şe’rləri var. Bizim özümüzün .moizə edilməyimiz baxımından, həmin şe’rləri nəql etmək yaxşı olar

:Mövləvi belə deyir

Məzmunu: Ey Yusifin kürkünü yırtan; canavarlar bir-bir sənin xasiyyətin olublar və qüssədən sənin bədən üzvlərini yırtırlar; toxuduğunu həmin gün geyin və əkdiyini həmin gün ye; əgər tikanlardan yorulmusansa onları özün əkmisən və əgər ipəyin varsa onu özün toxumusan; əgər səndən məzluma zərər toxunubsa o, cəhənnəmin zəqqum ağacına dönəcək; ilan zəhəri kimi acı olan bu sözlərin ilan və kərtənkələ olub .ətəyindən yapışacaq

Qur’ana, bu şagirdlərinə görə eşq olsun! Əgər Qur’an olmasaydı Mövləvi, Hafiz, Sənai, Əttar, Sə’di və başqaları da olmazdılar. İranlıların iste’dadları, İslam nuru ilə parladı və İslam maarifini, bütün xalqlardan daha yaxşı dərk etmək fəxri, İran xalqları üçün .bəsdir. Söhbətimi Sə’dinin bu barədəki nəsihətləri ilə sona çatdırıram

Məzmunu: Əkdiyimiz bu tikandan xurma yemək olmaz; əyirdiyimiz bu yundan ipək toxumaq olmaz; günah lövhəsinə üzürxahlıq xətti çəkmədik; böyük günahların kənarına yaxşı işlər yazmadıq; qocalıq və gənclik gecə-gündüz kimi keçdi; gecə oldu, gündüz gəldi biz ayılmadıq; bizim qiyamətdə arxa və pənahımızın olacağı təəccüblü olar, çünki biz bu gün heç kəsə arxa-pənah olmamışıq; əgər qiyamət günü Xacə .şəfaət etməsə bəlkə, çirkin olduğumuza görə daraqçıdan incimərik

## YEDDİNCİ FƏSİL: ŞƏFAƏT

### İŞARƏ

;İrad .۱

səh:۱۶۹

۲. Qanunun zəifliyi;

۳. Şəfaətin növləri;

۴. Qanunu pozmaq;

۵. Qanunu qorumaq;

۶. Rəhbərlik şəfaəti;

۷. Bağışlanma şəfaəti;

۸. Rəhmətin cazibəsi;

۹. Paklıq prinsipi;

۱۰. Sağlamlıq prinsipi;

۱۱. Ümumi rəhmət;

۱۲. Bağışlamaqla şəfaətin əlaqəsi;

۱۳. Şəfaətin şərti;

۱۴. Şəfaət Allaha məxsusdur;

۱۵. Tövhid və təvəssül (sığınmaq);

۱۶. İradlara cavab.

səh:۱۷۰

İlahi ədalət mövzusunda, barəsində danışılmalı və araşdırılmalı məsələlərdən biri də «şəfaət» bəhsidir. Şəfaət barəsində bir sıra söz-söhbətlər var və bunlar, Vəhhabi təriqəti meydana çıxdıqdan sonra daha da qızışıb. Vəhhabi təriqəti Məhəmmədibni Əbdülvəhhaba məxsusdur və hal-hazırda Səudiyyə Ərəbistanının rəsmi təriqəti sayılır. Bu təriqət çox səthi və ibtidai səviyyədə, ibadətdə tövhiddən dəm vurur və ona görə də, İslamın dəqiq və ali maariflərinin çoxunu inkar edir. Onların, tərəfdarı olduqları .tövhid, İslam əsaslarının çoxuna zidd olan Əş’əri tövhidi kimidir

## İRAD

Şəfaət barəsində deyilmiş və ya deyilməsi mümkün olan iradlar aşağıdakılardan :ibarətdir

Şəfaət, ibadətdə tövhid məsələsinə ziddir və ona inam bəsləmək bir növ şirk hesab .١ olunur. Əvvəldə qeyd etdik ki, bu, vəhhabilər tərəfindən irəli sürülən iraddır və şiələrin içərisində də onların fitnələrinə uyan bə’zi şəxslərlə rastlaşmaq olur. (Çox maraqlıdır! Aralarında az-çox Nəhcül-bəlağədən danışılan, içərilərindən tövhid məsələlərini çox ali şəkildə araşdıran İbni Sina, Xacə Nəsrəddin Tusi və Molla Sədra kimi filosoflar çıxmış İran xalqlarının bə’zi nümayəndələri tövhid dərslərini İbni Teymiyyə və (!?Əbdülvəhhabdan öyrənmək istəyirlər

Şəfaət təkcə ibadətdə tövhidlə deyil, hətta zati tövhidlə də ziddir. Çünki şəfaətə inam .٢ bəslənilməsi, şəfaət edənin rəhmət və şəfqətinin Allahın rəhmətindən geniş və çox hesab edilməsini tələb edir, ona görə ki, biz şəfaət edilməyəcəyi təqdirdə, Allahın .şəfaət edilən şəxsə əzab verəcəyini fərz edirik

Şəfaətə inam, günaha meyilli insanların günah etməyə cür’ətlənmələri və hətta .٣ .onların günah etməyə təşviq edilmələrinə səbəb olur

Qurani-kərim şəfaəti rədd edərək onun olması fikrini puça çıxarıb. Bu ilahi kitab .٤ qiyamət gününü belə təsvir edir: «Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin (heç kəs heç kəsə öz əməlindən bir şey verə bilməsin), heç kəsdən şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanması barəsində xahiş-iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının

təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara

səh:۱۷۱

günahkarlara) heç bir kömək göstərilə bilməsin!»(۱) (Bu surənin ۱۲۳-cü ayəsinin) (.məzmunu da bu ayə kimidir

Şəfaət, Qur'anın «İnsana ancaq öz əməli, öz zəhməti qalar» buyuruğu və eləcə də .۵ .«hər bir kəsin xoşbəxtliyi onun öz əməlindən asılıdır» prinsipi ilə ziddir

Şəfaətin düzlüyünə inanmaq bizim, Allahın şəfaət edənin tə'siri altına düşməsinə və .۶ bununla da onun qəzəbinin rəhmətə çevrilməsinə inanmağımızı tələb edir, halbuki, Allah-taala tə'sir qəbul edən deyil. Onun halı dəyişməzdir və heç bir amil ona tə'sir .göstərə bilməz. Dəyişkənlik ilahi zatın vacibliyinə ziddir

Şəfaət bir növ istisna qail olmaq, ayrı-seçkilik salmaq və ədalətsizlikdir, halbuki, .۷ Allahın yaratdığı quruluşda ədalətsizlik ola bilməz. Başqa sözlə desək, şəfaət Allah qanununda istisnadır, halbuki Onun qanunları ümumi, dəyişməz və istisnasızdır. «Sən .«Allahın qoyduğu qayda-qanunlarda əsla dəyişiklik görməzsən

Şəfaət məsələsi ilə ilahi ədalət arasında əlaqə yaradan bu iradlardır və həmin bəhsin .bu kitabda irəli sürülməsinin səbəbi də odur

İradın izahında bunu da demək lazımdır ki, şəfaətin bütün günahkarlar barəsində həyata keçməyəcəyi qətidir. Çünki, belə olmayan surətdə nə qanunun və nə də şəfaətin heç bir mə'nası olmaz. Şəfaətin təbiətində ayrı-seçkilik və istisnalar var. İrad da elə həmin nöqtədən yaranır ki, günahkarların iki qrupa bölünmələri və bir qrupun tanışı olduğu üçün cəzalanmaqdan canlarını qurtarmaları, digər qrupun isə tanışı ?olmadığı üçün cəza alması necə mümkündür

Biz, qanunun tanışlıq və qohumbazlıqlar əlində giriftar olduğu insan cəmiyyətlərini fasid, geridə qalmış və ədalətsiz hesab edirik. İndi, ilahi quruluşda tanışbazlığın .olmasına necə inana bilərik? Şəfaət olan cəmiyyətdə ədalət yoxdur

**QANUNUN ZƏİFLİYİ**

Pul, tanış və gücün hər hansı bir cəmiyyətə tə'sir göstərə bilməsi, orada olan qanunun zəiflik və acizliyinin nişanəsidir. Qanun zəif olan cəmiyyətlərdə ədalətsizlik yaranır, güclülər ondan daha çox faydalana bilir və o, öz qüdrətini yalnız zəiflərə göstərir. Zəif

qanun, zəif sinifləri tələyə



---

۱- [۷۷]Bəqərə-۴۸.

daha yaxşı salır və cəza kürsüsündə oturdur. Amma o, güclüləri mühakimə etməkdə .aciz qalır

Qur'an, ilahi qanunları güclü və möhkəm qanunlar kimi təqdim edərək, ilahi mühakimədə pul, tanış və güc amillərinin tə'sir göstərə bilməsini rədd edir. Qur'anda pul «ədl», (ya kökü «udul»dan - bir şeydən dönmək - olan mə'nada işlədilib), çünki, pul rüşvət kimi veriləndə haqq və həqiqətdən dönməyə səbəb olur; yaxud bir şeyin əvəz və bərabəri mə'nasında gətirilən tanış «şəfaət», güc isə «yardım» adlandırılıb. Bəqərə surəsinin ۴۸-ci ayəsində belə oxuyuruq: «Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin (heç kəs heç kəsə öz əməlindən bir şey verə bilməsin), heç kəsdən şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanması barəsində xahiş-iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara (günahkarlara) «!heç bir kömək göstərilə bilməsin

Yə'ni, axirət dünyasının quruluşu ictimai bəşər quruluşları kimi deyildir, ki, bə'zən insan qanundan qaçmaq üçün tanış və ya pula sığınır və bə'zən öz qohum-əqrəbasını .köməyə çağırır və onlar qanunun icraçıları müqabilində güc nümayiş etdirirlər

İslamın ilk vaxtlarında müsəlman cəmiyyətlərində qanun çox güclü idi və cəmiyyət başçılarının ən yaxın adamları belə, ondan yaxa qurtara bilmirdilər. Əli (ə), qızının beytul-maldan zəmanətlə müvəqqəti istifadə üçün bir boyunbağı götürməsini eşitdikdə, onu bərk danlayır və tam ciddiliklə belə deyir: Əgər onu zəmanətlə (.götürməsəydin, əlini kəsərdim. (Yə'ni sənin barəndə oğru hökmünü icra edərdim

O həzrət öz əmisi oğlu və alim dostu İbni Abbasın pis bir iş gördüyünü eşidəndə, məktub yazaraq onu çox kəskin şəkildə təhdid edir. O, həmin məktubunda belə yazır: «Əgər öz pis işindən qayıtmasan, səni qılıncımla ədəbləndirərəm və unutma ki, bu «!qılıncla öldürülənlər cəhənnəmə vasil olurlar

Yə'ni bilirsən ki, mənim qılıncım cəhənnəmə layiq olan şəxslərdən başqa heç kəsin .başına enmir və sənin bu işin səni cəhənnəmlik edər

Sonra öz ədalətinin bütün insanlara bərabər səviyyədə aid olmasını başa salmaq üçün

:belə buyurur

Allaha and olsun ki, əgər Həsən və Hüseyn də bu günaha mürtəkib olsaydılar, onlara» «.güzəşt etməzdim

İslamın ilkin çağlarıdır, qanunun icraçısı da Əli (ə) özüdür. Buna görə də təəccüblənmək lazım deyil. Əgər Peyğəmbərin (s) yaratdığı sistemin nə

qədər inkişaf etdiyini və ədalət məfhumunun kimlərə şamil olmağını bilmək :istəyirsinizsə, aşağıdakı əhvalata diqqət edin

Əmr As, Ömər tərəfindən Misirə hakim tə’yin edilmişdi. Bir gün onun oğlu» müsəlmanlardan birinin üzünə bir sillə vurur. Zülmə mə’ruz qalmış şəxs, Əmr Asın yanına gedərək şikayət edir. Amma o, heç bir tədbir görmür. Həmin qeyrətli şəxs Mədinəyə gəlir və Ömərin yanına gedərək hadisəni ona danışır. Ömər, Əmr As və onun oğlunu çağırtdıraraq mühakimə edir. Həmin mühakimədə Ömərdən tarixi bir cümlə nəql edilib. Ömər, Əmr As və onun oğluna xitab edərək belə deyir: «Nə vaxtdan camaatı özünüzə qul etmisiniz, halbuki onlar anadan azad doğulublar». O, sonra qisas .hökmü verir

Ömər öz oğlu ilə də elə rəftar edib. O, oğlunun şərab içməsi sübuta yetdikdən sonra .ona layiq olduğu cəzanın icra olunmasına əmr edib

Bunlar, Peyğəmbərin (s) müsəlmanlara öyrətdiyi ədalət idi və müsəlmanlar hələ ki, onları yaddan çıxarmamışdılar. Başqa sözlə desək, bunlar Peyğəmbərin işə saldığı və .uzun müddət, az-çox həmin formada hərəkətdə olan mexanizmi idi

## ŞƏFAƏTİN NÖVLƏRİ

Əslində şəfaətin bir neçə növü vardır ki, onların bə’ziləri səhv və ədalətsiz hesab olunur və ilahi sistemdə həmin növ şəfaətlərdən mövcud deyildir. Amma onun bə’zi növləri düzgün və ədalətlidir, onun nümunəsi ilahi sistemdə də mövcuddur. Səhv şəfaət, qanunu pozan və ona zidd olan şeylərdir. Lakin düzgün şəfaət, qanuna müvafiq və onun gücləndiricisidir. Səhv şəfaət tanışlıq yolu ilə qanunun icrasının qarşısını almaqdır. Şəfaət barəsində olan bu cür təsəvvürə əsasən, cinayətkar, qanunverici və qanunun hədəflərinin ziddinə olan bir iş görür və tanışbazlığa sığınmaq yolu ilə qanunvericiliyə və onun hədəflərinin iradəsinə qalib gəlir. Bu növ şəfaət dünyada zülm, axirətdə isə qeyri-mümkündür. Şəfaətə tutulan iradlar, onun bu növü .barəsində düzdür və bu, Qur’anın rədd və inkar etdiyi vasitəçilik növüdür

Düzgün şəfaət, başqa bir növ şəfaətdir və onda nə istisna, nə ayrı-seçkilik və nə də qanun pozuntusu var və o, qanunvericiliyin ziddinə getməsini də tələb etmir. Qur’an,

tam aşkar formada bu növ şəfaəti təsdiqləyib. Düzgün şəfaətin özünün də növləri .vardır ki, biz, tezliklə onları izah edəcəyik

## QANUN POZUNTUSU

Şəfaətin əqli və nəqli (hədislər) dəlillərlə rədd edilən səhv növlərindən biri də günahkarın müəyyən vasitələrlə ilahi hökmün icrasının qarşısını ala bilməsidir. Müasir dövrdə də bir çox geridə qalmış cəmiyyətlərdə cinayətkarlar baş vermiş hadisəni .tanışlıqla ört-basdır edirlər

Avam camaatın çoxu, Peyğəmbər və imamların şəfaətlərini də belə təsəvvür edirlər. Onlar elə fikirləşirlər ki, Peyğəmbər (s), Əli (ə), həzrət Zəhra (s) və pak imamlar, xüsusilə imam Hüseyn (ə) ilahi sistemə nüfuz edə bilən qüvvədir və onlar Allahın .iradəsini dəyişdirərək qanunu pozurlar

Cahillik dövrünün ərəbləri də, Allaha şərik qoşduqları bütlər barəsində belə fikirləşirdilər. Onlar deyirdilər ki, yaradılış, ancaq Allahın əlindədir, bu işdə heç kəs onunla şərik deyil, amma dünyanın idarəçiliyində bütlər onunla şərikdirlər. Onların .əqidələri yaradılışda şirk deyil, rübubiyyətdə (idarəçilikdə) şirk idi

Bildiyimiz kimi, bə’ziləri bir müəssisə yaradır və onun idarəçiliyini başqasına tapşırır və ya həmin müəssisəni başqası ilə birgə idarə edirlər. Müşriklərin Allah, dünya və onun idarə olunması barəsindəki əqidələri də belə idi. Qur’ani-kərim onlarla çox kəskin mübarizə aparıb və dəfələrlə, Allahın nə yaradılışda və nə də rübubiyyətdə şəriki olmamasını e’lan edib. Qur’an bildirir ki, O, təkbaşına, dünyanın həm yaradıcısı və həm .də idarə edənidir. Dünyanın mütləq hakimliyi Ona məxsusdur və O, aləmlərin Rəbbidir

Dünyada tədbir və idarəçiliyin Allahla bir başqası arasında bölünməsini güman edən müşriklər, Allahın razılığını qazanmağı özlərinə elə də lazım bilmir və deyirdilər ki, bütlər qarşısında kəsdiyimiz qurbanlar, həyata keçirdiyimiz ibadətlər digər rəblərin razılığını qazanmağımıza səbəb olur, hərçənd bu, Allahın razılığına zidd bir şey olsa da! Əgər bunların razılıqlarını əldə etsək, onlar Allahın yanında öz işlərini bir cür həll .edəcəklər

Əgər müsəlmanlar arasında da kimsə, Rəbbinin idarəçilik sisteminin kənarında hansısa bir sistemin olmasını və Onun müqabilində iş görə bilməsini fikirləşsə, şirkə düçar olmuş olar. Əgər kimsə Allahın razılığını əldə etməklə, imam Hüseynin (ə)

razılığını əldə etməyi ayrı-ayrı şeylər hesab etsə və ya onların hər birinin ayrı-ayrılıqda insanın səadətini tə’min edə bilmələrini düşünsə, böyük bir səhv və azğınlığa düçar olduğunu bilməlidir. Bu səhv xülyada, Allah-taalanın bir şey, imam Hüseynin (ə) isə ,digər şeylərdən razı qalması, məsələn Allahın namaz, oruc, həcc, cihad

zəkat, düzlük, xalqa xidmət, valideynə yaxşılıq və bu kimi vacibi əməllərin yerinə yetirilməsi və ya yalan, zülm, qeybət, şərab içmək, zina və bu kimi digər günahların tərk edilməsindən, imam Hüseynin (ə) isə digər şeylərdən razı qalması və imamın bu kimi şeylərlə işinin olmaması təsəvvür edilir. Onlar elə fikirləşirlər ki, imam Hüseyn (ə), məsələn cavan oğlu Əli Əkbər üçün göz yaşı tökülməsi və ya qəmlənməkdən razı qalır. Necə deyərlər, imam Hüseynlə (ə) Allahın hesabı bir-birindən ayrıdır. Sonra bu bölmədən belə bir nəticəyə gəlirlər ki, Allahın razılığını əldə etmək çətindir və bunun üçün çoxlu işlər görmək lazımdır, amma imam Hüseynin (ə) razılığını əldə etmək asandır. Bunun üçün ancaq ağlamaq və sinə vurmaq lazımdır. Bəs, imam Hüseynin razılığı qazanıldıqdan sonra o, Allahın ümumi quruluşuna nüfuz edərək şəfaət edəcək və işləri düzəldəcək. Yerinə yetirmədiyimiz namaz, oruc, həcc, cihad və Allah yolunda sədəqə məsələlərinin hamısı düzələcək və bütün günahlar bağışlanaraq aradan .gedəcəkdir

Şəfaət barəsində olan bu təsəvvür, nəinki batil və puçdur, hətta rübubiyyətdə şirkdir və ən böyük iftixarı Allah bəndəçiliyi olan imam Hüseynə (ə) hörmətsizlikdir. Necə ki, onun atası həzrət Əli (ə) ifratçı nəzərlərdən çox qəzəblənir, onların sözlərindən Allaha pənah aparırdı. İmam Hüseyn (ə) Allahın ümumi quruluşu və ya babası Peyğəmbərin şəriəti müqabilində yeni bir sistem yaradaraq Allah qanunundan qaçmaq yolu göstərmək üçün şəhid olmayıb!!! Onun şəhadəti İslamın əməli proqramı və Qur’an qanunlarının zəifləməsi üçün olmayıb. Əksinə, o həzrət namaz, zəkat və İslamın digər .qanunlarının bərpası üçün həyatından keçərək şəhid olmaqla razılaşıb

:O həzrətin özü, qiyamının fəlsəfəsi barəsində belə buyurub

Mən nəfsani istəklər uğrunda və şöhrətpərəstlik üçün qiyam etməmişəm. Mənim» qiyamımın məqsədi babamın ümmətini islah etməkdir. Mən yaxşı işlərə əmr edərək pis «.işlərdən çəkindirmək istəyirəm

:Biz də o həzrətin ziyarətnaməsində belə oxuyuruq

Mən şəhadət verirəm ki, sən namaz qılıb oruc tutmusan, insanları yaxşı işlərə də’vət» edərək pis işlərdən çəkindirmisən və Allah yolunda layiqincə cihad edib Onun kitabına «.və Peyğəmbərinin sünnəsinə əməl etmisən

İndi isə düzgün şəfaətin nədən ibarət olmasına nəzər salaq. Qanunu gücləndirərək onu qoruyan düzgün şəfaət iki cürdür. Qeyd etmək lazımdır ki, həm sünni və həm də :şiə mənbələrində bu şəfaətləri təsdiq edən çoxlu rəvayətlər vardır

;Rəhbərlik və ya əməl şəfaəti .١

.Bağışlanma və ya lütf şəfaəti .٢

Birinci növ şəfaət əzabdan qurtulmaq, ne'mətlərə doğru irəliləmək və məqamı yüksəlməsinə səbəb olan şəfaətdir. İkincisi isə əzabın aradan aparılması, günahların bağışlanması, savab və ne'mətlərə çatılmasına səbəb olan şəfaətdir və bu şəfaət insanın məqamının yüksəltmir. Bu, Peyğəmbərin (s) barəsində «Mən şəfaətimi ümmətimin böyük günahlara mürtəkib olanları üçün saxlamışam, amma yaxşı iş .görənlər məzəmmət edilməyəcəklər» buyurduğu həmin şəfaətdir

## RƏHBƏRLİK ŞƏFAƏTİ

Bu növ şəfaəti izah etmək üçün bundan əvvəlki fəsildə «axirət əzabı» adı ilə bəhs etdiyimiz bölmədəki bir mətləbi xatırlatmaq istəyirəm. Biz həmin söhbətimizdə dedik ki, insanın dünyadakı əməl və rəftarları, o biri dünyada cilvələnərək zühur edir və həmin əməllərin əsl həqiqəti orada canlanır. İndi həmin mətləbə bunu da artırmaq istəyirəm ki, axirətdə təkcə əməllər deyil, «rabitələr» də canlanır. Bu dünyada, insanlar arasında olan mə'nəvi əlaqələr, o biri dünyada özünün həqiqi və mələkuti formasını alır. Bir nəfər başqa birinin yola gəlməsinə səbəb olanda, onlar arasında olan rəhbərlik və tabeçilik əlaqəsi, qiyamətdə həqiqi və gerçək şəklinə düşür və yola gətirən başçı, yola gələn isə ardıcıl kimi zahir olurlar. Kimsəni yoldan çıxarmaq və azdırmaq .barəsində də məsələ eynilə belədir

:Qur'ani-kərim İsra surəsinin ٧١-ci ayəsində belə buyurur

Bir gün (qiyamət günü) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri,» «...yaxud peyğəmbərləri və ya əməl dəftərləri) ilə birlikdə (hüzurumuza) çağıracağıq

.Hamı öz başçısı, yə'ni əməldə ilham aldığı şəxs ilə məhşərə gələcək

:Axirətdə Fir'onun öz qövmü üçün rəhbər şəklində zahir olması barədə belə buyurulur

Fir'on qiyamət günü camaatının qabağında gedib onları atəşə (Cəhənnəmə)» (aparacaq....»(١

۱- [۷۸] Hud-۹۸.

Bu dünyada azğınlar üçün başçı və örnək olmuş Fir'on o biri dünyada da onların başçı və rəhbəri kimi zahir olacaqdır. Fir'on həm dünyada və həm də axirətdə öz qövmünün şəfaətçi və vasitəsi olacaqdır. O, dünyada günah və azğınlıq, axirətdə isə cəhənnəmə çatdırmaq vasitəsi olacaqdır. Onun axirətdə öz qövmü üçün şəfaətçi və vasitə olması, .dünyada qövmünü azdırmaq vasitəsi olmasının təzahürüdür

Qur'anın tə'birləri arasında maraqlı nöqtələrdən biri də budur ki, bu ilahi kitab Fir'onun öz qövmünü cəhənnəmə salacağını bildirir. Qur'an bu ifadəsi ilə Fir'onun, öz qövmünün azğınlığındakı tə'sirini xatırladaraq buyurur ki, Fir'on onları dünyada azğınlığa saldığı kimi, axirətdə də cəhənnəmə salacaqdır. Ümumiyyətlə, Fir'onun onları axirət dünyasında cəhənnəmə salması, onun öz qövmünü bu dünyada azğınlıq yoluna .salmasının təzahür və cilvəsidir

Əlbəttə, aydındır ki, bu dünyada haqq və batil rəhbərlər müxtəlif qisimlərə bölündüyü kimi, o dünyada da həmin qisimlər olacaqdır. Məsələn, Peyğəmbərin (s) hidayət nurundan istifadə edən və onun mübarək şəriətindən bəhrələnən şəxslərin hamısı qiyamətdə də onun arxasınca gedəcəklər. O həzrət orada əməli-saleh insanların .bayraqdarı olacaqdır

Şəfaətin bu mə'nasında Peyğəmbər (s), Əmirəl-mö'minin (ə), həzrət Fatmeyi-Zəhra (s.ə.), imam Həsən, imam Hüseyn (ə) və digər imamlar öz şagird və davamçılarının şəfaətçisi olacaqlar. Burada məqam və dərəcələr arasındakı silsiləvi ardıcıllıqlar öz yerindədir, mə'sum və pak imamların şəfaətçi olmaları da həzrət Peyğəmbər .tərəfindəndir

Bu hesabla, hətta alimlər dərs verdikləri və hidayət etdikləri şəxslərə şəfaət edəcəklər. Burada bir-birinə bağlı olan bir silsilə yaranır və kiçik qruplar böyüklərlə .birləşir və nəhayət onların hamısının başında həzrət Peyğəmbər (s) durur

Hədislərdə imam Hüseynin (ə) çoxlu insanlara şəfaət edəcəyi barədə danışılmasının səbəbi, o həzrətin məktəbinin bu dünyada dinin dirçəldilməsi və ayrıları ilə müqayisədə .daha çox insanların hidayətinə səbəb olmasındadır

Bundan əvvəl dediyimiz kimi, imam Hüseynin (ə) şəfaəti Allahdan Onun razı olmadığı

bir şeyi istəməsi formasında deyildir. O həzrətin şəfaəti iki cür olacaq. Onun şəfaətlərindən biri bu dünyada yaratdığı və axirət dünyasında zahir olacaq hidayətlər, .digəri isə bir qədər sonra bəyan edəcəyimiz formada olacaq

İmam Hüseyn (ə) öz məktəbində hidayət yoluna gələnlərin şəfaətçisidir. Bəli, o həzrət .onun məktəbini azğınlıq vasitəsi edənlərin şəfaətçisi deyil

səh:۱۷۸

Bu nöqtəni də yaddan çıxarmaq olmaz ki, Qur’an vasitəsi ilə bir qrup doğru yola gəldiyi, digər bir qrup isə yolunu azdığı kimi, imam Hüseynin (ə) məktəbi vasitəsi ilə də bir dəstə insan hidayətə gələcək, digər bir dəstə isə yolunu azacaqdır. Bu məsələ .insanların özündən asılıdır

:Allah-taala Qur’andakı məsəllər barəsində belə buyurur

Əlbəttə, Allah (Qur’anda) ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən» çəkinməz. İman gətirənlər bunun Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər, kafirlər isə: Allah bu məsəllə nə demək istəyir?-deyirlər. Allah bu məsəllə bir çoxlarını (düz yoldan azdırır, bir çoxların isə doğru yola aparır».(١)

:Mövləvi bu məsəl barəsində çox gözəl bir təmsil deyib

Məzmunu belədir: Allahdan bu nöqtəni istə ki, sürüşüb lap aşağı enməyəsən; bir çoxları Qur’an vasitəsi ilə yollarını azdılar, bu ip vasitəsi ilə bir çoxları quyuya düşdülər; .ey inadkar, ipin heç bir günahı yoxdur, çünki sən özün yuxarı qalxmaq istəmirdin

Rəsən» – risman, yə’ni ip mə’nasındadır. İplə həm quyudan çıxmaq və həm də quyuya» .düşmək olar, bu bizim onlardan hansını seçməyimizdən asılıdır

Qur’an və Hüseyn məktəbi bəşəriyyəti bədbəxtçilik quyularından xoşbəxtlik qülləsinə aparmaq qüdrətinə malik iplərdir. Onların biri Allah, digəri isə insan tərəfindən olan ipdir. İndi kiminsə bu iki ilahi ipdən pis istifadə etməsinin günahı həmin iplərdə deyil, həmin şəxsin özündədir və bunun mə’nası odur ki, onun özü yuxarı qalxmaq sövdasında deyil. Əlbəttə bu cür adamlar Qur’an və Hüseyn məktəbi vasitəsi ilə cəhənnəm quyusunun dibinə aparılırlar və bu həqiqət, o biri dünyada aşkar olacaq, onlar Qur’an və imamların göstərişi ilə cəhənnəmə atılacaqlar. Budur «cənnət və cəhənnəmi bölən» olmağın mə’nası! Peyğəmbərdən (s) nəql edilmiş bir hədisdə belə :deyilir

«.Qur’an şəfaəti qəbul edilən şəfaətçi və xəbəri təsdiqlənmiş xəbər verəndir»

Bu doğrudan da çox maraqlı bir ifadədir. Buyurur ki, Qur’an həm mö’minləri xoşbəxtlik cənnətinə aparan şəfaətçi və həm də kafir və günahkarları cəhənnəmə aparan

amildir. Qur’an bir qrupu gözəl cənnətə, digər bir qrupu isə qorxulu cəhənnəmə .aparan vasitədir



---

.Bəqərə-۲۶ [۷۹] -۱

Bu növ şəfaəti rəhbərlik şəfaəti adlandırmaq yaxşı olar. Onu «əməl şəfaəti»də adlandırmaq mümkündür. Çünki, burada insanın xoşbəxtlik və bədbəxtliyinə səbəb .olan əsas amil onun yaxşı və ya pis əməlidir

Şəfaət barəsində tutulan iradların heç birinin bu növ şəfaətə aid olmaması mə'lum bir məsələdir. Xüsusilə bu mə'nada olan şəfaət, ilahi ədalətlə nəinki ziddiyyətdə deyil, .hətta onu təsdiq də edir

## BAĞIŞLANMA ŞƏFAƏTİ

Şəfaətin ikinci növü günahların bağışlanmasında vasitəçilik etməkdir. Tənqidçilərin kəskin hücumlarına mə'ruz qalan şəfaət, vasitəçiliyin bu növüdür. Amma Allahın köməyi ilə, bu kitabda verəcəyimiz izahlarla həmin növ şəfaətə heç bir iradın varid olmaması və onun İslamın ali və dəyərli məsələlərindən olaraq, müəyyən əsaslarla .İslam maarifinin dərinliklərini göstərməsi aydınlaşacaq

## RƏHMƏTİN CAZİBƏSİ

İlk növbədə bu məsələyə diqqət yetirmək lazımdır ki, xoşbəxtliyə çatmaq üçün dünyada görülən bir çox tə'sirli əməllərdən əlavə, başqa bir hərəkət də vardır və o, Allah-taalanın hər şeydən yüksək olan rəhmətidir. Dini mətnlərdə «Ey rəhməti qəzəbini .qabaqlayan...! «anlayışı kimi ifadələr vardır

Hafizin bu məzmunda məşhur bir qəzəli vardır. O, həmin qəzəldə bu məfhumu «sabiqə» kəlməsi ilə ifadə etmişdir. «Sabiqə» burada, «ilahi rəhmətin» hər şeydən qabaqda olmasıdır. Əlbəttə onun həmin kəlmədən məqsədi başqa şey də ola bilər ki, Qur'anda .buna işarə edilib

## PAKLIQ PRİNSİPİ

Varlıq aləmində, ilahi rəhmətin cilvələrindən biri paklıq və saflanma nümunəsidir. Yaradılış sistemi yumaq və paklaşdırmaq xüsusiyyətinə malikdir. Dəniz və bitgilərin karbon qazını udaraq havanı təmizləmələri paklıq və saflaşdırmanın nümunələrindəndir. Əgər canlı varlıqların tənəffüsü və yanacaq maddələrinin tüstüsü ilə çirklənən hava, bitgi və dəniz kimi saflaşdırma «dəzgahları» vasitəsi ilə

təmizlənməsəydi, yer kürəsi çox qısa bir müddətdə yaşamaq üçün yararlı olmaq xüsusiyyətini əldən verərdi. Çünki, onda nəfəs almaq qeyri-mümkün olardı. Ölü heyvan cəsədlərinin parçalanması və həmçinin canlı varlıqlardan ayrılan maddələrin dağılması yaradılışın paklaşdırma və saflaşdırma xüsusiyyətinin digər bir nümunəsidir.

Maddiyyat və təbii qanunlarda olduğu kimi, mə’nəvi

məsələlərdə də paklaşdırma və saflaşdırma nümunələri vardır. Bağışlama və günahın pis nəticələrinin aradan qaldırılması da bu qəbildəndir. Əfv və bağışlanma məsələsi də qəlb və ruhların, yuyulma imkanları qədər yuyulması və günahın pis nəticələrindən .təmizlənməsi deməkdir

Əlbəttə, bə'zi ürəklər təmizlənmək qabiliyyətini elə əldən verirlər ki, heç bir şeylə təmizlənmək imkanına malik olmurlar. Onlar sanki murdarlanmış əşyaya deyil, murdar şeyin özünə çevrilirlər. Allaha qarşı olan şirk və ya küfr, qəlbə yol tapıb orada yuva salanda ürəyin pak olaraq təmizlənmək qabiliyyətini aradan aparır. Küfrün ürəkdə qalması Qur'ani-kərimin dilində ürəyin, ilahi təbiətin və fitrətin möhürlənməsi .adlandırılıb

## SAĞLAMLIQ PRİNSİPİ

Varlıq aləmində rəhmətin qəzəbi qabaqlamasının nümunələrindən biri, dünyada həmişə sağlamlığın əsas, xəstəliyin isə istisnai və təsadüfi olmasıdır. Hər bir canlı varlığın bədənində onun sağlamlığına xidmət edərək həmin istiqamətdə çalışan və onun varlığını qoruyan bir qüvvə yerləşdirilib. Qanda çox maraqlı müdafiə qüvvəsinə malik olan ağ hemoqlobinlərin mövcudluğu, bizim bu müddəamıza bir dəlildir. Canlı varlıqların bədənlərində olan bərpaçılıq və yenidənqurma xüsusiyyəti, həmin müddəaya digər bir dəlildir. Sümük sınıqları, yaralar və qida maddələrinin .çatışmamazlıqları, həmin varlığın öz daxili fəaliyyətləri ilə bərpa edilir

Dini fitrət baxımından da hər bir körpə pak fitrətlə doğulur: «Körpə pak fitrətlə doğulur. .«Onu yəhudi və xristian edən, onun ata-anasıdır

Əsl yolundan çıxmış hər bir varlığın təbiətində, onu birinci vəziyyətinə qaytaran cazibə qüvvəsi olur. Filosofların dili ilə desək, qəsrə düçar olmuş hər bir təbiətdə, öz təbii vəziyyətinə qayıtmaq meyli yaranır, yə'ni dünyada həmişə əyrilik və azğınlıqdan qaçma və sağlamlığa yönəlmə qüvvəsi hakimdir. Bunlar rəhmətin qəzəbi qabaqlamasına misal olaraq gətirilən dəlillər idilər. Bağışlanmanın olması da həmin .əsasdan yaranır

## ÜMUMİ RƏHMƏT

Bağışlama prinsipi istisnai bir hadisə deyil, varlıq aləmində rəhmətin qəzəbə qalib gəlməsindən yaranan ümumi bir formuldur. Buradan ilahi bağışlamanın ümumi olması və onun bütün varlıqları, onların hər birinin öz qabiliyyəti çərçivəsində əhatə etməsi mə’lum olur. Bu prinsip əzabdan xoşbəxtlik və qurtuluşa nail olanların hamısına aiddir. :Buna görə də Qur’ani-kərim belə buyurur

«O gün kim əzabdan qurtulsa, şübhəsiz ki, (Allah) ona mərhəmət əta etmişdir...»(١)

.Yə’ni əgər rəhmət olmasa, heç kəsdən əzab götürülməz

Əziz İslam Peyğəmbəri (s) mübarək ömrünün son günlərində müsəlmanlar üçün oxuduğu xütbədə bu məsələni xatırladıb ki, qurtuluş və səadətə çatmaq üçün iki .mühüm amil vardır. Onlardan biri əməl, digəri isə rəhmətdir

:Həmin xütbənin bir hissəsi belədir

Ey camaat! Allahın Heç kəslə qohumluq əlaqəsi yoxdur və həmçinin əməldən başqa,» mənfəəti cəlb edərək ziyanı uzaqlaşdıracaq heç bir əlaqə də mövcud deyildir. Diqqətli olun! Heç kəs bihudə iddialar etməsin və və heç kəs xam xəyalla yaşamasın. Məni haqq olaraq göndərən Allaha and olsun ki, Allahın rəhməti ilə birgə olan əməldən başqa heç bir şey insanın nicat tapmasına səbəb olmur. Əgər mən özüm də günah «.etsəydim, süqut edərdim

«?O həzrət sonra belə buyurub: «İlahi, mən çatdırdım

Əziz İslam Peyğəmbəri (s), digər peyğəmbərlər və imamların bağışlanma istəmələrinin sirri də ilahi rəhmətin ümumi olmasıdır. Daha doğrusu belə demək olar ki, kim Allaha daha yaxındırsa, bu əsasdan daha çox bəhrələnir. Ümumiyyətlə, kim daha yaxındırsa Allahın gözəl adından və Onun kamillik sifətlərindən başqalarına .nisbətdə daha çox istifadə edir

:Əziz İslam Peyğəmbəri (s) belə buyurub

Qəlbimdə küdurət nişanələri görünür və mən Allahdan gündə yetmiş dəfə» «.bağışlanmaq istəyirəm

## BAĞIŞLANMA İLƏ ŞƏFAƏTİN ƏLAQƏSİ

?Allahın bağışlamasının şəfaətlə nə əlaqəsi vardır

Allahın bağışlaması Onun digər bütün rəhmətləri kimi qanun və sistemə malikdir. Biz dünyanın qanun və quruluşa malik olması barəsində geniş söhbət etdik və dedik ki,

varlıqlar arasında olan fərqlər onların vücudlarının zərurətlərindəndir. Həmin söhbətdə qeyd etdik ki, varlıqlar arasında olan fərqlər şərti deyil, onların zati zərurətlərindəndir, yə’ni onların mahiyyət və vücudlarının tələblərindəndir. həmin fərqlərin olmaması, eyni ilə onların özlərinin olmaması deməkdir və onların vücudunu da fərqlərsiz fərz etmək .qeyri-əqli bir şeydir



---

.Ən’am-۱۶ [۸۰] -۱

Əgər əlimizdə şəfaət barəsində nəql edilmiş heç bir dəlil olmasaydı, biz ən şərəfli məxluqun olmasının mümkünlüyü və varlığın qanuna malik olması kimi əqli yollar və .qəti dəlillərlə ona qail olmalı idik

Möhkəm əqli əsaslar, Allahın bağışlama rəhmətini qəbul edən şəxsi, bağışlama cərəyanının ümumi əql və ya ümumi ruh, yə'ni tam ilahi vilayətə malik əql və ruh yolu ilə həyata keçməsini demək məcburiyyətində qoyur. İlahi feyz və lütfün varlıqlara .qanun və hesabsız çatması mümkün deyil

Amma xoşbəxtlikdən Qur'an bizə burada da kömək edib. Biz İslam rəvayətləri, xüsusilə şiələrin mö'təbər və yüksək səviyyəli hədislərində Peyğəmbər və imamların vilayətləri və imanın sonrakı dərəcələrdəki insanlırın məqamları barəsindəki mətləbləri həmin Qur'an ayələrinə artırmaqla belə bir nəticə əldə edirik ki, bağışlama vasitəsi təkcə bir ümumi ruh deyil, bəlkə ümumi və cüz'i bəşəri ruhlar, malik olduqları müxtəlif məqamlara uyğun olaraq şəfaət payına malikdirlər. Bu İslam və Qur'anın ən mühüm tə'limlərindən biridir ki, yalnız müqəddəs şiə məktəbində imamlar və onların şagirdləri tərəfindən yaxşı izah edilib. Buna görə də bu məsələ şiə məktəbinin fəxr etdiyi .məsələlərdəndir

### ŞƏFAƏTİN ŞƏRTLƏRİ

Şəfaətin Allaha nisbət veriləndə həmin bağışlama, rəhmət vasitələrinə nisbət veriləndə isə şəfaət adlandırılmasını nəzərə alanda mə'lum olur ki, bağışlama üçün lazım olan hər bir şərt şəfaət barəsində də vardır. Əqli baxımdan bağışlanmanın şərti, şəxsin bağışlanma qabiliyyətinə malik olmasından başqa bir şey deyil. Əgər kimsə Allahın bağışlama rəhmətindən məhrum olursa, bu, ilahi rəhmətin məhdud olmasında deyil, həmin şəxsin bu qabiliyyətə malik olmamasındadır. Allahın rəhməti hansısa bir varlı şəxsin bank hesabı kimi məhdud deyil. Allahın rəhməti qeyri-məhduddur, amma qabiliyyətlər bir-birindən fərqlidir. Ola bilər ki, bir nəfər qətiyyən bağışlanma .qabiliyyətinə malik olmasın və Allahın rəhmətindən bəhrələnməsin

Dini mənbələr baxımından aydındır ki, Allaha kafir olmaq və şərik qail olmaq əfv və .bağışlanmanın insana çatmasına mane olur

:Qur’ani-kərim belə buyurur

Allah Ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqa olan günahları isə istədiyi» (şəxsə bağışlar...»(۱

İman əldən gedəndə insanın bağışlanma ilə olan əlaqəsi birdəfəlik kəsilir və o, bir də bu böyük lütfdən bəhrələnmək imkanına malik olmur. İnsanın qəlbinə küfr möhürü vurulanda o, dünyanın bütün okeanlarına atılsa belə, içinə bir damcı su getməyən ağzı bağlı qaba bənzəyir. Həmin şəxsin vücudu, Haqqın rəhmət sularının gül əvəzinə tikan .kolları yetişdirdiyi şoranlıqlara bənzəyir

Təbiətinin lətifliyində heç bir şübhə olmayan yağış bağçada lalə, şoranlıqda isə tikan .bitirir

Əgər şoranlıqda gül bitmirsə bu, yağışın azlığı deyil, yerin o şeyə hazır .olmamasındandır

:Qur’ani-kərim mələklərin dilindən Allahın rəhmətinin genişliyini belə bəyan edir

Ərşi daşıyanlar və onun ətrafında olanlar öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona» inanır və mö’minlərin bağışlanmasını diləyərək belə deyirlər: Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ihtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri .«!bağışla, onları cəhənnəm əzabından qoru

Bu ayədən həm Allahın rəhmətinin məhdud olmamasını və həm də bağışlanmadan .bəhrələnmək ləyaqətinin əsas şərtini başa düşmək olar

Qur’anın ayələrindən belə başa düşülür ki, Allaha iman, şəfaət və bağışlanmaya nail olmağın əsas və zəruri şərtlərindəndir. Amma bu yeganə şərt deyil və heç kəs bütün şərtlərin nədən ibarət olmasını qəti şəkildə deyə bilməz. Bunu ancaq və ancaq Allah özü bilir. Şirkdən başqa digər bütün günahların bağışlanmasına müjdə verilmiş ayədə «Allaha istədiyi şəxslər» şərti vardır və həmçinin şəfaət barəsində olan ayələrdə «Allah

razı olduğundan başqa heç kəsə şəfaət etməzlər» qeydi gətirilib. Bunların hər ikisi eyni mə’na əks etdirir. Qur’an sanki şəfaətin bütün şərtlərini aşkarcasına bildirmək istəməyib. Deyəsən ürəkləri qorxu və ümid arasında saxlamaq niyyətində olub. Buradan başa düşmək olar ki, «şəfaətə inam, insanı günah etməyə cür’ətləndirir» iradı .yersizdir



---

.Nisa-۱۱۶ [۸۱] -۱

Həqiqi şəfaətlə yanlış şəfaətin fərqi bundadır ki, Həqiqi şəfaət Allahdan başlayaraq günahkarda bitir, amma səhv şəfaətdə məsələ bunun əksinədir.

Həqiqi şəfaətdə vasitəni, yə'ni şəfaət edəni işə salan, yanında şəfaət edilən Allah-taaladır. Amma yanlış şəfaətdə onu işə salan şəfaət edilən, yə'ni günahkardır. Səhv və batil şəfaətlərdə, şəfaətçi vasitəçilik sifətini günahkardan alır, çünki vasitəni oyadaraq şəfaət etməyə vadar edən və vasitəni vasitə edən o (günahkar) olur. Amma Peyğəmbərlər, övliyalar və Allah dərgahına yaxın olan şəxslərə nisbət verilməsi düzgün olan haqq şəfaətlərdə, şəfaətçinin şəfaət etməsi Allah tərəfindəndir. Vasitəni vasitə edən Allahdır. Başqa sözlə desək, səhv şəfaətdə şəfaətçi şəfaət edilən, yə'ni günahkarın yanında şəfaət edilən (qüdrət sahibi) isə şəfaətçinin tə'siri altına düşür. Lakin düzgün şəfaətdə məsələ bunun əksinədir. Yə'ni yanında şəfaət edilən qüvvə, yə'ni Allah şəfaətçidə tə'sir edən səbəb olur və şəfaət edən Onun tə'siri və istəyi ilə günahkara tə'sir edir. Şəfaətin səhv növündə rəhməti oyadan silsilənin başında günahkar durur. Onun düzgün növündə isə həmin silsilənin başında duran Allahdır.

Molla Sədranın «Hədid» surəsinin təfsirində səhv və düzgün şəfaətin bir-birindən ayrılması, batil şəfaət adlandırdığımız şeyin bu dünyada olması axirət quruluşunda isə olmaması və belə bir şeyin orada olmasının qeyri-mümkünlüyü barəsində çox incə və elmi bir sözü var.

O, söhbəti genişləndirməklə zati və təsadüfi səbəblər və zati və ərəzi hədəflər (qayət) məsələsini irəli sürərək mövzuya bu dünyada, (özü də təkcə insan cəmiyyətlərində yox) təsadüfi səbəblərin bir şeyin müqəddaratını müəyyənləşdirməsinin və ya bir şeyin zati hədəflərə çatmaqdan məhrum olaraq ancaq ərəzi hədəfə çatmasının mümkünlüyü, axirət dünyasının isə təsadüfi səbəblər və ərəzi hədəflərin tə'sirlərindən uzaqlığının necə olması ilə başlayır. Bu mövzunun səviyyəsi çox yüksək olduğu üçün onu şərh etməkdən çəkinərək elm əhlinə Molla Sədranın təfsirinə müraciət etməyi tövsiyə edirəm.

Qur'ani-kərimin Allahın izni olmadan şəfaətin mümkün olmamasını deyən ayələri həmin nöqtəni nəzərdə tutur. Bu ilahi kitab xüsusilə bu barədə çox maraqlı ifadələrə

:malikdir, o cümlədən

«De ki: Bütün şəfaət yalnız Allaha məxsusdur...»(١)

səh:١٨٥

---

١- [٨٢] Zumər-۴۴.

Bu ayə tam aydınlıqla şəfaət və vasitəçilik məsələsini təsdiqləyir və bütün şəfaətləri Allaha aid edir. Çünki şəfaətçini şəfaətçi edən Allahdır. Bu ayənin yalnız qiyamətdə həyata keçəcək şəfaəti nəzərdə tutması və necə deyərlər, yüksələn olan qövsə aid olması da mümkündür. Həmçinin onun bütün rəhmət vasitələri barəsində olması, yə'ni azalan qövsə aid olması da mümkündür. Hər halda axirət şəfaətinə aid olduğu üçün bu mə'nanı verir ki, günahkarın Allahın istəyi olmadan şəfaətçini işə salmaq qüdrəti .yoxdur və həmçinin şəfaətçi də Onun izni olmadan dəm vurmaq gücünə malik deyil

Bu mətləbin əqli dəlili, ilahi fəlsəfədə isbata yetirilmiş «vücudu zati cəhətdən vacib olan varlıq bütün cəhət və heysiyyətlərdən vacibul-vücuddur», yə'ni vücudu öz zatında vacib olan varlıq başqasının nəticəsi olmadığı kimi, öz sifət və işlərində də başqa səbəbin tə'siri altına düşə bilməsinin qeyri-mümkünlüyüdür. O, mütləq tə'sir .göstərəndir və heç nədən tə'sirlənmir

## TÖVHİD VƏ TƏVƏSSÜLLƏR

Dediklərimizdən ibadətdə tövhid barəsində ali və mühüm bir nöqtə əldə edilir. Allah övliyalarına təvəssül edərək onlardan şəfaət istəyəndə onun, Allahın vasitə :etdiklərindən olmasına diqqət etmək lazımdır. Qur'ani-kərim belə buyurur

Ey iman gətirənlər! Allahdan qorxun. Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq» (üçün) yol axtarın...»(١)

Ümumiyyətlə səbəbi yaradan, onu səbəb edən və bizdən səbəb və vasitələrdən istifadə etməyimizi istəyən Allah-taalanın özü olduğu üçün səbəb və vasitələrə üz tutaraq onlara sığınmaq şirk deyil, eyni ilə tövhiddir. Bu baxımdan maddi, ruhi, zahiri, mə'nəvi, dünya və axirət səbəbləri arasında heç bir fərq yoxdur. Amma maddi səbəbləri elmi-təcrübi yolla araşdırmaq və nədən ibarət olmasını bilmək olar. Mə'nəvi səbəbləri isə yalnız dini üsullarla, yə'ni vəhy, Qur'an və sünnə yolu ilə aşkar etmək .lazımdır

Digər bir məsələ də budur ki, insan kiməsə sığınaraq ona yalvaranda və ya ondan şəfaət etməsini istəyəndə ilk növbədə Allaha üz tutmalı, sonra Allahdan vasitə və şəfaətçiyə tərəf gəlməlidir. Çünki dediyimiz kimi, həqiqi şəfaət, yanında şəfaət edilənin

şəfaətçini həmin məqsədlə işə salmasıdır ki, şəfaətçi Allah istədiyi və razı olduğu üçün .də şəfaət edir



---

.Maidə-۳۵ [۸۳] -۱

Batil şəfaətdə isə yanında şəfaət edilənə tə’sir etmək üçün əsas diqqət şəfaətçiyədir. Buna görə də həmin vaxt günahkarın bütün diqqəti şəfaətçidə olur ki, gedib tərəf müqabilin yanında olan nüfuz və qüdrətindən istifadə edlərək onu razı salsın. Deməli, .əsas diqqətin şəfaətçiyə olması və Allaha diqqət edilməməsi ibadətdə şirkdir

Allahın işləri qanunauyğunluq əsasındadır. Kiminsə yaradılış aləminə diqqət etmək istəməməsi azğınlıqdır. Buna görə də Allah-taala günahkarları Peyğəmbərin (s) qapısına getməyə istiqamətləndirib və ondarın özlərinin bağışlanma istəmələrindən əlavə, o həzrətin də onlar üçün bağışlanma istəməsini bildirib. Qur’ani-kərim belə :buyurur

Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan» bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın (tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər».(١

Bəli, Peyğəmbərin (s) ömrünün son günlərində buyurduğu kimi, təkcə saleh əməl və təqvaya arxalanmaq olmaz. «Əməl və Allahın rəhmətindən başqa heç bir nicat verən «.yoxdur

## İRADLARA CAVAB

Bağışlanma növlü şəfaətə verdiyimiz izahlarla şəfaət barəsindəki iradların cavabı .aşağıdakı kimi olur

Şəfaət nə ibadət və nə də zati tövhidlə təzad təşkil etmir, çünki şəfaətçinin rəhməti .١ Allahın rəhmət nurundan başqa bir şey deyil, şəfaət və rəhmətin yayılması da Allah (.tərəfindəndir. (Birinci və ikinci iradların cavabıdır

Günahların bağışlanmasına inam məsələsi insanın günah etmək cür’əti əldə.٢ etməsinə səbəb olmadığı və yalnız ümidvarlıq yaratdığı kimi, şəfaət inamı da insanın günaha təşviq edilməsi deyil. Bağışlanma və şəfaətin insana şamil olmasının şərtinin Allahın iradə və razılığının mövcudluğu olmasını nəzərə alanda, bu inam hissinin tə’sirinin qəlbləri mə’yusluq və ümidsizlikdən qurtarmaq və onu həmişə qorxu və ümid (.içində saxlamaq səviyyəsində olması aydınlaşır. (Üçüncü irada cavab

Şəfaət iki növə ayrılır və onlardan biri düzgün, digəri isə səhv şəfaətdir. Şəfaətin .۳ Qur’anın bə’zi ayələrində rədd edilməsi, bə’zi ayələrində isə təsdiqlənməsinin səbəbi, iki növ şəfaətin təsəvvür edilməsidir. Qur’an

səh:۱۸۷

---

.Nisa-۶۴ [۸۴] -۱

zehnləri batil və səhv şəfaətdən düzgün şəfaətə tərəf cəlb etəmək istəyib. (Dördüncü iradın cavabı.)

۴. Şəfaət, əməlin əsaslığı nəzəriyyəsi ilə də zidd deyil. Çünki əməl qəbul edən səbəb, Allahın rəhməti isə faili səbəb yerindədir. (Beşinci irada cavab.)

۵. Düzgün şəfaətdə Allahın hansısa tə’sir altına düş-məsi təsəvvürü yoxdur, çünki o, yuxarıdan aşağı olan bir axındır. (Altıncı iradın cavabı.)

۶. Şəfaətdə və habelə bağışlamada istisna və ədalətsiz-lik yoxdur. Allahın rəhməti hədsizdir və kim bu rəhmətdən məhrumdursa, qabiliyyət və ləyaqətini əldən verdiyi üçündür, yə’ni məhrumluğun səbəbi qəbul edənin naqisliyidir. (Yeddinci irada cavab.)

## SƏKKİZİNCİ FƏSİL

### İŞARƏ

;Müsəlman olmayanların xeyir əməlləri .١

;Mövzuya giriş .٢

;Mövzunun ümumi cəhəti .٣

;İslamdan başqa heç bir din qəbul edilmir .۴

;İmansız yerinə yetirilmiş saleh əməl .۵

;İki təfəkkür tərzi .۶

;Dırnaqarası ziyalılar .٧

;İfratçılıq .٨

;İmanın dəyəri .٩

;Küfrün cəzası .١٠

;Təslimin dərəcələri .١١

;Həqiqi və regional İslam arasındakı fərq .١٢

;Saf niyyət xeyir işin qəbul edilmə şərtidir .١٣

?Keyfiyyət yoxsa kəmiyyət .١۴

;Bəhlulun məscidi .١۵

;Allah və axirətə iman .١۶

;Peyğəmbərlik və və imamlığa iman .١٧

;Zərər-ziyana uğrama .١٨

۱۹. Sıfrdan aşağı;

۲۰. Acizlər, məzlum və zəiflər;

۲۱. İslam filosoflarının nəzərləri;

۲۲. Söhbətin nəticəsi;

۲۳. Müsəlmanın günahları;

۲۴. Təkvini və şərti qaydalar.

səh:۱۸۹

## GİRİŞ

İlahi ədalət bəhsində araşdırılan mövzulardan biri də müsəlman olmayan şəxslərin .gördüyü xeyir əməllər məsələsidir

Bu gün savadlı və savadsızlığından asılı olmayaraq, müxtəlif təbəqələr arasında belə bir sual irəli sürülür ki, müsəlman olmayan şəxslərin xeyir əməlləri Allah dərgahında qəbul edilir, yoxsa yox? Əgər qəbul edilirsə, onda insanın müsəlman olub-olmamasının nə kimi tə'siri vardır? Belə olan surətdə əsas məsələ insanın dünyada xeyir işlər görməsidir. Əgər biri müsəlman olmasa və ya heç bir dinə qulluq etməsə ziyana uğramayıb. Yox, əgər müsəlman olmayanların xeyir əməlləri qəbul edilmirsə və onların bütün əməlləri puç olursa və Allah yanında heç bir savab və mükafat ?almırlarsa, bu məsələ ilahi ədalətlə bir araya necə sığır

Bu sual eynilə İslam çərçivəsində, Əhli-beytə tabe olub-olmamaq barəsində də irəli sürülə bilər. Görəsən Əhli-beytə tabe olmayan müsəlmanın əməli Allah dərgahında qəbul edilir, yoxsa yox? Əgər qəbul edilirsə, onda müsəlmanın Əhli-beytə tabe olub-olmamasının fərqi nədir? Çünki, belə olan surətdə əsas məsələ insanın müsəlmançılığında olur və əgər kimsə əhli-beytin vilayətini qəbul etməsə, heç bir ziyana uğramır. Amma əgər Əhli-beytə tabe olmayanın əməli qəbul deyilsə, onda bu ?məsələ ilahi ədalətlə necə izah edilir

Əvvəllər ancaq filosoflar arasında və fəlsəfi kitablarda bəhs edilən bu məsələ, indiki .zamanda bütün təbəqələrə sirayət edib

İlahi filosoflar bu məsələ barəsində belə bəhs edirdilər ki, əgər dindən xaric olan insanların hamısı ilahi əzaba düçar olsalar, onda varlıq aləmində şər çoxluq təşkil edər, halbuki əsalət və çoxluğun bədbəxtlik və şərlərlə deyil, xoşbəxtlik və xeyirlərlə olması .ən qət'i və aydın əsaslardandır

İnsan varlığın gülüdür və hər şey onun üçün yaradılıb. (Əlbəttə «hər şey onun üçün yaradılıb» sözündən məqsəd, adətən dar fikirli insanların başa düşdükləri şey deyil, filosofların dedikləri düzgün məfhumdur.) İndi birdən bu insanın cəhənnəm üçün yaradılması qərara alınmış olsa, yə'ni onların əksəriyyətinin son yeri cəhənnəmdirsə,

onda Allahın qəzəbinin rəhmətindən çox olmasını e’tiraf etmək lazım gəlir. Çünki, insanların çoxu haqq dindən uzaqdırlar və hətta haqq dində olanlar da əməl baxımından zəlalət və azğınlıqdadırlar. Bu məsələyə filosoflar bu nöqteyi-nəzərdən .yanaşırdılar

Təqribən yarım əsrdir ki, müsəlman və qeyri-müsəlman xalqlar arasındakı əlaqələrin asanlaşması, əlaqə vasitələrinin çoxalması və

xalqların bir-birləri ilə dostluqlarının artması nəticəsində bu məsələ bütün təbəqələr, xüsusilə dırnaqarası ziyalılar arasında sual doğurur ki, görəsən saleh əməllərin Allah ?dərgahında qəbul olmasının yeganə şərti İslam və imandırmı

Onlar son əsrdə yaşamış və müsəlman olmamış, amma bəşəriyyətə çox dəyərli xidmət göstərmiş ixtiraçıların həyatlarını oxuyaraq həmin alimləri mükafata layiq hesab edir, digər tərəfdən isə əvvəllər qeyri-müsəlmanın əməllərinin puça çıxmasını fikirləşdikləri üçün çox nigaran olurlar. Beləliklə, illərlə ancaq fəlsəfə dairəsində olan bir mövzu ümumi kütlə arasına qədəm qoyur və ilahi ədalətə varid edilan irad şəklində .irəli sürülür

Əlbəttə, bu irad ilahi ədalətlə birbaşa əlaqəli deyil. O, İslamın insan və onun əməlləri barəsindəki baxışına bağlıdır. Dediyimiz bu irad ilahi ədalətə belə aid olur ki, deyəsən insan, onun əməlləri və Allahın onunla bu cür rəftar etməsi barəsindəki bu nəzər və .fikir, ilahi ədalət me'yarlarına ziddir

Mən gənc tələbələrlə olan əlaqələrimdə bu sualın irəli sürülməsi ilə çox rastlaşmışam. Bə'zən soruşurlar ki, dünyanın böyük ixtiraçıları bəşəriyyətə olan bu qədər böyük xidmətlərinə baxmayaraq cəhənnəmə gedəcəklər? Məsələn, Pastor, Edison və bu kimi ixtiraçılar cəhənnəmə, ömürlərini məscidin bir küncündə keçirən bekar zahidlər isə ?cənnətə gedəcəklər? Allah cənnəti ancaq bizim üçün yaradıb

Yadımdadır ki, bir gün mənim çox mö'min və dindar yerlilərimdən biri Tehrana .gəlmişdi və mənimlə görüşəndə həmin məsələni soruşdu

Həmin kişi Məşhəddə olan dəri-zöhrəvi xəstəxanasına baş vurmuşdu və orada xəstələrə səmimi qəlbdən qulluq edən xristian tibb bacılarını görəndə həyəcanlanaraq .tə'sirlənmişdi. Elə oradaca zehninə bu sual gəlmiş və şəkkə düşmüşdü

Bilirsiniz ki, dəri-zöhrəvi xəstəliklərinə tutulmuş şəxslərə qulluq etmək çox çətin, ağır və ürpəşdirici bir işdir. Məşhəddə həmin xəstəxana yaradılanda çox az həkim orada işləməyə razı oldu. Orada xəstələrə qulluq etəməyə də heç kəs razı deyildi. Qəzetlərdə həmin xəstəxanada tibb bacısı işləmək üçün qüvvə lazım olması barədə e'lanlar verildi və bütün İranda bu işə müsbət cavab verən bir nəfər belə tapılmadı. Fransadan bir

neçə nəfər «tərkidünya» xristian qız gəldi və həmin xəstələrə qulluq etməyi öz öhdəsinə .götürdü

Bu qızların, hətta ata-anaları tərəfindən atılmış xəstələrə qarşı humanist rəftar və səmimi qulluqlarını görmüş həmin şəxs, çox güclü şəkildə onların tə’siri altına .düşmüşdü

səh:۱۹۱

O danışırdı ki, həmin xristian tibb bacıları uzun və geniş paltarlar geyinmişdilər və əllərində bəlkə də min dənəsi olan uzun bir təsbeh var idi, işləri qurtaran kimi zikr .deməyə başlayırdılar

Həmin kişi pərişan və narahat halda soruşurdu ki, müsəlmandan başqa heç kəsin ?cənnət girməyəcəyi düzdürmü

Əlbəttə biz indi həmin xristian qızların bura hansı məqsədlərlə gəlmələrini və doğrudan da ancaq və ancaq Allaha görə və Allah yolunda qulluq etmək və ya digər məqsədlərə malik olmalarını araşdırmaq istəmirik. Bu işə çox nikbin olmadığımız kimi, bədbin də olmaq istəmirik.Məqsədimiz budur ki, bu kimi hadisələr bizim adamlarımızı .ciddi bir sualla üzləşdirir

Mən neçə il bundan əvvəl bir cəmiyyətdə söhbət etməyə də’vət olunmuşdum. Həmin cəmiyyətdə onların öz adətləri üzrə, iştirakçılara deyildi ki, əgər sualları varsa yazsınlar, münasib bir vaxtda onlara cavab verilsin. Orada sualları bir dəftərə yazmışdılar və həmin dəftəri mənə verdilər ki, söhbətimin mözusunu onların əsasında hazırlayım. Mən gördüm ki, ən çox təkrar olunan sual budur ki, görəsən Allah müsəlman olmayan bütün insanları chənnəmə aparacaq? Pastor, Edison və Kex əzab ?əhli olacaqlar

Mən ondan sonra bu məsələnin, camaatın fikrini özünə cəlb etmək baxımından .əhəmiyyətli olmasını başa düşdüm

Biz indi bu kitabın bu fəslində Allahın köməyi ilə bu məsələnin araşdırılmasına başlayacağıq. Amma həmin mövzuya daxil olmamışdan əvvəl, həmin mövzunun .aydınlaşması üçün iki məsələni izah etməyimiz lazımdır

### MÖVZUNUN ÜMUMİ CƏHƏTİ .١

Bizim bu söhbətdən məqsədimiz şəxsi məsələləri araşdırmaq, məsələn Pastorun cəhənnəm əhli olub-olmamasını müəyyənləşdirmək deyil. Biz onun həqiqi fikir və inanclarının, mənəviyyatının, ruhi və əxlaqi xüsusiyyətlərinin və hətta zahiri əməllərinin nə olmasını bilə bilmərik. Bizim onunla tanışlığımız onun yalnız elmi .xidmətləri səviyyəsindədir

Bu məsələ təkcə Pastora aid deyil. Ümumiyyətlə insanların müqəddəratı Allahın əlindədir. Heç kəsin, kiminsə cənnət və ya cəhənnəm əhli olub-olmaması barədə qəti fikir söyləmək haqqı yoxdur. Əgər bizdən məsələn, «Şeyx Mürtəza Ənsari o yüksək pərhizkarlıq, təqva, iman və əməli ilə mütləq cənnət əhli olacaq?» deyə soruşsalar, cavabımız budur ki, biz onun

barəsində olan mə'lumatımız çərçivəsində onun elm və əməlində bir pislik eşitməmişik, bildiyimiz şey ancaq yaxşılıq və xeyirdir. Amma onun yüz faizlik cənnət əhli olmasını demək bizim ixtiyarımızda deyil. İnsanların ruh və batinlərindən xəbərdar olan ancaq və ancaq Allahdır və O, insanların bütün gizli sirlərini bilir və varlıqların hesabı da Ona məxsusdur. Yalnız Allah övliyaları tərəfindən son müqəddəratları .bildirilmiş şəxslər barəsində fikir söyləmək olar

Bir də görürsən ki, bə'ziləri alimlərin ən fəzilətlisi və Allah dərgahına ən yaxınının kim olması barəsində danışırlar. Məsələn, İbni Tavus fəzilətlidir, yoxsa Bəhrul-Ulum və ya Şeyx Ənsari? Bə'zən imamzadələrin hansının daha fəzilətli olmasını soruşurlar. !?(Məsələn, Allah yanında həzrət Əbdül-Əzim əzizdir, yoxsa həzrət Mə'sumə (s

Bir dəfə müctəhidlərin birindən soruşmuşdular ki, həzrət Əbulfəzl üstündür, yoxsa həzrət Əli Əkbər? Sualı elmi şəkildə irəli sürüb müctəhidi cavab vermək məcburiyyətində qoymaq üçün ilə belə yazmışdılar ki, əgər bir nəfər imamzadələrin ən fəzilətlisinə qoyun nəzir edibsə nə etməlidir? Həzrət Əbulfəzl fəzilətlidir, yoxsa həzrət ?Əli Əkbər

Bu cür söhbətlərin səhv olması, müctəhid və qeyri-müctəhidin bu qism suallara cavab vermək məs'uliyyəti daşımaması mə'lum məsələdir. Allah bəndələrinin məqamlarını müəyyənləşdirmək bizim öhdəmizdə deyil və bu işi Allaha tapşırmaq lazımdır. Kimin məqamının nə olmasını Ondan başqa heç kəs bilmir və bunu Allah tərəfindən .bildirilməsə, heç kəs bilə bilməz

İslamın ilkin çağlarında müsəlmanların bə'ziləri müəyyən yerlərdə bu cür yersiz fikirlər .bildiriblər və Peyğəbər (s) onların bu işlərinin qarşısını alıb

Osman ibni Məz'un dünyadan köçəndə onun, elə evində yaşadığı və qonağı olduğu kişinin arvadı, ənsardan olan Ummu Əla adlı bir arvad Peyğəmbərin hüzurunda .Osmanın cənazəsinə xitab edərək belə dedi: Cənnət sənə halal olsun

Peyğəmbər (s) Osman ibni Məz'unun görkəmli şəxsiyyət olması, o həzrətin özü onun ölümündə bərk ağlaması və onun cənazəsini öpməsinə baxmayaraq, həmin arvadın bu yersiz fikir söyləməsindən qəzəbləndi və qəzəbli baxışlarla ona baxaraq belə

buyurdu: Hardan bilirsən? Nə üçün bilməyə-bilməyə hökm çıxarırsan? Məgər sənə vəhy olub? Məgər sən Allah bəndələrinin hesabından xəbərdarsan? Arvad deyir ki, ey Allahın Peyğəmbəri o, sizin səhabəniz və mücahid döyüşçülərinizdən olub. Peyğəmbər (s) onun cavabında diqqət edilməsi lazım olan bir cümlə buyurur:

«.Mən Allahın elçisiyəm, amma mənimlə necə rəftar ediləcəyini bilmirəm»

:Bu cümlə eyni ilə, Qur'an ayələrinin birinin məzmunudur ki, buyurur

De ki: Mən peyğəmbərlərin birincisi deyiləm. Rəbbimin mənimlə və sizinlə nə» (edəcəyini bilmirəm....»(١)

Burada zehnlərdə belə bir sual yarana bilər ki, bu ayə müsəlmanlar arasında qəti və) inkaredilməz olan bir şey, yə'ni o həzrətin qiyamətdə bə'zi günahkarların bağışlanmaları üçün özünün yüksək məqamından istifadə edərək onlara şəfaət edəcəyini xəbər verməsi ilə ziddir. Hətta Qur'anın «Həqiqətən Rəbbin sənə (qiyamət günü ən uca şəfaət məqamı, Cənnətdə tükənməz ne'mətlər) bəxş edəcək və sən (Ondan) razı olacaqsan! və ya «Allah sənin əvvəlki və sonrakı günahlarını .bağışlayacaq....» və bu kimi bə'zi ayələri ilə də müxalifdir

Bu iradın cavabı budur ki, yuxarıdakı hədisin məzmunundan mə'lum olduğu kimi, ayənin mə'nası heç kəsin müqəddərat və aqibətinin nə olacağı və hara gedib çıxacağı heç kəsə qəti surətdə mə'lum deyil. İşlərin qəti aqibətlərini ancaq Allah bilir və əgər bunları başqası da bilirsə o, ilahi vəhy vasitəsi ilədir. Bəs son müqəddəratın bilinməsini rədd edən ayə, Peyğəmbər və ya hər hansı bir digər şəxsin özünə və öz əməlinə arxalanaraq müqəddəratı barəsində xəbər verməsini nəzərdə tutur. Amma Peyğəmbərin özü və ya başqalarının aqibətinin bilməsini göstərən ayələr ilahi vəhy (.vasitəsi ilədir

Buna bənzər hadisənin Sə'd ibni Məazın ölümündə də baş verməsi nəql edilib. Həmin vaxt Sə'din anası onun yatağının yanında ona bənzər bir cümlə deyəndə, Peyğəmbər .(s) buyurur ki, sakit ol, öz başından Allaha aid işlər barəsində hökm çıxarma

## İSLAMDAN BAŞQA HEÇ BİR DİN QƏBUL DEYİL .٢

Əsas mövzumuza girişməzdən əvvəl, aydınlaşması lazım olan digər bir məsələ isə budur ki, qeyri-müsəlmanların xeyirli işləri barəsində iki cür danışmaq olar. Bu əslində iki sualdır. Onlardan biri budur ki, İslamdan başqa digər bir din qəbul edilir, yoxsa Allah dərgahında qəbul edilən yeganə din ancaq İslam dinidir? Başqa sözlə desək, insan hər hansı bir dinə və səma elçilərinin hər hansı birinə mənsub olmalıdır və bunun hansı

səma dini olması fərq etmir, məsələn müsəlman, yəhudi və ya xristian və hətta



---

۱- [۸۵] ۹-Əhqaf.

zərdüşt olmaq kifayət edir, yoxsa bütün zamanlarda haqq din ancaq və ancaq bir ?dindir

Digər bir məsələ isə budur ki, biz haqq dinin həmişə ancaq bir din olmasını qəbul etdikdən sonra, haqq dində olmaya-olmaya doğrudan da yaxşı olan və haqq dinin təsdiqlədiyi bir əməli yerinə yetirən şəxsin dediyimiz əməlinin mükafatlandırıb-mükafatlandırılmayacağı barəsindəki sualla qarşılaşırıq. Başqa sözlə desək, görəsən ?saleh əməllərin mükafatlandırılmalarının şərti, haqq dinə iman bəsləməkdir, ya yox

.Burada söhbət ikinci məsələdən gedir

Ziyalılıq iddiasında olan bə'zi şəxslər tərəfindən son zamanlar yayılan «bütün səma dinləri mö'təbər olmaları baxımından bütün zamanlarda bərabərdirlər» fikri səhv bir .fikirdir

Əlbəttə, Allah peyğəmbərləri arasında heç bir ixtilaf və ziddiyyətin olmaması fikri tamamilə düzdür. Allah peyğəmbərlərinin hamısı bəşəriyyəti bir hədəf və bir Allaha doğru çağırıblar və onlar insanlar arasında ziddiyyətli firqə və qruplar yaratmağa .gəlməyiblər

Amma bu o demək deyil ki, bütün zamanlarda bir neçə haqq din var və insan bütün zamanlarda onlardan istədiyini qəbul edə bilər. Əksinə, həmin sözün mə'nası budur ki, insan bütün peyğəmbərləri qəbul etməli və əvvəlki peyğəmbərin ondan sonra gələn peyğəmbər, xüsusilə onların ən fəzilətli və sonuncusu olan İslam Peyğəmbərinin müjdəsini verməsini və sonrakı peyğəmbərlərin özlərindən əvvəlki peyğəmbərləri təsdiqləmələrini bilməlidir. Deməli, bütün peyğəmbərlərə iman bəsləmək, hər bir dövrdə zəmanə peyğəmbərinə tabe olmağımızı tələb edir və bizim peyğəmbərlərin sona çatdığı zamanda Allah tərəfindən son peyğəmbər vasitəsi ilə gətirilən son hökmlərə əməl etməyimiz zəruridir. Bu, İslam deməkdir, yə'ni Allaha təslim olmaq və .Onun elçilərinin peyğəmbərliklərini qəbul etməyin zərurətlərindəndir

Müasir insanların əksəriyyəti belə bir fikrin tərəfdarıdırlar ki, insanın Allaha ibadət edərək Onun tərəfindən göndərilmiş dinlərdən birinə mənsub olması və Onun göstərişlərini həyata keçirməsi kifayətdir, amma həmin göstərişlərin formaları o qədər

də əhəmiyyət daşımır. Həzrət İsa (ə) da, həzrət Məhəmməd (s) də peyğəmbərdirlər, bizim xristianlıq dininə əsasən həftədə bir dəfə kilsəyə getməyimiz də düzdür, həzrət Məhəmmədin (s) dininə uyğun əməl edərək gündə beş dəfə namaz qılmağımız da! Bunlar

deyirlər ki, əsas məsələ insanın Allaha imanının olması və ilahi proqramların birinə .uyğun əməl etməsidir

Əl-imam Əli» kitabının müəllifi Corc Cordaq və məşhur livanlı yazıçı Cobran Xəlil və bu» kimi digər şəxslər belə ideyaya malikdirlər. Bu iki yazıçı Həzrət Peyğəmbər (s) və Əmirəl-mö'minin (ə), xüsusilə Əli (ə) barəsində onlara iman gətirmiş bir şəxs kimi .danışırlar

Corc Cordaqın danışığından belə mə'lum olur ki, o, həzrət Peyğəmbərin (s)) peyğəmbərliyi və ona vəhy gəlməsinə iman bəsləyirmiş və həmçinin Əlinin (ə) tamamilə ilahi bir şəxsiyyət olmasına inanırmış. O, həzrət Əlini Həzrət İsa (ə) ilə bir sırada tuturmuş. Amma bütün bunlara baxmayaraq o, xristianlıq dinindən əl çəkməyib. Cobran Xəlil, Əli (ə) barəsində belə deyir: «Mənim fikrimcə Əli ibni Əbu Talib dünyanın ümumi ruhu ilə əlaqədə olaraq onunla söhbət etmiş ilk ərəbdir». O, həzrət Əliyə həzrət Peyğəmbərdən (s) də çox məhəbbət bəsləyirmiş. Onun Əli (ə) barəsində çox maraqlı cümlələri var. Bu cümlə də onundur: «Əli dodaqları namaz zikr etdiyi halda öldü.» O həmçinin belə deyib: «Əli öz zamanından qabaqda olub. Mən bu sirdən baş aça «.bilmirəm ki, ruzigar nə üçün bə'zilərini öz zamanlarından qabaq yaradır

Maraqlı burasıdır ki, bu cümlə, həzrət Əlinin özünün bir cümləsinin məzmunudur. O həzrət «Nəhcül-bəlağə»nin ۱۴۹-cu xütbəsində belə buyurub: «Sabah mənim günlərimi xatırlayacaqsınız və mənim fikirlərim sizə aydınlaşacaq; məni yerim boşaldıqdan və «.orada başqası durduqdan sonra tanıyacaqsınız

Bə'ziləri soruşurlar ki, bu iki yazıçı Peyğəmbərə (s) və Əmirəl-mö'mininə (ə) belə inam bəsləyə-bəsləyə yenə də necə xristian qalıblar? Onlar əgər düz desəydilər müsəlman olardılar, bəs müsəlman olmayıblarsa, deməli burada nə isə var və Peyğəmbərə (s) və .Əliyə (ə) inam bəsləmələri barəsindəki sözlərində düzlük yoxdur

Bu iradı tutanların cavabı budur ki, onlar Peyğəmbərə (s) və Əliyə (ə) məhəbbət bəsləmələrini bildirməkdə yalan danışmırlar. Amma onlar dinlərə bağlılıq barəsində xüsusi təfəkkür tərzinə malikdirlər. Həmin şəxslər belə fikirləşirlər ki, insanlar müəyyən bir dinə bağlanmaq zərurətində deyildirlər və onların hər hansı bir dinə malik olmaları kifayətdir. Buna görə də onlar xristian olmalarına baxmayaraq,özlərini Əlinin

(ə) tərəfdar və aşiqi hesab edir və belə fikirləşirlər ki, o həzrət də onların əqidəsində olub. Corc Cordaq belə deyir: «Əli ibni Əbu Talib camaatı müəyyən bir dini qəbul etməyə məcbur etməkdən çəkinir.»

Amma biz bu ideyanı batil və puç hesab edirik. Dində icbar və məcburiyyətin olmaması «.tamamilə düzdür: «Dində məcburiyyət (zorakılıq) yoxdur

Amma bu ayə'nin mə'nası bütün zamanlarda Allahın bir neçə dininin olması və bizim istədiyimizi seçmək haqqına malik olmağımız demək deyil. Hər bir zamanda ancaq və ancaq bir haqq din var. Allah tərəfindən nə vaxt şəriət sahibi olan Peyğəmbər gəlibsə, camaat onun hidayətindən istifadə etmək və ibadətlə bağlı olan və olmayan qanun və hökmləri ondan öyrənmək vəzifəsi daşıyıblar. Bu məsələ, peyğəmbərlərin sonuncusuna kimi belə olub. İndiki zamanda da, kim Allaha tərəf yol axtarmaq .istəyirsə, o həzrətin dininin qanun və göstərişlərindən istifadə etməlidir

:Qur'ani-kərim bu barədə belə buyurur

Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və» (o şəxs axirətdə zərər çəkənlərdən olar!»(١)

Burda deyilə bilər ki, ayədəki «İslam» kələməsindən məqsəd bizim dinimiz deyil, Allaha .təslim olmaqdır

Bu e'tiraza cavab olaraq demək lazımdır ki, İslamın təslim olmaq mə'nasında olması düzdür və İslam dini təslim dinidir. Amma hər bir zamanda təslim olmağın bir forması olub və indiki zamanda təslim forması, Həzrət Məhəmmədin (s) vasitəsilə zühur etmiş .həmin dinə tabe olmaqdır və İslam kəlməsi də naçar olaraq ancaq onda gerçəkləşir

Başqa sözlə desək, Allaha təslim olmağın zərurəti Onun göstərişlərini qəbul etməkdir və mə'lumdur ki, həmişə Allahın son göstərişinə əməl etmək lazımdır və Allahın son .göstərişləri son ilahi peyğəmbərin gətirdikləridir

## İMANSIZ SALEH ƏMƏL

İndi əvvəla, bizim söhbətimizin ümumi xarakter daşıması və ayrı-ayrı şəxslər .barəsində danışmaq istəməməyimiz mə'lum oldu

İkincisi, bizim söhbətimiz haqq dinin bir və ya bir neçə olmasında da deyil. Biz haqq dinin bir din olması və hamının onu qəbul etmək məs'uliyyəti daşımasını da qəbul

.etmişik

Üçüncüsü, bəhsimiz bundadır ki, bir nəfər haqq dini qəbul etmədən haqq dinin təsdiqlədiyi və bəyəndiyi yaxşı işi görmüş olsa, həmin şəxsə gördüyü yaxşı işə görə ?mükafat veriləcək, yoxsa yox



---

.Ali-İmran-۸۵ [۸۶] -۱

Məsələn, haqq din xalqa yaxşılıq etməyi tövsiyə edərək həmin məsələni vurğulayıb. Məktəb və elmi mərkəzlər tikmək, kitab yazmaq, dərs vermək və bu kimi mədəni xidmətlər, təbabət və xəstələrə qulluq etmək və tibbi mərkəzlərin yaradılması kimi səhiyyə xidmətləri, küsənləri barışdırmaq, yoxsullar və iş qabiliyyətini əldən verənlərə kömək etmək, aşağı təbəqələrin hüquqlarını qorumaq, təcavüzkar və zor işlədənlərlə mübarizə aparmaq, məhrum siniflərin sıralarının gücləndirilməsi və peyğəmbərlərin göndərilmələrininin əsas hədəflərindən olan ədalətin bərpası, müsibət görənləri sakitləşdirmək və onlara ürək-dirək vermək və bu kimi ictimai xidmətlər hər bir din və peyğəmbərin tövsiyə etdiyi şeylərdəndir. Bundan əlavə hamının ağıl və vicdanı da bu .əməllərin gözəl və bəyənilən olmasını təsdiqləyir

İndi sual budur ki, əgər müsəlman olmayan bir şəxs bu qism xidmətlərdən etsə onun üçün ilahi mükafat var, ya yox? Haqq din insanlara düz və əmanətdar olaraq yalan danışmamağı tövsiyə edir, indi əgər müsəlman olmayan bir şəxsin əməlləri həmin göstərişlərə uyğun olsa o, mükafatlandırılacaqmı? Başqa sözlə desək, müsəlman olmayan şəxslərin xəyanət etmələri ilə sadiq olmaları arasında fərq var, yoxsa onların .bu əməlləri bərabərdir? Söhbətimizin indiki mövzusu budur

## İKİ TƏFƏKKÜR TƏRZİ

Adətən ziyalılıq iddiasında olanlar tam qətiyyətlə müsəlmanla qeyri-müsəlman və hətta təkallahlı ilə müşrik arasında heç bir fərqin olmamasını iddia edirlər. Onlar iddia edirlər ki, hər bir xeyir iş görmüş, xeyriyyəçilik, ixtira, kəşf və ya digər yolla xalqa .xidmət etmiş şəxs Allah tərəfindən savab və mükafat alacaq

Onlar deyirlər ki, Allah ədalətlidir və ədalətli Allah, bəndələri arasında ayrı-seçkilik salmaz. Allah üçün bəndəsinin Onu tanıyıb-tanımaması, iman gətirib-gətirməməsinin nə fərqi vardır? Allah heç vaxt bir bəndəsinin Onunla dostluq əlaqəsi olmamasına görə yaxşı əməlinə göz yummaz və onun savabını əsirgəməz. Allahı tanıyaraq Onun elçilərini tanımayıb onlarla tanışlıq əlaqələri və dostluq peymanlarına malik olmayan .bəndənin yaxşı əməllərini isə hədər etməz

Bunların müqabil nöqtələri təqribən bütün insanları əzaba layiq bilən digər bir qrupdur. Bu qrupun fikrincə çox az insanın qəbul olunmuş əməli və yaxşı aqibəti vardır. Bunların

çox sadə bir hesablamaları var. Deyirlər ki, insanlar ya müsəlman, ya da qeyri-müsəlmandırlar. Dünya əhalisinin dörddə üçünü təşkil edən qeyri-müsəlmanlar, müsəlman olmadıqları üçün

cəhənnəm əhlidirlər. Müsəlmanlar da ya şiə, ya da qeyri-şiədirlər. Müsəlmanların da təqribən dörddə üçünü təşkil edən qeyri-şiələr, şiə olmadıqları üçün cəhənnəmə gedəcəklər. Şiələrin əksəriyyəti, təqribən dörddə üçünün yalnız adları şiədir və onlar özlərinin ilkin və ibtidai vəzifələri olan və bütün əməllərinin düzgünlüyü ondan asılı olan müctəhiddən təqlid məsələsi ilə tanış deyildirlər. Təqlid edənlərin çoxu da əməl əhli .deyil. Buna görə də nicat əhli olan adam çox azdır

Bu iki qrupun, yə'ni biri təqribən ümumi sülh, digəri isə ilahi qəzəb nümunəsi olan və .qəzəbi rəhmətdən qabağa salan qrupların məntiqləri budur

## ÜÇÜNCÜ MƏNTİQ

Burada üçüncü bir mövqe də var və o, Qur'ani-kərimin məntiqidir. Qur'ani-kərim bu məsələdə bizə bundan əvvəl dediyimimz iki fikirdən fərqli olan yeni bir mövqe göstərir və bu üslub yalnız ilahi kitaba məxsusdur. Qur'anın nəzəri nə dırnaqarası ziyalıların puç düşüncələri ilə və nə də bizim üzdəniraq müqəddəsliyimizlə uyğun gəlir. Bu ilahi kitab xüsusi bir məntiqə əsaslanır ki, hər bir kəs onunla tanış olandan sonra bu məsələdəki düzgün sözün ondan başqa bir şey olmadığını e'tiraf edir və bu mətləb bizim bu böyük və əzəmətli kitaba olan imanımızı artırır, onun ali tə'limlərinin insanların yer kürəsi .çərçivəli fikirlərindən müstəqil və asimani olmasını göstərir

Biz indi üçüncü məntiqə, yə'ni Qur'anın bu məsələ və onun xüsusi fəlsəfəsi barəsindəki məntiqinə yaxınlaşmaq üçün bir-birinə zidd olan həmin iki qrupun, yə'ni dırnaqarası .ziyalılar və üzdəniraq müqəddəslərin dəlillərini araşdıraraq onları tənqid edəcəyik

## DIRNAQARASI ZİYALILAR

Bu qrupa daxil olanlar öz iddialarının isbatı üçün iki növ sübut, yə'ni əqli və nəqli dəlillər .gətirirlər

Əqli dəlil: Onların «kimliyindən asılı olmayaraq, hər bir kəsin yaxşı əməli . ١ .mükafatlandırılacaq» məntiqi və əqli dəlilləri iki müqəddiməyə əsaslanır

a). Allah-taalanın bütün varlıqlarla nisbəti bərabər və yeksandır. Allahın bütün zaman ,və məkanlarla da nisbəti bərabərdir. O, şərqdə olduğu kimi

qərbdə də var, yuxarıda olduğu kimi aşağıda da mövcuddur. Allah taala indiki zamanda var, keçmişdə də olub və gələcəkdə də olacaqdır. Keçmiş, indi və gələcək Allah üçün fərq etmir. Yuxarı, aşağı, şərq və qərb Onun üçün bərabər olduğu kimi, onun yaratdıqları da onun üçün yeksandırlar. Onun heç kəslə qohumluğu və xüsusi əlaqəsi yoxdur. Buna görə də Allahın bəndələrinə olan qəzəb və lütf nəzəri də yeksandır, əlbəttə bəndələrin özləri tərəfindən fərqlər mövcud olmayana qədər. (Bu sözlərin mə'nası, bütün şeylərin də Allahla bir cür nisbətə malik olmaları və onların hamısının ləyaqətinin bir olması demək deyil. Əşyaların Allahla olan nisbətləri yeksan deyil, amma Allahın onlarla olan nisbəti bərabərdir. Allah-taala bütün əşyalara bir cür yaxındır, amma əşyalar Ona yaxınlıq və uzaqlıqları baxımından bir-birlərindən fərqlənirlər. «İftitah» duasında bu barədə çox maraqlı bir cümlə var. Həmin cümlədə Allah belə vəsf edilir: «O, uzaq olduğu üçün görünməyən, yaxın olduğu üçün pıçıltıları eşidəndir.»

Əslində biz Ondan uzaq, O isə bizə yaxındır. Maraqlıdır, necə ola bilər ki, iki şey bir-birinə yaxınlıq və uzaqlıq baxımından iki müxtəlif nisbətə malik olsun? Bəli, burada belədir, Allah əşyalara yaxındır, amma əşyalar Ona yaxın deyildirlər, yə'ni müxtəlif nisbətlərlə uzaq və ya yaxındırlar.

Bu cümlədə olan maraqlı nöqtə burasıdır ki, Allahı uzaqlıqla vəsf edəndə məxluqatın sifətlərindən olan «görmək» məfhumunu ona misal gətiririk. Yə'ni heç kəs onu görə bilmir. Amma Allahı yaxınlıq sifəti ilə vəsf edəndə Onu öz sifətlərindən biri olan hüzur və agahlıq məfhumları ilə yad edirik. Söhbət bizim işimizdən gedəndə Allaha uzaqlıq, Onun işindən gedəndə isə yaxınlıq nisbəti veririk.

Sə'di gözəl deyib:

Məzmunu: Yar mənə mənim özümdən yaxındır və təəccüblüsü burasıdır ki, mən ondan uzağam; mən nə edim və kimə deyim ki, yar mənim kənarımdadır, mən isə ondan uzağam.

Buna görə də Allahın yanında heç kəs səbəbsiz əziz və ya xar deyil. Allahın heç kəslə qohumluq və ya yerlilik nisbəti yoxdur və həmçinin heç kəs Onun sevgili dürdanəsi deyil.

Allahın bütün varlıqlarla nisbəti yeksan olduğu üçün, yaxşı əməlin bir nəfərdən qəbul edilərək digərindən rədd edilməsinin heç bir dəlili ola bilməz. Əməllər yeksan olsa, onların cəzaları da yeksan olacaq. Çünki biz, Allahın bütün varlıqlarla nisbətinin yeksan olmasını fərz etmişik. Deməli ədalət, Allahın müsəlman və qeyri müsəlmanlığından asılı .olmayaraq yaxşı iş görmüş bütün insanları bərabər mükafatlandırmasını tələb edir

b). Əməllərin yaxşı və pisliyi şərti deyil, həqiqi və gerçəkdir. Kəlam və «Üsuli fiqh» alimlərinin dili ilə desək, «işlərin yaxşı və pis olmaları zatidir», yə'ni yaxşı işlərlə pis işlər bir-birlərindən zatən fərqlənirlər. Yaxşı işlər zatən yaxşı, pis işlər isə zatən pisdirlər. Düzlük, doğruluq, yaxşılıq, xalqa xidmət və sairə zatən yaxşı, yalan, oğurluq, zülm və sairə isə zatən pisdirlər. Düzlüyün yaxşı, yalanın isə pis olmasının səbəbi, Allahın onlardan birinə əmr edərək digərini qadağan etməsinə görə deyildir. Əksinə, düzlük yaxşı olduğu üçün Allah-taala onu əmr edib və yalan pis olduğu üçün onu qadağan edib. Daha qısa ifadə ilə desək, Allahın əmr və ya qadağan etməsi işlərin yaxşı və pis .olmalarının zatiliyindən asılıdır

Bu iki müqəddimədən belə bir nəticəyə gəlirik ki, Allah-taala ayrı seçkilik əhli olmadığı və yaxşı əməl onu edənin kimliyindən asılı olmayaraq yaxşı olduğu üçün, yaxşı iş .görənin mükafatlandırılması zəruri və qətidir

Pis iş görənlər və günahkarlar barəsində də məsələ dediyimiz kimidir və həmin .əməlləri görənlər arasında fərq yoxdur

Nəqli dəlil: Qur'ani-kərim özünün bir çox ayələrində yuxarıdakı əqli dəlildə dediyimiz .٢ mətləbi, yə'ni insanların yaxşı və pis əməllərinin cəza və ya mükafatlandırılması arasında ayrı-seçkilik olmamasını təsdiq edib. Qur'an, ayrı seçkilik düşüncəsinə malik olan yəhudilərlə kəskin şəkildə mübarizə edib. Yəhudilər, İsrail soyunun Allahın ən sevimli qəbiləsi olmasına inam bəsləyirdilər və indi də həmin fikirdədirlər. Onlar deyirdilər ki, biz Allahın oğulları və Onun dostlarıyıq, əgər Allah bizi cəhənnəmə aparsa da bizim orada qalmağımız çox məhdud bir müddət olacaqdır. Qur'an bu cür fikirləri «arzu» və «puç xülyalar» adlandırıb və onunla kəskin mübarizə aparıb. Qur'an bu cür yersiz qürurlara düçar olmuş müsəlmanları da tənqid edib. İndi Qur'anın bu barədə .olan bə'zi ayələrinə nəzər salaq

Onlar: «Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz» deyərlər. (Ya . ١ Məhəmməd!) Onlara söylə ki: «Siz Allahdan belə bir və'd almısınızmı? (Əgər belədirsə) ?Allah heç vaxt Öz əhdindən dönməz. Yoxsa Allaha qarşı bilmədiyinizi söyləyirsiniz

Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunun şəxslər cəhənnəmlikdirlər .və orada həmişəlik qalacaqlar

(İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar.»(۱)



---

۱- [۸۷] Bəqərə, ۸۰-۸۲.

:Bu ilahi kitab, digər bir yerdə yəhudilərin həmin xülyasına cavab olaraq belə buyurur .٢

.Onları öz dinləri barəsində düzəltdikləri uydurmalar aldadıb yoldan çıxartmışdır»

Elə isə vaqe olacağına şübhə edilməyən bir gündə (qiyamət günündə) onları (bir yerə) topladığımız zaman onların halı necə olacaq? O gün hər kəsə qazandığının (gördüyü (əməllərin) əvəzi ödəniləcək və onlara heç bir haqsızlıq edilməyəcəkdir.»(١)

:Başqa bir ayədə xristianlar da yəhudilərə əlavə edilərək birlikdə tənqid ediliblər .٣

Yəhudilər və xaçpərəstlər) dedilər: Cənnətə yəhudilərdən və xaçpərəstlərdən)» başqası girməyəcək! Bu ancaq onların xülyalarıdır. (Ya Məhəmməd!) Onlara söylə: .Əgər (bu iddianız) doğrudursa, dəlilinizi gətirin

Xeyr, onların dediyi kimi deyil, əksinə, yaxşı işlər görüb özlərini Allaha təslim edənlərin Rəbbi yanında mükafatı (əvəzi) vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və (onlar qəm-qüssə görməzlər.»(٢)

Nisa» surəsində müsəlmanlar da yəhudi və xristianlara əlavə ediliblər. Qur’an yersiz» .۴ ayrı-seçkilik düşüncəsinin kimdən olmasına baxmayaraq, kəskin tənqid atəşinə tutur. Sanki müsəlmanlar da kitab əhlinin fikirlərindən tə’sirlənərək onların, özlərini yersiz olaraq əziz sanmaları müqabilində iddialar edirlərmiş. Qur’an bu xam xəyalları puça :çıxarmaq üçün belə buyurur

Bu, (Cənnətə daxil olmaq) nə sizin, nə də kitab əhlinin arzusu ilə deyildir. Pislik edən» şəxs, onun cəzasını görəcək və o, Allahdan başqa özünə nə bir dost, nə də bir imdada !yetən tapacaqdır

Mö’min olmaqla bərabər yaxşı işlər görən kişilər və ya qadınlar Cənnətə daxil olarlar. (Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz.»(٣)

Yersiz yaxınlıq və izzətləri pisləyən ayələrdən əlavə, məzmunu Allah-taalanın heç .۵ .kəsin işinin əvəzini puça çıxarmamasını bildirən ayələr də vardır

۱- [۸۸] Ali-İmran, ۲۴-۲۵.

۲- [۸۹] Bəqərə, ۱۱۱-۱۱۲.

۳- [۹۰] Nisa, ۱۲۳-۱۲۴.

Həmin ayələr də müsəlman və qeyri-müsəlmanlığından asılı olmayaraq, hamının yaxşı .əməlinin qəbul edilməsinin dəlili hesab edilir

.Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə onun xeyrini görəcəkdir»

(Kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir.»(١

:Başqa bir yerdə isə belə buyurur

(Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!»(٢...»

:Kəhf surəsinin ٣٠-cu ayəsində isə belə buyurur

«!Biz (o cür) yaxşı işlər görənlərin mükafatını zay etmərik...»

Bu ayələrin məzmunu elədir ki, onların ümumi hökmlərini məhdudlaşdırmaq mümkün .deyil

Üsul alimləri deyirlər ki, bə’zi ümumi hökmlər məhdudlaşdırıla bilməyən və istisna qəbul edilməzdir. Yə’ni ümumi məzmun və ifadə tərzi elədir ki, onları məhdudlaşdıraraq onlara istisna qail olmaq mümkün deyil. «Biz yaxşı iş görənin əcrini zay etmirik» deməyin mə’nası budur ki, Bizim Allahlıq məqamımız yaxşı əməli qorumağımızı tələb edir. Deməli, Allahın bir yerdə Öz Allahlıq məqamından əl çəkərək .yaxşı əməlin savabını zay etməsi qeyri-mümkündür

Burada başqa bir ayə də vardır ki, bu mövzuda ona çox istinad edilir və onun .۶ .müddəanı aşkar tə’kid etməsi bildirilir

Şübhəsiz ki, iman gətirənlərdən yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha» və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə (görməzlər!»(٣

Bu ayədə qurtuluş və Allah əzabından amanda qalmaq üçün üç şərt bildirilib: Allaha və qiyamət gününə iman və bir də yaxşı əməl! Burada, dediklərimizdən başqa digər bir .şərt yoxdur

Dırnaqarası ziyalıların bə’ziləri deyirlər ki, peyğəmbərlərin hədəfi ədalət və yaxşı işlərə də’vət olub və «hədəfi tut və müqəddiməni (vasitəni) tərk et (yə’ni onun nə olmasına elə də fikir vermə)» qanununa əsasən, demək lazımdır ki, ədalət və yaxşı işlər hətta Allah və qiyamətə qarşı kafir olan insanlardan belə qəbul edilir. Buna görə də Allah və qiyaməti inkar edib bəşəriyyətə mədəni, iqtisadi, tibbi, siyasi və ictimai sahələrdə .böyük xidmətlər göstərmiş insanlar böyük mükafatlar alacaqlar



---

۱- [۹۱] ۷-۸ Zilzal.

۲- [۹۲] Tövbə-۱۲۰.

۳- [۹۳] Maidə-۶۹.

Əlbəttə, «Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə onun xeyrini görəcəkdir» və ya «Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!» kimi ayələrə istinad .edə bilirlər. Amma həmin qism ayələr onların iddialarının əksini bəyan edir

.İndi isə digər qrupun dəlillərinə baxaq

**İFRATÇILIQ**

Yaxşı əməlin, Allah dərgahında kimliyindən asılı olmayaraq, hamıdan qəbul ediləcəyini iddia edən dırnaqarası ziyalıların müqabilində dırnaqarası ifratçı müqəddəslər dayanırlar. Bunlar həmin qrupun müqabil nöqtəsi sayılırlar. Bu qrupa daxil olanlar deyirlər ki, müsəlman olmayandan hansısa əməlin qəbul edilməsi qeyri-mümkündür. Kafirlərin və şiə olmayan müsəlmanların əməllərinin bir qəpik belə dəyəri yoxdur. Kafir və şiə olmayan müsəlmanın özü rədd edilirsə, əməli özündən qabaq rədd edilməlidir. .Bu qrup da öz iddiasının sübutu üçün iki dəlil, yə'ni əqli və nəqli dəlil gətirir

Əqli dəlil: Bu qrup öz əqli dəlilində deyir ki, əgər Allah dərgahında qeyri-müsəlman və .١ ya qeyri-şiənin əməli qəbul edilirsə, onda müsəlmanla qeyri-müsəlman və həmçinin şiə ilə qeyri-şiə arasında nə fərq var? Onlar arasındakı fərq ya yaxşı əməlin müsəlman və şiədən qəbul edilməsi, qeyri-müsəlman və qeyri-şiədən isə qəbul edilməməsi, ya da müsəlman şiənin pis əməlinin cəzalandırılmaması, qalanların pis əməllərinin isə cəzalandırılması formasında olmalıdır. Amma əgər hər iki dəstənin yaxşı əməllərinə mükafat və pis əməllərinə cəza veriləcəksə, bəs onda onlar arasında nə fərq var? Belə olan təqdirdə İslam və şiəliyin tə'siri nədir? Kafirlə müsəlman və həmçinin şiə ilə qeyri-şiənin əməllərinin qiymətləndirilmə baxımından bərabər olmalarının mə'nası budur ki, .İslam və şiəlik puç və lazımsız bir şeydir

Nəqli dəlil: Bu qrup yuxarıdakı dəlildən əlavə, Qur'anın iki ayəsi və bir sıra hədislərə .٢ .də istinad edir

Bir çox rəvayətlərdə qeyri-şiənin, yə'ni Əhli-beytin vilayətini qəbul etməyənin əməlinin qəbul edilməməsi bildirildiyi kimi, Qur'anın bir neçə ayəsində də kafirin əməlinin qəbul .edilmədiyi aşkarcasına bildirilib

Mübarək «İbrahim» surəsinin ١٨-ci ayəsində Allah-taala kafirin əməlini, küləyin

.sovuraraq yoxa çıxardığı külə bənzədib

Rəbbini inkar edənlərin (dünyadakı yaxşı) əməlləri fırtınalı bir gündə küləyin sovurub »

(apardığı külə bənzəyir. Onlar (dünyada

səh:۲۰۴

etdikləri əməllərdən heç bir fayda (savab) əldə edə bilməzlər. Budur (haqq yoldan) azıb «...!uzaqlaşmaq

Mübarək «Nur» surəsinin ۳۹-cu ayəsində isə kafirlərin əməlləri uzaqdan baxanda suya .oxşayan, amma yaxından baxanda heç nə olmayan ilğıma bənzədilib

Həmin ayədə deyilir ki, gözləri qamaşdıran və bə’zi avamların gözündə, hətta peyğəmbərlərin xidmətlərindən də böyük olan xidmətlər, əgər Allaha imanla birgə :olmasa puçdur və ilğım kimi, xülyadan başqa bir şey deyil. Ayənin mətni belədir

Allahın vəhdaniyyətini danan, Qur’anı yalan hesab edən) kafirlərin əməlləri ucsuz-)» bucaqsız çöldəki (səhradakı) ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O öz əməlinin yanında ancaq Allahın cəzasını tapar. Allah da onun cəzasını (layiqincə) verər. Allah tezliklə «.haqq-hesab çəkəndir

Bu, kafirlərin nəzərə yaxşı gələn əməllərinin misalıdır. Aman onların pis əməllərinin !əlindən! Vay onların halına

:Sonrakı ayədə onun misalını belə oxuyuruq

Yaxud onların əməlləri əngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın» üstündən bir dalğa, bu (ikinci) dalğanın üstündən də bir dalğa zülmət üstündən zülmət örtər. O, əlini çıxartdıqda, demək olar ki, onu görməz. Allah bir kəsə işıq verməsə, onun «.işığı olmaz

Bu ayəni əvvəlki ayənin kənarına qoyanda belə bir nəticə əldə edilir ki, kafirlərin yaxşı əməlləri aldadıcı zahirlərinə baxmayaraq, əsası olmayan ilğımdır və onların pis .əməlləri şər üstündən şər, zülmət üstündən zülmətdir

.Həmin ayələr, kafirlərin əməlinin vəziyyətini aydınlaşdırır

Şiələrin nəzərində, qeyri-şiənin əməlinin vəziyyətini Əhli-beytdən (ə) nəql edilmiş .hədislər aydınlaşdırır

Bu barədə çoxlu hədislər nəql edilib və maraqlananlar «Kafi» kitabının birinci cildi

«Kitabul-höccə», ikinci cildinin «kitabul-iman vəl-kufr» fəsillərinə və «Vəsailuş-şiə» və «Müstədrəkul-vəsail» kitabının birinci cildlərinin «müqəddimatul-ibadət» fəsillərinə, «Biharul-ənvar» kitabının ١٨-ci fəslinin məad bəhsləri və qədim çapının yeddinci cildinin .٢٢٧-ci fəsli, ١٥-ci cildinin əxlaq hissəsinin ١٨٧-ci səhifəsinə müraciət edə bilərlər

:Biz nümunə üçün «Vəsailuş-şiə» «kitabından bir rəvayət nəql edirik

Məhəmməd ibni Müslim deyir ki, imam Baqirin (ə) belə buyurduğunu eşitdim: Əgər» kimsə Allaha ibadətdə özünü əziyyətə salsa, amma Allahın

ona tə’yin etdiyi imama bağlı olmasa, əməli qəbul deyil və özü də yolunu azmış və sərgərdandır və Allah onun əməlini düşmən bilir. Əgər həmin şəxs bu halda ölsə, onun ölümü İslam ölümü deyil, küfr və nifaq ölümüdür. Ey Məhəmməd ibni Müslim, bil ki, zülm başçıları və onların davamçıları Allah dinindən xaricdirlər, özləri yollarını azıblar və başqalarını da azdırıblar. Onların yerinə yetirdikləri əməllər tufanlı bir gündə küləyə düçar olan kül kimidir ki, hazırladıqları şeydən heç nə əldə etməzlər, budur əsaslı (azğınlıq.»(۱)

.Bu, səadət və xoşbəxtliyin əsasını iman və e’tiqad hesab edənlərin dəlilləri idi

Bəzən, bu qrupa daxil olanların bəziləri ifrata vararaq ancaq iman iddiasını, daha doğrusu hökm çıxarmaq üçün mənsubiyyət məsələsini sırf meyar hesab edirlər. Məsələn Mürciə, Bəni-üməyyənin hakimiyyəti zamanı həmin fikri təbliğ edirmiş. Xoşbəxtlikdən Bəni-üməyyənin kökünün kəsilməsi ilə onların da kökləri kəsilib. Həmin əsrdə Əhli-beytdən (ə) ilham alan şiə təfəkkürü Mürciənin müqabil nöqtəsi olub, amma bədbəxtlikdən son əsrlərdə Mürciənin fikirləri başqa bir formada avam şiələrin arasına da nüfuz edib. Şiələrin avam kütələsinin bir qrupu, Əmirəl-mömininə zahirdə də bağlı olmağı nicat tapmaq üçün yetərli hesab edirlər. Bu fikir, şiəliyin son əsrlərdəki çətinliklərinin əsas amili sayılır. Son əsrlərin dırnaqarası dərviş və sufiləri dini hökmlərə əməl edilməsini başqa yollarla təhqir edirlər. Onlar qəlbin saflığı məsələsini əllərində şüar ediblər, halbuki qəlbin həqiqi saflıq və paklığı əmələ zidd bir şey deyil, əməlin .yerinə yetirilməsinin təşviq və təsdiq edicisidir

Bunun müqabilində əməlin dəyərini həddindən artıq şişirdərək böyük günahlara mürtəkib olanı da kafir hesab edənlər meydana çıxıblar. Xəvaric belə əqidəyə malik olub. Mütəkəllimlərin bə’ziləri böyük günaha mürtəkib olanı nə kafir və nə də mö’min .hesab edir, həmin şəxsin iki mənzil arasında yerləşdiyini deyirdilər

İndi bu nəzəriyyələrin hanısının düz olmasını araşdıraq. Görəsən ancaq e’tiqadın əsas olmasını vurğulayan nəzəriyyənin tərəfdarı olmaq lazımdır, yoxsa əməlin əsaslığına ?təkid edən nəzəriyyənin? Yoxsa burada üçüncü bir mövqe də var

.İndi iman və e’tiqadın dəyəri bəhsinə başlayaq

---

۱- [۹۴] ۹۰ Vəsailuş-şiə; ۱-ci cild, birinci hissə; səh..

## İMANIN DƏYƏRİ

:İmanın dəyəri barəsində üç mərhələdə danışmaq lazımdır

Görəsən tövhid, nübüvvət və məad — şiəliyə görə bunlardan əlavə imamət və ədl — .١ kimi dini əsaslara iman və e’tiqadın olmaması bütün şəraitlərdə (səbəbindən asılı olmayaraq) ilahi əzaba səbəb olacaqmı? Yoxsa bə’zi imansızların üzürlü olmaları və ?imansızlıqlarına görə cəzalandırılmamaları mümkündür

Görəsən iman, yaxşı əməlin qəbul edilməsinin zəruri şərtlərindəndir və heç bir qeyri- .٢ ?müsəlman və hətta qeyri-şiənin xeyir əməli qəbul edilməyəcək

?Görəsən Allahı inkar etmək əməllərin məhv olaraq aradan getməsinə səbəb olur .٣

.Gələn bəhslərdə bu üç mərhələnin araşdıracağıq

## KÜFRÜN CƏZASI

Küfrün iki növ, yə’ni birinin inadkarlıq, digərinin isə nadanlıq və həqiqətlə tanış olmamaq ucbatından olmasında heç bir şəkk-şübhə yoxdur. Qəti əqli və nəqli dəlillərdə bildirilir ki, haqqa qarşı bilərəkdən inadkarlıq edən və onu başa düşərək inkar edən şəxs əzaba layiqdir. Amma ikinci növ küfr barəsində demək lazımdır ki, əgər həmin nadanlıq və cahillik təqsir və səhlənkarlıq üzündən olmasa, həmin şəxs Allahın .əfv və bağışlamasına nail olacaq

Bu məsələni izah etmək üçün bir az təslim və inadkarlıq barəsində danışmaq lazımdır. :Qur’ani-kərim buyurur

!O gün ki nə mal-dövlət, nə də övlad bir fayda verər»

Ancaq sağlam, təmiz (daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir (qəlblə Allahın hüzuruna gələn kimsədən (mö’minlərdən) başqa!...»(١

## TƏSLİMİN DƏRƏCƏLƏRİ

Qəlbin sağlamlıq və saflığının əsas şərti onun həqiqət müqabilində təslim olmasıdır. .Təslimin üç mərhələsi - bədənin, əqlin və qəlbin təslim olma mərhələləri vardır

İki rəqib bir-biri ilə döyüşəndə onlardan məğlub olacağını hiss edənin təslim olması mümkündür. Belə hallarda adətən məğlub olan tərəf əllərini



---

۱- [۹۵] ۸۸-۸۹ Şüəra.

təslim əlaməti olaraq yuxarı qaldırır, döyüşdən əl çəkir və qarşı tərəfə tabe olur, yə’ni
.onun göstəriş verdiyi kimi hərəkət edir

Təslimin bu növündə insanın cism və bədəni təslim olur, amma fikir və düşüncəsi təslim olmur və hətta, fikrində bir daha döyüşdüyü tərəfə qalib gəlməyin yolları barəsində fikirləşir. Onun əql və fikrinin vəziyyəti belə olur. O, daxili hiss və duyğuları baxımından da həmişə düşmənə nifrin edir. Təslimin, daha doğrusu bədənin təslimi
.olan bu növü gücün ələ ala bildiyi ən son nöqtədir

Təslimin digər mərhələsi, əql və fikrin təslim olmasıdır. Əqli təslim edə bilən qüdrət və güc, məntiq və deduksiya qüdrətidir. Burada fiziki güc heç bir rol ifa etmir. Heç vaxt şagirdi döyməklə ona riyazi tənlikləri başa salmaq olmaz. Riyazi məsələləri ancaq deduksiya yolu ilə başa salmaq lazımdır və onun başqa yolu yoxdur. Əql və düşüncəni də fikir və deduksiya ilə fəth edərək ələ almaq olar. Əgər kifayət qədər dəlil mövcud olsa və onlar əqlə təqdim edilsə və o, həmin dəlilləri başa düşsə, dünyanın bütün güc
.və qüdrətləri onun təslim olmamasını tapşırsalar belə, təslim olacaq

Deyirlər ki, Qalileyə yer kürəsinin hərəkəti və günəşin mərkəz olması fikrinə görə işgəncə verəndə, yandırılmaq qorxusundan öz elmi nəzəriyyəsindən tövbə edib və həmin halda yerə nə isə yazıb. Baxıb görüblər ki, o, yerə bu cümləni yazıb: «Qalileyin
«.tövbəsi ilə yer kürəsi öz hərəkətini dayandırmayacaq

Güc insanı dildə öz sözündən dönməyə vadar edə bilər, amma insanın fikri, məntiq və
.dəlil gücü ilə qarşılaşmayınca təslim olmur

De ki: (Ey müşriklər!) Əgər (Allah barəsindəki iddialarınızda) haqlısınızsa, dəlilininzi...»
(gətirin!»(١)

Təslimin üçüncü mərhələsi qəlbin təslim olmasıdır. İmanın həqiqəti də məhz, qəlbin təslim olmasıdır. Əgər dil və fikrin təslimi qəlbin təslimi ilə birgə olmasa, ona iman deyilməz. Qəlbin təslim olması insanın bütün vücudunun təslim olması və hər bir
.inadkarlıq və inkarın rədd edilməsidir

Ola bilər ki, bir nəfər müəyyən fikir müqabilində hətta əqli və məntiqi baxımdan təslim

olsun, amma onun ruhu təslim olmasın. İnsan təəssübkeşlik ucbatından inadkarlıq edəndə və ya şəxsi mənafeyinə görə həqiqətə təslim olmayanda onun əql, fikir və düşüncəsi təslim olur, amma



---

۱- [۹۶] ۶۴-Nəml.

ruhu inadkar olaraq qalır və təslim olmur. Buna görə də onun imanı olmur, çünki .imanın həqiqəti qəlb və ruhun təslim olmasıdır

:Allah-taala Bəqərə surəsinin ٢٠٨-ci ayəsində belə buyurur

Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə» «...getməyin

!Yə’ni ruhunuz əqlinizlə müharibə etməsin, duyğularınız dərkinizlə vuruşmasın

Şeytanın, Qur’anda nəql edilmiş əhvalatı qəlbin küfrü, əqlin isə təslim olmasına bir nümunədir. Şeytan Allahı tanıyır, qiyamətə e’tiqad bəsləyir, peyğəmbərlər və onların vəsilərini tamamilə qəbul edir və onların məqamlarını e’tiraf edirdi, amma bütün :bunlara baxmayaraq, Allah-taala onu kafir adlandıraraq belə buyurub

(Yalnız) o (Şeytan) lovğalanaraq imtina etdi və kafirlərdən oldu.»(١)...»

Qur’an baxımından şeytanın Allahı tanımasının dəlili, bu ilahi kitabda aşkarcasına :onun, Allahın Xaliq olmasını e’tiraf etməsidir

(Sən məni oddan, onu isə palçıqdan yaratdın!..»(٢....»

:Qiyamətə e’tiqad bəsləməsinin dəlili isə budur

(Mənə qiyamətə kimi möhlət ver!»(٣...»

:Şeytanın peyğəmbərlər və mə’sumları tanımasının dəlili isə onun belə deməsidir

İblis) dedi: Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını)» ;(haqq yoldan) azdıracağam

(Yalnız Sənin sadiq bəndələrindən başqa!»(٤

Təkcə əməlləri deyil, hətta bütün vücudları Allahdan başqasından pak və azad olan sadiq bəndələrdən məqsəd, Allah övliyaları və günahlardan pak olanlardırlar. Şeytan, .onları tanıyır və onların günahlardan pak olmalarına e’tiqad bəsləyirdi

Qur’an, şeytanı bütün bunları tanıyan bir varlıq kimi təqdim etdikdən sonra onu kafir adlandırır. Deməli, buradan belə mə’lum olur ki, təkcə tanımaq və agah olmaq kifayət etmir, yə’ni hər hansı bir varlığın mö’min kimi tanınması üçün onun fikir və idrakının .təslim olması yetərli deyil. Bunun üçün başqa bir şey lazımdır



---

.Bəqərə-۳۴ [۹۷] -۱

.Ə’raf-۱۲ [۹۸] -۲

.Ə’raf ۱۴ [۹۹] -۳

.Sad ۸۲-۸۳ [۱۰۰] -۴

Qur’an məntiqi baxımından şeytanın bütün bu agahlıqlarına baxmayaraq, kafir hesab ?edilməsinin səbəbi nədir

Cavab mə’lumdur. Çünki şeytanın dərk etmə qüvvəsinin həqiqəti qəbul etməsinə baxmayaraq, onun hiss və duyğuları döyüşə qalxdı, qəlbi əqlinin dərki müqabilində üsyan etdi və həqiqəti qəbul etməkdən imtina edərək təkəbbürlük göstərdi. Bəli onun .qəlbi təslim olmadı

## HƏQİQİ REGİONAL İSLAM

Biz adətən «filankəs müsəlmandır və ya müsəlman deyil» deyəndə, məsələnin həqiqətinə nəzər salmırıq. Coğrafi baxımdan müəyyən bir bölgədə yaşayan və valideynlərindən təqlid və ya irsi cəhətdən müsəlman olanları müsəlman, digər şəraitdə yaşayanlar və ata-analarından təqlid nəticəsində başqa dinlərdə olanları və .ya heç bir dində olmayanları isə qeyri-müsəlman adlandırırıq

Amma bilmək lazımdır ki, bu cəhət istər müsəlman olmaqda, istərsə də müsəlman olmamaq və ya kafir olmaqda elə də dəyərə malik deyil. Bizim çoxumuz təqlid və region müsəlmanıyıq. Belə ki, bizim çoxumuzun müsəlman olmağımızın səbəbi, ata-anamızın müsəlman olması və əhalisi müsəlman olan bölgədə dünyaya gələrək böyüməyimizdir. Həqiqi dəyərə malik olan şey isə, real İslamdır və o, insanın həqiqət müqabilində qəlbən təslim olması, haqqı qəbul edərək ona əməl etməsi üçün ürək qapısını həqiqətin üzünə açması, qəbul etdiyi İslamın bir tərəfdən araşdırma və tədqiq, .digər tərəfdən isə təslim və təəssübkeşsizliyə əsaslanmasıdır

Əgər kimsə təslim sifətinə malik olsa, amma İslamın həqiqəti müəyyən səbəblərdən ona gizli qalmış olsa və o, haqq olan dini öyrənə bilməməkdə günahsız olsa, Allah-taala ona heç vaxt əzab verməz və həmin şəxs cəhənnəmdən nicat tapanlardandır. Allah-:taala Qur’anda belə buyurur

(Biz peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik.»(١...»

Yə’ni, həkim və kərim olan Allahın höccəti tamamlanmamış kimsəyə əzab verməsi qeyri-mümkündür. Üsul alimləri bu ayənin əqlin hökmünü təsdiqləyən məzmununu «bəyan edilməyən şeyə görə cəzalandırmanın qəbahət olması» qaydasına əsasən

deyirlər ki, Allahın, bir həqiqəti açıqlamayınca bəndələrə əzab verməsi xoşagəlməz bir .işdir



---

.İsra ۱۵ [۱۰۱] -۱

Adlarının müsəlman olmamasına baxmayaraq, təslim ruhuna malik olan insanların olmalarının mümkünlüyünə fransız filosofu Dekart — əlbəttə onun öz sözlərinə əsasən .— yaxşı nümunədir

Onun tərcümeyi-halında yazıblar ki, o, öz fəlsəfəsini şəkkdən başlayıb və özünün bütün mə’lumatlarında şəkk edərək hər şeyi sıfırdan başlayıb. Öz fikir və düşüncəsini «.başlanğıc nöqtəsi seçərək belə deyib: «Mən fikirləşirəm, deməli varam

O, öz vücudunu sübut etdikdən sonra, ruhu isbat edib və həmçinin cism və Allahın mövcudluğuna qəti inam əldə edib. Yavaş-yavaş din seçməyə başlayıb və yaşadığı .ölkədə rəsmi din olan xristianlığı qəbul edib

Amma o, çox maraqlı bir nöqtəyə toxunaraq deyir: «Mən xristianlığın dünyada ən yaxşı din olmasını iddia etmirəm. Mənim üçün araşdırılması mümkün olan dinlər arasında bu dinin münasib olmasını deyə bilərəm. Mən həqiqətlə vuruşmuram, dünyanın başqa «.yerlərində xristianlıqdan da üstün bir din ola bilər

O, elə xəbərsiz olduğu və əhalisinin din və məzhəbinin nə olmasını bilmədiyi ölkəyə misal olaraq İranın adını çəkib. Dekart bu barədə belə deyib: «Mən nə bilirəm? Bəlkə «!?də, məsələn İranda xristianlıqdan üstün olan bir din var

Belə adamları kafir adlandırmaq olmaz, çünki onlar inadkarlıq göstərmir və aşkarcasına küfr etmirlər. Onlar həqiqəti ört-basdır etmək istəmirlər. Küfrün mahiyyəti isə inadkarlıq və həqiqəti ört-basdır etmək meylindən başqa bir şey deyil. Bunlar fitrət və təbiətləri baxımından müsəlmandırlar. Bəli, bunları müəyyən mə’nada müsəlman adlandırmaq mümkün olmasa da, kafir də adlandırmaq olmaz. Çünki müsəlmanla kafirin bir-birinin qarşısında dayanması məntiq və fəlsəfədə müsbətlə mənfinin bir-birinin qarşısında dayanması kimi deyil. Bunların bir-birlərinin müqabilində dayanmaları təzadların qarşılaşması kimidir, yə’ni biri varlıq, digəri isə yoxluq olan iki şeyin bir-birinin müqabilində dayanması kimi deyil, hər ikisi varlıq olan .şeylərin bir-birləri ilə qarşılaşması kimidir

Əlbəttə, Dekartı misal çəkməyimiz, əvvəldə qeyd etdiyimiz qaydadan uzaqlaşmağımız demək deyil. Biz əvvəldə ayrı-ayrı şəxslər barəsində fikir söyləməməyi qərara

almışdıq. Amma burada Dekartı misal çəkməkdən məqsədimiz bu idi ki, biz onun sözlərinin düz olmasını, həqiqət müqabilində doğrudan da dediyi qədər təslim olmasını və digər tərəfdən həqiqətən araşdırma aparmaq imkanına malik olmamasını fərz .etsək o, fitri bir müsəlman sayıla bilər

## SAF NİYYƏT ƏMƏLİN QƏBUL OLMA ŞƏRTİDİR

İmanın dəyəri barəsində irəli sürdüyümüz digər bir sual budur ki, görəsən əməlin Allah ?dərgahında qəbul olunub-olunmamasında imanın rolu var yoxsa yox

Kafirlərin xeyir əməllərinin Allah dərgahında qəbul olunacağını deyənlərin dəlillərini nəql edəndə qeyd etdik ki, onlar deyirlər: Əməllərin yaxşı və pis olması zati olduğu üçün yaxşı əməl mö'min və kafir tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq yaxşıdır və o, Allah dərgahında mütləq qəbul olunmalıdır, çünki yaxşı iş yerinə yetirənin kimliyindən asılı olmayaraq yaxşı, pis isə pisdir və digər tərəfdən Allahın bütün .bəndələri ilə münasibəti birdir

Biz indi deyirik ki, həmin dəlildə gətirilən mətləblər düzdür, amma burada yaddan çıxan bir məsələ var və biz onu bəyan etmək üçün üsul elminə aid olan terminlərdən birini izah etmək məcburiyyətindəyik və o, yaxşı və pisliyin iki növ – fe'li və faili – .olmasıdır

Hər bir əməlin iki cəhəti var və onun cəhətlərinin hər biri yaxşı və pis olmaq baxımından özünəməxsus xüsusiyyətə malikdir. Hər hansı bir əməl, həmin cəhətlərin biri baxımından yaxşı, digəri baxımından isə pis ola bilər. Bunun əksi də mümkündür. .Həmçinin hər hansı bir əməlin hər iki cəhətdən də yaxşı və ya pis olması mümkündür

Bu iki cəhət əməlin xarici aləm və insan cəmiyyətindəki xeyirli və ya ziyanlı tə'sir dairəsi və əməlin, failin özünə bağlılığı və amili, hədəfə çatmaq üçün həmin əməli .yerinə yetirməyə sövq edən nəfsi və ruhi maraqlarından ibarətdir

Birinci cəhətdə əməlin xeyirli və ya ziyanlı tə'sirinin əhatə dairəsinə, ikincidə isə əməlin fikir və ruhi baxımdan da hərəkət edərək hansı məqsədə doğru getməsinə baxmaq .lazımdır

İnsanların əməlləri, xeyirli və ya ziyanlı tə'sirlərinin əhatə dairəsi baxımından tarixin dəftərində qeyd edilir və tarix, onun barəsində hökm verir, onu ya pisləyir ya da tə'rifləyir. Amma bəşəriyyətin ruhuna mənsub olması baxımından, yalnız uca mələkuti dəftərdə qeyd edilir. Tarix dəftəri sitayiş olunmaq üçün böyük və tə'sirli əməllər istəyir. .Amma uca və ilahi mələkuti dəftər, bundan əlavə canlı əməli soraqlayır

:Qur’an buyurur

səh:۲۱۲

Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı» (yaradan Odur...»(1)

Gördüyünüz kimi Qur'an «ən çox» deyil, «ən yaxşı» əməl deyib, çünki əsas məsələ bizim ruhi amillərin tə'siri altında bir sıra hərəkət və davranışdan ibarət olan və bir sıra ictimai tə'sir və dəyərlərə malik bir iş görəndə, mə'nəvi cəhətdən də hansı istiqamətdə .getməyimizi və hərəkətdə olmağımızı bilməyimizdir

Bəli, mövzu «əsas məsələ əməl, iş və sərf edilən əzələ enerjisidir, düşüncə və niyyətlər əməl üçün müqəddimə olmaq dəyərinə malikdir, onların hamısı zehni və müqəddimə xarakteri daşıyan şeylərdir və əsas məsələ əməldir, müqəddimə hər nə cür olsa olar!?» demək o qədər sadə deyil. Fikir və niyyətin əhəmiyyəti əməlin özündən az deyil. Əməli əsas sayan, niyyət və əqidəni əsil məsələ hesab etməyən və ona yalnız müqəddimə olmaq dəyəri verən bu düşüncə və fikir, maddi bir təfəkkürdür. Bu məktəbin puç olması aydın bir məsələdir və qəti məsələlərdən biri budur ki, Qur'an maarifini bu cür .təfəkkür tərzi ilə izah etmək olmaz

Qur'an baxımından gerçək şəxsiyyət və həqiqi «mən» bizim ruhumuzdur. Bizim ruhumuz hər bir ixtiyari əməl ilə qüvvədən fe'liyyətə doğru addımlayır və öz iradə, hədəf və məqsədinə uyğun tə'sir və xüsusiyyət əldə edir. Bu tə'sir və xüsusiyyətlər .şəxsiyyətimizin bir hissəsinə çevrilir və bizi, varlığın münasib aləminə aparır

Deməli, fe'li yaxşı və pislik və ya işlərin yaxşı və pisliyi, birinci cəhət baxımından həmin əməlin xarici tə'sirinə bağlıdır. Faili baxımdan yaxşılıq və pislik və ya ikinci cəhətdən olan yaxşılıq və pislik isə həmin əməli yerinə yetirənin onu yerinə yetirməsi keyfiyyətindən asılıdır. Biz birinci cəhətdə əməlin xarici və ictimai nəticələrinə, ikincidə .isə onun, həmin əməli yerinə yetirənin öz ruh və batininə etdiyi tə'sirə nəzər salırıq

Məsələn, biri xəstəxana tikirsə və ya hansısa bir ölkənin mədəniyyət, səhiyyə və iqtisadiyyat sahələrinin birində xeyirxah bir iş görürsə, onun həmin işinin ictimai və tarixi baxımdan xeyir olmasında heç bir şəkk-şübhə yoxdur. Belə ki, həmin iş Allah bəndələrinin xeyrinədir. Bu cəhətdən həmin şəxsin xəstəxana tikməkdən və ya xeyriyyə müəssisəsi yaratmaqdan məqsədinin nə olması fərq etmir. Burada onun həmin işdən məqsədinin istər riyakarlıq, öz nəfsani istəklərini qane etmək, özünü

göstərmək, istərsə də ali, insani və qeyri-maddi olması fərq etmir. Hər halda ictimai baxımdan



---

۱- [۱۰۲] ۲-Mulk.

bir xeyriyyə müəssisəsi yaranıb. Tarix həmişə insanların əməlləri barəsində bu cəhətdən hökm çıxarır. Tarix heç vaxt insanların niyyətlərini nəzərə almır. Məsələn, İsfahan şəhərində olan me’marlıq abidələrindən söhbət gedəndə Şeyx Lütfullah və Şah Abbas məscidlərini tikən şəxsin niyyətinin nə olması ilə heç kəsin işi olmur. Tarix gözlərini yumaraq işin adını xeyirli əməl qoyur.

Amma faili cəhətdə, işin ictimai və xarici tə’sirləri nəzərə alınır. Burada əməlin, onu görənlə əlaqəsinə diqqət edilir və həmin işin xeyirli əməl sayılması üçün onun xeyir olması kifayət etmir. Bu cəhətdən həmin işi görən şəxsin bu işi hansı niyyət və məqsədlə və hansı hədəfə çatmaq üçün yerinə yetirməsi nəzər alınır. Əgər fail yaxşı niyyət və hədəfə malik olubsa və həmin xeyir işi xeyir niyyətlə yerinə yetiribsə, iş xeyirli sayılır, yə’ni onun işi faili yaxşılığa və hər iki cəhətə malikdir və o, iki cəhətin ikisində də müsbətdir. Belə ki, o, həm tarixi və ictimai insan həyatı istiqamətində və həm də mə’nəvi və taləkuti istiqamətdə hərəkət edib. Amma birdən həmin şəxs bu işi riya və ya maddi mənfəət əldə etmək üçün görübsə, onun işi bir cəhətlidir və o, tarix və zaman istiqamətində irəliləyib, amma mə’nəvi və mələkuti cəhətdə hərəkət etməyib. Başqa ifadə ilə desək, onun əməli yüksələn xətt üzrə olmayıb və ya həmin şəxs cəmiyyətə xidmət edərək onu ucaldıb, amma özünə heç nə etməyib və bəlkə də özünə xəyanət edib. Onun ruhu bu əməl ilə ucalmaq əvəzinə, tənəzzülə uğrayaraq öz mövqeyini itirib.

Əlbəttə, bu sözlərdən məqsədimiz fe’li yaxşılıqla faili yaxşılığın bir-birindən tamamilə ayrı olması və insanın ruhi və mə’nəvi təkamülü üçün, xeyirli ictimai işlərlə məşğul olmaması deyil. Məqsədim budur ki, xeyirli ictimai iş, ruhi və mə’nəvi təkamül baxımından o vaxt xeyirlidir ki, ruh həmin əməl yerinə yetiriləndə mə’nəvi səfər etsin, xudxahlıq və eqoistlik mənzilindən çıxaraq saflıq mənzilinə qədəm bassın.

Fe’li və faili yaxşılığın bir-birinə nisbəti bədənin ruha olan nisbəti kimidir. Canlı varlıq ruh və bədəndən ibarətdir. Əməlin fe’li yaxşılığının «peykərdə canlanma»sı və həyat əldə etməsi üçün fe’li yaxşılığın olması gərəkdir.

Buna görə də dırnaqarası ziyalıların «Allahın bütün məxluqlarla münasibəti yeksandır; əməllərin yaxşı və pisliyi zatidir; əməlin xeyirli olmasında onu edənin kimliyi fərq etmir

və bu yeksanlıq mö’minlə qeyri-mö’minin mükafatının fərq etməməsini tələb edir» kimi sözləri, səhv və qəbul edilməzdir. Onlar bu nəzəriyyədə əməlləri və Allahın məxluqları ilə bərabər münasibətini nəzərdə tutublar, amma əməllərin yeksan olmamalarına səbəb olan və onlar arasında ölü ilə dirinin fərqi qədər fasilə yaradan amil və onun şəxsiyyəti, hədəf və məqsədi və onun ruhi və mə’nəvi

seyrini unudublar. Deyirlər Allah üçün xeyir iş görənin Onu tanıyıb-tanımaması, Allah üçün həmin şəxsin onunla tanış olub-olmaması, işi Onun razılığı üçün və ya başqa məqsədlə etməsi nə fərq edir? Niyyətin Allaha yaxınlaşmaq və ya başqa şey olması nə ?deməkdir

Bütün bunların cavabı budur ki, bəli, həmin şeylər Allah üçün fərq etmir, amma həmin şəxsin özü üçün fərq edir. O, Allahı tanımasa və Onunla tanış olmasa bir cür ruhi hərəkət edir, Allahı tanıyanda isə başqa cür! O, Allahı tanımayanda bir cəhətli iş görür və əməli ancaq fe'li və tarixi dəyər əldə edir. Amma Allahı tanıyanda iki cəhətli iş görür və əməli faili yaxşılıq da qazanır. O, Allahı tanıyanda həm özü və həm də əməli Allaha tərəf gedir, tanımayanda isə yüksəlmir. Əməl, fərzlərin birində canlı və yüksələn, .digərində isə ölü və tənəzzülə uğrayan olur

Onlar deyirlər ki, «Ədalətli və həkim Allah heç vaxt bəndəsi onunla dost olmadığı üçün, «!onun yaxşı əməllərinin üstündən qara xətt çəkməz

Allahın qara xətt çəkməməsinə biz də e'tiqad bəsləyirik, amma gərək bu məsələyə nəzər salaq ki, həmin şəxs Allahı tanımayanlardan olanda o, həm yaxşı tə'sirə və həm də yaxşı əlaqəyə malik olan, həm ictimai və həm də ruhi baxımdan yaxşı iş görə bilər, ya bilməz? Bütün səhvlər bizim hər hansı bir əməlin yaxşı və xeyirli olması üçün onun ictimai cəhətdən faydalı olmasını qənaətbəxş hesab etməyimizdən yaranıb. Aydındır ki, bir nəfər Allahı tanımasa və öz xeyir əməli ilə Allaha tərəf getsə, Allah onu geri qaytarmaz. (Əlbəttə bu qeyri-mümkün olan bir fərzdir.) Amma həqiqət budur ki, Allahı tanımayan pərdəni aradan götürə bilmir, nəfsin növlərini keçmir, ilahi mələkuta doğru getmir və buna görə də onun əməli o biri aləmlik olmur, mələkuti cəhət tapmır və onun həmin dünyada ləzzət, şadlıq, sevinc və xoşbəxtlik qazanması üçün lazım olan şəklə .düşmür

İlahi qanunlarla bəşəri qanunlar arasında olan əsaslı fərqlərdən biri budur ki, ilahi qanunlar ikicəhətli, bəşəriyyətin düzəltdiyi qanunlar isə bircəhətlidir. İnsanların düzəltdikləri qanunlar şəxsin ruhi vəziyyəti və mə'nəvi təkamülünü nəzərə almır. Hər hansı bir dövlət ölkənin mə'nafeyini nəzərə alaraq vergi qanunu düzəldəndə, məqsədi yalnız pul əldə edərək dövlət büdcəsini tə'min etmək olur. Dövlət vergi verənin

niyyətinin nə olmasını, onun vergini ölkəyə canı yandığı və ya qorxudan verməsini nəzərə almır. Dövlətin məqsədi ancaq pul toplamaq olur. Hətta əgər vergini verən .şəxs ürəyində dövləti söysə belə, dövlətin hədəfi tə’min edilmiş olur

Həmçinin ölkəni qorumaq üçün əsgərləri bir bayraq altında toplayanda həmin əsgərlərin niyyətlərinin nə olmasını nəzərə almır. Dövlət əsgərin döyüş meydanında düşmənlə vuruşmasını istəyir və onun üçün əsgərlərin

ürəkdən, arxasında olan avtomat qorxusundan, özünü göstərmək və ya qəhrəmanlıq üçün, təəssübkeşlik üzündən və ya öz haqqını və həqiqəti qorumaq üçün vuruşmaları .fərq etmir

Amma Allah qanunlarında məsələ belə deyil. Bu qanunlarda vergi və əsgərlik mütləq deyil, saf və Allaha yaxınlaşmaq niyyəti ilə istənilib. İslam ruhsuz deyil, ruhu olan əməl istəyir. Buna görə də əgər müsəlman zəkat versə, amma onun niyyətində riyakarlıq olsa, həmin zəkat Allah dərgahında qəbul edilmir. Həmçinin cihada getsə, amma onun məqsədi özünü göstərmək olsa, yenə də qəbul deyil. İlahi qanun məcburi əsgərin heç nəyə yaramamasını bildirir. İslam deyir ki, mən ruhi cəhətdən əsgər olan və «Allah şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən mö’minlərin canlarını və mallarını Tövratda, İncildə və Qur’anda haqq olaraq və’d edilmiş Cənnət müqabilində (satın almışdır...»(١)

Şiə və sünni mənbələrində mütəvatir olan rəvayətlərin birində Peyğəmbərdən(s) belə :nəql edilib

.«İşlər niyyətlərə bağlıdır»

.«hər bir şəxs niyyətindəkini alacaqdır»

.«Niyyətsiz heç bir əməl qəbul deyil»

:Digər bir hədisdə isə belə nəql edilib

Həqiqətən əməllər niyyətlərə bağlıdır. İnsan qəsd edərək hədəf seçdiyi şeyi əldə» edəcəkdir. Kim Allah və Onun Peyğəmbərinə görə hicrət edibsə, hicrəti Allah və Peyğəmbərə tərəfdir. Kim evlənmək istədiyi arvad və ya əldə etmək istədiyi sərvətə .«görə hicrət edibsə, onun hicrəti həmin şeyə tərəfdir

İmam Sadiq (ə) belə buyurub: «İşlərinizi camaata görə deyil, Allaha görə edin, çünki .«Allah üçün olan Allaha, camaat üçün olan isə camaata tərəf gedir

İnsanın canının şərəfi onun ruhu ilə olduğu kimi, niyyəti də əməlinin ruhudur və əməlin şərəfi də onun ruhundan asılıdır. Əməlin ruhu nədir? Əməlin ruhu onun saf və xalis

.niyyətlə yerinə yetirilməsidir

:Qur’ani-kərim belə buyurur

Halbuki onlara əmr edilmişdi ki, Allaha — dini yalnız ona məxsus edərək digər bütün» (batil dinlərdən islama dönərək — ibadət etsinlər...»(۲)

səh:۲۱۶

---

.Tövbə-۱۱۱ [۱۰۳] -۱

.Bəyyinə-۵ [۱۰۴] -۲

## ?KEYFİYYƏT, YOXSA KƏMİYYƏT

Keçən bəhsimizdən maraqlı bir nəticə əldə edilir və o da budur ki, Allahın nəzərində əməllərə dəyər verən onların kəmiyyəti deyil, keyfiyyətidir. Bu nöqtəyə diqqət etməmək camaatın bir qrupunun Allah övliyalarının həddindən artıq çox dəyərə malik olan əməllərinin ictimai tutumunu az gördükləri üçün onların barəsində əfsanələr düzəltməyə başlayıblar. Məsələn, Əmirəl-mö'minin (ə) rüku halında yoxsula verdiyi və haqqında ayə nazil olan üzük barəsində deyirlər ki, onun dəyəri Suriya və Şamın xəracı qədər olub. Onlar camaatın bu sözlərə inanması üçün onu rəvayət halına da salıblar. Onların fikrincə, sadə bir üzüyün yoxsula verilməsi ilə Qur'anın əzəmətli bir ayəsinin nazil olması çox təəccüblüdür. Bəli, onlar bu məsələyə inana bilmədikləri üçün əfsanə qoşaraq üzüyün maddi dəyərini həddindən artıq çoxaldıblar. Amma fikirləşməyiblər ki, maddi dəyəri Suriya və Şam xəracı qədər olan üzük, yoxsul və biçarə Əlinin barmağında ola bilməzdi. Əgər Əlinin əlində elə bir üzük olsaydı o, həmin üzüyü bir dilənçiyə verməzdi, onunla Mədinəni abadlaşdırar və şəhərin bütün səfillərini ağır .vəziyyətdən xilas edərdi

Əfsanə quraşdıranlar bu məsələni dərk etməyiblər ki, Allah yanında böyük əməl maddi hesablarla müəyyənləşdirilmir. Onlar belə güman ediblər ki, üzüyün çox qiymətli olması Allahı heyrətləndirib və O da ayə nazil etməklə ona öz minnətdarlığını bildirmək .istəyib

Xeyir, məsələ belə deyil. Əli (ə) və onun ailəsinin əməllərinin əhəmiyyəti bizim diqqətimizi cəlb edən maddi cəhətdən deyil. Onların əməllərinin əhəmiyyəti əməlin bizim təsəvvür edə bilməyəcəyimiz dərəcədə saf, pak və Allaha görə olmasıdır. O elə bir saflıqdır ki, mələkut aləmində əks olunaraq tə'rif və yüksək qiymətləndirmə əks-:əməli yaradıb. Şeyx Əttar Nişapurinin sözü ilə desək

Məzmunu: Onun vəsf və sənası bu dünyanı keçib və üç dənə çörəyinin vəsfi o dünyaya .çatıb

:Onların əməllərinin əhəmiyyəti Qur'anın nəql etdiyi bu nöqtədə olub

Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə...»
(bir mükafat, nə də bir təşəkkür istəyirik».(١)

Bu, onların ürəklərində olan niyyətdir ki, Allah-taala onu faş edib, yə’ni onlar həmin .fədakarlıq və güzəştlə Allahdan, Onun Özündən başqa bir şey istəmirdilər

Qur’ani-kərimin kafirlərin əməllərini ilğım kimi puç bir şey adlandırmasının səbəbi, onların əməllərinin aldadıcı zahirə malik olmasıdır ki, həmin əməllər Allaha görə deyil, .alçaq maddi hədəflər üçün yerinə yetirildiyindən mələkuti simaya malik deyil

Harun Ər-Rəşidin arvadı Zübeydə Məkkədə bir arx çəkdirib ki, o vaxtdan indiyə kimi Allah evinin zəvvarları ondan istifadə edirlər. Bu iş zahirdə çox yaxşı bir işdir. Zübeydənin himməti bu arxı Taif ilə Məkkə arasındakı daşlıqlardan, susuz Məkkə .torpaqlarına axıdıb və təqribən on iki əsrdir ki, hacılar ondan istifadə edirlər

Bu iş maddi baxımdan çox böyük bir işdir. Amma mələkuti baxımdan necə? Görəsən mələklər də bizim kimi fikirləşirlər? Onlar da gözlərini bu xeyriyyə işinin zahiri həcminə ?dikirlər

Xeyr! Onlar başqa cür hesablayırlar. Onlar ilahi me’yarlarla işin başqa cəhətlərini ölçürlər. Onlar Zübeydənin bu pulu haradan gətirməsini hesablayırlar. Zübeydə Harun Ər-rəşid adlı zalım və müsəlmanların Beytul-malı ixtiyarında olan və onu istədiyi kimi xərcləyən bir kişinin arvadı idi. Zübeydənin özünün malı yox idi və o, bu xeyir işə öz malını sərf etməyib. O, xalqın öz malını xalqın özünə sərf edib. Zübeydənin onun məqamında olan arvadlarla fərqi bu idi ki, başqaları xalqın malını öz şəhvətləri yolunda xərcləyirdilər, o isə həmin malın bir hissəsini ümumi işlərə sərf edib. Zübeydənin bu işdən məqsədi nə olub? O, adının tarixdə qalmasını istəyirmiş, yoxsa doğrudan da .Allahın razılığını nəzərdə tutubmuş? Bunu ancaq Allah bilir

Buna görə də deyirlər ki, Zübeydəni yuxuda görüb ondan «Allah səninlə çəkdirdiyin arxa görə necə rəftar etdi?» deyə soruşublar və o, cavab verib ki, Allah onun .savablarının hamısını pulların əsl sahiblərinə verdi

۱- [۱۰۵] ۹-Dəhr.

## BƏHLULUN MƏSCİDİ

Deyirlər ki, bir gün bir dəstə adam məscid tikirmiş. Bəhlul onların yanına gəlib soruşur ki, nə edirsiniz? Cavab verirlər ki, məscid tikirik. Soruşur ki, nə üçün? Deyirlər ki, necə !yə’ni nə üçün, Allahın razılığı üçün

Bəhlul məscidi tikdirənlərin niyyətlərinin saflığını onlara başa salmaq üçün gizlincə bir daş sifariş verir və deyir ki, həmin daşın üstündə «Bəhlulun məscidi» kəlməsini yazsınlar. Gecə gəlib həmin daşı məscidin əsas qapısının üstünə vurur. Məscidi tikənlər səhər gəlib görürlər ki, məscidin qapısının üstündə «Bəhlulun məscidi» kəlməsi yazılıb. Narahat olurlar və Bəhlulu tapıb döyməyə başlayırlar ki, başqalarının zəhmətini öz adına çıxırsan?! Bəhlul deyir ki, məgər siz məscidi Allaha görə tikdiyinizi demədiniz? Əgər elədirsə, camaat səhv edərək məscidi mənim tikməyimi güman etsə də, Allah .səhv etəməyəcək

Çox işlər var ki, bizim gözümüzdə çox böyük görünür, amma Allah yanında bir qara pul qədər də dəyərə malik deyildir. Böyük binalar, məscid, mə’bəd, ziyarətgah, xəstəxana, körpü, karvansara, məktəb və sairənin belə aqibətə düçar olması mümkündür. Onların .hamısının hesabı Allaha aiddir

## ALLAH VƏ AXİRƏTƏ İMAN

Dünya ilə axirətin bir-birinə nisbəti bədənin ruha, yə’ni zahirin batinə nisbəti kimidir. Dünya ilə axirət bir-birindən tamamilə ayrı olan şeylər deyildirlər. Dünya ilə axirət, başqa sözlə desək, mülklə mələkut iki səhifəsi olan vərəq və ya iki üzü olan pul kimi bir şeydir. Dünyada olan yer, mələkuti çöhrə ilə axirətdə də olacaqdır. Dünyanın cansız əşya və bitgiləri mələkuti çöhrə ilə axirətdə zahir olacaqlar. Ümumiyyətlə axirət, .dünyanın mələkuti çöhrəsidir

Hər hansı bir əməlin yaxşı mələkuti forma almasının şərti, onun Allahı nəzər almaqla və mələkut aləminə yüksəlməklə yerinə yetirilməsidir. Qiyamətə inanmayan və Allahı nəzərə almayan şəxsin əməli mələkuti çöhrəyə malik olmayacaq, başqa sözlə desək, yuxarı aləmə qalxmayacaqdır. Əməlin mələkuti çöhrəsi onun yuxarı siması, mülki çöhrəsi isə aşağıdakı simasıdır. Əməl niyyət, əqidə və iman baxımından nuranilik əldə

etməyincə uca mələkuta çatmır. Mələkuta, ruhu olan əməl çatır və əməlin ruhu onun .axirət və mələkuti nəsibidir

:Qur’ani-kərim necə də gözəl buyurub

Pak (tövhid kəlməsi zikr, həmd-səna) Ona tərəf yüksələr və pak sözü də (Allah...» (dərgahına) yaxşı əməl qaldırar...»(١)

Bu ayə iki cür təfsir edilə bilər və təfsir kitablarında onların hər ikisi qeyd edilib. Həmin təfsirlərdən biri budur ki, ləyaqətli və yaxşı rəftarı, pak söz və pak e'tiqad yuxarı aparır və mələkuti edir. Digər təfsir isə budur ki, pak söz və pak e'tiqadı layiqli və yaxşı rəftar yuxarı apararaq mələkuti edir. Hər ikisi düz olan və hər ikisinin nəzərdə tutulmasına heç bir mane olmayan bu iki təfsir, bu mətləbi bəyan edir ki, iman, əməlin qəbul edilməsində və yuxarı qalxmasında, əməl isə imanın dolğunlaşaraq dərəcəsinin yüksəlməsində tə'sirlidir. Bu, islam maarifində qəti və danılmaz prinsiplərdən biridir. Dediyimiz kimi, ayənin eyni zamanda hər iki mə'nanı verməsinin düz olmasına .baxmayaraq, biz onun ikinci təfsirinə istinad etmək istəyirik

Hər halda Allaha və qiyamət gününə imanı olmayan şəxsin əməlinin Allaha tərəf .getməsi və ali məqamda yerləşməsini güman etmək səhvdir

Əgər bizə, bir nəfərin Tehranın şimal istiqamətinə doğru səfərə çıxaraq bir neçə gün öz yolunu davam etdirməsini desələr, biz həmin şəxsin Qum, İsfahan və Şiraza çatmasını təsəvvür edə bilmərik. Biz belə ehtimal verən şəxsə gülər və əgər o, həmin şəhərlərə çatmaq istəyirdisə, Tehranın cənub yolu ilə hərəkət edərək səfərini davam .etdirməli idi, deyərik

.Türküstana tərəf hərəkət edən şəxsin Kə'bəyə çatması qeyri-mümkündür

Cənnətlə cəhənnəm insanın mə'nəvi seyrlərdir. O dünyada hər kəs özünü öz hədəfinin sonunda görəcək, biri aşağıda, digəri isə yuxarıda, biri lap ali və yüksək, digəri isə ən .aşağı məqamda olacaq

Şübhəsiz ki, yaxşı əməl və itaət sahibi olan mö'minlərin əməl dəftəri (Allahın ən müxlis bəndələrinin əməlləri yazıldığı və ya Cənnətin ən yüksək mərtəbəsi olan) «İlliyyun»dadır. Şübhəsiz ki, pis əməllərə uyanların əməl dəftəri şeytanların əməllərinin «.yazıldığı və ya Cəhənnəmin ən alt təbəqəsi olan) «Siccin»dədir

Müəyyən məqsədə doğru hərəkət etməyən və ya həmin məqsədin əksi istiqamətdə

hərəkət edən şəxsin həmin məqsədə çatması necə mümkün ola bilər? «İlliyyun»a doğru hərəkət, ona çatmaq istəyində olmaqdan sonrakı mərhələdir. İradə və istək isə bir tərəfdən mə’rifət və e’tiqad, digər tərəfdən isə imkan və təslim olmaqdan asılıdır. Belə məqsədə e’tiqadı olmayan və ya ona imkanı və təslim olmayan və habelə ona rəğbəti olmayan və ora



---

۱-[۱۰۶] ۱۰ Fatir.

çatmaq üçün kiçicik bir hərəkət etməyən şəxsin orada olmasını necə təsəvvür etmək olar? Şübhəsiz ki, hər bir yol öz məqsədində sona çatır və məqsəd Allah olmasa, o, .Allaha çata bilməz

:Qur’ani-kərim belə buyurur

Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz ne’məti orada tezliklə» verərik. Sonra isə (axirətdə) ona Cəhənnəmi məskən edərik. O, Cəhənnəmə qınanmış .və (Allahın mərhəmətindən) qovulmuş bir vəziyyətdə daxil olar

Mö’min olub axirəti istəyən və onun uğrunda çalışanların zəhməti (Allah dərgahında) (qəbul olunar».(١)

Yə’ni, təfəkkür səviyyəsi dünyadan üstün olmayan və ondan yüksək hədəfə malik olmayan şəxsin ali axirət hədəfinə çatması qeyri-mümkündür. Amma bizim Allahlıq .lütfümüz onu, istədiyi dünyəvi hədəflərdən bəhrələndirməyi tələb edir

Burada digər bir nöqtə var. Dünya təbiət və maddə, amil və səbəblər aləmidir və dünyəvi səbəblər bir-birləri ilə çarpışma və mübarizədədirlər. Bu dünyada «qəsr» də mövcuddur. Buna görə də hədəfi dünya olanın məqsədinə yüz faiz çatacağına heç bir :zəmanət yoxdur. Qur’ani-kərimin bu nöqtəni başa salmaq üçün seçdiyi ibarət budur

«.Nə qədər istəsək istədiyimiz şəxsə veririk»

Amma ruhi cəhətdən ali hədəfə malik olan, kiçik hədəflərə ürək bağlamayan, ilahi hədəf istiqamətində addımlayan və imanla irəliləyən şəxs, mütləq hədəfinə çatacaqdır, çünki Allah-taala işləri qiymətləndirəndir, Ona təqdim edilən yaxşı işi qəbul .edərək mükafatlandırandır

Burada səy və cəhd də şərt kimi qeyd edilib, çünki kiminsə addımlamadan irəliləyərək .hədəfə çatması qeyri-mümkündür

:Bunun ardınca gələn ayədə belə buyurur

Onların və bunların hər birinə Rəbbinin ne’mətindən verərik. Rəbbinin ne’məti (istər» (dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir».(٢)

Yə’ni Biz, mütləq formada feyz bəxş edənik və dünyanı fəaliyyət göstərmək imkanına malik yaratmışıq. Kim nə əksə, onu da biçəcəkdir, kim hansı hədəfə doğru irəliləsə, onu .həmin hədəfinə çatdıracağıq

səh:۲۲۱

---

.İsra ۱۸-۱۹ [۱۰۷] -۱

.İsra-۲۰ [۱۰۸] -۲

İslam filosofları deyirlər ki, zati cəhətdən vacib olan varlıq bütün cəhət və heysiyyətlərdən vacibdir. Buna görə də kim nə istəsə, Allah ona həmin hədəfində kömək edir. Biri dünyanı istəyəndə, Allah ona «sən azğınsan, bizim hidayətimizin əksinə hərəkət edirsən, bəs buna görə də biz sənin əməlini təsdiq eləmirik» sözlərini demir. Xeyir, belə deyil. Dünyapərəst də öz dünyatələbliyində bu səbəb, maneçilik və çarpışma dünyasının icazə verdiyi çərçivədə ilahi himayə və yardımlardan istifadə edir .və Onun sonsuz lütf və mərhəmətlərindən bəhrələnir

Başqa sözlə desək, dünya əkin, biçin və inkişaf üçün münasib yerdir. Bütün bunlar insanın əkib-becərmək üçün hansı toxumu seçməsindən və nə məhsulu əldə etmək istəməsindən asılıdır. O, hansı toxumu seçsə, münasib dünya tarlasında eyni ilə həmin .toxum yetişdiriləcəkdir

Bəli, həqiqət əhli üçün xüsusi bir himayə də var ki, o, rəhimlik rəhməti adlanır. Dünyapərəstlər bu rəhmətdən məhrumdurlar, çünki onlar onu istəmirlər. Amma Allahın həmin rəhimlilik rəhməti bütün insanlar barəsində və bütün yollarda bərabər .formada mövcuddur

:Sə’dinin dili ilə desək

Məzmunu: Yer üzü onun ümumi süfrəsidir; bu süfrədə dost-düşmən ayrı-seçkiliyi .yoxdur

.Bu fəsildə edilən söhbətdən, barəsində danışdığımız məsələlərin bə’ziləri həll edilir

Biz burada fe’li yaxşılığın əməlin axirət mükafatına layiq görülməsi üçün kifayət etməməsini və bunun üçün faili yaxşılığın da lazım olmasını aydınlaşdırdıq. Fe’li yaxşılıq bədən, faili yaxşılıq isə ruh və həyat misalındadır. Həmçinin Allaha və qiyamət gününə imanın faili yaxşılıq üçün əsas və lazımı şərt olmasını və onun şərti deyil, hər bir yolun müəyyən məqsədə çatmaq üçün zati və təkvini şərtləşmə yolu ilə olmasını bəyan .etdik

Burada yalnız bir nöqtəyə işarə etmək lazımdır. Kimsə belə bir fikir irəli sürə bilər ki, faili yaxşılıq üçün iş görən şəxsin ancaq Allaha yaxınlaşmaq niyyətində olması zəruri

deyil və əgər kimsə xeyir işi vicdanla və qəlbinə hakim olan mərhəmət və rəhmət hissi ilə yerinə yetirsə, əməlin faili yaxşılıq olması üçün kifayətdir. İnsanın məqsədi «özü» olmayanda, onun işi faili yaxşılıq hesab olunur, indi məqsədi istər «Allah», istərsə də «insanlıq» olsun!

Bu nöqtə fikirləşmək tələb edən bir məsələdir. Hər halda mən insanın məqsədinin Allah və ya insanlıq olmasının digərlərindən fərqli olmamasını təsdiq etmirəm və indi bu barədə dərin bəhsə də girişə bilmərəm. Amma

eyni halda bu məsələyə də çox inanıram ki, xalqa xidmət və insanlıq üçün yerinə yetirilən əməl, insanın yalnız özünü düşünərək etdiyi əməllə bir sırada durmur. Əlbəttə, Allah-taala belə insanları mükafatsız qoymayacaqdır. Bə’zi hədislərdə deyilir ki, Hatəm kimi müşrik olmuş şəxslər, müşrik olmalarına baxmayaraq, dünyada gördükləri xeyirli işlərə görə əzaba düçar olmayacaqlar və ya onlara verilən əzab .yüngülləşdiriləcək

Əlimizdə olan çoxlu hədislərdən belə bir nəticəyə gəlmək olar. Misal olaraq aşağıdakı :rəvayətlərə nəzər salmaq kifayətdir

Əllamə Məclisi Şeyx Səduqun «Səvabul-ə’mal» kitabından, Əli ibni Yəqtindən və o da .١ :imam Musa Kazimdən (ə) o həzrətin belə buyurduğunu nəql edib

Bəni İsraildə mö’min bir kişinin kafir bir qonşusu var idi. Həmin kafir şəxs həmişə öz» mö’min qonşusu ilə xoş və mehriban davranırdı. O, öləndə Allah ona cəhənnəm odunun ona yetişməsinə mane olmaq üçün gildən bir ev tikdi və onun ruzisi onun ətrafında olan alov mühitindən kənardan gəlirdi. Ona dedilər: Bu sənin mö’min (qonşunla xoş və mehriban rəftarına görədir.»(١

Mərhum Məclisi bu rəvayəti nəql etdikdən sonra belə deyir: Bu rəvayət və buna bənzər digər rəvayətlər cəhənnəm əhli olan bə’zi kafirlərdən yaxşı əməllərinə görə əzabın götürüləcəyinə dəlildir və kafirlərin əzablarının yüngülləşdirilməyəcəyini .bildirən ayələr bu cür xeyir işlər görməyən kafirlərə aiddir

:O, həmçinin imam Məhəmməd Baqirdən (ə) nəql edir .٢

Zalım bir şahın hakim olduğu ölkədə mö’min bir şəxs yaşayırdı. Həmin zalım şah bir» gün həmin mö’minə zülm etmək fikrinə düşdü və mö’min müsəlman olmayan ölkələrdən birinə qaçaraq müşrik bir şəxsin yanına getdi. Həmin müşrik öz yanında bu mö’minə yer verərək ona qulluq etdi. Həmin şəxs ölən kimi ona belə xitab edildi: İzzət və Cəlalıma and olsun ki, əgər cənnətdə müşrikə yer olsaydı, sənə orada yer «.verərdim; ey atəş! onu qorxut amma ona ziyan vurma

İmam bu mətləbi deyəndən sonra buyurdu ki, hər səhər və axşam həmin şəxsə

yerləşdiyi mühitin xaricindən ruzi gətirilir. O həzrətdən soruşdular: Cənnətdən? İmam cavabında dedi ki, Allahın Özü istədiyi yerdən.(۲)



---

۱- [۱۰۹] Biharul-ənvar; ۳-cü cild; səh. ۳۷۷..

۲- [۱۱۰] Əvvəlki mənbə, səh ۳۸۲.

Peyğəmbər (s) cahillik dövrünün məşhur kafirlərindən və Qureyş qəbiləsinin .٣ :başçılarından olmuş Abdullah ibni Cəd’an barəsində belə buyurub

Cəhənnəmin ən yüngül əzablısı Abdullah ibni Cəd’andır.» O həzrətdən bunun səbəbini» (soruşurlar. Cavabında buyurur: «Çünki o, camaatın qarnını doyuzdururdu.»(١)

:O həzrət həmçinin cahillik dövrünün bir neçə nəfəri barəsində belə buyurub

Hacıları qovan Qəba və həsa sahibini və həmçinin pişiyi bağlayaraq ona nə özü yemək» verən və nə də onu özü bir şey əldə etməsi üçün buraxan arvadı atəşdə gördüm və cənnətə daxil oldum və orada iti susuzluqdan qurtararaq doyuzduran kişini gördüm. (.(Əvvəlki mənbə və səhifə

Bütün zamanlarda az-çox tapılan bu cür insanlar barəsində bunu demək olar ki, .onların əzabı ən azı yüngülləşdiriləcək və ya tamamilə götürüləcəkdir

Məncə başqa insanlara və hətta insan və ya heyvanlığından asılı olmayaraq, hər hansı bir varlığa təmənnasız yardımlar edən və hətta vicdanının dərinliklərində belə, gördüyü işi özünü həmin məhrumun yerində təsəvvür etməsi və özünün də nə vaxtsa belə bir taleyə giriftar olmasını fikirləşməsindən yaranan qorxu hissinin təhriki ilə deyil, xidmət və yaxşılıq şövqündən heç bir mənfəət olmamasını, bir nəfərin belə həmin işdən xəbər tutmayacağını və heç kəsin ona «əhsən» deməyəcəyini biləndə, həmin işi yenə də edən, adət və sairə şeylərin tə’siri altına düşməyən insanların batinlərinin dərinliklərində ilahi mə’rifət və agahlıq nuru var. Onlar bu məsələni dilləri ilə inkar etsələr də, batinlərində onu iqrar edirlər və onların bu inkarları əslində Allah və həqiqi qiyamətin inkarı deyil, Allahın ya da Allaha doğru qayıdış və qiyamətin yerində .təsəvvür etdikləri xəyali bir şeyin inkarıdır

Xeyir, ədalət və yaxşılığa başqa şeyə görə deyil, yalnız onların özlərinə və xeyir, ədalət və yaxşılıq olmaları baxımından olan rəğbət zati, mütləq gözəllik olanın məhəbbətinin nişanəsidir. Buna görə də bu cür şəxslərin dildə kafir sayılmalarına baxmayaraq, həqiqət və əməldə kafirlərin içində olmamaları mümkün bir şeydir. Allah daha yaxşı .bilir

---

۱- [۱۱۱] Əvvəlki mənbə; səh. ۳۸۲.

İndi də məsələnin digər bir tərəfini araşdıraq. Görəsən təkallahlı və qiyamətə imanı ?olan və Allah yolunda iş görən qeyri-müsəlmanların vəziyyəti necə olacaq

Kitab əhli arasında elələri var ki, onlar nə İsanı və nə də Üzeyri Allahın oğlu hesab edir və nə də atəşpərəst və dualistdirlər. Onlar nə «İsa Allahın oğludur», nə «Üzeyr Allahın oğludur» və nə də «Əhrimən pisliklər allahıdır» deyirlər. Belə adamlar qiyamət gününə ?də inanırlar. Bu qism adamların aqibəti necə olacaq

Burada bizim söhbətimiz materialist və Allahı inkar edən və təbii ki, elmi məqsədləri maddiyyat çərçivəsindən kənara çıxmayan ixtiraçı alim və bəşəriyyət xidmətçilərindən getmir. Keçən söhbətimizdə bizim, onlar barəsində İslam məntiqi əsasında olan nəzərimiz mə’lum oldu. İndiki söhbətimiz dünyanın başlanğıc və sonuna imanı olan və təbii ki, əməl cərəyanında yuxarı gedə bilən və qeyri-maddi məqsədlər üçün iş görə bilən şəxslər barəsindədir. Deyirlər ki, Edison və Pastor bu cür adam olublar. Onların dindar və Allahpərəst insan olmaları da bildirilir. Belə ki, onlar dindar müsəlmanlar kimi işə Allahın razılığı üçün və ilahi niyyətlərlə başlayırlarmış. Bunlar əslində xristian olmayan xristianlardırlar, çünki onlar həqiqi xristian olsaydılar və xristianlığın mövcud əsaslarına iman bəsləsəydilər və İsanı allah hesab etsəydilər, onların təkallahlı olmaları mümkün olmazdı. Bu günki xristian alimlər bəlkə də triada e’tiqadı (üç .üqnumaya inam) xurafatına daha az inam bəsləyirlər

Bu bölmədə irəli sürülən suallara cavab vermək üçün nübüvvət və imamətə imanın nə üçün lazım olmasına nəzər salmaq lazımdır. Nübüvvət və imamət nə üçün lazımdır və ?onlar nə üçün əməlin qəbul olma şərti sayılırlar

Peyğəmbərlər və Allah övliyalarına imanın əməllərin qəbul edilməsində aid olması iki .səbəbdəndir

Həmin səbəblərdən biri onların tanınmalarının Allahın tanınmasına bağlı olmasıdır. Əslində Allah və Onun sifətlərinin tanınması Allah övliyalarını tanımayınca kamilləşmir. Başqa sözlə desək, Allahı tam surətdə tanımaq hidayət və istiqamətləndirmə .nümunələrini tanımaqdır

Digər bir səbəb isə peyğəmbər və imamların məqamlarının tanınmasının lazımlığı, onları tanımayınca kamil və düzgün həyat proqramı əldə etməyin mümkün .olmamasıdır

Bir xeyirxah müsəlmanla xeyirxah kafir arasındakı fərq budur ki, xeyirxah kafir düzgün .proqrama malik olmadığı üçün onun müvəffəqiyyət qazanma ehtimalı çox azdır

Amma müsəlman özünü hərtərəfli və düzgün proqramı olan dinə tapşırdığı üçün öz proqramını düzgün həyata keçirsə müvəffəqiyyət qazanması qətidir. Saleh əməl təkcə xalqa yaxşılıq etməkdə deyil. Bütün vacib, haram, müstəhəb və məkruhlar saleh əməl proqramına daxil olan şeylərdəndirlər. İslamdan uzaq düşdüyü üçün bu düzgün proqrama malik olmayan dindar xristian, bu proqramın böyük ne'mətlərindən məhrumdur. Çünki o, yerinə yetirilməsi qadağan edilmiş bir sıra işlər, məsələn içilməsi qadağan edilmiş şərab içir. Bildiyiniz kimi, şərab içilməsinin qadağan edilmə səbəbi onun fərdi, ictimai və ruhi ziyanlarına görədir və onu içən şəxs təbii ki, həmin ziyanlara düçar olur. həmin şəxs bu baxımdan həkimin məsləhətlərindən məhrum qalmış şəxsə bənzəyir. O, həmin məhrumluq nəticəsində öz qəlb, ciyər və sinir sisteminin vaxtından .qabaq xəstəliyə tutulması və ömrünün qısalmasına səbəb olan işlər görür

İslami proqramlarda bir sıra göstərişlər var ki, onlara əməl edilməsi ruhi və mə'nəvi təkamülə çatmağın şərtlərindəndir. Mə'lumdur ki, bir nəfər qeyri-müsəlman hər nə qədər təəssübsiz və inadsız olsa da, kamil insanlıq proqramından məhrumluğuna görə .onun üstünlüklərindən məhrum və bəhrəsiz qalacaq

Belə şəxs beş vaxt namaz, Ramazan ayının orucu və Allah evinin ziyarəti kimi böyük ibadətlərdən məhrum qalır. O, əkinçilik proqramına malik olmadan toxum əkən şəxsə bənzəyir. Bu cür proqramsız əkinçiliklə məşğul olan şəxsin əldə etdiyi məhsul heç vaxt düzgün və hərtərəfli proqram üzrə torpağı əvvəlcə şoxumlayan, münasib vaxtda toxum səpən və alaqları təmizləyən, bir sözlə lazım olan bütün texniki və elmi .hazırlıqlarla əkin əkən şəxsin məhsulu kimi olmayacaq

Müsəlman xeyirxahla qeyri-müsəlman xeyirxah arasındakı fərq barəsində belə demək olar ki, müsəlman xeyirxah dərin mə'lumatlı bir həkimin nəzarəti altında müəyyən proqrama malik olan və bütün dava- dərman və yeməklərini həkimin nəzarəti altında qəbul edən xəstəyə bənzəyir. Amma müsəlman olmayan xeyirxah şəxs isə proqrama malik olmayan və əlinə düşən dərman və yeməyi özbaşına qəbul edən xəstəyə bənzəyir. Bu xəstənin faydalı bir dərman ataraq sağalması mümkündür.

Lakin onun, ziyanlı bir dərmandan istifadə edərək həlak olmaq ehtimalı da vardır. Həmçinin ola bilər ki, faydalı bir yemək yesin, amma sonra

pərhizkarlıq

etməməsi və münasib olmayan yeməklər yeməsi səbəbindən əvvəlki faydalı yeməyin .tə’sirini də aradan aparsın

Bu bəyanla mə’lum olur ki, müsəlmanla müsəlman olmayan Allahpərəst arasındakı fərq, müsəlmanın düzgün proqrama malik Allahpərəst, qeyri-müsəlmanın isə işləri düzgün proqramla olmayan Allahpərəst olmasıdır. Başqa sözlə desək, müsəlman hidayət yolunda olan, qeyri-müsəlman isə Allahı tanımasına baxmayaraq, hidayət :yolunda olmayandır. Qur’ani-kərim bu barədə belə buyurur

(Əgər təslim olarlarsa (islamı qəbul edərlərsə), doğru yola yönəlmiş olarlar...»(١)...»

Son iki fəsildə dediklərimizin hamısından belə mə’lum oldu ki, qeyri-müsəlman şəxslərin hamısı xeyir əməllərinə görə Allah tərəfindən mükafatlandırılmaq baxımından bərabər deyildirlər. Allah və qiyamətə inamı olmayan qeyri-müsəlmanla Allah və qiyamətə imanı olan, amma nübüvvətə iman bəsləməkdən məhrum olan qeyri-müsəlman arasında çox böyük fərq vardır. Birinci dəstənin Allah dərgahında qəbul edilən iş görmək imkanı yoxdur, amma ikinci dəstə üçün bu imkan var. Bu dəstə müəyyən şərtlərlə cənnətə gedə bilər. Amma birinci dəstənin cənnətə getməsi mümkün deyil. Deyəsən İslamın birgə yaşayış prinsipi baxımından kitab əhli ilə müşrik arasında fərq qoyması, kitab əhlinə güzəştə gedərək müşrikə güzəştə getməməsi, müşriki əqidəsini tərk etməyə məcbur etməsi, kitab əhlini isə həmin işə məcbur etməməsinin fəlsəfəsi müşrik və ya Allahı inkar edən şəxsin şirk və inkarla nicat qapısını əbədi olaraq öz üzünə bağlaması və özünü maddi təbiətdən keçərək mələkut aləmi və əbədi cənnətə tərəf ucalmaqdan həmişəlik məhrum etməsi, kitab əhlinin isə naqis də olsa saleh əməl yerinə yetirmək və onun nəticəsini görmək şəraitində :yerləşməsidir. Qur’ani-kərim kitab əhlinə xitab edərək belə buyurur

Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin!...» (O kəlmə budur ki, Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı (qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!...»(٢

Qur’ani-kərim kitab əhlinə belə bir çağırış verib, amma müşriklərə heç vaxt bu şəkildə .müraciət etməyib

---

Ali-İmran-۲۰ [۱۱۲] -۱

.Ali İmran-۶۴ [۱۱۳] -۲

## ZƏRƏR–ZİYANA UĞRAMA

İmanın dəyəri barəsindəki söhbətimizə uyğun olaraq diqqət edilməsi lazım olan üçüncü məsələ, küfr və inadkarlığın mənfi dəyəridir. Yə'ni, görəsən küfr və inadkarlıq xeyir əməlin məhv olaraq tə'sirini əldən verməsinə səbəb olur və bir «bəla» kimi onu xarab edirmi? Başqa sözlə desək, görəsən insan bütün lazımı şərait və faili və fe'li yaxşılığı ilə bir yaxşı iş görsə və digər tərəfdən həqiqət, xüsusilə dinin əsaslarından olan bir həqiqət müqabilində inadkarlıq etsə, onun öz zatında xeyir, mələkuti və nurani olan, ilahi və mələkuti baxımdan naqisliyi olmayan əməli bu inadkarlıq və ya digər ruhi .azğınlıq ucbatından məhv olurmu? Burada söhbət afət və bəladan gedir

Əməl həm fe'li və həm də faili yaxşılığa, başqa sözlə desək, həm normal bədən və həm də sağlam ruha malik ola bilər və həm mülki və təbiət, həm də mələkuti cəhətdən xeyir ola bilər, amma eyni zamanda bəlaya uğraması səbəbindən mələkuti cəhətdən məhv olaraq puça çıxa bilər. Məsələn münasib yerdə əkilən və məhsul verən, amma istifadə edilməmişdən qabaq bəlaya düçar olan, çəyirtəgə və ya ildırımın məhv etdiyi .toxum kimi. Qur'ani-kərim bu zərər-ziyan və bəlaya uğramağı «hubt» adlandırır

Ziyanverici və bəlaya düçar olmaq ancaq kafirlərə məxsus deyil. Bu müsəlmanların yaxşı əməllərində də baş verə bilər. Məsələn ola bilər ki, bir mö'min müsəlman Allah yolunda və Allaha xatir bir yoxsula sədəqə versin və onun sədəqəsi Allah dərgahında qəbul edilsin, amma o, sonra minnət qoymaq və ya ona başqa cür ruhi əziyyət .verməklə həmin sədəqəni məhv edərək puça çıxarsın

:Qur'ani-kərim buyurur

Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün)» sərf edən Allaha və axirət gününə inanmayan şəxs kimi minnət qoymaq və əziyyət (verməklə puça çıxarmayın...»(١)

Xeyir əməlin afətlərindən biri həsəddir. Hədislərin birində bu barədə belə deyilir: «Alov, odunu yandıraraq aradan apardığı kimi, həsəd də insanın xeyir əməllərini udaraq «.məhv edir

Həmin afətlərdən biri «cuhud», yəni həqiqət qarşısında dayanaraq onunla mübarizə

aparmaqdır. Cuhudun mənası, insanın həqiqəti dərk etməsinə baxmayaraq, onun əleyhinə çıxmasıdır. Başqa sözlə desək, cuhud fikir və düşüncənin dəlil vasitəsi ilə təslim olması və həqiqətin əqli baxımdan



---

۱- [۱۱۴] Bəqərə ۲۶۴.

aydınlaşması, ruh və hisslərin isə eqoistlik və təkəbbürcəsinə boyun qaçıraraq təslim olmamasıdır. Küfrün ruhu, həqiqəti tanıya-tanıya onunla mübarizə apararaq onun əleyhinə çıxmaqdır. Biz təslimin dərəcələri barəsində danışanda bu hal barəsində bəzi .izahlar verdik. İndi isə afətlərə düçar olma bəhsi ilə əlaqədar məlumat verəcəyik

Əmirəl-mö'minin Əli (ə) İslamın tə'rifində belə buyurub: «İslam həqiqətə təslim .«olmaqdır

Yə'ni, şəxsi mə'nafe, təəssübkeşlik və adəti həqiqətlə üz-üzə dayananda insan özünü .həqiqətə təslim edərək ondan başqa bütün şeylərdən üz döndərməlidir

Cuhud, Əbu Cəhlin malik olduğu qərəzli kafirlik halətidir. O, Peyğəmbərin (s) öz peyğəmbərlik iddiasında düzgün olduğunu bilirdi, amma qərəzli kafirlik halətinə düçar oduğu üçün iman gətirmirdi. Bə'zən bə'zilərinin «biz cəhənnəmə getməyə hazırıq, amma bu işi görmərik» kimi ifadələr işlətdiklərini eşidirik. Bunun mə'nası odur ki, həmin iş həqiqət olsa da, onu qəbul etməyə razı deyilik. «Sərquz oftadən» «iki ayağı bir başmağa dirəmək» kimi ifadələr də həmin cuhud sifətinin nişanələrindəndir. Qur'ani-kərim bu çirkin sifətin bə'zi şəxslərdə olmasını çox ali formada təsvirə çəkib. Ənfal surəsinin ٣٢-ci ayəsində belə oxuyuruq: «Bir zaman da: Ya Allah! Əgər bu sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir «.əzab göndər!- demişdilər

Qur'an necə də qəribə bir səhnəni canlandırıb! Bir cümlə ilə bə'zi insanların ruhi ?xəstəliklərini necə də gözəl təsvir edib

Sözləri bu ayədə nəql edilmiş bu tərs insan «ilahi, əgər bu məsələ haqdırsa və Sənin tərəfindəndirsə mənim qəlbimi onu qəbul etməyə doğru yönəlt» demək əvəzinə, «ilahi, əgər haqdırsa əzab göndərərək məni məhv et», mənim sağ qalıb onu görməyə taqətim .yoxdur, deyir

Bu hətta çox kiçik məsələlərdə olsa belə, çox qorxulu bir haldır. Bizim çoxumuz, Allah eləməmiş, ona düçar ola bilərik. Məsələn ola bilər ki, dünya şöhrətli çox yüksək məqama malik bir təbib, müctəhid və ya mütəxəssis öz elmi sahəsində bir söz deyərək nəzərini bildirsin və sonra tanınmamış bir təbib və ya tələbə həmin şəxsin nəzərinə

zidd bir fikir söyləyərək qəti dəlillər gətirsin. Belə bir vəziyyətdə yüksək məqama malik olan həmin şəxs, öz ürəyində həmin gəncin sözlərini təsdiq edir, amma camaat həmin nəzərdən xəbərsiz qalır. Belə olan halda əgər həmin məşhur mütəxəssis bu tələbənin sözlərinə təslim olsa, yə’ni həqiqətə təslim olsa və öz səhvini e’tiraf etsə, doğrudan da «müsəlman» (təslim olan)-dır. Çünki İslam həqiqət müqabilində təslim olmaqdır. Deməkolar ki, o, bir növ

Quranın «...Özünü Allaha təslim edənlər» tə’birinin nümunəsidir. Belə olan şəxs çirkin cuhud sifətindən pak və uzaqdır. Amma əgər həmin tanınmamış tələbənin sözlərini inkar edərək öz heysiyyət və şöhrətini qorumaq üçün həqiqətlə mübarizə aparsa, .inadkar kafir və cuhud edəndir

Həmin təbib əgər çox insafsız olmasa sözünü yox, əməlini geri götürər. Amma əgər çox insafsız olsa, əməlini də dəyişdirməyərək həmin nüsxəni yazar, xəstəni öldürər və sonra «xəstənin sağalmasına ümid yoxdur» deyər. Yüksək məqama malik olan alimlər də bu cürdür. Bu halətin əksi də çox baş verir. «Kafi» kitabında olan bir rəvayət bu :həqiqəti aydınlaşdırır

Məhəmməd ibni Müslim deyir ki, imam Baqirin (ə) belə buyurduğunu eşitdim: «İqrar, təslim və qəbul etmə ruhunun nəticəsi olan hər bir şey iman, inadkarlıq və haqdan (boyun qaçırmanın nəticəsi olan hər bir şey isə küfrdür.»(١

Deyirlər ki, «Cəvahirul-kəlam» kitabının müəllifinin şagirdlərindən olmuş və sonralar məşhur müctəhid kimi tanınmış ayətullah Seyyid Hüseyn Kuhkəməri hər gün həmişə .olduğu kimi Nəcəf məscidlərindən birinə gələr və orada dərs keçərdi

Bildiyimiz kimi, fiqh və üsul elmlərinin xaric dərsininin tədrisi, müctəhidliyə hazırlıq kimidir və müctəhid olmaq tələbə üçün sonsuz bir məqama çatmaq deməkdir. Çünki tələbə müctəhid olmayınca heç nə sayılmır və onun rə’y və əqidəsinə e’tina edilmir. Buna görə də müctəhid olmaq ehtimalı olan tələbə həssas bir mərhələ keçir. Mərhum .Seyyid Hüseyn Kuhkəməri belə bir mərhələdə olub

O, bir gün hardansa, məsələn kiminsə görüşündən qayıdırmış. Tədrisinin vaxtına yarım saatdan artıq vaxt qalmayıbmış. Buna görə də özlüyündə fikirləşir ki, bu məhdud vaxtda evə getsə heç nə edə bilməyəcək, ona görə də həmişəki yerdə oturub şagirdləri gözləmək yaxşı olar. O, məscidə gedir və görür ki, şagirdlərindən hələ heç kəs gəlməyib, amma məscidin küncündə köhnə-külə geyinmiş bir qoca və bir neçə şagird oturub və həmin qoca şeyx onlara dərs keçir. Mərhum Kuhkəməri onun sözlərinə qulaq asır və çox maraqlı halda həmin köhnə-külə geyimli şeyxin ondan daha dəqiq dərs keçdiyini hiss edir. O, səhərisi gün bilərəkdən tez gəlir və həmin şeyxin sözlərinə qulaq asır və dünənki əqidəsinə olan inamı bir az da artır. Bu hadisəni

bir neçə gün təkrar etdikdən sonra Kuhkəməriyə tam yəqinliklə



---

۱- [۱۱۵] ۳۴۷ səh.

mə’lum olur ki, həmin şeyx ondan üstündür və özü də, şagirdləri də onun dərsindən .bəhrələnsələr daha yaxşı olar

.Bəli o, burada özünü təslimlə inad, imanla küfr və dünya ilə axirət arasında görür

Səhəri gün şagirdləri gələndən sonra onlara deyir ki, dostlar bu gün sizə yeni bir mətləb demək istəyirəm və o budur ki, kənarında bir neçə şagird oturmuş bu şeyx dərs deməyə məndən daha layiqlidir və mənim özüm də onun dərsindən bəhrələnirəm, hamımız gedib onun dərsində iştirak edək. O, həmin gündən gözlərində bir az xəstəlik olan və onda yoxsulluq nişanələri görünən həmin şeyxin şagirdləri .sırasına qoşulur

Bu köhnə-külə geyimli şeyx sonralar hacı Mürtəza Ənsari adı ilə tanınan məşhur alim .idi. O, Şuştərdən olub və «ustadul-mütəəxxirin» (müasir alimlərin ustadı) ləqəbini alıb

Şeyx həmin vaxt Məşhəd, İsfahan və Kaşan səfərindən təzə qayıdıbmış və həmin .səfərdə Kaşanda Molla Əhməd Nəraqidən çoxlu elmi azuqə əldə edibmiş

.Kimdə bu halət olsa «Özünü Allaha təslim edənlər» ayəsinin nümunələrindəndir

.Deməli, küfr və cuhud qərəzli kafirlik və inadkarlıq etməkdir

Biz sonra bu məsələni açıqlayacağıq ki, kafir Qur’an baxımından həqiqəti dərk etməsinə baxmayaraq, onun qarşısında inadkarlıq göstərdiyinə görə kafir adlandırılıb. .Elə əməlin puça çıxması və xeyir əməlin afəti də həmin halətdir

:Buna görə də Allah-taala kafirlərin əməlləri barəsində belə buyurub

Rəbbini inkar edənlərin (dünyadakı yaxşı) əməlləri fırtınalı bir gündə küləyin sovurub» «.apardığı külə bənzəyir

Biz Pastorun, mikrobun kəşf edilməsinə səbəb olan elmi araşdırmalarının Allaha görə olmasını və onun məqsədinin Allaha yaxınlaşmaq niyyəti ilə xalqa xidmət olduğunu fərz etsək, bu, onun Allah dərgahında mükafatlandırılması üçün kifayət deyil.Əgər o, cuhud və bu kimi sifətlərə malik olubsa, yə’ni məsələn öz əqidəsində təəssübkeşlik göstərirmişsə və ona «xristianlıq sənin üçün coğrafi və irsi bir dindir, sən ondan yaxşı

və kamil bir dinin olmasını araşdırmısanmı?» deyilsəydi, o da razılaşmayaraq «varsa da xristianlıqdır, yoxsa da!» cavabını verərmişsə və hətta araşdırma aparmaqla belə razılaşmasaydı, onun əməllərinin puça çıxması barəsində söz ola bilməzdi. Çünki bu fərzdə o, «qərəzli kafir»dir və bu sifət insanın bütün əməllərini məhv edir. Bu sifətə .malik olan insanın əməlləri tufan qarşısında olan kül kimidir

Biz burada Pastoru misal olaraq qeyd etdik və məqsədimiz onun, elə dediyimiz kimi olmasını demək deyil. Allah bilir. Haqqa qarşı inadkarlıq etsək həmin ümumi qanun bizə !də şamildir. İlahi, bizi küfr və inadkarlıq halətinə düçar olmaqdan qoru

Əməllərin, dediklərimizdən başqa afətləri də vardır və bəlkə onlardan biri də haqq və həqiqətin qorunmasına e'tinasızlıqdır. İnsan nəinki həqiqətin müqabilində inadkarlıq və cuhud göstərməməli, hətta ona qarşı bitərəf və e'tinasız də olmamalıdır. Bəli, insan haqq və həqiqəti müdafiə etməlidir. Kufə əhalisi imam Hüseynin (ə) haqq olmasını bilir və e'tiraf da edirdilər, amma haqqı himayə edərək onu müdafiə etməkdə səhlənkarlıq edirdilər, möhkəm dayanaraq müqavimət göstərmirdilər. Əslində haqqı himayə .etməmək əməli cuhuddur

Həzrət Zeynəb (s) kufəlilərə söylədiyi məşhur xütbəsində onları haqqın himayəsində :səhlənkarlıqda və ona qarşı zülm və cinayət törətməkdə günahlandıraraq buyurub

Ey Kufə əhli! Ey yalançı və vəfasız hoqqabazlar! Göz yaşı tökürsünüz. Sizi görüm göz » yaşlarınız heç qurumasın və nalələriniz sönməsin! Siz pambığı əyirərək sap toxuyan və «.sonra toxuduqlarını sökərək yenidən pambıq edən arvada bənzəyirsiniz

.Məğrurluq və özünü öymək də əməlin afətlərindəndir

Əməldən sonra olan riya da həsəd, məğrurluq və cuhud kimi əməli məhv edən :amillərdəndir. Hədisdə deyilir

İnsan bə'zən saleh və nurani bir iş görür və onun əməli «İlliyyun»da yer tutur, amma o,» sonralar cəmiyyət içində öz əməlini başqalarına danışır və camaata minnət qoyur. Bu həmin şəxsin əməlinin tənəzzülə uğramasına səbəb olur. Şəxs həmin əməli barəsində bir də danışır və əməl daha bir tənəzzülə uğrayır. O, bu haqda üçüncü dəfə danışanda .«əməl tamamilə aradan gedərək məhv olur və bə'zən hətta şər əmələ çevrilir

:İmam Baqir (ə) buyurub

.«Əməlin qorunması onu yerinə yetirməkdən daha çətindir»

:Ravi deyir ki, əməlin qorunmasından məqsədiniz nədir? İmam buyurur

Yə’ni insan Allaha görə camaatın gözündən uzaq bir iş görür və həmin işi onun əməl» dəftərində olduğu kimi qeyd edilir, amma o, sonra həmin əməli başqalarına danışır və nəticədə əməl dəftərində gizli əməl formasından xaric olaraq aşkar bir əməl kimi yazılır. Şəxs onu bir daha başqalarına danışır və bu vaxt əməl yaxşılıqlar siyahısından .«silinərək pis əməllər siyahısına salınır

səh:۲۳۲

## SIFIRDAN AŞAĞI

İndiyə kimi olan söhbətimiz qeyri-müsəlman şəxslərin yaxşı və müsbət əməllərinin qəbul edilib-edilməyəcəyi barəsində idi. Başqa sözlə desək, sıfırdan yuxarı, yə'ni .onların yaxşı və xeyirli əməllərinin onları yuxarı aparıb aparmayacağı barəsində idi

İndi isə sıfırdan aşağı olan əməllər, yə'ni qeyri-müsəlmanların günah və şər əməllərinin necə olacağı barəsində danışacağıq. Onların hamısı bu cəhətdən bərabərdirlərmi? Onlar arasında fərq varmı? Bundan əlavə sıfırdan aşağıda, yə'ni şər və insanı aşağı endirən əməllərdə müsəlmanla qeyri-müsəlman və həmçinin şiə ilə qeyri-şiə arasında fərq varmı? Görəsən müsəlmanlar, xüsusilə şiələr sıfırdan aşağı ?əməllər baxımından bir növ tə'minata malikdirlər, yoxsa yox

Keçən söhbətimizdən mə'lum oldu ki, Allah, insan müqəssir olduqda, yə'ni çatışmamazlıq ucbatından deyil, bilərəkdən və qəsdən günaha mürtəkib olanda əzab verir. Biz bundan əvvəlki söhbətlərimizin birində üsul alimlərinin «deyilməmiş şey üçün cəza verilməsinin qəbahəti» qanununu çıxardıqları ayəni tərcümə və təfsir etdik. İndi qeyri-müsəlmanların sıfırdan aşağıdakı vəziyyətlərini aydınlaşdırmaq, yə'ni onların mürtəkib olduqları şər və pis işlərə görə olan cəzalarını araşdırmaq üçün islam maarifi məsələlərinin digər birisi barədə danışmaq məcburiyyətindəyik və o, «qüsur» (acizlik) .və «istiz'af» (zəiflik) dir

## ACİZ VƏ MÜSTƏZƏFLƏR

İslam alimləri belə bir termin və ifadə işlədirlər ki, insanların bə'ziləri «müstəz'əf» və ya «Allaha ümid bəsləyən»dirlər. Müstəz'əfdən məqsəd, biçarə və imkansızlardır. «Allaha ümid bəsləyən»lər isə işləri yalnız Allaha qalmış adamlardır və Allah-taala onlarla hikmət və rəhmətinə uyğun olaraq rəftar edəcəkdir. Bu iki terminin hər ikisi Qur'andan .götürülüb

:Nisa surəsinin ٩٧-٩٩-ci ayələrində belə deyilir

Mələklər öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlərin içərisində qalıb hicrət» etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: Siz (hicrət zamanı) nə vəziyyətdə idiniz?. Onlar söyləyəcəklər: Biz yer üzündə zəif (aciz) kəslər idik! (Mələklər də onlara)

Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz? – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir!

Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar .müstəsnadır

«!Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edən və bağışlayandır

Birinci ayədə Allah mə’murlarının bə’zi insanlarla ölümdən sonra olan söhbəti nəql edilib. Mələklər onlardan soruşurlar ki, siz dünyada nə vəziyyətdə idiniz? Onlar üzr gətirirlər ki, biz biçarə idik, əlimiz heç kəsə və nəyə çatmırdı. Mələklər deyirlər ki, siz müstəz’əf deyilsiniz, çünki Allahın yeri geniş idi və siz oradan hicrət edərək hər cür .imkanı olan başqa bir yerə köçə bilərdiniz, bəs siz müqəssir və əzaba layiqsiniz

İkinci ayədə doğrudan da müstəz’əf olan digər bir qrup kişi, qadın və uşağın vəziyyəti barəsində danışılıb. Onlar doğrudan da əlləri heç yerə çatmayan və əllərindən bir iş .gəlməyən adamlardır

Üçüncü ayədə Kərim olan Allah ikinci qrupu bağışlayacağı barədə müjdə verərək .onları ümidvar edir

Əziz ustadım Əllamə Təbatəbai özünün «Təfsirul-mizan» kitabında bu ayənin təfsirində :belə deyir

Allah-taala dini işlərdə nadanlığı və dini işlərin yerinə yetirilməsinə mane olmağı zülm» hesab edib və Allahın əfvi həmin şəxslərə şamil olmur. Amma mühiti dəyişdirmək və ya oradan köçmək imkanına malik olmayan müstəz’əflər istisna ediliblər. İstisna elə formada qeyd edilib ki, müstəz’əfliyin yalnız bu formasına aid deyil. Belə ki, müstəz’əflik mühitin dəyişilə bilinməməsi ola bildiyi kimi, insanın zehninin həqiqəti (başa düşə bilməməsi nəticəsində həqiqətdən uzaq qalması da ola bilər».(١

Müəyyən səbəblərdən aciz qalan insanların müstəz’əf sayılmaları barəsində çoxlu rəvayətlər də vardır. (Bu barədə geniş mə’lumat əldə etmək istəyənlər Təfsirul-(.mizanın ٥-ci cildinin ٥۶-۶١-ci səhifələrinə müraciət edə bilərlər

:Tövbə surəsinin ١٠۶-cı ayəsində belə oxuyuruq

Bir qisminin də işi Allaha qalıb. Allah ya onlara əzab verəcək ya da tövbələrini qəbul ...»

«!edəcək. Allah (hər şeyi) biləndir və hikmət sahibidir

Allaha ümid bəsləyənlər» termini bu ayədən çıxarılıb. Rəvayətdə deyilir ki, imam Baqir» :(ə) bu ayə barəsində belə buyurub

İslamın ilkin çağlarında bir qrup var idi ki, onlar əvvəlcə müşrik idilər və böyük» günahlara mürtəkib olmuş, Həmzə, Cə’fər və bu kimi şəxsiyyətləri



---

.Təfsirul-mizan; ۵-ci cild; səh ۵۱ [۱۱۶] -۱

öldürmüşdülər. Onlar sonra müsəlman oldular, şirk əqidəsindən üz döndərərək tövhidə üz tutdular. Lakin onların qəlblərinə iman daxil olmadı ki, onlar mö’minlərin sıralarına daxil olsunlar və cənnətə girmək ləyaqəti əldə etsinlər, amma eyni halda onlar, əzaba düçar olmalarına səbəb ola biləcək inad və cuhuddan da əl çəkmişdilər. Onlar nə mö’min, nə inadkar və nə də kafir idilər. İşləri yalnız Allaha qalmış «Allaha «.ümid bəsləyənlər» qrupu bunlardır

:Digər bir hədisdə Həmran ibni Ə’yun deyir

İmam Sadiqdən (ə) müstəz’əf barəsində sual soruşdum. İmam buyurdu ki, onlar nə mö’min və nə də kafirlərin zümrəsinə daxil olanlardır, onlar «Allaha ümid «.bəsləyənlərdir

Allaha ümid bəsləyənlər ayəsinin məzmunundan, onlara «işləri Allaha qalmışlar» deyilməsinin daha yaxşı olmasının başa düşülməsinə baxmayaraq, müstəz’əf ayəsinin .məzmunundan ilahi əfvin ümumiliyi nəticəsi əldə edilir

Ümumi nəticə budur ki, Allah hər hansı bir formada təqsirli deyil, qüsurlu olan .insanlara əzab verməyəcək

:Kafi «kitabında Həmzə ibni Təyyardan, imam Sadiqin (ə) belə buyurduğu nəql edilib»

İnsanlar altı dəstə, nəticə baxımından isə üç dəstədirlər: İman, küfr və azğınlıq» firqələri. Bu firqələr Allahın cənnət və cəhənnəm barsindəki cəza və mükafat və’dələrindən yaranıblar. (Yə’ni insanlar bu əzab və mükafat və’dələrinə uyğun vəziyyətləri baxımından bir neçə firqəyə bölünürlər.) O altı dəstə isə mö’minlər, kafirlər, müstəz’əflər, Allaha ümid bəsləyənlər, günahlarını, yə’ni saleh əməlləri ilə .«saleh olmayan əməllərini bir-birinə qatanlar və «ə’raf» əhlindən ibarətdir

:Həmçinin Kafidə Zürarədən nəql edilib

Qardaşım Həmran və ya o biri qardaşım Bəkir ilə imam Baqirin (ə) yanına getdik. O» həzrətə dedim ki, biz camaatı şaqul ilə ölçürük. Əli övladı olub-olmamasına baxmayaraq, hər kim bizim kimi şiə olsa onunla (müsəlman və nicat əhli kimi) dostluq əlaqələri bərqərar edirik və kim əqidəmizlə müxalif olsa ondan (azğın və həlakət əhli

.kimi) uzaqlaşırıq

İmam Baqir (ə) belə buyurdu: Ey Zürarə, Allahın sözü səninkindən daha düzdür. Əgər sən deyən kimi olsa, bəs onda Allahın «Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır». kəlamı hara gedir? Bəs «Allaha ümid bəsləyənlər» və «pis və yaxşı əməllərini bir-birinə qatışdıranlar» necə olurlar? Ə’raf əhli ?nə olur?» Ürəkləri (müsəlmanlığa) isnişməkdə olanlar» kimlərdir

Həmad öz rəvayətində bu macəra barəsində Zürarədən belə nəql edir: Mən həmin vaxt imamla mübahisə etməyə başladım və hər ikimizin səsi elə ucalmışdı ki, evdən .çöldə olanlar bizim səsimizi eşidirdilər

Cəmil ibni Durrac bu hadisə barəsində Zürarədən nəql edir ki, imam belə buyurdu: Ey Zürarə, (kafir və inadkarları deyil,) yolunu azanları cənnətə aparmaq Allahın boynunda .«bir haqdır

:Həmçinin «Kafi»də imam Musa ibni Cə'fərdən (ə) nəql olunub

Əli (ə) hidayət qapılarından biridir, hər kim bu qapıdan girsə mö'min, hər kim ondan» çıxsa kafirdir. Bu qapıya nə girən və nə də çıxanlar isə «işləri Allaha qalanlardandır». .((Yə'ni orta mövqedə olanlar

İmam bu hədisdə nə iman, təslim və nicat əhli və nə də inkar və həlakət əhlindən olan .bir qrupa işarə edib

:Həmçinin «Kafi»də imam Sadiqdən (ə) nəql edilib

«.İnsanlar bilmədikləri yerdə dayanaraq inkar etməsələr kafir olmazlar»

Əgər kimsə mə'sum imamlardan (ə) nəql edilmiş və əksəriyyəti «Kafi»nin «höccət kitabı» və «iman və küfr kitabı» adlı fəsillərində qeyd edilmiş hədislərə diqqət etsə, belə bir nəticəyə gələr ki, onların əsas tə'kidləri budur ki, insanın başına nə gəlirsə o, haqla qarşılaşanda onun müqabilində təəssübkeşlik göstərərək inadkarlıq etməsindən və ya araşdırma aparmalı olduğu halda səhlənkarlıq etməsindəndir. Amma dərk və şüurun naqisliyi və ya digər səbəblərdən inkar edən və ya araşdırma aparmamaqda müqəssir sayılmayanlar, inadkar və müxalif sıralarında deyil, müstəz'əf və Allaha ümid bəsləyənlərdəndirlər. Həmçinin rəvayətlərdən belə bir nəticə əldə edilir ki, imamlar .camaatın çoxunu bu sinifdən hesab edirlərmiş

:Kafinin «höccət kitabında» belə rəvayətlər nəql edilib

Hər kəs Allaha ibadət etməklə itaət etsə və özünü çətinliyə salsa, amma Allahın ona» «.tə'yin etdiyi imama malik olmasa, əməli qəbul deyil

:Həmçinin deyilir

«.Allah-taala zəmanəsinin imamını tanımayanların əməllərini qəbul etmir»

:Eyni zamanda həmin kitabda imam Sadiqdən (ə) nəql edilib

Bizi tanıyan mö’min, inkar edən kafir, tanımayan və inkar etməyən isə hidayət yoluna» .«qayıtmayınca azğındır. Əgər o, həmin vəziyyətdə ölsə, işi Allaha qalanlardandır

:Məhəmməd ibni Müslim deyir

İmam Sadiqin (ə) yanında idim və mən, o həzrətin sol tərəfində, Zürarə isə sağ tərəfində oturmuşdu. Bu vaxt Əbu Bəsir otağa daxil oldu və

səh:۲۳۶

imamdan soruşdu: Allah barəsində şəkk edən şəxslərə qarşı nəzəriniz nədir? İmam .buyurdu: Kafirdir

Əbu Bəsir bir daha soruşdu: Allahın peyğəmbərində şəkk edən barəsində nə .deyirsiniz? İmam buyurdu: Kafirdir

İmam bu vaxt Zürarəyə tərəf baxaraq belə dedi: Həmin şəxs o vaxt kafirdir ki, inkar .«edərək inadkarlıq etsin

:Həmçinin «Kafi»də Haşim ibni Bəridin belə dediyi nəql edilib

Mən, Məhəmmd ibni Müslim və Əbul-Xəttab bir yerə toplaşmışdıq. Əbul-Xəttab dedi» ki, sizin imaməti tanımayan şəxs barəsində nəzəriniz nədir? Mən dedim ki, mənim fikrimcə həmin şəxs kafirdir. Əbul-Xəttab dedi ki, ona höccət və dəlil çatdırılmayınca o, kafir deyil. Amma əgər ona dəlil və sübutlar göstərilsə və o, onları qəbul etməsə onda kafirdir. Məhəmməd ibni Müslim dedi: Sübhanəllah, əgər imamı tanımasa, inadkarlıq və inkar etməsə necə, kafir sayıla bilər? Xeyir, əgər agah olmayan şəxs inadkar .olmasa, kafir deyil. Beləliklə hər üçümüzün bir-birinə zidd əqidələrimiz var idi

Həcc ziyarəti vaxtı çatdı və mən həcc ziyarətinə getdim. Məkkədə imam Sadiqin (ə) hüzuruna getdim. Üçümüzün arasında olan mübahisəni imama danışdım və o həzrətin nəzərini soruşdum. İmam buyurdu ki, mən sizin aranızda o vaxt hökm çıxararaq bu suala cavab verərəm ki, o iki nəfər də olsun. İmam dedi ki, bu axşam Minada orta .Cəmərənin yanı siz üç nəfərlə görüş yerimiz olsun

Axşam biz üç nəfər həmin yerə getdik. İmam sinəsinə bir balış söykəmiş halda suala .başladı

Xidmətçiləriniz, arvadlarınız və ailəniz barəsində nə deyirsiniz? Onlar Allahın birliyinə ?şəhadət verirlər

.Mən dedim: Bəli

?Peyğəmbərin peyğəmbərliyinə şəhadət verirlər

.Bəli

?Onlar da sizin kimi imamət və vilayəti tanıyırlar

.Xeyir

?Bəs sizcə onların işi necə olacaq

.Məncə imamını tanımayan kafirdir

?Sübhanəllah, sən küçə-bazar camatını, su paylayanları görməmisən

.Bəli, görmüşəm və görürəm

Onlar namaz qılmırlar? Oruc tutmurlar? Həccə getmirlər? Allahın birliyi və ?Peyğəmbərin peyğəmbərliyinə şəhadət vermirlər

.Verirlər

?Yaxşı, onlar imamı sizin kimi tanıyırlar

.Xeyr

?Bəs onların vəziyyəti necə olacaq

.Mənim əqidəmə görə imamı tanımayan kafirdir

Sübhanəllah! Sən Kə’bənin vəziyyəti və bu camaatın təvafını görmürsən? Yəmənlilərin ?Kə’bənin pərdələrinə necə yapışmalarını görmürsən

.Görürəm

Onlar tövhid və nübüvvəti iqrar edərək e’tiraf etmirlər? Namaz qılmırlar? Oruc ?tutmurlar? Həcc ziyarətini yerinə yetirmirlər

.Edirlər

?Onlar da sizin kimi imamı tanıyırlar

.Xeyir

?Sizin onlar barəsindəki əqidəniz nədir

.Mənim fikrimcə imamı tanımayan kafirdir

.Sübhanəllah, bu əqidə Xəvaricin əqidəsidir

?İmam sonra belə buyurdu: İndi istəyirsiniz həqiqəti deyim

Mərhum Feyzin dili ilə desək, imamın qəzavətinin onun əqidəsinin ziddinə olacağını :bilən Haşim dedi

.Xeyr

:İmam buyurdu

.Sizin bizdən eşitmədiyiniz şeyi öz başınızdan deməyiniz çox pisdir

Haşim sonralar başqalarına belə deyib: İmamın Məhəmməd ibni Müslimin nəzərini .təsdiq edəcəyini və bizi onun fikrinə qaytarmaq istəməsini güman etdim

Üsuli-kafidə» bu hədisdən sonra Zürarənin imam Baqirlə (ə) bu barədə olan» mübahisəsini nəql edən müfəssəl bir hədis nəql edilib. Həmin kitabın «iman və küfr» fəslinin axırında «imanla heç bir əməl ziyan gətirmir və küfrlə heç bir əməlin xeyiri .yoxdur» adlı bir fəsil var

Amma həmin ad altında nəql edilmiş rəvayətlər həmin başlığı təsdiqləmir. Aşağıdakı :rəvayət də onlardandır

Yaqub ibni Şueyb deyir ki, imam Sadiqdən (ə) soruşdum: Allah-taalanın mö'mindən .başqa, mükafat verməsi lazım olan bəndəsi də var? İmam cavabımda buyurdu: Xeyir

Bu rəvayətin məqsədi budur ki, Allah-taala ancaq mö'minləri mükafatlandıracağını və'd edib və verdiyi və'də mütləq əməl edəcək, amma Allah iman əhlindən başqasına əməl etməsi lazım olan və'də verməyib. Deməli, və'də vermədiyi üçün mükafat verib-.verməyəcəyi onun öz istəyi ilədir

İmam bu sözləri ilə başa salmaq istəyir ki, mö’mindən başqaları Allahın onlara mükafat verib–verməyəcəyi baxımından «müstəz’əflər» və «Allaha ümid bəsləyənlər» .kimidirlər. Onlara mükafat verib-verməmək Allaha qalıb

Kafinin həmin fəslində bə’zi rəvayətlər də var ki, biz «müsəlmanların günahları» başlığı .altında danışarkən onları gətirəcəyik

Əlbəttə, bu məsələ ilə əlaqədar rəvayətlər bizim burada nəql etdiklərimizlə məhdudlaşmır və bunlardan başqa bir sıra digər rəvayətlər də var. Bizim həmin rəvayətlərdən əldə etdiyimiz nəticə isə dediklərimiz idi. Əgər kimsə bundan başqa bir nəticəyə gələrək bizim nəzərimizi qəbul etmirsə, öz nəzərini dəlillə təqdim etsə biz də .qəbul edərik

## İSLAM FİLOSOFLARI BAXIMINDAN

İslam filosofları bu məsələni başqa cür bəyan ediblər. Amma əldə etdikləri nəticə bizim :ayə və rəvayətlərdən əldə etdiyimiz nəticə ilə uyğundur. Əbu Əli ibni Sina belə deyir

İnsanlar cismi sağlamlıq və bədənlərinin gözəlliyi baxımından üç qrupa bölünürlər.» Onların bir qrupu tam sağlam və ya gözəlliyin tam zirvəsində olurlar. Başqa bir qrup isə çirkinlik və ya xəstəliyin son həddində olurlar. Bu iki qrupun hər ikisi azlıq təşkil edirlər. Çoxluq təşkil edən qrup, sağlamlıq və xəstəlik, gözəllik və çirkinlik baxımından orta vəziyyətdə olanlardır. Onlar nə tam sağlam və nə də naqis yaradılmış varlıq kimi həmişə xəstə olurlar və həmçinin nə həddindən artıq gözəl və nə də həddindən artıq .çirkindirlər

İnsanlar mə’nəvi və ruhi cəhətdən də belədirlər. Bir qrup həqiqət vurğunu, bir qrup isə həqiqətin qatı düşmənidir. Üçüncü qrup əksəriyyət və ortabab olanlardır ki, nə birinci qrup kimi həqiqət vurğunu və nə də ikinci qrup kimi həqiqət düşmənidirlər. Bunlar həqiqətə çatmayan insanlardırlar. Həqiqət onlara təqdim edilsə, onlar onu qəbul «.etməkdən boyun qaçırmazlar

Başqa sözlə desək, onlar islami və fiqhi baxımdan müsəlman deyildirlər, amma həqiqət baxımından «müslim», yə’ni ona təslim olanlar və ona qarşı inadkarlıq .«göstərməyənlərdir

:Əbu Əli bu bölmədən sonra belə deyir

«!Allahın rəhmətini geniş bil və onu az saylı bir qrupa məxsus hesab etmə»

Molla Sədranın «Əsfar» kitabının xeyir-şər bəhslərində gətirdiyi iradlardan biri də :budur

Siz xeyirin şərdən çox olmasını necə deyirsiniz halbuki, kainatın ən şərəflisi olan» insana nəzər salanda görürük ki, onların əksəriyyəti əməl baxımından çirkin əməllər, e’tiqad baxımından isə batil və puç əqidə və nadanlığa düçardırlar, çirkin əməllər və puç əqidələri onların məad işlərini xarab edərək onları bədbəxtliyə layiq edib. Deməli .«varlığın meyvəsi və gülü olan insanın aqibəti bədbəxtçilikdir

:Molla Sədra bu iradın cavabında Əbu Əlinin sözlərinə işarə edərək belə deyir

Filosoflar demək istəyirlər ki, İslam dinini qəbul etməyə nail olanların az olmalarına baxmayaraq, fitri İslama malik olan insanlar və İslam ilə məhşərə gətirilənlər .əksəriyyət təşkil edir

Bu əqidə tərəfdarlarının fikrincə, Qur’anda peyğəmbərlərin, dinlərini bəyəndikləri şəxslərə şəfaət edəcəkləri barəsindəki mətləbdən məqsəd, qüsur nəticəsində çata .bilmədikləri və inadkarlıq da göstərmədikləri kəsb edilməli olan din deyil, fitri dindir

## MÜSƏLMANLARIN GÜNAHLARI

İndi isə müsəlmanların günahları barəsində danışacağıq. Bu məsələ eyni ilə birinci məsələnin (yə’ni qeyri-müsəlmanların xeyir işləri məsələsinin) əksidir və keçən bəhsin yekunu sayılır. Sual budur ki, müsəlmanların günahlarının cəzası qeyri-müsəlman ?şəxslərin cəzası kimi olacaq, yoxsa yox

Keçən bəhsimiz elmi əqidə olduğu üçün onun irəli sürülməsi zəruri idi, amma bu məsələnin irəli sürülməsi əməli bir zərurətdir. Çünki indiki əsrdə müsəlman cəmiyyətlərin tənəzzülə uğraması və məhv olmasının səbəblərindən biri, son zamanlarda müsəlmanların bir qrupunda, xüsusilə şiələrin əksəriyyətində yaranmış .yersiz qürurdur

Əgər onlardan «şiə olmayanların yaxşı əməlləri Allah dərgahında qəbul ediləcək?» deyə soruşulsa, onların çoxu «yox» cavabını verəcəklər. Onlardan «şiələrin pis və günah işlərinin hökmü nədir?» deyə soruşulanda

.isə onlar «şiələrin bütün pis və günah işləri bağışlanacaq» deyə cavab verirlər

Bu iki cümlədən belə mə’lum olur ki, dəyəri olmayan yeganə şey əməldir. Onun nə mənfi və nə də müsbət bir dəyəri var. Səadət və xoşbəxtliyin yeganə lazımı və zəruri .şərti, insanın öz adını şiə qoymasıdır

:Bu qrup adamlar adətən belə dəlil gətirirlər

Əgər bizimlə başqalarının günahları bir cür nəzərə alınaraq hesablanacaqsa, bəs .۱
?onda şiə ilə qeyri-şiə arasında nə fərq var

Belə məşhur bir rəvayət var: «Əlinin (ə) məhəbbəti elə bir gözəllikdir ki, onun olması .۲
«.ilə insana heç bir günahı zərər gətirməz

Onların birinci dəlillərinin cavabında demək lazımdır ki, şiə ilə qeyri-şiə arasındakı fərq, şiə öz rəhbərlərinin verdiyi proqramlara, qeyri-şiə də öz dini proqramlarına əməl edəndə mə’lum olur. Bəli, onda həm dünya və həm də axirətdə şiənin başqalarından üstün olması aydınlaşır. Fərqi mənfi deyil, müsbət cəhətlərdə axtarmaq lazımdır. «Şiə ilə qeyri-şiə, dini poqramlarını ayaq altına qoyanda fərqə malik olmalıdırlar və onlar .arasında fərq olmasa, bəs şiə ilə qeyri-şiə arasında nə fərq var?» demək lazım deyil

Bu eynilə iki xəstənin həkimə müraciət etməsi kimidir. Həmin xəstələrdən biri dərin mə’lumatlı həkimə, digəri isə səthi mə’lumatlı həkimə müraciət edir, amma həkimdən nüsxə alandan sonra onların heç biri ona əməl etmirlər. Sonra birinci xəstə gileylənir ki, bəs mənimlə dərin mə’lumatı olmayan həkimə müraciət edən xəstə arasında nə fərq var? Nə üçün mən də onun kimi xəstə qalmalıyam, halbuki mən dərin mə’lumatlı !?həkimə, o isə səthi mə’lumatlı həkimə müraciət edib

İndi bizim də Əli (ə) ilə başqalarının fərqini biz o həzrətin göstərişlərinə əməl etməyəndə ziyan görməyəcəyimizdə, onların isə öz rəhbərlərinin sözlərinə əməl !etsələr də, etməsələr də ziyan görəcəklərində görməyimiz düz deyil

İmam Sadiqin (ə) səhabələrindən biri o həzrətə deyir ki, sizin şiələrinizdən bə’ziləri yollarından çıxıblar və haramları halal sayaraq deyirlər ki, əsas məsələ ancaq imamı tanımaqdır, imamı tanıdınsa istədiyin işi görə bilərsən. İmam Sadiq (ə) onun cavabında

:belə buyurur

İnna lillah və inna iləyhi raciun! Bu kafirlər bilmədikləri şeyi öz ağılları ilə yozurlar.»
Söhbət bundan gedir ki, imamı tanı və sonra itaət olunası

əməllərdən nə istəyirsənsə et, Allah qəbul edəcək, çünki Allah-taala agahlıqla olmayan (əməli qəbul etmir.»(١)

Məhəmməd ibni Marid imam Sadiqdən (ə) soruşur ki, siz doğrudan da «İmamı ?tanıyandan sonra istədiyini et» cümləsini demisiniz

.İmam deyir ki, bəli demişəm

!?Məhəmməd ibni Marid deyir ki, hər əməl hətta zina, oğurluq və içki içmək

İmam buyurur: «Biz Allahın bəndələriyik və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq. Allaha and olsun ki, bizim barəmizdə insafsızlıq ediblər. Biz öz əməllərimizə məs'uliyyət daşıyırıq, bizim şiələrimizin məs'uliyyətlərinin götürülməsi necə mümkündür? Mən demişəm ki, imamı tanıyan kimi istədiyin qədər xeyir iş gör, .«qəbul olacaq

Əlinin(ə) məhəbbəti elə bir gözəllikdir ki, onun olması ilə insana heç bir günahı zərər» gətirməz.» hədisinə gəldikdə isə, onun təfsirinin nə olmasını araşdırmaq lazımdır. Böyük alimlərdən biri - deyəsən Vəhid Behbəhani - bu hədisi xüsusi bir tərzdə təfsir edib. O, buyurub ki, hədisin mə'nası budur ki, əgər Əlinin (ə) məhəbbəti düzgün məhəbbət olsa, günah insana heç vaxt zərər gətirməz, yə'ni insanlıq, ibadət, itaət və əxlaqın kamil nümunəsi olan Əlinin məhəbbəti, yalançı və qondarma deyil, həqiqi məhəbbət olsa insanın günah etməsinə mane olar. Bu məhəbbət mühafizə yaradaraq xəstəliyin insana yol tapmasına mane olan peyvənd kimidir. Əməl, təqva və pərhizkarlıq simvolu olan Əli kimi rəhbərin məhəbbəti, adamı onun rəftarının vurğunu edir, günah fikrini onun başından çıxardır. Əlbəttə bunların hamısı məhəbbətin həqiqi olması şərti ilədir. Əlini (ə) - onun təqvasını, ah-nalələrini, gecə yarısı olan nalələrini dərk edən, ona məhəbbət bəsləyən şəxsin həmişə təqva və əmələ sifariş edən Əlinin (ə) göstərişlərinə zidd işlər görməsi qeyri-mümkündür. Hər bir aşiq öz sevgilisinin istəklərinə hörmət bəsləyir və onun göstərişlərini əziz tutur. Sevgiliyə tabe olaraq onun göstərişlərinə əməl etmək düzgün məhəbbətin zərurətlərindəndir. Bu təkcə Əliyə (ə) aid deyil və Peyğəmbərə (s) olan düzgün və həqiqi məhəbbət də belədir. Deməli «Əlinin (ə) məhəbbəti elə bir gözəllikdir ki, onun olması ilə insana heç bir günah zərər gətirmir» hədisinin mə'nası budur ki, Əlinin məhəbbəti günahın insana zərər

vurmasına mane olur, yə’ni günahın insana yol tapmasına mane olur. Bəli



---

.Müstədrəkul-vəsail; ۱-ci cild; səh. ۲۴ [۱۱۷] -۱

həmin hədisin mə’nası nadanların güman etdikləri şey, yə’ni Əli məhəbbətinin hər bir .günahı tə’sirsiz edən bir şey olması deyil

Bə’zi dərvişlər bir tərəfdən Allahın dostu olmalarını iddia edir, digər tərəfdən isə bütün .günahkarlardan çox günah edirlər. Onlar da yalançı iddiaçılardırlar

İmam Sadiq (ə) buyurub: «Allah məhəbbəti iddiası ilə Ona asi olursan; Canıma and olsun ki, bu çox təəccüblü işlərdəndir; əgər sənin məhəbbətin həqiqi məhəbbət olsaydı .«ona itaət edərdin; çünki hər bir dostun öz dostuna tabe olması təbiidir

Əmirəl-mö’minin (ə) həqiqi dostları həmişə günahlardan uzaqlaşıblar. O həzrətin .vilayəti günaha təşviq və sövq edən deyil, günahdan saxlayan bir amildir

:İmam Baqir (ə) buyurub

Bizim vilayətimizə yaxşı əməl və günahdan çəkinməkdən başqa heç bir şey ilə çatmaq» .«mümkün deyil

.İndi də bu mətləbi təsdiq edən bir neçə rəvayətə nəzər salaq

:Tavus Yəmani deyir .١

Mən Əli ibni Hüseyni axşamdan səhərə kimi Allah evinin başına təvaf edən və ibadətlə məşğul olan halda gördüm. O, ətraf sakitləşən kimi heç kəsin olmadığını görüb göyə baxaraq belə dedi: «İlahi, ulduzlar göydən yoxa çıxdılar, camaatın gözü yuxuya getdi «...və Sənin qapıların dua edənlərin üzünə açıqdır

Tavus o həzrətin bu barədəki təvazökar və abidanə olan dualarından çoxlu cümlələr nəql edərək belə deyir: O həzrət münacatının ortasında bir neçə dəfə ağladı və sonra torpağın üstünə düşdü və səcdə etdi. Mən onun yanına gedib başını dizimin üstünə qoyub ağladım. Gözlərimdən yaş axdı və damcılar o həzrətin üzünə düşdü. O ayağa durub oturdu və məndən soruşdu ki, sən kimsən ki, məni Allahla danışmaqdan ayırdın? Dedim ki, mən Tavusam, ey Peyğəmbərin oğlu! Bu nalə və ağlamaqlar nə üçündür? Biz belə etməliyik, çünki, günahkar və cəfakarıq? Sənin atan Hüseyn ibni Əli (ə), anan Fatimeyi-Zəhra, baban isə Allahın Peyğəmbəridir. (Yə’ni belə şərəfli əsil-nəcabətə

malik ola-ola sən nədən qorxursan?) O həzrət mənə baxıb belə dedi: «Xeyir, xeyir, ey Tavus! Əsil-nəcabət məsələsini kənara qoy. Allah cənnəti itaətkar və xeyirxah olanlar üçün yaradıb, o, hətta qara qul olsa belə ! Atəşi isə Onun fərmanından çıxan üçün yaradıb, hətta Qureyşin şahzadələrindən olsa belə! Məgər Allahın bu sözünü eşitməmisən ki, buyurub: «Sur çalınanda əsil-nəsəblər aradan gedir və bir-birlərindən

heç nə soruşmurlar. Allaha and olsun ki, bu gün göndərdiyin əməldən başqa sənə heç nə xeyir verməyəcək».

٢. İslam Peyğəmbəri (s) Məkkənin fəthindən sonra Səfa dağının başına çıxaraq belə fəryad etdi: Ey haşim oğulları! Ey Əbdul-Müttəlib oğulları! Haşim və Əbdul-Müttəlib övladları toplaşdılar. Onlar hamısı toplaşandan sonra o həzrət onlara xitab edərək belə buyurdu:

«Mən Allahın sizə göndərdiyi elçisiyəm, mənim sizə ürəyim yanır. Məhəmməd bizdəndir - deməyin, Allaha and olsun ki, sizin və sizdən başqalarının arasından yalnız pərhizkarlar mənim dostlarımdırlar. Məbada qiyamət günü siz çiyninizdə dünyanı daşıdığınız, başqaları isə axirəti daşıdıqları halda gələsiniz. Mən özümlə siz və sizinlə Allah arasında heç bir üzr yeri qoymadım. Bizim hər birimiz üçün yalnız öz əməlimiz qalacaqdır».

٣. Tarix kitablarında yazılıb ki, əziz İslam Peyğəmbəri ömrünün son günlərində, bir gecə təkcə çölə çıxaraq Bəqi qəbristanlığına gedir və Allahdan orada yatanların günahlarının bağışlanmasını istəyir. Sonra səhabələrinə belə deyir: Cəbrail Qur’anı mənə hər il bir dəfə gətirərdi, bu il isə iki dəfə gətirib, məncə bunun səbəbi ölümümün yaxınlaşmasıdır. Səhəri gün minbərə çıxaraq ölümünün yaxınlaşmasını e’lan etdi və dedi ki, kimə nə və’d vermişəmsə gəlsin yerinə yetirim və kimə borcluyamsa gəlsin borcunu qaytarım.

Sonra sözünü belə davam etdirdi:

«Ey camaat! Allahla heç kəs arasında əməldən başqa heç bir qohumluq əlaqəsi və ya digər bir bağlılıq yoxdur ki, Allah ona görə həmin adama xeyir yetirsin və ya ondan şəri uzaqlaşdırsın. Heç kəs əməldən başqa bir şeyin ona xeyir gətirəcəyini iddia etməsin, arzulamasın və güman etməsin. Məni peyğəmbərliyə göndərən Allaha and olsun ki, əməllə Allahın rəhmətindən başqa heç nə insana nicat verməyəcək. Əgər mən də günah etsəydim süqut edərdim. İlahi! Öz vəzifəmi yerinə yetirdiyimə şahid ol».

٤. Həzrət Əli ibni Musa Rzanın (ə) Zeydunnar adlı bir qardaşı olub. İmam bu qardaşının rəftarından elə də razı deyildi. İmam Mərvdə olanda bir gün çoxlu adamın iştirak etdiyi

bir məclisdə söhbət edirdi. Zeyd də həmin məclisdə idi. O həzrət söhbət əsnasında onun bir dəstəyə üz tutub peyğəmbər nəslinin məqamından dəm vurmasını və qürurla «biz belə etdik, biz elə etdik» söyləməsini eşitdi. İmam söhbətini yarımçıq kəsib Zeydə üz tutaraq belə dedi: «Bu nə sözlərdir danışırsan? Əgər sənin sözlərin düz olsa və peyğəmbər övladları istisnai şəraitə malik olsalar, Allah onların pis iş görənlərinə əzab verməyərək onlara mükafat versə, onda sən Allah yanında

atan Musa ibni Cə’fərdən (ə) daha əzizsən? Çünki o, Allaha bəndəlik etməklə Ona yaxınlıq məqamına nail olub, amma sən güman edirsən ki, Allaha bəndəlik etmədən «!Musa ibni Cə’fərin məqamına çata bilərsən

İmam sonra Kufə alimlərindən olan və həmin məclisdə iştirak edən Həsən ibni Musa Vəşşaya üz tutaraq belə buyurdu: Kufə alimləri «Qalə ya nuhu...» ayəsini necə qiraət ?edirlər

O dedi: Onlar bu ayəni «İnnəhu əməlun ğəyru salihin» şəklində oxuyurlar. (Yə’ni o, sənin (.oğlun deyil, sənin nütfəndən deyil, o zinakar bir kişinin oğludur

İmam buyurdu: Xeyr, belə deyildir, onlar ayəni səhv oxuyur və yanlış də təfsir edirlər. Ayə belədir: (İnnəhu əməlu ğəyri salihin» Yə’ni sənin övladın özü nasaleh adamdır. O, doğrudan da Nuhun (ə) oğlu idi. Onun Allah dərgahından qovularaq boğulmasının səbəbi, özünün nasaleh olmasıdır. Deməli, peyğəmbər və ya imamın oğlu olmaq və ya .onlara bağlılığın heç bir xeyiri yoxdur, bunun üçün saleh əməl lazımdır

## TƏKVİNİ VƏ ŞƏRTİ ŞƏRTLƏR

İnsanlar adətən yaradılış, cəza, mükafat, xoşbəxtlik və bədbəxtliklər barəsindəki ilahi qanunları bəşəriyyətin ictimai qanunları ilə müqayisə edirlər. Halbuki bu işlər təkvini və həqiqi şəraitə tabedirlər. Amma ictimai qanun və şəraitlər şərti və e’tibari qanunlara tabedirlər. İctimai qanunlar şərti şəraitlərə tabe ola bilərlər, amma yaradılış qanunları, o cümlədən ilahi cəza və ya mükafatlandırma həmin şəraitə tabe ola bilməz və onlar təkvini şəraitə tabedirlər. Təkvini və şərti sistemlərin fərqini aydınlaşdırmaq üçün bir .misal gətirirəm

Bildiyimiz kimi, hər bir ölkə ictimai sistem və quruluşlarda özünə məxsus qanunlara malikdir. İctimai qanunlar bə’zi məsələlərdə təbii və təkvini şərait baxımından bir-biri ilə bərabər, şərti şərait baxımından isə fərqli, məsələn biri bir ölkədən, digəri isə başqa .ölkədən olan iki nəfər arasında fərq qoyur

Məsələn, İranda bir nəfəri rəsmi surətdə işə götürmək istəyəndə təkvini cəhətdən bərabər olan müraciətçilərin biri iranlı, digəri isə əfqanıstanlı olsa, ola bilər ki, iranlını işə götürsünlər, amma əfqanıstanlını isə bu ölkə vətəndaşı olmadığı üçün işə

götürməsinlər. Belə olan halda əgər əfqanıstanlı e’tiraz edərək işə götürülən iranlı ilə təbii şərait baxımından tamamilə bərabər olmasını desə, məsələn desə ki, əgər o sağlamdırsa mən də sağlamam, əgər gəncdirsə mən də gəncəm, əgər filan sahədə mütəxəssisdirsə mən də mütəxəssisəm və sairə, ona idarə qanunlarının onu işə .götürmək icazəsi verməməsini deyəcəklər

Şərti bir iş ilə həmin əfqanıstanlının da vəziyyəti dəyişə bilər və o da başqaları kimi olar, yə’ni o, müraciət edərək İran vətəndaşlığını qəbul edə bilər Vətəndaşlığı qəbul etməyin onun həqiqi şəxsiyyətində heç bir tə’sir göstərməməsi aydın bir məsələdir. Amma ictimai qanunlar baxımından onun şəxsiyyəti dəyişir. Adətən şərti şəraitin nəzərə alınması, həqiqi və təkvini şəraitdəki bərabərliklərin riayət edilməməsi ilə birgə .olur

Amma ictimai və şərti qanunlara tabe olmayan və ancaq təkvini şəraitə tabe olan .məsələlərdə iş başqa cürdür

Məsələn İrana, Allah eləməmiş, vəba xəstəliyi gələndə bu ölkə vətəndaşı ilə başqaları arasında fərq qoymur. Əgər iranlı ilə əfqanıstanlı cismi və mühit baxımından bərabər şəraitdə olsalar mikrobun ayrı-seçkilik salması və «əfqanıstanlı iranlı olmadığı üçün onunla işim yoxdur» deməsi qeyri-mümkündür. Burada məsələ ictimai və şərti deyil, xilqət və təbiət məsələsidir, qanunvericilik və qanun düzəltmək deyil, təkvin .məsələsidir

İlahi qanunlar, insanların cəza və mükafatlandırılmaları, bədbəxtlik və xoşbəxtlikləri baxımından həqiqi və təkvini şəraitə tabedir. Məsələn, biri «mənim adım müsəlman .olduğu üçün üstünlüyə malik olmalıyam» deyərək iddia edəndə onun sözünə baxılmır

Məsləni qarışdırmayın, söhbət İslamın müsəlmanların ictimai həyatları üçün müəyyənləşdirdiyi qanunlardan deyil, cəza və mükafatla bağlı məsələlərdə Allahın .bəndələri ilə rəftarından gedir

İslamın ictimai qanunlarının da, dünyanın ictimai qanunları kimi bir sıra şəraitləri nəzərdə tutaraq müəyyənləşdirilmiş şərti qanunlar olmasında və insanların, dünyəvi həyatlarına aid olan bu qanunları bir sıra şərti şəraitlərə riayət etmələrinin .gərəkliyində heç bir şübhə yoxdur

Amma Allahın işi və ilahi iradənin yaradılışdakı cərəyanı, o cümlədən insanlara səadət bəxş etmək, onları bədbəxtliyə çəkmək və cəza vermək, yaxud mükafatlandırmaq ictimai qanunlara tabe deyil. Ümumiyyətlə həmin məsələ bu qismə daxil deyil Allahın müqəddəs zatı mütləq iradəsinin cərəyanında şərti qanunlar əsasında hərəkət etmir.

İctimai sistemlərdə yetərli tə’siri olan şərti qanunların, Allah-taalanın müqəddəs .zatının təkvini iradəsinin cəryanında heç bir tə’siri yoxdur

İslamın bəşəriyyətin ictimai rəftar və davranışlarına aid olan qanunlarına əsasən, dilinə şəhadət kəlməsini gətirən şəxs müsəlman sayılır və o, İslamın zahiri imkanlarından istifadə edir. Amma axirət qanunları və o biri dünya hesabında, Allahın rəftarı baxımından «Kim ardımca gəlsə, o, şübhəsiz

səh:۲۴۶

ki, məndəndir»(١) və «Allah yanında ən hörmətli olanınız Allah qarşısında ən çox təqvalı .olanınızdır»(٢) qanunu hakim olur

:Əziz İslam Peyğəmbəri (s) belə buyurub

Ey camaat, sizin hamınızın bir ata və bir Allahınız var, hamınız Adəmdən, Adəm isə» «.torpaqdan yaradılıb

Yə’ni hamının əsil-nəsəbi torpağa qayıdır, ərəbin əcəmdən heç bir üstünlüyü yoxdur .və yeganə üstünlük me’yarı təqvadır

Həqiqət axtarışı istiqamətində addımlayan Salman Farsi elə bir yerə çatmışdı ki, .«Peyğəməbr (s) onun barəsində belə buyurmuşdu: «Salman bizdən, Əhli-beytdəndir

Buna görə də şeytani vəsvəsələrin tə’siri altına düşən və ürəklərini «bizim adımız Əli ibni Əbutalibi sevənlərin adları arasındadır, hər nə olsa onun rəiyyətlərindən sayılırıq» kimi sözlərlə şad edənlər, nahaq yollarla əldə etdikləri və ya yaşadıqları müddətdə xeyir işlərə sərf etməli olduqları pulların böyük miqdarını müqəddəs məkanların idarəçilərinə verərək mələklərin əzab verməyə cürət etəməmələri fikri ilə onları övliyaların qəbirləri yaxınlığında dəfn etmələrini vəsiyyət edənlər bilməlidirlər ki, çox xam xəyaldadırlar və qəflət pərdəsi gözlərini örtüb. Onlar özlərini dözülməz ilahi əzabın içində görəndə gözlərini açacaqlar və elə həsrətə düçar olacaqlar ki, ölüm imkanı olsaydı min dəfə ölməyə razı olardılar. Bəs elə isə, bu gün nə qədər ki, gec .olmayıb qəflət yuxusundan ayılsınlar və tövbə edərək keçənlərin yerini doldursunlar

Ya Məhəmməd!) qəflətdə olanları və iman gətirməyənləri işin bitmiş olacağı (haqq- )» hesab çəkilib mö’minlərin Cənnətə, kafirlərin isə Cəhənnəmə girəcəyi) peşmançılıq günü (insanın pis əməllərinə görə peşman olacağı, lakin bu peşmançılığın heç bir fayda (verməyəcəyi qiyamət günü) ilə qorxut!»(٣

Qur’ani-kərimin ayələri və İslami rəvayətlər baxımından günahkarın hətta müsəlman olsa belə, əzaba düçar olacağı qəti bir məsələdir. Həmin sənədlərdən belə bir nəticə əldə edilir ki, əgər günahkar iman əhlidirsə ol bilsin axırda son nicat və cəhənnəmdən qurtuluşa nail olacaqdır. Amma onun bu nicatı neçə il əzabı daddıqdan sonra ola bilər.

Bir dəstə adamın günahı ölüm zamanı çəkdiyi çətinliklərdə, digər bir dəstəninki isə qəbir və



---

۱- [۱۱۸] İbrahim-۳۶.

۲- [۱۱۹] Hucurat-۱۳.

۳- [۱۲۰] Məryəm-۳۹.

bərzəx aləmində təmizlənir. Digər bir qrup isə öz cəzasını qiyamətin qorxuları və hesabın çətinliyində çəkəcək. Bir qrup isə cəhənnəmə düşəcək və illərlə əzabda qalacaq. İmam Cə’fər Sadiqdən (ə) «Onlar orada sonsuz müddətə qalacaqlar» ayəsinin .təfsirində nəql edilib ki, bu ayə atəşdən nicat tapanlar barəsindədir

İndi də ölüm zamanı verilən əzabları açıqlayan rəvayətlərdən nümunə üçün bir neçəsini gətiririk, bəlkə bizim qəflət yuxusundan oyanmağımıza səbəb ola və bizi .qarşımızda olan qorxulu və çətin mənzillərə hazırlaya

Şeyx Kuleyni həzrət imam Sadiqdən (ə) nəql edib ki, Əlinin (ə) gözü ağrıyırdı. Həzrət .۱
Peyğəmbər (s) ona baş çəkməyə gəlmişdi və Əlinin (ə) ağrıdan ah-nalə səsi ucalırdı. O həzrət soruşdu: Bu səs-küy tabsızlıqdandır, yoxsa ağrının çoxluğundan? Əmirəl-mö’minin dedi ki, ey Allahın Peyğəmbəri, mən indiyə kimi bundan şiddətli ağrı görməmişəm. Peyğəmbər həmin vaxt kafirin çətin və qorxulu olan canvermə halını nəql etdi. Əli (ə) həmin sözləri eşidən kimi durub oturdu və dedi: Ey Allahın Peyğəmbəri, həmin söhbəti bir də danış, o mənə ağrılarımı unutdurdu. Sonra belə dedi: Ey Allahın Peyğəmbəri, sizin ümmətinizdən də bu cür canı alınan olacaq? Peyğəmbər buyurdu: Bəli. Zülm edən hakim, yetim malı yeyən və yalandan şahidlik edən şəxsin canı belə .alınacaq

Şeyx Səduq «Müctəhidə əli çatmayanlara» adı ilə yazdığı kitabda nəql edib ki, .۲
Əbuzərin oğlu Zər dünyadan köçəndən sonra Əbuzər onun qəbrinin yanında dayanaraq əlini qəbrə sürtüb belə dedi: Allah rəhmət etsin. Allaha and olsun ki, sən mənə qarşı xoşrəftar idin və indi ki, mənim əlimdən çıxmısan, səndən razıyam. Allaha and olsun ki, sənin getməyindən qorxmuram, məndən heç nə əskilməyib və mən Allahdan başqa heç kəsə möhtac deyiləm. Əgər xəbərdarlıq vaxtının qorxusu olmasaydı, mən sənin yerinə getməyi arzulayardım. Amma istəyirəm ki, bir az keçənlərin yerini doldurum və o dünyaya hazırlaşım. Sənin qəmini çəkmək, mənə ayrılıq qəmini unutdurub. (Yə’ni bütün fikrim budur ki, nə edim ki, sənə daha xeyirli olsun və bu mənə səndən ayrılığın qəmini çəkmək imkanı vermir.) Allaha and olsun ki, məndən ayrıldığına görə ağlamamışam. Amma sənin halının necəliyinə və başına nələr gəlməsinə ağlamışam. Ey kaş sənin nə dediyini və sənə nə deyildiyini biləydim. İlahi! Sənin, övladımın mənim barəmdə qoyduğun haqqından keçirəm, bəs Sən də öz

haqqından keç, ki, Sən bağışlamaq və kərəm göstərməyə daha layiqsən».

۳. İmam Sadiq (ə) ata və babalarından nəql edib ki, Peyğəmbər (s) belə buyurub: Qəbir əzabı və çətinlikləri mö’minin günahlarının kəffarəsidir.

۴. Əli ibni İbrahim «onların önündə dirilib duracaqları günə qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır» ayəsi barəsində həzrət Sadiqdən (ə) nəql edib: Allaha and olsun ki, mən sizin bərzəx aləmindən başqa heç nəyiniz üçün nigaran deyiləm. İş bizə tapşırılanda biz sizi bağışlamağa daha layiqik.»

Yə'ni bərzəxdə şəfaət yoxdur və bizim şəfaətimiz ondan sonradır.

Ümumiyyətlə yalan, qeybət, töhmət, xəyanət, zülm, başqalarının malını yemək, şərab içmək, qumar oynamaq, söz gəzdirmək, söyüş söymək, namaz qılmamaq, oruc tutmamaq, həccə getməmək, cihada getməmək və sairə günahların cəzaları barəsində Qur'anda və mütəvatir rəvayətlərdə o qədər sözlər deyilib ki, saymaqla qurtarmaz. Onların heç biri kafirlərə məxsus deyil. Me'rac hədislərində Peyğəmbərin (s) «ümmətimin kişi və arvadlarının müxtəlif qruplarını əzabın müxtəlif dərəcələrində gördüm ki, onlar müxtəlif günahlarına görə əzab çəkirdilər» məzmunlu sözləri çoxdur.

## XÜLASƏ VƏ NƏTİCƏ

Bu fəsildə müsəlman və qeyri-müsəlman şəxslərin yaxşı və pis əməlləri barəsində dediklərimizdən aşağıdakı nəticələr əldə edilir:

۱. Səadət və bədbəxtliyin hər birinin öz dərəcəsi var və nə səadət əhlinin hamısı bir dərəcədədir və nə də bədbəxtlər. Bu dərəcə və fərqlər cənnət əhli barəsində «dərəcələr», cəhənnəm əhli barəsində isə «dərəkat» ifadəsi ilə işlədilir.

۲. Cənnət əhlinin hamısı elə əvvəlcədən cənnətə getməyəcəklər. Cəhənnəm əhinin də hamısı orada əbədi qalmayacaq, yə'ni onlar cəhənnəmdə həmişəlik qalmayacaqlar. Cənnət əhlinin çoxu bərzəx aləmi və ya cəhənnəmdə ağır əzab mərhələlərini keçdikdən sonra cənnətə gedəcəklər. Hər hansı bir müsəlman və ya şiə bilməlidir ki, əgər özü ilə saf bir iman aparmış olsa belə, Allah eləməmiş, dünyada fəsad, günah, zülm və cinayətlərə mürtəkib olubsa, qarşısında çox çətin bir mərəhələlər var və günahlardan bə'zilərinin təhlükəsi daha çoxdur və hətta bə'ziləri cəhənnəmdə əbədi qalmağa səbəb ola bilər.

۳. Allah və axirətə imanı olmayan şəxslər, təbii ki, əməllərinin heç birini yüksəlmək məqsədi ilə etmirlər və buna görə də onlar Allah və axirətə doğru seyr və hərəkətdə

olmurlar. Deməli, onlar Allah və axirətə doğru qalxmır və cənnətə çatmırlar, yə'ni .onlar, getməli olduqları məqsəd və hədəfə doğru getmədiklərinə görə ona çatmırlar

Allah və axirətə imanı olan, əməllərini Allaha yaxınlaşmaq məqsədi ilə yerinə yetirən .۴ və işlərində niyyətləri saf olanların əməlləri Allah

dərgahında qəbul olur və onlar müsəlman olub-olmamalarından asılı olmayaraq, .mükafat və cənnətə nail olacaqlar

Allah və axirətə imanı olan və Allaha yaxınlaşmaq məqsədi ilə xeyir işlər görən qeyri- .۵ müsəlmanlar islam ne’mətindən məhrum olduqları üçün, təbii ki, bu ilahi proqramdan bəhrələnməkdən də məhrum olurlar. Onların xeyir əməllərinin İslamın ilahi proqramları ilə uyğun gələni, məsələn müxtəlif yaxşılıqlar və Allah bəndələrinə xidmət kimi uyğun olan miqdarı qəbul edilir. Təbii ki, heç bir əsası olmayan uydurma ibadətlər qəbul edilmir və kamil proqrama əl çatmamasından yaranan bir sıra məhrumiyyətlər .də onlara şamil edilir

Qəbul edilmiş xeyir əməllər müsəlman və ya qeyri-müsəlman tərəfindən yerinə .۶ yetirilməsindən asılı olmayaraq, bir sıra afət və bəlalara malikdirlər və həmin afətlərin sonradan onları məhv edib aradan aparması mümkündür. Həmin afətlərin başında cuhud, inadkarlıq və qərəzli kafirlik durur. Buna görə də əgər qeyri-müsəlman şəxslər Allaha yaxınlaşmaq məqsədi ilə çoxlu xeyirli işlər görsələr, amma onlara İslam həqiqəti təqdim ediləndə təəssüb və inadkarlıq göstərsələr və həqiqətpərvərlik insafını kənara qoysalar, həmin xeyir əməllərin hamısı tufanın külü sovurması kimi .hədərə gedir

Müsəlmanlar və həqiqi tövhid əhli olan digərləri, əgər fəsad və günaha mürtəkib .۷ olsalar və ilahi proqrama xəyanət etsələr bərzəx aləmi və qiyamətdə uzunmüddətli əzablar çəkməli olacaqlar və hətta bilərəkdən, günahsız mö’mini öldürmək kimi bə’zi .günahlar səbəbindən həmişəlik olaraq əzabda qalacaqlar

Allah və qiyamətə imanı olmayan və bə’zən Allaha şərik qoşan şəxslərin xeyir .۸ .əməlləri əzabın yüngülləşdirilməsi və ya aradan qaldırılmasına səbəb olacaq

.Xoşbəxtlik və bədbəxtlik şərti deyil, həqiqi və təkvini şəraitə tabedir .۹

Allahın xeyir əməli qəbul etməsinə dəlalət edən ayə və rəvayətlər, təkcə əməllərin .۱۰ fe’li yaxşılığını nəzərdə tutmur. İslam baxımından əməl həm fe’li, həm də faili cəhətdən .yaxşılığa malik olanda xeyir və saleh əməl sayılır

İbni Sina və Molla Sədra kimi İslam filosoflarının fikrincə, həqiqəti e'tiraf etməyənlərin çoxu müqəssir deyil, acizdirlər. Həmin şəxslər əgər Allahı tanımayanlardan olsalar əzaba düçar olmayacaqlar, hərçənd ki, cənnətə də getməyəcəklər. Amma əgər Allahı tanısalar, məada e'tiqadları olsa və Allaha yaxınlaşmaq məqsədi ilə saf əməllər yerinə yetirsələr öz əməllərinin yaxşı mükafatlarını alacaqlar. Yalnız aciz deyil, müqəssir olan şəxslər bədbəxtlik və əzaba atılacaqlar. ١٢

İlahi, Səni Məhəmməd və Onun Əhli-beytinə and verirəm ki, bizim işlərimizin axırını xeyir və səadətli et, bizi müsəlman olduğumuz halda dünyadan apar və saleh insanlara qovuşdur Amin!

**Mündəricat**


İLAHİ ƏDALƏT ..... ٣

MÜQƏDDİMƏ ..... ٣

CƏBR VƏ İXTİYAR ..... ٧

ƏDALƏT MƏSƏLƏSİ ..... ٨

İŞLƏRİN YAXŞI VƏ PİSLİYİNİN ZATİ OLMASI ..... ٩


səh:٢٥١

ƏQLİN SƏRBƏSTLİYİ ..... ٩
İLAHİ İŞLƏRİN HƏDƏF VƏ MƏQSƏDİ ..... ١١
İXTİLAFLARIN BAŞLANĞICI ..... ١٣
ƏDALƏT, YAXUD TÖVHİD ..... ١٣
İSLAM KƏLAM ELMİNİN İSLAM FƏLSƏFƏSİNƏ TƏSİRİ ..... ١٧
ƏQLİ ŞİƏ MƏKTƏBİ ..... ١٧
FİQH ELMİ SAHƏSİNDƏ ƏDALƏT ..... ١٩
HƏDİS ƏHLİ İLƏ QİYAS ƏHLİNİN MÜBAHİSƏSİ ..... ٢٠
ŞİƏLİKDƏ FİQH ÜSLUBU ..... ٢١
İCTİMAİ-SİYASİ DAİRƏLƏRDƏ ƏDALƏT ..... ٢٢
ƏSAS QAYNAQ ..... ٢٣
BİRİNCİ FƏSİL ..... ٢٩
İNSANİ VƏ İLAHİ ƏDALƏT ..... ٢٩
YOL VƏ ÜSLUBLAR ..... ٣٣
ƏDALƏT NƏDİR? ..... ٣٧
İRADLAR ..... ٤٣
ÜSULİDİNDƏ ƏDALƏT ..... ٤٥
ƏDALƏT VƏ HİKMƏT ..... ٤٦
DUALİZM ..... ٤٧
ŞEYTAN ..... ٥٢

FƏLSƏFİ BƏDBİNLİK ............ ۵۶

NAZ YA ETİRAZ? ............ ۶۱

İKİNCİ FƏSİL ............ ۶۵

MƏSƏLƏNİN HƏLLİ ............ ۶۵

İSLAM FƏLSƏFƏSİ ............ ۶۶

YOL VƏ MƏSLƏKLƏR ............ ۶۷

AYRI-SEÇKİLİKLƏR ............ ۶۹

DÜNYANIN QURULUŞU ONUN ZATIDIRMI? ............ ۷۲

XOŞ VƏ ƏBƏDİ XATİRƏ ............ ۷۵

BURADA AYRI-SEÇKİLİKDƏN YOX, FƏRQLİLİKDƏN DANIŞMAQ LAZIMDIR! ............ ۷۷

FƏRQLƏRİN SİRRİ............ ۷۸

ŞAQULİ SİSTEM ............ ۷۹

EN DAİRƏSİ VƏ YA ÜFÜQİ SİSTEM ............ ۸۲

İLAHİ QANUN ............ ۸۵

QANUN NƏDİR? ............ ۸۷

İSTİSNALAR ............ ۸۸

QƏZA-QƏDƏR VƏ CƏBR MƏSƏLƏSİ ............ ۹۰

XÜLASƏ ............ ۹۲

ÜÇÜNCÜ FƏSİL ............ ۹۲

ŞƏRLƏR ........................................................................................................ ۹۲

ÜÇ İSTİQAMƏTLİ BƏHS ..... ۹۴
BİZİM ÜSLUBUMUZ ..... ۹۴
DUALİZM MƏSƏLƏSİ ..... ۹۵
ŞƏR YOXLUQDUR! ..... ۹۶
ŞƏR NİSBİDİR ..... ۹۹
ŞƏRLƏR – ƏDALƏT PRİNSİPİ BAXIMINDAN ..... ۱۰۴
DÖRDÜNCÜ FƏSİL ..... ۱۰۶
ŞƏRLƏRİN FAYDASI ..... ۱۰۶
FƏRQLƏNDİRMƏ PRİNSİPİ ..... ۱۰۸
ÜMUMİ QURULUŞ ..... ۱۱۰
ÇİRKİNLİK GÖZƏLLİYİN AYNASIDIR ..... ۱۱۱
CƏMİYYƏT, YOXSA FƏRD? ..... ۱۱۳
TUTUMLARIN FƏRQİ ..... ۱۱۴
BƏDBƏXTLİKLƏR XOŞBƏXTLİKLƏRİN ANASIDIR ..... ۱۱۷
ÖVLİYALAR ÜÇÜN BƏLA ..... ۱۲۱
BƏLALARIN TƏRBİYƏVİ TƏSİRİ ..... ۱۲۲
ALLAHIN TƏQDİRİNƏ RAZILIQ ..... ۱۲۴
BƏLA VƏ NEMƏT NİSBİDİR ..... ۱۲۵
ZİDDİYYƏTLƏR TOPLUMU ..... ۱۲۹
ZİDDİYYƏTİN FƏLSƏFİ ƏSASI ..... ۱۳۲

ÜMUMİ NƏTİCƏ ........ ۱۳۲
BEŞİNCİ FƏSİL ........ ۱۳۶
ÖLÜM-İTİMLƏR ........ ۱۳۶
ÖLÜM ANLAYIŞI ........ ۱۳۷
ÖLÜM QORXUSU ........ ۱۳۷
ÖLÜM NİSBİDİR ........ ۱۳۸
DÜNYA RUH ÜÇÜN ANA BƏTNİ KİMİDİR ........ ۱۳۹
DÜNYA İNSANLIQ MƏKTƏBİDİR! ........ ۱۴۰
ETİRAZIN KÖKÜ ........ ۱۴۲
ÖLÜM HƏYATIN GENİŞLƏNMƏSİDİR ........ ۱۴۴
ALTINCI FƏSİL ........ ۱۴۷
AXİRƏT CƏZALARI ........ ۱۴۷
ƏMƏLİN CƏZASI ........ ۱۴۹
İKİ DÜNYA ARASINDAKI FƏRQLƏR ........ ۱۵۰
İKİ DÜNYA ARASINDAKI ƏLAQƏ ........ ۱۵۵
ÜÇ NÖV CƏZA ........ ۱۵۷
TƏNBİH VƏ İBRƏT ........ ۱۵۷
DÜNYA CƏZALARI ........ ۱۵۹
AXİRƏT ƏZABI ........ ۱۶۱
USTADIN XATİRƏSİ ........ ۱۶۵

NƏTİCƏ ............................................................................................................ ۱۶۷

sәh:۲۵۳

YEDDİNCİ FƏSİL ........ ۱۶۹
ŞƏFAƏT ........ ۱۶۹
İRAD ........ ۱۷۱
QANUNUN ZƏİFLİYİ ........ ۱۷۲
ŞƏFAƏTİN NÖVLƏRİ ........ ۱۷۴
QANUN POZUNTUSU ........ ۱۷۵
QANUNUN QORUNMASI ........ ۱۷۶
RƏHBƏRLİK ŞƏFAƏTİ ........ ۱۷۷
BAĞIŞLANMA ŞƏFAƏTİ ........ ۱۸۰
RƏHMƏTİN CAZİBƏSİ ........ ۱۸۰
PAKLIQ PRİNSİPİ ........ ۱۸۰
SAĞLAMLIQ PRİNSİPİ ........ ۱۸۱
ÜMUMİ RƏHMƏT ........ ۱۸۱
BAĞIŞLANMA İLƏ ŞƏFAƏTİN ƏLAQƏSİ ........ ۱۸۲
ŞƏFAƏTİN ŞƏRTLƏRİ ........ ۱۸۳
ŞƏFAƏT ALLAHA MƏXSUSDUR ........ ۱۸۵
TÖVHİD VƏ TƏVƏSSÜLLƏR ........ ۱۸۶
İRADLARA CAVAB ........ ۱۸۷
SƏKKİZİNCİ FƏSİL ........ ۱۸۹
GİRİŞ ........ ۱۹۰

MÖVZUNUN ÜMUMİ CƏHƏTİ .......... ۱۹۲ .۱
İSLAMDAN BAŞQA HEÇ BİR DİN QƏBUL DEYİL .......... ۱۹۴ .۲
İMANSIZ SALEH ƏMƏL .......... ۱۹۷
İKİ TƏFƏKKÜR TƏRZİ .......... ۱۹۸
ÜÇÜNCÜ MƏNTİQ .......... ۱۹۹
DIRNAQARASI ZİYALILAR .......... ۱۹۹
İFRATÇILIQ .......... ۲۰۴
İMANIN DƏYƏRİ .......... ۲۰۷
KÜFRÜN CƏZASI .......... ۲۰۷
TƏSLİMİN DƏRƏCƏLƏRİ .......... ۲۰۷
HƏQİQİ REGİONAL İSLAM .......... ۲۱۰
SAF NİYYƏT ƏMƏLİN QƏBUL OLMA ŞƏRTİDİR .......... ۲۱۲
KEYFİYYƏT, YOXSA KƏMİYYƏT? .......... ۲۱۷
BƏHLULUN MƏSCİDİ .......... ۲۱۹
ALLAH VƏ AXİRƏTƏ İMAN .......... ۲۱۹
NÜBUVVƏT VƏ İMAMƏTƏ İMAN .......... ۲۲۵
ZƏRƏR-ZİYANA UĞRAMA .......... ۲۲۸
SIFIRDAN AŞAĞI .......... ۲۳۳
ACİZ VƏ MÜSTƏZƏFLƏR .......... ۲۳۳
İSLAM FİLOSOFLARI BAXIMINDAN .......... ۲۳۹

MÜSƏLMANLARIN GÜNAHLARI ............................................................ ۲۴۰

TƏKVİNİ VƏ ŞƏRTİ ŞƏRTLƏR ............................................................ ۲۴۵

XÜLASƏ VƏ NƏTİCƏ ............................................................ ۲۴۹

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik

:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
WWW
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109